AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

SCIENTIFIC WORK
International Scientific Journal

## TƏHSİLİN PSİXOLOJİ ASPEKTLƏRİ VƏ İNNOVATİV YANAŞMALAR

## BEYNƏLXALQ ELMİ KONFRANS

## PSYCHOLOGICAL ASPECTS OF EDUCATION AND INNOVATIVE APPROACHES

## INTERNATIONAL SCIENTIFIC CONFERENCE

# ELMİ İŞ
**Beynəlxalq Elmi Jurnal**

---

## BEYNƏLXALQ ELMİ KONFRANS

## TƏHSİLİN PSİXOLOJİ ASPEKTLƏRİ VƏ İNNOVATİV YANAŞMALAR

https://doi.org/10.36719/BK/XB/2025

*Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və Psixologiya kafedrası ilə Aərbaycan Elm Mərkəzinin birgə təşkil etdiyi Beynəlxalq Elmi Konfransı*

# SCIENTIFIC WORK
**International Scientific Journal**

---

## INTERNATIONAL SCIENTIFIC CONFERENCE

## PSYCHOLOGICAL ASPECTS OF EDUCATION AND INNOVATIVE APPROACHES

*International Scientific Conference jointly organized by the Department of Pedagogy and Psychology of Nakhchivan Teachers' Institute and the Azerbaijan Science Center*

**30 dekabr 2025**

# Beynəlxalq indekslər / International Indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

©Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© beyn.konfrans@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

### Sədr

**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan

### Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK,** Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Sevinc VƏLİYEVA,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan

### Məsul katib

**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV,** Bakı Dövlət Universiteti / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Anar İSGƏNDƏROV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Sədaqət HƏSƏNOVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA,** Torun Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vaqif ABBASOV,** ARETN Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Georgi DUKA,** Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Əliəddin ABBASOV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ulduz HƏŞİMOVA,** ARETN Fiziologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. İsmayıl ƏLİYEV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO,** İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya

**Prof. Dr. İrina KREYDİÇ,** Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Rajeş KUMAR,** Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Bahadur QƏLƏNDƏROV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Rafiq ÇOBANOV,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehdi BAĞIROV,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN,** Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO,** Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Sevinc SADIQOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Oruc HÜSEYNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ,** Bakı Dövlət Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Intigam JABRAYILOV,** Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan

### Deputy chairmen

**Researcher Mubariz HUSEYINOV,** Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK,** Ankara Yıldırım Beyazıt University / Turkey
**Assoc. Prof. Dr. Sevinj VALIYEVA**, Nakhchivan Teachers Institute / Azerbaijan

### Executive secretary

**Assoc. Prof. Dr. Rafael HASANOV,** Baku State University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Anar ISGANDAROV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Sadaqat HASANOVA,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA,** Nicolaus Copernicus University in Torun / Poland
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y. H. Mammadaliyev, ARETN / Azerbaijan
**Prof. Dr. Georgi DUKA,** Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Aliaddin ABBASOV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Ulduz HASHIMOVA,** Institute of Physiology, ARETN / Azerbaijan
**Prof. Dr. Ismayil ALIYEV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I. M. Sechenov / Russia
**Prof. Dr. Irina KREYDICH,** National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
**Prof. Dr. Rajesh KUMAR,** Central Silk Board (Ministry of Textiles) / India
**Prof. Dr. Bahadur GALANDAROV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Rafig CHOBANOV,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehdi BAGHIROV,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN,** Gazi University / Turkey
**Prof. Dr. Fakhraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan

**Assoc. Prof. Dr. Azad NOVRUZOV,** Nakhchivan Teachers Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO,** Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Sevinj SADIGOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Oruj HUSEYNOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Fuad KERIMLI,** Baku State University / Azerbaijan

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**İsmayıl Əliyev**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə elmlər doktoru
https://orcid.org/0009-0004-6227-3589
iialiyev@yahoo.com

# Müəllim hazırlığında etnopedaqoji komponentin rolu

***Açar sözlər:*** *etnopedaqoji hazırlıq, ixtisaslı kadr, etnomədəni komponent, mədəni irs, multimədənilik*
***Keywords:*** *ethnopedagogical training, qualified personnel, ethnocultural component, cultural heritage, multiculturalism*

Ölkəmizdə təhsil sahəsində aparılan islahatların mühüm vəzifələri sırasında yüksək ixtisaslı pedaqoji kadrlar hazırlığı məsələləri əsas yer tutur. Bu məsələlərə digər amillərlə yanaşı təhsilin humanistləşməsi və demokratikləşməsinin həlli, xalqın mədəni irsinin, o cümlədən pedaqoji mədəniyyətinin öyrənilməsinin, cəmiyyətin mənəvi deqradasiyasının qarşısının alınmasının zəruriliyi problemləri də daxildir.

Sadalanan vəzifələrin həlli pedaqoqların ümumi, xüsusilə də etnopedaqoji hazırlığı olmadan mümkün deyildir. Hər bir müəllim öz bilik, bacarıq və səriştələri səviyyəsində gənc nəsli bəşəri dəyərlərə hörmət, daha ümdəsi isə, öz soy kökünə, öz xalqına, öz adət-ənənələrinə sevgi ruhunda tərbiyə etməyə borcludur. Buna görə də müəllim hazırlığı ilə məşğul olan tədris müəssisələri etnopedaqoji hazırlığa xüsusi fikir verməlidirlər.

Beləliklə, üzərində işlədiyimiz elmi tədqiqat işi gələcək pedaqoqların etnopedaqoji hazırlığının nəzəri məsələlərinin hərtərəfli öyrənilməsinə, o cümlədən etno-pedaqoji hazırlıqda

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

etnomədəni komponentin rolunun araşdırılmasına həsr olunmuşdur.

Müasir dövrdə təhsilin inkişafı qloballaşma, multimədənilik və etnik birliklərarası hadisələrlə müşayİət olunur. Bu səbəbdəndir ki, təhsilin məzmununa etnomədəni komponentin daxil edilməsi zəruri hal alır. Etnomədəni komponent təhsil alanların öz etnik mədəniyyətlərini dərk etmələrini, digər mədəniyyətlərə hörmətlə yanaşmağı, vətəndaşlıq və tolerantlıq keyfiyyətlərinə yiyələnməyi təmin edir.

"Etnomədəni komponent" anlayışına müəyyən etnosun mədəniyyətini özündə əks etdirən bilik, bacarıq və dəyərlərin birliyi daxildir. O, təhsilin məzmunu, pedaqoji fəaliyyətin forma və metodları, mədəni mühit vasitəsilə reallaşdırılır. Bu baxımdan "etnomədəni komponent" həm də müəllimin etnopedaqoji mədəniyyəti ilə sıx bağlıdır.

*İnsanın etnomədəniyyəti dedikdə — onun ana dili, mənsub olduğu millətin yaranma tarixi və inkişafı, adət-ənənələri, mədəniyyəti, qohum xalqlarla əlaqələri haqda biliklər sistemi başa düşülür* (Əliyev, 2009, s. 70).

**Təhsilin etnomədəni məzmunu aşağıdakı funksiyaları yerinə yetirir:**

- İdentifikasiya funksiyası — bu funksiya şəxsiyyətin etnik özünü-müəyyənliyinə, öz mədəni irsinə pozitiv münasibət bəsləməsini təmin etməyə istiqamətlənir.
- Kommunikativ funksiya — mədəniyyətlərarası ünsiyyəti inkişaf etdirir.
- Dəyərlərə istiqamətləndirmə funksiyası — milli və bəşəri dəyərlərə yiyələnməyi təmin edir.
- Tərbiyəedici funksiya — milli və bəşəri əxlaqi keyfiyyətlərə yiyələnməyi təmin edir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Göstərilən funksiyaların səmərəli tətbiqi nəticəsində mədəniyyətlərarası dialoqa hazır olan ahəngdar surətdə inkişaf etmiş şəxsiyyət tərbiyə oluna bilir.

Etnomədəni komponentin reallaşması etnopedaqoji hazırlığa aşağıdakı yanaşmalar əsasında mümkündür:

- Kulturoloji yanaşma — təlim-tərbiyə prosesinə folklor elementlərini, adət-ənənələri və digər xalq pedaqogikası materiallarını daxil etməyə əsaslanır.
- Polimədəni (çoxmədəniyyətli) yanaşma — mədəniyyətlərarası dialoqu təmin edir. Həm də bu yanaşma nəticəsində hər bir mədəniyyət öz unikallığını saxlayır.

Nəticə olaraq qeyd edilməlidir ki, şəxsiyyətin mənəvi-əxlaqi keyfiyyətlərinin, mədəniyyətlərarası tolerantlığını formalaşdırılmasında etnomədəni komponent mühüm rol oynayır. Ali məktəblərdə gələcək pedaqoqların hazırlanmasında etnomədəni komponentdən istifadə bu işə sistemli, elmi baxımdan əsaslandırılmış yanaşmanı təmin edir (Xaritonov, 1999, s. 228).

## Ədəbiyyat

1. Əliyev, İ. İ. (2009). *Azərbaycan etnopedaqogikası.* Elm və Təhsil, 224.
2. Xaritonov, M. G. (1999). *Etnopedagogiçeskaya podgotovka uchitelya nachal'nykh klassov natsional'noy shkoly (istoriografiya, teoriya, opyt).* Prometey, 228.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Həcər Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0000-0002-3223-427X
hacerhuseynova@mail.ru

# Qadınların psixoloji vəziyyətinə sosial faktorların təsiri

***Açar sözlər:*** *qadın, sosial faktorlar, psixoloji vəziyyət, gender, hüquq, bərabərlik*
***Keywords:*** *woman, social factors, psychological state, gender, rights, equality*

Müasir cəmiyyətin dinamik strukturu insan psixikasına, xüsusilə də qadınların psixoloji vəziyyətinə güclü təsir göstərir. Tarixən qadınlar ailədə, işdə və cəmiyyətdə bir çox sosial rolu eyni anda daşıyıblar. Bu çoxfunksiyalı yük onların emosional vəziyyəti, psixoloji sabitliyi və şəxsi rifahıüzərində dərin izlər buraxır. Qadın psixologiyası sosial faktorlarla sıx qarşılıqlı təsirdədir və bu təsirlər bir sıra psixoloji problemlərin yaranmasına səbəb ola bilər.

***1. Ailə və məişət faktorları.*** Ənənəvi ailə strukturları qadının evdə əsas məsuliyyət daşıyıcısı olmasına səbəb olmuşdur. Uşaqlara qulluq, ev işləri, yaşlılara baxım kimi vəzifələrin qeyri-bərabər bölüşdürülməsi qadınlarda xroniki yorğunluq, emosional tükənmə və depressiya hallarını artırır.

Nümunə: 2022-ci ildə aparılan bir sorğuya görə, Azərbaycanda evli qadınların 68%-i "özünə zaman ayıra bilməməkdən" şikayətlənmişdir (Hüseynova, 2022).

***2. Sosial gözləntilər və stereotiplər***. Cəmiyyətdə qadınlara qarşı formalaşmış sosial gözləntilər (gözəl olmalı, sakit olmalı,

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

itaətkar olmalı və s.) onların şəxsiyyətinin inkişafına və özünüifadə azadlığına maneə yaradır. Bu isə aşağı özünəinam, sosial fobiya və emosional disbalans kimi psixoloji problemlərlə nəticələnə bilər.

***3. Karyera və əmək bazarındakı qeyri-bərabərlik.*** Qadınlar tez-tez aşağı maaşlı işlərdə çalışır, rəhbər vəzifələrə yüksəlməkdə çətinlik çəkirlər. Bu isə psixoloji motivasiyanın zəifləməsi, təcrid hissi və özünüqiymətləndirmənin aşağı düşməsi ilə müşayiət olunur.

Statistikaya görə, Azərbaycan üzrə 2021-ci ilin məlumatlarına əsasən, qadınların yalnız 15%-i yüksək rəhbər vəzifələrdə təmsil olunub.

***4. Gender zorakılığı və psixoloji nəticələri.*** Məişət zorakılığı, emosional təzyiq və iqtisadi asılılıq qadınların travmatik stres pozuntusu (TSP), depressiv hallar kimi psixoloji pozuntularla üzləşməsinə səbəb olur. Qadınların 1/3-i həyatlarının bir mərhələsində fiziki və ya psixoloji zorakılığa məruz qalmışdır.

***5. Sosial dəstək və psixoloji stabillik.*** Araşdırmalar göstərir ki, qadınların psixoloji rifahı ailə, dost çevrəsi və ictimai dəstək sistemləri ilə birbaşa bağlıdır. Səmərəli sosial dəstək emosional stabillik, stressin azalması və özünürealizasiya üçün mühüm rol oynayır.

Qadınların psixoloji vəziyyəti bir çox sosial faktorların təsiri altındadır. Ailə strukturu, sosial stereotiplər, əmək bazarında qeyri-bərabərlik və gender əsaslı zorakılıq bu təsirlər arasında ön sıradadır. Qadınların psixi sağlamlığını qorumaq üçün cəmiyyətdə bərabərlik prinsiplərinin gücləndirilməsi, psixoloji yardımın əlçatan olması və maarifləndirmə işlərinin aparılması vacibdir. Çünki cəmiyyətdə tarixən qadının rolu danılmazdır. Müasir cəmiyyətdə qadının rolunun həqiqi dəyərini vermək üçün gender bərabərliyi proqramları həyata keçirilir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Cəmiyyətlərin inkişaf səviyyəsi, təkcə iqtisadi göstəricilərlə deyil, həm də sosial ədalət, insan hüquqları və xüsusilə də gender bərabərliyi ilə müəyyən edilir. Qadının cəmiyyətdəki rolu və statusu uzun müddət patriarxal yanaşmalarla məhdudlaşdırılsa da, son onilliklərdə bu istiqamətdə ciddi dəyişikliklər baş vermişdir. Bu məqalədə müasir cəmiyyətdə qadınların rolu, hüquq bərabərliyi və gender məsələlərinə yanaşma geniş şəkildə araşdırılır.

***6. Qadının ictimai rolu: keçmişdən bu günə.*** Tarixən qadınlar əsasən ailə və ev təsərrüfatı çərçivəsində fəaliyyət göstərsələr də, müasir dövrdə elm, siyasət, biznes və mədəniyyət sahələrində fəal iştirak edirlər. Azərbaycan tarixində Nigar Şıxlinskaya, Həci Zeynalabdin Tağıyevin qız məktəbləri açmaq təşəbbüsü, Şərqdə ilk dəfə qadınlara səsvermə hüququnun verilməsi bu prosesin mühüm mərhələləridir.

***7. Gender bərabərliyi və hüquqi çərçivə.*** BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyası”na əsasən, qadınlar bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olmalıdırlar. Azərbaycan Respublikasının Konstitusiyası və “Gender bərabərliyi haqqında” Qanunu bu prinsiplərin hüquqi təminatçısıdır. Gender bərabərliyi təkcə hüquqi deyil, həm də mədəni və sosial məsələdir.

***8. Gender stereotipləri və onların təsiri.*** Hələ də bir çox cəmiyyətlərdə qadınlar “zəif cins”, kişilər isə “ailənin başçısı” kimi təqdim olunur. Bu stereotiplər qadınların imkanlarını məhdudlaşdırır, onların qərarvermə proseslərində iştirakına mane olur. Medianın, təhsilin və ailə tərbiyəsinin bu stereotiplərin aradan qaldırılmasında rolu böyükdür.

***9. Qadının təhsildə və iqtisadiyyatda rolu.*** UNESCO-nun məlumatlarına görə, qadınların təhsilə çıxışı artırıldıqca, ailənin və cəmiyyətin rifah səviyyəsi yüksəlir. Qadınların əmək bazarında iştirakı isə iqtisadi inkişaf üçün mühüm resursdur. Məsə-

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

lən, Dünya Bankının 2021-ci il hesabatında qadınların iqtisadiyyata daha çox cəlb edildiyi ölkələrin inkişaf tempi yüksək göstərilmişdir.

***10. Azərbaycan reallığında qadın.*** Azərbaycan qadını bu gün parlamentdə, dövlət idarələrində, sahibkarlıqda, akademik sahədə və mədəniyyət həyatında fəal iştirak edir. Qadınların hüquqlarının qorunması üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, müxtəlif QHT-lər və beynəlxalq təşkilatlar mühüm layihələr həyata keçirir.

Qadının cəmiyyətdəki rolunun artırılması və gender bərabərliyinin təmin olunması müasir dünyanın əsas çağırışlarındandır. Bu məqsədə çatmaq üçün hüquqi mexanizmlərlə yanaşı, ictimai şüurun formalaşdırılması və gender mədəniyyətinin aşılanması vacibdir. Qadınlar təkcə ailənin yox, həm də cəmiyyətin sütunu kimi qəbul olunmalı, onların potensialı hərtərəfli dəyərləndirilməlidir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Yaqub Məmmədov**
Naxçıvan Müəllimlər İnstitutu
riyaziyyat üzrə elmlər doktoru
https://orcid.org /0000-0002-6950-8465
yagubmammadov@nmi.edu.az
**Elşən Məmmədov**
Naxçıvan Müəllimlər İnstitutu
riyaziyyat üzrə fəsəfə doktoru
https://orcid.org/0009-0004-5265-8266
elsheninfo@mail.ru

# Pedaqoji – psixoloji eksperimentlərdə statistik metodların rolu

***Açar sözlər:*** *ehtimal, statistika, reqressiya tənliyi, korrelyasiyalı asılılıq, funksional asılılıq*
***Keywords:*** *probability, statistics, regression equation, correlated dependence, functional dependence*

Ehtimal nəzəriyyəsi və riyazi statistika – nəzəri və tətbiqi əhəmiyyət kəsb edən riyazi elmdir. İndi elm və texnikanın elə bir sahəsi yoxdur ki, orada ehtimal-statistika üsullarından bu və ya başqa dərəcədə istifadə edilməsin. Bu cəhət həm ehtimal nəzəriyyəsinin, həm də onun tətbiq edildiyi müxtəlif elm sahələrinin (məsələn, riyaziyyat, fizika, kimya, biologiya, iqtisadiyyat, ekonometrika, tibb, psixologiya, hərbi iş, texnika və s.) inkişafına geniş imkan vermişdir.

"Bu gün ehtimal nəzəriyyəsi bütün təbiət elmlərinin təməl daşı, statistika isə insan fəaliyyətinin bütün sahələrinin ayrılmaz hissəsidir". Məşhur Amerika alimi Kasın bu kəlamı ehtimal nəzəriyyəsi və riyazi statistikanın müasir dövrdə oynadığı rolu çox gözəl ifadə edir. Buna görə də bu elmlərin əsasları ilə tanış olmağı riyazi mədəniyyətin zəruri komponenti hesab etmək olar.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Ehtimal nəzəriyyəsinin tətbiq sahələri daim genişlənir və bu proses bu gün də davam edir. Konkret həyati məsələləri həll etməyə imkan verən elmi istiqamətlər ehtimal nəzəriyyəsinin inkişafına əsaslanır. İndi ehtimal nəzəriyyəsinə nəinki riyaziyyatçılar, habelə mühəndis, iqtisadçı, geoloq, həkim, fizik, kimyaçı, bioloq, psixoloq və s. kimi müxtəlif peşə sahibləri müraciət edir (Hüseynov, Qasımov, 2006, s. 1).

Hər hansı bir ehtimal modelinə əsaslanaraq, bu modelə uyğun müşahidə oluna biləcək hadisələrin ehtimalların təyin etmək və s. ehtimal nəzəriyyəsinin tədqiqat məsələlərindən olduğu halda, riyazi statistikada təkrarlanan asılı olmayan eksperimentlər nəticəsində alınmış məlumatlar əsasında (bu məlumatlar adətən, ədədi xarakter daşıyır) təsadüfi kəmiyyətin statistik paylanma qanununu, onun parametrlərinin statistik qiymətlərini təyin etmək, onların qiymətləndirilməsi və s. kimi məsələlər araşdırılır (Məmmədov, Cəfərov, 1984).

Asılı kəmiyyətlər arasında statistik və korrelyasiyalı əlaqələr mövcuddur. Əgər X təsadüfi kəmiyyətinin aldığı qiymətlərin dəyişməsi Y təsadüfi kəmiyyətinin paylanma qanununu dəyişirsə, onda deyirlər ki, bu kəmiyyətlər arasında statistik əlaqə vardır. Əgər X təsadüfi kəmiyyətinin aldığı qiymət dəyişdikdə Y-in şərti ortası dəyişərsə, onda deyirlər ki, bu kəmiyyətlər arasında korrelyasiyalı asılılıq vardır. Çox zaman iki asılı təsadüfi kəmiyyətlər arasındakı korrelyasiyalı əlaqə düz xətt tənliyi ilə verilir. Lakin elə asılı təsadüfi kəmiyyətlər də var ki, onlar arasındakı əlaqəni daha mürəkkəb asılılıqla ifadə etmək olur (Əliyev, 2013).

Korrelyasiyalı asılılıq zamanı X təsadüfi kəmiyyətinin hər bir $x$ qiymətinə Y-in aldığı qiymətlərin şərti ortası qarşı qoyulur. X dəyişdikdə $\overline{y}_x$ şərti ortası da dəyişdiyindən, $\overline{y}_x$ $x$-in funksiyası olur:

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

$$\overline{y}_x = f(x) \qquad (1)$$

(1) tənliyinə korrelyasiyalı asılılıq zamanı **reqressiya tənliyi** deyilir.

Müşahidələr nəticəsində müəyyən olunub ki, çox zaman reqressiya tənliyi düz xətt olur, $\overline{y}_x = \kappa x + b$. Ümumi halda reqressiya düz xətt tənliyi

$$\text{Y} = \rho_{x,y} x + b \qquad (2)$$

şəklində olur. Tutaq ki, asılı olmayan $n$ -dənə müşahidələr aparılır. Həmin müşahidələr nəticəsində X,Y təsadüfi kəmiyyətlərinin qiymətləri

$$(x_1, y_1), (x_2, y_2), \ldots, (x_n, y_n)$$

olur. Alınmış nöqtələrin reqressiya düz xətti üzərində, yaxud ona kafi qədər yaxın yerləşdikləri üçün $\rho_{x,y}$, $b$ əmsalını müvafik seçməliyik. Başqa sözlə onları elə seçməliyik ki, $Y - y_i$ fərqinin kvadratları cəmi kiçik olsun. Bu üsula ən kiçik kvadratlar üsulu deyilir.

Məlumdur ki, pedaqoji-psixoloji eksperimentlərin aparılmasının nəticəsi olaraq əksər hallarda korrelyasiyalı cədvəllər alınır. Eksperimenti $x_i$ -lərin bütün qiymətləri üçün aparmaq mümkün olmadığından elə bir funksional asılılıq almalıyıq ki, orada $x$-in yerinə müşahidə aparmadığımız qiymətləri qoymaqla nəticələr almaq mümkün olsun. Bunu aşağıdakı misalla izah edək.

*Misal.* Fərz edək ki, pedaqoji-psixoloji eksperiment nəticəsində X,Y təsadüfi kəmiyyətləri aşağıdakı qiymətləri alır (Gmurman, 1976):

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

| $x_i$ | 1 | 1,5 | 3 | 4,5 | 5 |
|---|---|---|---|---|---|
| $y_i$ | 1,25 | 1,4 | 1,5 | 1,75 | 2,25 |

| $x_i$ | $y_i$ | $x_i^2$ | $x_i y_i$ |
|---|---|---|---|
| 1 | 1.25 | 1 | 1.25 |
| 1.5 | 1.4 | 2.25 | 2.1 |
| 3 | 1.5 | 9 | 4.5 |
| 4.5 | 1.75 | 20.25 | 7.875 |
| 5 | 2.25 | 25 | 11.25 |
| $\sum_{i=1}^{5} x_i = 15$ | $\sum_{i=1}^{5} y_i = 8.15$ | $\sum_{i=1}^{5} x_i^2 = 57,5$ | $\sum_{i=1}^{5} x_i y_i = 26.975$ |

$y$-in $x$ üzrə reqressiya düz xətt tənliyini yazaq:

$$\rho = \frac{n\sum_{i=1}^{n} x_i y_i - \sum_{i=1}^{n} x_i \sum_{i=1}^{n} y_i}{n\sum_{i=1}^{n} x_i^2 - \left(\sum_{i=1}^{n} x_i\right)^2} = \frac{5.26,975 - 15\cdot 8,15}{5.57,5 - (15)^2} = 0,202\ ,$$

$$b = \frac{\sum_{i=1}^{n} x_i^2 \sum_{i=1}^{n} y_i - \sum_{i=1}^{n} x_i \sum_{i=1}^{n} x_i y_i}{n\sum_{i=1}^{n} x_i^2 - (\sum_{i=1}^{n} x_i)^2} = \frac{57,5\cdot 8,15 - 15\cdot 26,975}{5\cdot 57,5 - (15)^2} = 1,024$$

$y = \rho x + b$ olduğundan $y = 0,202x + 1,024$.

Deməli axtarılan funksional asılılıq $y = 0,202x+1,024$ şəklindədir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## Ədəbiyyat

1. Əliyev, S. Ə. (2013). *Ehtimal, riyazi statistika və təsadüfi proseslər nəzəriyyəsinə giriş* (Dərs vəsaiti).
2. Hüseynov, Ə. Ə., & Qasımov, S. Y. (2006). *Ehtimal nəzəriyyəsi və riyazi statistika*. Çaşıoğlu.
3. Məmmədov, Ə. M., & Cəfərov, K. M. (1984). *Ehtimal nəzəriyyəsi və riyazi stastistikanın elementləri* (Dərs vəsaiti).
4. Gmurman, V. Ye. (1976). *Teoriya veroyatnostey i matematicheskaya statistika* (Uchebnik).

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Sevinc Vəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-0710-6324
veliyeva_1979@bk.ru

# Auditoriyadakı psixoloji təhlükəsizliyin təlimin keyfiyyətinə və tələbə motivasiyasına təsiri

***Açar sözlər:*** *psixoloji təhlükəsizlik, auditoriya mühiti, təlimin keyfiyyəti, təhsil psixologiyası, tələbə motivasiyası*
***Keywords:*** *psychological safety, classroom environment, quality of teaching, educational psychology, student motivation*

Yeni təfəkküür şəraitində ali təhsilin inkişaf istiqamətləri təkcə bilik və məlumatların tələbə gəncələrə çatdırılmasını deyil, eyni zamanda onların yaradıcılıq, tənqidi düşüncə, əməkdaşlıq və həyati bacarıqlarının formalaşdırılmasını da nəzərdə tutur. Mühazirə və seminar məşğələlərindəki sosial-psixoloji mühitin xarakteri mühüm rola malikdir.

Son illərdə psixoloji təhlükəsizlik önəmli sayılır. Həmin anlayış psixoloji və pedaqoji tədqiqatlarda özünə geniş yer almışdır. Psixoloji təhlükəsizliyə təlimin səmərəliliyi ilə tələbə motivasiyası arasında mühüm determinant kimi yanaşılır.

Təqdim olunan konfrans materialının məramı auditoriyadakı psixoloji təhlükəsizliyin təlim keyfiyyətinə və tələbə motivasiyasına təsirini müəyyənləşdirməkdən, nəzəri baxımdan aydınlaşdırmaqdan və praktik tövsiyələr təqdim etməkdən ibarətdir. Psixoloji təhlükəsizlik anlayışı birinci dəfə 1960-cı illərdə Schein və Bennis tərəfindən şəxsiyyətlərarası riski azaldan qrup fenomeni kimi diqqət mərkəzinə gətirililmişdir (1).

Təhsil kontekstində psixoloji təhlükəsizlik auditoriyada tələbələrin suallarla müəllimə müraciət etməsinə, müstəqil fikir yürütməsinə imkan verir. Yaranmış mühitdə tələbə özünü

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

dəyərli və qəbul olunmuş hiss edir ki, bu da istər motivasiya, istərsə də öyrənmə nəticələrini daha da artırır. Araşdırmalardan gösrünür ki, psixoloji təhlükəsizlik auditoriyada təlimin keyfiyyətini bir sıra istiqamətlərdə gücləndirir. Diqqət yetirək:

*Aktiv iştirak*: tələbə gənclər bu və ya digər müzakirəyə və debatlara yaxından qoşulur.

*Yaradıcı düşüncə*: özünə güvənən tələbə alternativ yanaşmaları əsas götürür.

*Tənqidi təhlil*: müstəqillik keyfiyyətinə yiyələnmə və öz mühakimə və mülahizələrini sərbəst şəkildə bildirmə biliklərin möhkəmləndirilməsi ilə nəticələnir.

*Müəllim-tələbə əməkdaşlığı*: tələbəyə pedaqoji prosesin subyekti, bərabərhüquqlu üzvü kimi yanaşma təlimin optimallaşdırılmasına və təkmilləşməsinə kömək göstəririr.

Psixoloji təhlükəsizlik tələbənin motivasiyasına güclü təsir göstərir. Motivasiya təhsil alanın öyrənmə prosesində iştirakı və nailiyyəti üçün başlıca amildir. Həmin an onların daxili motivasiyaları yüksəlir, onlar özlərini daha təhlükəsiz və dəyərli hiss edirlər. Nəticədə tələbələr inamlı olur, təlim əməyində fəal olurlar. Qrup işlərində onların əməkdaşlığı və sosial bilgiləri güclənir, eyni zamanda təlimə maraqları artır. Beləliklə təhsil alanların akademik nailiyyətləri getdikcə yüksəlir.

Yuxarıda deyilənlərdən belə nəticəyə gələ bilərik ki, auditoriyada psixoloji təhlükəsizlik hazırda pedaqoji prosesin mühüm tərkib hissəsidir. Onun təmin edilməsi bir tərəfdən təlimin keyfiyyətini, digər tərəfdən tələbə motivasiyasını artırır. Odur ki, hər bir müəllim tələbələrin fikirlərinə hörmətlə yanaşmalı, fərqli baxışları stimullaşdırmalıdır. Auditoriyada səhv etmək öyrənmənin təbii mərhələsi kimi qəbul olunmalı, interaktiv yanaşmalara və əməkdaşlıq əsaslı tədris modellərinə üstünlük verilməlidir. Ali təhsil müəssisələrinin tədris siyasətində psixoloji təhlükəsizlik konsepsiyası nəzərə alınmalıdır.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Tahirə Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9092-2049
tahireh37@gmail.com

# Təlimdə innovativ yanaşmalarda müəllimin rolu

***Açar sözlər:*** *innovasiya, müəllim, təlim, bilik və bacarıqlar, təhsilin inkişafı, fəal öyrənmə*
***Keywords:*** *innovation, teacher, training, knowledge and skills, educational development, active learning*

Son illər ölkəmizdə Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan siyasət ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Yeni tarixi qərarlar qəbul edilir, ölkəmiz yeni uğurlara imza atır. İlham Əliyev tərədindən həyata keçirilən siyasətin əsas tərkib hissəsi kimi ölkəmizdə innovasiyaların inkişafı üçün zəruri olan bütün şərait və imkanlar eyni zamanda, milli innovasiya sistemi yaradılmışdır.

Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, eyni zamanda elm və təhsilin inkişafının bərqərar edilməsinə də yönəldilmişdir.

Milli və bəşəri dəyərlər əsasında qurulan təhsilimizin hazırkı inkişaf mərhələsi tədris prosesində biliklərin yaradıcı, fəal öyrənməyə istinad edilməsi zərurətini ortaya qoyur. İnsan həyatı boyu öyrənməyə möhtacdır və öz inkişafı prosesində bəşəriyyətin tarix boyu toplamış olduğu təcrübə və biliyi öyrənməklə daha da inkişaf etmiş olur. Bu mənada, təhsilimizin

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

əsas məqsədi müvafiq innovasiyaların pedaqoji prosesə tətbiq edilməsi və şagird şəxsiyyətinin yaradıcı potensialını aşkar edib üzə çıxarmaqdan ibarətdir.

Son illərdə Respublikamızda aparılan islahatlar innovativ xarakter daşıyır. Bu innovasiyaların tədris prosesində tətbiqi isə zamanın tələbi kimi çıxış edir. Yeni tədris planları, təlim texnologiyaları, İKT-dən istifadə, yeni qiymətləndirmə meyarları, elektron məktəb layihələri və s. innovasiyaların təlimdə tətbiqi deməkdir. İnnovasiya bir pedaqoji fəaliyyət kimi təhsilə yenilik gətirir, təhsilimizin inkişafına yeni töhfələr vermiş olur. Bütün bunların nəticəsində isə pedaqoji proses durmadan daha da təkmilləşir, durmadan inkişaf edir.

İnnovasiya öz inkişafı prosesində müəyyən mərhələlər keçir və bu mərhələləri belə qruplaşdırmaq olar:

1. İdeyanın yaranması;
2. Məqsədin formalaşması;
3. Yeni ideyanın formalaşması;
4. Yeniliyin reallaşdırılması;
5. Yeniliyin yayılması.

Əlbəttə, biz bu gün innovasiyalardan bəhs ediriksə, burda yeni ideyaların yaranması, tətbiqi əsas amil kimi çıxış edir. Bu mənada, təhsildə innovasiyaların tətbiqi kreativ düşüncəli, yaradıcı, tənqidi təfəkkürə malik yeni nəsil formalaşdırmaqdır. Müasir təhsildə gedən qlobal proseslərin əsas xüsusiyyəti onun fasiləsiz modernləşməsidir. Modernləşmənin əsas məqsədi isə təhsil şəraitində yeksək keyfiyyətə malik olmaqdır.

Təhsilimizin inkişafını diqqətdə saxlayan ulu öndərimiz Heydər Əliyev deyirdi: "Bu gün dünyada belə bir tendensiya var: Qloballaşmış cəmiyyət formalaşdırmaq. Buna isə elmin, təhsilin gələcək uğurları və insanların təfəkkürünün yeniləşməsi hesabına nail olmaq olar". Bu gün ulu öndərin arzusu reallaşmaqdadır.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Cəmiyyətin inkişafı təhsilin inkişafı ilə bağlıdır. Bu gün Azərbaycan təhsilində aparılan islahatlar-yeni konsepsiyalar, məzmun standartları, inteqrativ fənlər, təhsil texnologiyaları, qiymətləndirmə mexanizmləri, təlim vasitələri, yeni dərsliklər, dərs vəsaitləri təhsilin inkişafına, yeni nailiyyətlərin əldə edilməsinə hesablanmış innovasiyalardır.

Təhsildə innovasiyaların tətbiq edilməsində müəllimlərin rolu xüsusi qeyd edilməlidir. Müəllimlik peşəsi insan fəaliyyətinin çox mürəkkəb növünə aiddir. Müəllimin pedaqoji fəaliyyəti, peşə bilikləri və bacarıqları gələcəyə işıq salmaqla bərabər, gələcək inkişafın əsas amili kimi çıxış edir. Təhsilimizin inkişafı da məhz gələcəyə işıq tutan müəllimlərin əməli fəaliyyəti ilə müəyyən edilir.

Pedaqoji fəaliyyətin istiqamətverici qüvvəsi müəllim hesab edilir. Müəllimin peşəkarlığı, öz fənnini mükəmməl bilməsi, hər bir yenilikdən xəbər tutması həlledici amildir. Müəllim yeniliklə yaşamalı, bu yenilikləri yetişən gənc nəslə aşılamalıdır. Müəllim əməyindən bəhs edən Ölkə prezidenti İlham Əliyev deyir: "Təhsilin keyfiyyəti artmışdır və artır. Bunu müxtəlif reytinqlər göstərir və əlbəttə, bunun əsas səbəblərindən biri müəllimin peşəkarlığından asılıdır. Müəllimlər uşaqları necə öyrədirsə uşaqlar da buna uyğun şəkildə biliklər əldə edirlər".

Demək ki, təlim prosesində innovasiya fəaliyyətinin əsas subyekti kimi müəllim çıxış edir. Təlim prosesində müəllim aparıcı qüvvə hesab edilir. Təlim materialının mənimsənilməsi, yeniliklərin təlim rosesinə tətbiqi, yeni təlim texnologiyalarından istifadə müəllimin pedaqoji ustalığının əsas şərtlərindən biridir. Təhsil strategiyasında yer alan bir fikri yada salmaq yerinə düşər:"milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

hazırlamaq təhsil işçilərinin qarşısında mühüm bir vəzifə kimi qoyulmuşdur".

Göründüyü kimi, pedaqoji fikir tarixində müəllim əməyi yüksək dəyərləndirilmiş, müəllim əməyi ən şərəfli əmək hesab edilmişdir. Bu peşə çətin və mürəkkəb olmaqla yanaşı, həm də yaradıcı peşə kimi dəyərləndirilir. Gələcəyin qurucularını hazırlayan da məhz müəllmdir. Ona görə də müəllimlər qabaqcıl təcrübəni öyrənib ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına malik olmalı, novator, yaradıcı müəllim kimi tədqiqat bacarıqlarını inkişaf etdirməli, təlim prosesində yenilikçi müəllim kimi özlərini təsdiq etməlidirlər.

Pedaqoji prosesdə innovasiyaların tətbiqi həyati bir zərurətə çevrildiyindən müəllimlərin üzərinə böyük bir vəzifə və məsuliyyət düşmüş olur. Müəllimin özünü inkişaf, özünü təkmilləşdirmə səyləri nəticəsində daha da inkişaf edir ki, bu da təhsilimizin inkişafında müəllimin rolunu bir daha təsdiq etmiş olur.

Bir sözlə, bu gün yeni texnologiyalar, tədris resursları, kompüterlər, maddi-texniki baza nə qədər mükəmməl olsa da, innovasiyaların müvəffəqiyyətlə tətbiqi məhz müəllimdən, onun hazırlıq səviyyəsindən, məsuliyyətindən asılıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 25-27
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 25-27
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Salatın Hacıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-4913-4074
salatinhaciyeva72@gmail.com
**Solmaz Bayramova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0001-2244-348
slmzbrm@gmail.com

# Tələbə mobilliyinin əhəmiyyəti və onun başlıca missiyası

***Açar sözlər:*** *tələbə, mobillik, təhsil, Avropa, təhsil məkanı*
***Keywords:*** *student, mobility, education, Europe, educational institution*

Akademik mobillik - tələbə, müəllim, tədqiqatçı və inzibati heyətin təcrübə dəyişikliyi etməsi, milli qapalılığı aradan qaldıraraq ümumavropa mühitinə qovuşmaq amalı ilə bir ali məktəbdən digər ali məktəbə keçə bilməsidir.

Akademik mobilliyin həyata keçirilməsinin əsas məqsədlərindən biri bütün Avropa ali təhsil məktəblərində ümumi ortamın hazırlanmasıdır. Ümumavropa ali təhsil ocağında təhsil alan tələbələrin, çalışan müəllimlərin mobilliyi ali təhsil sisteminin tam kimi formalaşmasına ən yaxşı təkan verən səbəblərdən biridir.

Ali təhsil məktəblərinin lazımi quruluş və maddi imkanlara malik olması mobilliyin tələb etdiyi şərtlərin sırasındadır. Onu da qeyd etmək lazımdır ki, mobilliyin həll edilməsi məsələsi Avropanın özündə də kifayət qədər yüksək səviyyədə deyildir. Mobillik məsələlərinin əksəriyyətində bu gedişat ən yaxsı halda

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

tələbələrin və işçi qrupunun 30 faizə qədərini təşkil edir. Boloniya prosesinə yeni qosulan ölkələrdə, o cümlədən Azərbaycan dövlətində də mobilliyi qurmaq vacibdir. Tələbə mübadiləsi işini ilk öncə həmin ölkənin tərkibində olan ali təhsil sistemi daxilində başlamaq lazımdır ki, həm mobillik təcrübəsinin ölkədə inkişafına nail olunsun, həm də lazımi təcrübə, praktika qazanılsın. Avropa ali təhsil sistemi təcrübəsində son dövrlərdə iki və daha artıq ali təhsil məktəbinin iştirakı ilə bir yerdə hazırladıqları proqramların həyata keçirilməsi və tədrisin bu proqramlar əsasında keçirilməsi özünə xüsusi yer almaqdadır. Təkcə mobillik məsələlərinə deyil, vahid təhsil məkanının formalaşması məsələsində də birgə proqramların tərtibi və tətbiqi əhəmiyyətli dərəcədə təsir edir. Vahid təhsil məkanının formalaşması gələcək vahid ali təhsil sisteminin kiçik modeli vəzifəsini yerini yetirir və bu işin kiçik həcmdə sınaqdan çıxarılmasında birgə proqramların tətbiqinin böyük əhəmiyyəti var. Birgə proqramların tətbiqi qarşıya çıxan çətinliklərin ortadan qaldırılması praktikasının qazanılması və təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Çox da uzun tarixə malik olmayan birgə proqramların tətbiqinin qarşısına çıxan problemlər təbii ki, kifayət qədərdir. Müxtəlif ölkələrdə obyektiv səbəblər üzündən bir çox hallarda eyni proqramı tam tətbiq etmək olmur. İkili diplomların verilməsi ilə əməkdaşlığın edilməsi praktikası belə hallarda da mövcuddur. Yeri gəlmişkən Azərbaycan Respublikasının bir sıra ali təhsil ocaqlarının bu tipli proqramlara qoşulmaq üçün fəaliyyətə başladıqlarını qeyd etmək istərdik.

İnkişaf etmiş ölkələrə aid ali təhsil müəssisələri ilə əməkdaşlıq etmək, inkişaf etmiş ölkələrlə eyni hüquqa malik olaraq birlikdə bu proqram ətrafında fəaliyyət göstərmək məqsədilə keyfiyyət göstəricilərinə görə ona yaxın bir vəziyyətdə olmaq lazımdır. Həm də bu yaxınlıq vacibdir. Şübhəsiz ki, bərabər

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

səviyyəli tələbə mobilliyindən və birgə proqramların həyata keçirilməsindən ali təhsildə fərqli keyfiyyət dərəcəsinə sahib olan ümumavropa ölkələri arasında söhbət gedə bilməz. Avropanın öz sambalına və maddi imkanlarına görə zəif olan ali təhsil məktəbləri də çoxdur. Ali məktəblərə kömək edərək lazım olan səviyyəyə qaldırmaq Boloniya prosesinin hədəflərindən biridir.

Tələbə və müəllimlərin birgə proqramlara cəlb edilməsi vacib bir vasitə kimi istifadə olunur. Tələbə və müəllim mübadiləsi məsələsində keyfiyyət meyarlarının və standartlarının müəyyən edilməsi günün aktual problemi olaraq qalmaqda davam edir. Tələbə və müəllim mübadiləsində keyfiyyətə nəzarət sistemlərinin işlənib hazırlanması da əsas maneə olaraq qalmaqda davam edir. Bununla bağlı müxtəlif təkliflər irəli sürülür və birgə iclaslarda müzakirə olunur. Ali təhsil sistemində qiymətləndirmənin tətbiq edilməsi keyfiyyətə nəzarətin təmin edilməsinin dəyərli mexanizmlərindən biridir. Demək olar ki, ali təhsil məktəblərinin fəaliyyətini yalnız kənardan qiymətləndirməklə keyfiyyət problemini tam həll etmək olmaz. Tədrisin keyfiyyət məsələsini tam həll etmək üçün bütün ali təhsil öcaqlarının özlünün öz fəaliyyətinin keyfiyyət səviyyəsinə düzgün qiymət verməsi lazımdır. Həm də bu iki qiymətləndirmənin uzlaşdırılmasına nəzarət və idarəetmə sistemlərinin daha yaxşı nəticələr əldə etməsinə kömək edir.

Akkreditasiya prosedurlarının ali təhsil sahəsində keyfiyyətin təmin edilməsində xüsusi yeri vardır. Ali təhsil məkanlarında tədris edilən proqram üzrə hazırlığın tələb olunan keyfiyyət səviyyəsinə uyğunluğunun təsdiq edilməsi akkreditasiya səlahiyyətli orqan tərəfindən yerinə yetirilir. Vahid kredit sisteminin tətbiqi ali təhsil sənədlərinin, mərhələlərinin və dərəcələrinin tanınmasında başlıca rol oynayır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Ruhəngiz Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9466-4822
ruhangiz.aliyeva@list.ru

# Müasir təhsil siyasəti kontekstində pedaqogika fənninin strateji əhəmiyyəti

***Açar sözlər:*** *pedaqogika, müəllim hazırlığı, təhsil strategiyası, pedaqoji düşüncə, innovativ təlim*
***Keywords:*** *pedagogy, teacher training, educational strategy, pedagogical thinking, innovative teaching*

Müasir dövrdə təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi, innovativ düşüncəli və sosial məsuliyyətli müəllimlərin hazırlanması dövlətin strateji inkişaf prioritetlərindən biridir. Cəmiyyətin intellektual və mənəvi potensialı məhz bu kadrların formalaşmasından asılıdır. Bu baxımdan, pedaqoji kadr hazırlığında Pedaqogika fənninin rolu təkcə nəzəri deyil, həm də strateji əhəmiyyət kəsb edir.

Pedaqogika fənni təlim və tərbiyə prosesinin qanunauyğunluqlarını, şəxsiyyətin sosial və mənəvi inkişaf mexanizmlərini araşdıran fundamental elmdir. Bu fənnin əsas məqsədi müəllim namizədlərində elmi-nəzəri baxış formalaşdırmaq, pedaqoji fəaliyyətin sosial mahiyyətini anlamaq və innovativ tədris metodlarını mənimsətməkdir.

Pedaqogika fənni nəzəri, təşkilati, dəyərləndirici və inteqrativ funksiyalar yerinə yetirir. O, müəllimlərdə pedaqoji etikaya, humanizmə, məsuliyyət duyğusuna və yaradıcı yanaşmaya əsaslanan peşəkar kimliyi formalaşdırır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Pedaqogika fənni pedaqoji kadr hazırlığında strateji əhəmiyyət daşıyır, çünki o, milli və qlobal təhsil məqsədlərinin vəhdətini təmin edir, təhsil siyasətinin icrasında elmi baza yaradır və dayanıqlı inkişaf məqsədlərinə xidmət edir.

Rəqəmsal dövrdə pedaqogika fənninin məzmunu yenilənməli, konstruktiv öyrənmə modelləri, refleksiv metodlar və etik kompetensiyalar tədris proqramına daxil edilməlidir. Bu, müəllimlərin rəqabət qabiliyyətini artırır. Müasir dövrdə qlobal təhsil sistemində baş verən dəyişikliklər, texnoloji transformasiyalar və sosial məsuliyyət anlayışının yenidən formalaşması pedaqoji kadr hazırlığına yeni tələblər irəli sürür. Müəllimlərin innovativ düşüncəyə, etik məsuliyyətə və sosial adaptasiyaya malik olması cəmiyyətin intellektual inkişafının əsas şərtidir. Bu baxımdan, pedaqogika fənninin pedaqoji təhsil sistemində rolu strateji əhəmiyyət daşıyır.

Təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi hər bir dövlətin milli inkişaf strategiyasının mərkəzində dayanır. XXI əsrdə rəqabət qabiliyyətli, yaradıcı və sosial məsuliyyətli müəllimlərin hazırlanması təkcə tədris prosesinin texniki təkmilləşməsi ilə deyil, həm də pedaqoji düşüncənin yenilənməsi ilə mümkündür. Cəmiyyətin intellektual və mənəvi potensialı məhz bu müəllim kadrlarının formalaşmasından asılıdır.

Pedaqogika – insanın şəxsiyyət kimi formalaşması, təlim və tərbiyə proseslərinin qanunauyğunluqlarını öyrənən fundamental elmdir. Bu fənn yalnız nəzəri bilikləri deyil, həm də praktik bacarıqları formalaşdıraraq, gələcək müəllimlərdə peşəkar dünyagörüş yaradır. Pedaqogika fənni pedaqoji kadr hazırlığının təməl daşı, təhsil sisteminin strateji inkişaf mexanizmidir. Onun məzmununun davamlı yenilənməsi və qlobal təhsil tendensiyalarına inteqrasiyası milli təhsilin dayanıqlı inkişafı üçün vacibdir. Nəticə etibarilə, Pedaqogika fənni pedaqoji kadr hazırlığının mərkəzi sütunu və təhsil sisteminin strateji inkişaf

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

mexaniz-midir. O, yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də müəllim şəxsiyyətinin formalaşmasında əsaslı rol oynayır. Müəllimlərin elmi dünyagörüşünün, peşəkar etikasının, sosial məsuliyyət hissinin və yaradıcı yanaşmasının inkişafı birbaşa pedaqogika fənninin səmərəli tədrisindən asılıdır. Bu fənn təhsil sisteminin bütün pillələrində keyfiyyətin təmin olunması üçün intellektual, mənəvi və metodoloji bazanı formalaşdırır. Pedaqogika gələcək müəllimlərə yalnız elmi bilik deyil, həm də tədris, tərbiyə və dəyərlər sahəsində yönverici prinsiplər aşılayır. Bu isə müəllimlərin öz fəaliyyətini düşünülmüş, məqsədyönlü və sosial məsuliyyətli şəkildə qurmasına şərait yaradır. Müasir dövrdə təhsil prosesində baş verən sürətli dəyişikliklər — rəqəmsallaşma, inklüziv təhsil, fərdiləşdirilmiş öyrənmə modelləri, beynəlxalq qiymətləndirmə meyarları və s. — pedaqogika fənninin məzmununa yeni yanaşma tələb edir. Fənnin dinamik yenilənməsi, interdisiplinar əlaqələrinin genişləndirilməsi və praktik yönümlü kompetensiyaların artırılması təhsil strategiyasının əsas istiqamətlərindən biri olmalıdır. Eyni zamanda, pedaqogika fənninin strateji əhəmiyyəti milli təhsil fəlsəfəsinin qorunması və qlobal təhsil dəyərləri ilə harmonik şəkildə birləşdirilməsində özünü göstərir. Azərbaycan təhsil sistemində pedaqogikanın rolu təkcə müəllim hazırlığında deyil, həm də milli-mənəvi kimliyin və vətəndaş məsuliyyətinin formalaşmasında mühüm yer tutur. Beləliklə, pedaqogika fənninin inkişafı və onun tədrisində müasir elmi yanaşmaların tətbiqi yalnız pedaqoji kadrların keyfiyyətini yüksəltmir, həm də ölkənin ümumi təhsil sisteminin strateji davamlılığını təmin edir. Bu baxımdan, pedaqogika fənninə dövlət səviyyəsində elmi-investisiya yönümlü dəstəyin artırılması, müəllim hazırlığında pedaqogikanın tətbiqi aspektlərinin genişləndirilməsi və təlim prosesində müasir pedaqoji texnologiyaların inteqrasiyası gələcəyin təhsil keyfiyyətinə qoyulan ən dəyərli sərmayədir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 31-33
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 31-33
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Günay Şirəliyeva**
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-7723-4082
shiraligunay@gmail.com

# Pedaqoji kadr hazırlığında Azərbaycan dili fənninin strateji əhəmiyyəti

***Açar sözlər:*** *Azərbaycan dili, təhsil, tədris, nitq, pedaqoji kadr*
***Keywords:*** *Azerbaijani language, education, teaching, speech, pedagogical staff*

Azərbaycan dili xalqımızın mənəvi varlığı və milli kimliyinin başlıca göstəricisidir. Hər bir müəllim ixtisasından asılı olmayaraq cəmiyyətin formalaşmasında əsas aparıcı qüvvədir. Buna görə də pedaqoji kadrların hazırlanmasında Azərbaycan dili fənninin öyrədilməsi və təkmilləşdirilməsi xüsusi strateji əhəmiyyət daşıyır. Müasir dövrdə müəllimlərin ana dili sahəsində səriştəli olması, səlis və aydın ünsiyyət qurmasına imkan verir. Müəllim öz fikrini dəqiq ifadə etməli, biliyi aydın və başadüşülən şəkildə çatdırmalıdır. Bu isə yalnız yüksək nitq mədəniyyətinə və dil bacarığına sahib olan pedaqoqlar vasitəsilə mümkündür (Rəhimov, 1997, s. 29).

Təəssüf ki, bəzən Azərbaycan dili fənninə texniki və ünsiyyət yönümlü yanaşılır. Halbuki bu fənn, müəllimin düşüncə mədəniyyətini, analitik qabiliyyətini və ifadə imkanlarını formalaşdıran əsas vasitədir. Azərbaycan dili fənninə daha çox önəm verilməli, müasir metodlarla, praktik yönümlü dərslərlə tədris edilməlidir (Nəbiyeva, 2010).

*Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi, süni intellektin təhsildə geniş tətbiq olunduğu bir zamanda da ana dilinin öyrədilməsi öz aktuallığını itirmir* (Balıyev, 2014, s. 25). Əksinə, bu çağırışlar fonunda dilin qorunması, təmizliyinin

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

saxlanması və inkişaf etdirilməsi daha da ön plana keçir. Çünki təhsil sisteminin mahiyyəti yalnız bilik vermək deyil, eyni zamanda milli-mənəvi dəyərlərlə silahlanmış vətəndaş formalaşdırmaqdır. Bu isə ana dili vasitəsilə mümkündür. Cəmiyyətin inkişafında müəllimin rolu danılmazdır və bu baxımdan müəllim hazırlığı prosesində ana dilimizin tədrisi xüsusi əhəmiyyət daşıyır (Rəhimov, 1997, s. 55).

*Pedaqoji kadrların hazırlanmasında Azərbaycan dili fənninin strateji rolu onların yalnız dil biliyini deyil, həm də milli təfəkkür, mədəni şüur və peşəkar ünsiyyət bacarıqlarını formalaşdırmasından irəli gəlir* (Cəfərova, 2016, s. 38). Müəllim ünsiyyət qurarkən şifahi və yazılı nitqdən, bədii və elmi ifadələrdən, ritorik vasitələrdən istifadə edir. Bu bacarıqlar isə yalnız güclü dil hazırlığı sayəsində əldə edilə bilər. Bununla yanaşı Azərbaycan dili dərslərində tələbələr tənqidi təfəkkür, analitik yanaşma, nitq mədəniyyəti və arqumentləşdirmə bacarıqları da qazanırlar. *Müasir təhsil sistemində kommunikativ təlim metodları, interaktiv dərs yanaşmaları və şagird-mərkəzli tədris dillə sıx bağlıdır* (Kurikulumların hazırlanması və tətbiqi məsələləri, 2008, s. 18). Müəllimin özünüifadə bacarığı, təqdimat texnikası, nitq strukturu və intonasiya səviyyəsi dərsin effektivliyini birbaşa müəyyən edir. Bu səbəbdən Azərbaycan dili fənni yalnız qrammatika və orfoqrafiya deyil, həm də praktiki nitq bacarıqlarının formalaşdırılması baxımından böyük əhəmiyyət daşıyır (Cəfərova, 2016).

Azərbaycan dili fənni pedaqoji kadr hazırlığında milli şüurun, ünsiyyət mədəniyyətinin və müəllim nüfuzunun formalaşmasında strateji əhəmiyyət daşıyan əsas dayaqlardan biridir. Gələcəyin müəllimləri yalnız elmi biliklərlə deyil, həm də səlis, savadlı və mənəviyyatlı şəkildə danışmağı bacaran, ana dilinin gücünü anlayan və onu qoruyub təbliğ edən şəxslər olmalıdırlar (Tagızadə, n.d.).

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## Ədəbiyyat

1. Balıyev, A. H. (2014). *Azərbaycan dilinin tədrisi metodikası*. Qismət.
2. Cəfərova, N. B. (2016). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası* (I hissə, dərslik). ADPU Nəşriyyatı.
3. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. (2008).
4. Nəbiyeva, Ş. (2010). *Ana dili tədrisinin aktual problemləri*. ADPU.
5. Rəhimov, A. (1997). *Ana dilinin tədrisi metodikası*. Maarif.
6. Tagızadə, E. (n.d.). *Kurikulum*. https://yusif.az/main/wp-content/uploads/2020/10/Emil_Tagizade-Kurikulum.pdf

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Fəxriyyə Cəfərova**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-2345-6789
ceferova.fexriyye@ mail.ru

# Müasir təhsilin əsas hədəfi-innovativ yanaşma

***Açar sözlər:*** *təhsilin inkişafı, innovativ yanaşma, qloballaşma, dünya təcrübəsi, yeni texnologiyalar*
***Keywords:*** *educational development, innovative approach, globalization, world experience, new technologies*

Bu gün Azərbaycanda təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmış, nəticədə təhsilimiz daha da inkişaf etmiş, müasirləşmiş və dünya təhsilinə inteqrasiya edilmişdir. Dünyada baş verən qloballaşma, mövcud yeniliklər ölkə həyatının inkişafında, innovasiyaların ardıcıl, davamlı tətbiqi məsələsini zəruri edir. Bu kimi məsələlər təhsilimizin də inkişafına təkan verir, təhsilin innovasiyalar əsasında modernlədirilməsi zamanın tələbi kimi çıxış edir. Burda əsas məqsəd milli ənənələrlə yanaşı, dünya təcrübəsinə əsaslanmaq və təhsilimizin inkişafında bu təcrübəni tətbiq etməkdir. Bütün bunlar isə o deməkdir ki, modernləşdirmədə milli və bəşəri dəyərlər vəhdətdə görürülməli, qabaqcıl təcrübəyə istinad edilməlidir.

Təhsilin inkişafında müsbət rola malik olan innovativ fəaliyyət dövlətimizin təhsilin inkişafı ilə bağlı qəbul etdiyi qərarlara, proqramlara əsaslanaraq həyata keçirilir. Təhsilimizə olan diqqət və qayğının nəticəsidir ki, bu istiqamətdə mühüm addımlar atılmış, təhsilimizin inkişafını şərtləndirən qərar və proqramlar qəbul olunmuşdur. Bu tarixi sənədlər sırasında

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 34-37
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 34-37
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, eyni zamanda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" konseptual sənəd kimi daha çox diqqət çəkir.

İnnovasiyaların tətbiqi təkcə təhsilin inkişafına deyil, ölkənin də inkişafına, cəmiyyət həyatında köklü dəyişikliklərin baş verməsinə, yeni-yeni uğurlara doğru addımlamaqda xüsusi əhəmiyyət kəsb edir.

İnnovasiyaların təhsilə tətbiqi isə təhsilimizin müxtəlif aspektlərdən tərəqqi etməsinə və nəticədə dünya ölkələri ilə eyni sırada dayanmasına səbəb olub. Bu gün həyata keçirilən kurikulum islahatları, tədrisdə yeni texnologiyaların tətbiqi, yeni dərsliklərin hazırlanması təhsil sahəsində inkişafı şərtləndirən əsas amillər kimi çıxış edir. Burda diqqət çəkən məqamlardan biri isə innovasiyalara əsaslanan təhsil texnologiyalarının mənimsənilməsi və tətbiq edilməsi təhsilimizin inkişafına təkan verməklə bərabər, insanların yaşayış şəraitinin yaxşılaşmasına, əmək bazarında rəqabətə davam gətirmək kimi geniş imkanların açılmasına da xidmət etmiş olur.

Təhsil sahəsində innovasiyaların tətbiqi, eyni zamnda yetişən nəsildə qabiliyyət, bacarıq və səriştələrin inkişaf etdirilməsinə də təkan vermiş olur. Bununla bərabər, müəllimlərdə öyrətmək tərzi, motivasiya yaratmaq, yetişən nəsildə bacarıqlar formalaşdırmaq, yaradıcılıq, müstəqillik kimi müsbət keyfiyyətləri özündə ehtiva edən səriştələr daha da formalaşmış olur.

Demək ki, təhsildə innovasiyaların tətbiqi həm şagirdləri, həm tələbələri, həm də müəllimləri araşdırmaya, kəşf etməyə, yeni nəyisə üzə çıxarmağa daha da həvəsləndirmiş olur. Yaradıcı tədris, texnologiyalara əsaslanan təlim fəaliyyəti gənclərimizi gələcəyin mükəmməl bir vətəndaşı kimi yetişdirməyə zəmin yaradır. Bu mənada, bu gün təhsilimizin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması bir tələb kimi çıxış edir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Qeyd etdiyimiz kimi, təhsilimizin keyfiyyəti, inkişafı dövlət siyasətinin əsasını təşkil edir. Bu inkişafın təmin edilməsi üçün standartlar və normalar hazırlanır, mühüm əhəmiyyət kəsb edən təşəbbüslər irəli sürülür, tarixi qərarlar qəbul edilir. Bu baxımdan da, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas məqsədlərindən biri: "Ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır" (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013).

Bu gün təhsilimizdə yeniliklərin tətbiq ediləsi, informasiya - kommunikasiya texnologiyalarından istifadə, maddi-texniki təminat rəqəmsal təhsilin inkişafına geniş imkanlar açmış olur. Əlbəttə, qeyd edildiyi kimi: "Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm və təhsilin, elmtutumlu cəmiyyətin və mədəniyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilmişdir" (Kazımzadə, 2018).

Göründüyü kimi, həyata keçirilən islahatların başlıca məqsədi rəqabətə davamlı milli innovasiya sisteminin yaradılmasıdır ki, Ölkə Prezidenti İlham Əliyev tərəfindən innovasiyaların inkişafı üçün milli innovasiya sistemi yaradılmışdır.

Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: "Azərbaycanın uğurlu iqtisadi islahatlar siyasəti bu gün imkan verir ki, əldə olunan gəlirləri biz humanitar sahələrə, təhsilə, səhiyyəyə, yeni texnologiyaların tətbiq olunmasına yönəldək. Uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyalara sahib çıxmalıdır. İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olmasına, tətbiqinə görə inkişaf edirlər. Biz bu yolu seçməliyik" (Qasımov, Nəcəfov, 2009).

Bəli, biz bu yolu seçdik. Təhsilimizin inkişafı üçün innovativ yanaşmalara geniş meydan verildi. Təhsilimizdə texnologiyaların istifadəsi böyük bir inqilab yaratdı. Belə ki, virtual dərslər, onlayn kurslar, interaktiv lövhələr, mobil tətbiqlər, süni intellekt kimi texnologiyalar təhsil mühitimizi dəyişdi.

Deməli ki, təhsil nəinki keyfiyyətli olmalı, həm də sürətlə dəyişən və qloballaşan dünyanın çağırışlarına cavab verməlidir. Bütün bunlar isə təhsilin davamlı inkişafı ilə əlaqəlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013, oktyabr 25). *Azərbaycan müəllimi* qəzeti, 2.
2. Kazımzadə, A. (2018, fevral 1). Elm və təhsilə innovativ yanaşma və innovasiyaların tətbiqi zamanın tələbidir. *525-ci qəzet,* 4.
3. Qasımov, F., & Nəcəfov, Z. (2009). *İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri.* Elm, 416.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 38-40
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 38-40
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**İradə Kərimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-8057-8333
irade.kerimova.81@mail.ru

# Şəxsiyyətin formalaşmasinda ailənin rolu

***Açar sözlər:*** *şəxsiyyət, ailə, tərbiyə, münasibət, mühit, mənəvi dəyər*
***Keywords:*** *personality, family, upbringing, attitude, environment, moral value*

İnsanın həyat yolu şəxsiyyətin ailədə və ictimai tərbiyənin müxtəlif vasitələrində formalaşması prosesindən başlayır. Şəxsiyyətin formalaşması, insanın sosiallaşma prosesi ilə sıx bağlıdır. Bu prosesin təməl mərhələsi isə ailədən başlayır. Ailə tərbiyəsi şəxsiyyətin formalaşmasına çox böyük təsir göstərir. Ailə — yalnız bioloji və hüquqi birliyə əsaslanan bir struktur deyil, həm də şəxsiyyətin ilkin sosial təcrübə qazandığı, dəyərləri mənimsədiyi və emosional əsasların qoyulduğu mühüm bir mühitdir. Bu baxımdan, ailənin tərbiyəedici və formalaşdırıcı funksiyası danılmazdır. Cəmiyyətin sosial əsası hesab edilən ailə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Çünki gənc nəslin yetişməsində ailənin xüsusi rolu vardır.

Hər bir uşağın böyüdüyü ailədə mövcud olan münasibətlərin forması, ailə üzvlərinin həyat tərzi, maraqları, dəyərlər sistemi, dünyagörüşü, sevgisi, hörməti həmin ailədə böyüyən uşağın tərbiyəsinə təsir edəcəkdir. Uşaqlıq vaxtından valideynlərin onlara qarşı diqqəti, hörməti, sevgisi bütövlükdə münasibət tərzi uşağın yaddaşına həkk olunacaqdır. Hafizənin tərbiyə olunması şəxsiyyətin ümumi inkişafı ilə qarşılıqlı vəhdətdə reallaşır. Bu

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

baxımdan ailədə uşaqlara qarşı göstərilmiş hər hansı bir zorakılıq, şiddət və laqeyidsizlik təsirsiz ötüşmür. Buna görə də bir cəhəti nəzərdən qaçırtmaq olmaz. Uşaq böyüdüyü mühitin xüsusiyyətlərini mənimsəyir, yaşadığı həyat tərzi onu daim şüuraltı olaraq formalaşdırır. Bu baxımdan da hər bir ailədə valideyn uşaqlara tərbiyə verərkən, öz davranışlarına hər zaman nəzarət etməli, düzgün şəxsiyyətlərarası münasibətləri təmin etməli, övladlarına aşılamaq istədikləri mənəvi dəyərləri öz həyatlarında yaşayaraq, onlara nümunə olmalıdırlar.

1. Ailə şəraitinin psixoloji və emosional təsiri

Ailədəki münasibətlər, ünsiyyət forması, valideynlərin davranış modelləri uşağın emosional zəmininin və psixoloji sabitliyinin formalaşmasında həlledici rol oynayır. Demokratik, sevgi dolu və sabit ailə mühiti uşağın özünə inamlı, sosial cəhətdən uyğunlaşa bilən və yaradıcı şəxsiyyət kimi yetişməsini təmin edir. Əksinə, aqressiv və ya laqeyd ailə modeli isə emosional travmalar, özgüvən əksikliyi və sosial fobiya kimi fəsadlara səbəb ola bilər

2. Valideyn nümunəsi və öyrənmə modeli

Uşaqlar erkən yaşlardan müşahidə və təqlid yolu ilə davranış öyrənirlər. Valideynlərin sosial münasibətləri, etik prinsiplərə sadiqliyi, əmək və ictimai fəaliyyətə münasibəti uşağın daxili dəyərlər sisteminin formalaşmasına təsir göstərir. Uşaq valideynini yalnız tərbiyəçi deyil, həm də rol modeli kimi qəbul edir.

3. Ailənin sosial və mədəni kapitalı

Ailənin təhsil səviyyəsi, sosial statusu, mədəni dəyərlərə münasibəti uşağın intellektual və sosial inkişafında ciddi rol oynayır. Mədəni və təhsilli ailələrdə böyüyən uşaqlar daha tez özünüifadə bacarığı, kritik düşüncə və təşəbbüskarlıq nümayiş etdirir. Bu da onların cəmiyyətə daha uğurla inteqrasiya olunmasına şərait yaradır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

4. Ailə mühitinin şəxsiyyətin sosiallaşmasında rolu

Ailə ilkin sosial institut olaraq, uşağı cəmiyyətin digər strukturlarına (məktəb, ictimai qruplar, dövlət) hazırlayır. Əmək bölgüsü, sosial rolların bölüşdürülməsi, qarşılıqlı hörmət və məsuliyyət kimi prinsiplər ilk dəfə ailədə öyrədilir. Bu da uğurlu sosiallaşma və şəxsiyyətin stabil inkişafı üçün baza rolunu oynayır.

5. Müasir ailə modelləri və yeni tendensiyalar

Müasir dövrdə ailə institutu dəyişir: yalnız ana və ya yalnız ata ilə böyüyən uşaqlar, ailə daxilində informasiya texnologiyalarının dominantlığı, karyera mərkəzli həyat tərzi kimi hallar ailənin funksiyalarını dəyişdirir. Bu dəyişikliklər isə yeni psixoloji və sosial çağırışlar yaradır.

Şəxsiyyətin formalaşması çoxfaktorlu bir proses olsa da, onun təmini və istiqamətvericisi ilk növbədə ailədir. Ailənin funksional olması — sevgi, nəzarət, ünsiyyət və dəyər aşılaması baxımından — uşağın sağlam şəxsiyyət kimi formalaşmasının açarıdır. Bu səbəbdən ailə siyasəti və ailədaxili tərbiyə metodları cəmiyyətin gələcəyi baxımından strateji əhəmiyyət daşıyır.

Bir nüansı yadda saxlayaq ki, bu günün ailəsi gələcək sağlam cəmiyyət üçün şəxsiyyətlər yetişdirir. Hər bir ailədə böyüyən mənəvi-əxlaqi dəyərlərə malik savadlı, sağlam tərbiyəli övladlar sağlam cəmiyyət və sağlam gələcəyimizin təminatıdırlar.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Azad Novruzov**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-9447-6073
azad.novruzov.65@mail.ru
**Aysen Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0003-1928-0743
aysenmemmedova@nmi.edu.az

# Riyaziyyatın öyrənilməsində psixoloji maneələr və onların innovativ həlli yolları

***Açar sözlər:*** *riyaziyyat təhsili, psixoloji baryerlər, motivasiya, riyaziyyat qorxusu, STEAM, innovativ pedaqogika*
***Keywords:*** *mathematics education, psychological barriers, motivation, math anxiety, STEAM, innovative pedagogy*

Müasir dövrdə təhsil sisteminin əsas məqsədi yalnız biliklərin ötürülməsi deyil, həm də yaradıcılıq, innovativ düşüncə və problem həll etmə bacarıqlarının formalaşdırılmasıdır. Riyaziyyat fənni bu hədəflərin həyata keçirilməsində mühüm vasitədir. Lakin pedaqoji təcrübə göstərir ki, riyaziyyat tədrisində psixoloji baryerlərin mövcudluğu şagirdlərin fənnə münasibətini zəiflədir, nəticədə onların bilik və bacarıqlarında gerilik müşahidə olunur (Məmmədov, 2018; Ashcraft, Krause, 2007).

Gündəlik həyatın bir çox sahəsində və gələcək peşəkar fəaliyyətlərdə mühüm rol oynayan riyaziyyatın mənimsənilməsində rast gəlinən psixoloji baryerlərin öyrənilməsi və onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi riyaziyyatçı müəllim və pedaqoqların qarşısında duran mühüm vəzifələrindən biridir (Əliyeva, 2020).

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Riyaziyyatın öyrənilməsində əsas psixoloji maneələr aşağıdaki kimi şərh olunur:

**1. Riyaziyyat qorxusu**

Riyaziyyat qorxusu öyrənmə prosesində ən çox rast gəlinən psixoloji baryerlərdən biridir. Bu hal şagirdlərin riyazi tapşırıqları icra edərkən həyəcanlanması, fikrini toplamaqda çətinlik çəkməsi və nəticədə uğursuzluq yaşaması ilə müşahidə olunur (Hattie, 2009). Araşdırmalar göstərir ki, riyaziyyat qorxusu beynin emosional fəaliyyətinə təsir göstərərək yaddaşın və diqqətin zəifləməsinə səbəb olur. Bu hal şagirdlərin riyazi məsələlərin həllində uğursuzluğa uğramasına gətirib çıxarır.

**2. Motivasiya çatışmazlığı**

Motivasiyanın aşağı olması riyaziyyat fənninə marağı zəiflədir. Riyaziyyatın gündəlik həyatda və gələcək peşə seçimlərindəki əhəmiyyəti göstərilmədikdə şagirdlər bu fənni mənasız hesab edə bilirlər. Deci və Ryanın (2000) özünümüəyyənləşdirmə nəzəriyyəsinə əsasən, motivasiya iki əsas formaya bölünür: daxili və xarici. Riyaziyyatın gündəlik həyatla əlaqələndirilməməsi daxili motivasiyanın azalmasına səbəb olur (Dweck, 2006).

**Özünə inamsızlıq**

“Riyaziyyatı bacarmıram” düşüncəsi şagirdin potensialının qarşısını alır. Uğursuzluq təcrübəsi təkrarlana-təkrarlana özünəinam azalır və nəticədə tədris nəticələri zəifləyir.

Bandura (1997) özünəsəmərəlilik nəzəriyyəsində göstərir ki, şagirdlərin “bacararam” inancı öyrənmənin keyfiyyətinə birbaşa təsir edir. Riyaziyyatda təkrarlanan uğursuzluqlar bu inancı zəiflədir.

**Sosial stereotiplər**

Cəmiyyətdə formalaşmış “riyaziyyat yalnız istedadlı insanlar üçündür” və ya “riyaziyyatı hər adam öyrənə bilməz” və s.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

kimi kimi stereotiplər öyrənmə prosesinə ciddi mənfi təsir göstərir.

**Müəllim–şagird münasibətlərində psixoloji baryerlər**

Müəllimin sərt, qeyri-motivasiyaedici davranışları və şagirdlərin səhvlərinə dözümsüz yanaşması riyaziyyata qarşı mənfi emosional münasibət formalaşdırır (Hüseynov, 2016; Hattie, 2009).

Riyaziyyatın tədrisində psixoloji maneələrin aşağıdaki innovativ  yollarla aradan qaldırmaq olar:

1. Rəqəmsal texnologiyaların tətbiqi

Müasir dövrdə təhsil texnologiyaları riyaziyyat öyrənməsində mühüm rol oynayır. İnteraktiv tətbiqlər, mobil oyunlar və simulyasiyalar öyrənməni əyləncəli və daha effektiv edir.

2. STEAM yanaşması

Riyaziyyatın elm, texnologiya, mühəndislik və incəsənətlə inteqrasiyası şagirdlərdə yaradıcı düşüncəni və praktiki tətbiqləri gücləndirir.

3. Psixoloji dəstək

Şagirdlər üçün motivasiyaedici proqramlar, fərdi məşğələlər və emosional dəstək onların özünəinamını artırır və uğur əldə etməsinə kömək edir.

Müəllimlərin emosional-intellektual bacarıqlarının inkişafı. Müəllim yalnız fənn biliklərini ötürməməli, həm də psixoloji dəstək göstərməlidir. Emosional intellekti yüksək müəllimlər şagirdlərdə riyaziyyata maraq və inam yaradır.

4. İnnovativ pedaqoji metodlar

- Differensial təlim – fərqli səviyyəli şagirdlər üçün fərdi tapşırıqlar.
- Problem əsaslı öyrənmə – real həyatdan götürülmüş məsələlərin həlli.
- Kollektiv öyrənmə – qrup müzakirələri və komanda işi vasitəsilə öyrənmə (Məmmədov, 2018)

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Riyaziyyatın öyrənilməsində psixoloji maneələr yalnız təhsil nəticələrinə deyil, həm də şagirdlərin gələcək inkişaf perspektivlərinə təsir edir. Onların aradan qaldırılması üçün ənənəvi metodlar kifayət etmir. İnnovativ pedaqoji yanaşmalar, rəqəmsal texnologiyalar, psixoloji dəstək və STEAM inteqrasiyası riyaziyyat tədrisinin keyfiyyətini artırmaqda mühüm vasitədir.

Tədqiqat nəticəsində aşağıdaki tövsiyyələr formalaşmışdır:

1. Riyaziyyat tədrisində rəqəmsal platformalardan sistemli istifadə olunmalıdır.
2. Riyaziyyat dərsləri gündəlik həyatla əlaqələndirilməli, şagirdlərə praktiki tətbiqlər göstərilməlidir.
3. Müəllimlərin emosional-intellektual inkişafı üzrə təlimlər təşkil olunmalıdır.
4. Riyaziyyat qorxusu olan şagirdlərlə fərdi psixoloji dəstək proqramları həyata keçirilməlidir.
5. Gender stereotiplərinin aradan qaldırılması üçün ictimai maarifləndirmə aparılmalıdır.

Riyaziyyatın öyrənilməsində müşahidə olunan psixoloji baryerlər yalnız təhsil nəticələrinə deyil, həm də gələcək karyera seçimlərinə təsir edir. Bu baryerlərin aradan qaldırılması müasir pedaqogikanın əsas vəzifələrindəndir. İnnovativ metodların tətbiqi, rəqəmsal texnologiyalar, STEAM yanaşması və psixoloji dəstəyin təmin olunması riyaziyyatın öyrənilməsini daha maraqlı, əhatəli və səmərəli edir.

## Ədəbiyyat

1. Məmmədov, R. (2018). *Riyaziyyat tədrisində müasir pedaqoji yanaşmalar və onların tətbiqi.* Təhsil Nəşriyyatı.
2. Əliyeva, S. (2020). Şagirdlərin riyaziyyata münasibətinə təsir edən psixoloji amillər. *Azərbaycan Məktəbi,* 3(1), 45–52.
3. Hüseynov, A. (2016). *Riyaziyyatın tədrisi metodikası.* Çıraq Nəşriyyatı.

4. Ashcraft, M. H., & Krause, J. A. (2007). Working memory, math performance, and math anxiety. *Psychonomic Bulletin & Review, 14*(2), 243–248. https://doi.org/10.3758/BF03194059
5. Dweck, C. S. (2006). *Mindset: The new psychology of success.* Random House.
6. Hattie, J. (2009). *Visible learning: A synthesis of over 800 meta-analyses relating to achievement.* Routledge.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 48-50
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 48-50
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nurlanə Novruzi**
Naxçıvan Müəllimlər İnstitutu
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3712-2111
nnurlana91@mail.ru

# Biologiya fənninin tədrisində süni intellekt və psixoloji təsirlər

***Açar sözlər:*** *biologiya tədrisi, süni intellekt, psixoloji təsirlə, öyrədən, öyrənən motivasiyası*
***Keywords:*** *biology teaching, artificial intelligence, psychological effects, teacher, learner motivation*

*Süni intellektin* fənlərin tədrisinə inteqrasiyası bu prosesi fərdiləşdirməyə, təcrübəyə əsaslanmış öyrənmə imkanları yaratmağa və daha səmərəli nəticələr əldə etməyə imkan verir. Eyni zamanda, bu texnologiyaların şagirdlərin motivasiyası, diqqət səviyyəsi və emosional rifahına təsiri də vacib tədqiqat predmetidir. Bugün auditoriyalarda *süni intellekt* əsaslı tədris olunmasa da, yaxın gələcəkdə bunun zərurət halını alacağı gözlənilir. Belə ki, bu gün müəllimin idarəçi və istiqamətverici fasilyator olduğu auditoriyalarda, artıq, fənlərin tədrisində texnologiyalardan düzgün istifadəyə istiqamətverici rol oynayacağı gözlənilir. Hətta bir-sıra inkişaf etmiş ölkələrdə "öyrənənin qiymətləndirilməsi" prosesini *süni intellekt*ə həvalə edilməsi daha labüd qəbul edilir. Burada əsas məqsəd öyrənənlərin qiymətləndirilməsində real yanaşmanı təmin etməkdir. Həmçinin bu qiymətləndirmə öyrənənlərin nəticələrini, onların real potensialını analiz etməyə və gələcək karyeraları üçün müəyyən proqnoz verməyə qadirdir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Bu minvalla bildiyimiz kimi "Biologiya" fənninin tədrisi öyrədənlərdə həm nəzəri bilikləri, həm də praktik vərdişləri tələb edən mürəkkəb bir fənndir. Lakin bu mürəkkəbliyin qismən aradan qaldırılmasında *süni intellekt*dən istifadə məqsədəuyğun hesab edilə bilər. Belə ki, nəzəri biliyin simulyator proqramlarla nümayişi öyrənənlərdə ciddi elmi baza yarada bilər. Məsələn, *fotosintez* prosesini nəzəri öyrənmək yerinə, virtual laboratoriyada müşahidə edilməsi daha effektiv nəticə almağa kömək edəcəkdir. Həmçinin, hüceyrənin bölünməsi, genetik kodlaşdırma və b. bu kimi proseslər simulyasiya olunarsa öyrənənlərdə daha real elmi baza yaratmaq mümkün olar.

Lakin, *süni intellektin* və müasir texnoloji vasitələrin tədris mühitində geniş tətbiqi bəzi psixoloji risklər də daşıyacaqdır. Burada ilk növbədə ətraf mühitdən təcrid olunan öyrənənin öyrədən və auditoriya yoldaşları ilə qarşılıqlı münasibətləri zəifləyəcək. Çünki bu istiqamətli dərslərin tədrisi hər bir öyrənən üçün fərdi xarakter daşıyır. Həmçinin texnologiyanın davamlı inkişafı insanlar üzərində diqqət dağınıqlığı və motivasiya azalması ilə müşayiət olunduğu kimi, bu öyrənənlərdə də özünü göstərəcək. Uzun müddət dərslərin tədrisi interaktiv platformalarda təşkil edilərsə öyrənənlərdə emosional tükənmə və sosial təcrid effekti yaradır. Bu səbəbdən *süni intellekt* əsaslı texnologiyaların istifadəsi zamanı öyrənənlərin yaş xüsusiyyətləri, öyrənmə tərzi və psixoloji hazırlığı nəzərə alınmalıdır.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nəzakət Yusifova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-480-033X
yusifovanezaket233@ndu.edu.az
**Qızıltac Şahbazova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0000-2381-0928
qshsahbazova@gmail.com

# Müəllimlərin innovativ fəaliyyətinin psixoloji şərtləri

***Açar sözlər:*** *müəllim, pedaqoji kollektiv, təhsil müəssisələri, innovativ fəaliyyət, pedaqoji innovasiya*
***Keywords:*** *teacher, pedagogical staff, educational institutions, innovative activity, pedagogical innovation*

Məktəb təhsilinin davamlı inkişafına ehtiyac xarici və daxili amillərin təsirini müəyyən edir. Dövrün tələblərinə uyğun olaraq müasir məktəblər öz pedaqoji sistemlərində dəyişikliklər edir. Lakin araparılan təhlillərdən görünür ki, təhsil müəssisələrində baş verən dəyişikliklərin məzmunu, onların tempi cəmiyyətin tələbatına cavab vermir. Hazırda getdikcə aydın olur ki, təhsilin modernləşdirilməsi proseslərinin həyata keçirilməsi məktəb potensialının aktuallaşdırılmasını tələb edir. Bu, məktəblərin innovativ fəaliyyətinin təkmilləşdirilməsi kimi aktual praktiki problemin mövcudluğundan xəbər verir ki, onun uğurlu həlli elmi baza tələb edir. Belə bir elmi baza "pedaqoji innovasiya" adlı nisbətən yeni elmi istiqamət çərçivəsində yaradılır. İndiyədək məktəb fəaliyyətində dəyişikliklərin həyata keçirilməsi üçün müxtəlif modellər V.P.Bespalko, P.Dalin, V.Rust, L.de Kaluve,

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

E.Marks, M.Petri, V.S.Lazarev, M.M.Potaşnik və b. tərəfindən işlənib hazırlanmışdır. Pedaqoji innovasiyanın konseptual aparatı K. Angelovski, E.M. Gorenkov, A.Y. Nain, S. D. Polyakov, L.S. Podymova, O. G. Xomeriki, N.R. Yusufbekova və b.tərəfindən hazirlanir. İnnovasiya proseslərinin strukturu A.A.Arlamov,V.İJuravlev, V.S.Lazarev, B.P.Martirosyan və b. tərəfindən tədqiq olunur. Pedaqoji innovasiya üzrə tədqiqatlar pedaqoji kadrların innovativ fəaliyyətə cəlb edilməsi probleminə böyük əhəmiyyət verir. Bununla belə, bu problem nəzəri cəhətdən zəif öyrənilmiş olaraq qalır: nə pedaqoji innovasiya, nə də psixoloji elm hələ də pedaqoji kollektivin innovativ fəaliyyətdə iştirakının artırılmasının praktiki problemlərinin həlli üçün nəzəri və metodoloji əsas yaratmayıb. Bu, sahədə aparılan tədqiqatların aktuallığını müəyyən edir. Aparılan araşdirmalar nəticəsində pedaqoji kollektivin innovativ fəaliyyətinin psixoloji şəraitinin qiymətləndirilməsi məqsədilə yeni bir metodologiya - "BƏLƏBÇƏ" - innovativ fəaliyyətə hazırlığı təklif olunmuşdur. İlkin məlumatların mənbəyi məktəb rəhbərlərinin, müəllimlərin və ekspertlərin rəyləri, mülahizələri, qiymətləndirmələridir. Bu metodologiyada innovativ fəaliyyətin psixoloji şəraiti (potensial innovativ fəaliyyət) 3 meyar və 62 göstərici ilə qiymətləndirilir. İnnovativ fəaliyyət 10 göstərici ilə qiymətləndirilir. Pedaqoji kollektivin innovativ fəaliyyətinin psixoloji şəraiti onun bu fəaliyyətə hazırlığının tərkib hissələridir. Biz pedaqoji kollektivin innovativ fəaliyyətə hazırlığını onun fəallığını və məktəbin inkişafı problemlərinin həllində iştirakının səmərəliliyini müəyyən edən bir keyfiyyət kimi başa düşürük. Məktəbin inkişafı problemlərinin həllində bütün komanda üzvlərinin optimal fəal və maksimum səmərəli iştirakı pedaqoji kollektivin innovativ fəaliyyətə hazırlıq səviyyəsini müəyyən edir. İdeal olaraq, innovativ fəaliyyətin idarə edilməsində müəllimlərin fəaliyyətinin optimal olacağı və iştirakın

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

effektivliyinin mövcud şəraitdə mümkün olan ən yüksək olacağı bir struktur ola bilər. Pedaqoji kollektivin innovativ fəaliyyətə hazırlığının beş komponentli modelinə (T.N.Razuvaeva) uyğun olaraq, kollektivin innovativ fəaliyyətini şərtləndirən aşağıdakı psixoloji şərtləri müəyyən etmək qanunauyğundur: komandanın dəyişikliklərə diqqət yetirməsi; məktəbin inkişafı problemlərinin həllinə etik hazırlıq; innovativ fəaliyyət şəraitinin müsbət qavranılması.

Dəyişikliklərə diqqət yetirilməsi parametri pedaqoji kollektivi onun üzvlərinin bütövlükdə məktəbin və onun ayrı-ayrı hissələrinin inkişaf ehtiyaclarına münasibətinin ideal kollektivin sosial-psixoloji strukturuna nə dərəcədə uyğun olması nöqteyi-nəzərindən xarakterizə etmək üçün tətbiq edilmişdir. Məktəbin təhsil fəaliyyətinin və ya özünün pedaqoji fəaliyyətinin inkişaf ehtiyaclarına müəllimin münasibəti bu fəaliyyətin necə olmalı olduğu ilə uyğunluğunun subyektiv qiymətləndirilməsi şəklində həyata keçirilir. Burada subyektiv qiymətləndirmələrin müxtəlif variantları mümkündür: tam uyğunluğun və dəyişikliklərə ehtiyacın olmamasının tanınmasından, köklü dəyişikliklərə ehtiyacın tanınmasına qədər.

Pedaqoji kollektivin ideal sosial-psixoloji strukturunda (ideal kollektivin strukturunda) bütün müəllimlər həm bütövlükdə məktəbin, həm də onun hissələrinin təhsil sisteminin, həm də öz fəaliyyətlərinin inkişafına diqqət yetirirlər. Etik hazırlıq parametri müəllim heyətinin bütövlükdə məktəbin və onun ayrı-ayrı hissələrinin inkişafı problemlərinin həlli üçün məsuliyyət daşıması üçün təqdim edildi. İdeal komandanın strukturunda bütün müəllimlər bütün səviyyələrdə innovativ fəaliyyətin idarə edilməsi problemlərinin həllində iştirak etməyi özləri üçün zəruri hesab edirlər. Məktəbin təhsil sistemində dəyişikliklərin zəruriliyini dərk etmək və dəyişikliklərin idarə edilməsi problemlərinin həlli üçün məsuliyyət daşımağa hazır olmaq

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

müəllimin innovativ fəaliyyətdə fəal iştirakı üçün zəruri, lakin kifayət qədər şərt deyil. Məktəbdə mövcud şərait müəllimlər tərəfindən innovativ fəaliyyətdə iştirak üçün əlverişsiz kimi qiymətləndirilərsə, bu, onların innovativ fəaliyyətinə mənfi təsir göstərəcəkdir. Pedaqoji kollektivin ideal psixoloji strukturunda bütün müəllimlər məktəbdəki mövcud şəraiti onların innovativ fəaliyyətdə iştirakları üçün çox əlverişli kimi qiymətləndirirlər ki, bu da onlarda öz dəyər yönümlərini həyata keçirməyə və həddindən artıq stress və mənfi təcrübələrdən qaçmağa imkan verir. Adı çəkilən komponentlər müəllimin və kollektivin potensial innovativ fəaliyyətinin strukturunu təşkil edir.

Aparılan araşdırmalardan məlum olur ki, məktəbdə pedaqoji fəaliyyətin təkmilləşdirilməsi vəzifələri müəllim və rəhbərlik tərəfindən birgə həll edilməlidir. Gördüyümüz kimi, məktəblərdə aparılan tədqiqatların ən yaxşı nəticəsi ümumilikdə innovativ fəaliyyət üçün şəraitin müsbət qavranılması göstəricisində tapılıb. Pedaqoji kollektiv məktəblərdə innovativ fəaliyyətlərdə iştirakdan yayınma motivlərini azaldan bu kimi (həmkarlar innovativ fəaliyyətdə fəal iştirak edən müəllimlərə mənfi münasibət göstərmirlər; innovativ fəaliyyət həmkarları ilə münaqişələrə səbəb olmur) şəraitin olması qeyd olunub. İnnovativ fəaliyyətdə iştirak üçün daxili şəraitin təmin edilməsi üçün məktəb mühitinin əlverişli şəraitinin müəllim heyəti tərəfindən qiymətləndirilməsinin tədqiqi göstərdi ki, müəllimlər bu fəaliyyətlə məşğul olmağa hazırdırlar, əgər onlar üçün maraqlıdırsa, müsbət emosiyalarla müşayiət olunursa və onda mühüm nəticələr əldə etmək olar.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Jalə Abbaszadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0021-4102-0476
jaliyeva80@gmail.com

# Təhsildə psixoloji yanaşmalar və müasir pedaqoji innovasiyalar

***Açar sözlər:*** *təlim, emosional inkişaf, psixologiya, müasir pedaqogika*
***Keywords:*** *training, emotional development, psychology, modern pedagogy*

Müasir dövrdə təhsil sisteminin sürətlə dəyişərək inkişaf etməsi zərurət kimi yeni psixoloji və pedaqoji yanaşmaları tələb edir. Çünki müasir təhsil sistemi yalnız bilik verməklə yox, eyni zamanda şagirdlərin psixososial bacarıqlarını inkişaf etdirmək, müstəqil düşünmə bacarığını formalaşdırmaq və sosial-emosional inkişafını dəstəkləməklə həyata keçirilməlidir. Yetişən nəslin şəxsiyyətli, inamlı və sosial yetkin kimi formalaşması prosesində bu cür konsepsiyalara mütləq ehtiyac vardır. Belə ki, diferensial təlim, fərdi yanaşma, konstruktiv təlim, humanist pedaqogika və inklüziv təhsil kimi psixoloji əsaslı konsepsiyalar bu tələbin öz həllini tapmasında əhəmiyyətlidir. Təlim prosesinin keyfiyyətini artırmaq, şagirdin motivasiyasını gücləndirmək və onların yaradıcı təfəkkürünü inkişaf etdirmək üçün bir çox müasir pedaqoji innovasiyalardan istifadə mütləq əhəmiyyət kəsb edir. Distant və hibrid təlim, rəqəmsal texnologiyalar, oyunlaşdırma, STEAM metodologiyası və layihə əsaslı müasir pedaqoji innovasiya təlim metodları öz növbəsində müasir təhsil prosesində öz əhəmiyyətini qoruyur. Təlim zamanı müəllim

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

şagird münasibətləri kontekstində sağlam emosional mühiti formalaşdırmaq, şagirdin emosional bacarıqlarını formalaşdırmaq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək məqsədi ilə psixoloji yanaşmalarla pedaqoji innovasiyaların inteqrasiyası müasir təhsil prosesinin əsas tələblərindən birinə çevrilmişdir.

Təhsil prosesinin keyfiyyətinə təsir edən əsas amil, şübhəsiz ki, psixoloji formada nəzərdə tutulmuş müasir pedaqoji innovasiyalardan geniş şəkildə istifadə edilməsidir. Xüsusilə də inteqrativ təlim metodları, rəqəmsal təhsil vasitələri və fərdiləşdirilmiş təhsil strategiyalarını bunlara aid etmək olar.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Sevinc Orucova**
Naxçıvan Müəllimlər İnsitutu
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-2464-3199
s.orucova.71@gmail.com

# Praktik psixoloqun əxlaq kodeksinə daxil olan əxlaq normaları

***Açar sözlər:*** *əxlaq kodeksi, psixoloji xidmət, praktik psixoloq, psixodioqnostik, psixoprofilaktika*
***Keywords:*** *code of ethics, psychological service, practical psychologist, psychodiagnostics, psychoprophylaxis*

Məktəbdə və digər təlim-tərbiyə müəssisələrində müəllim və tərbiyəçilərlə birlikdə çalışan psixoloq öz peşə borcunu, peşəkar fəaliyyətini yerinə yetirir. Onun fəaliyyəti hüquqi-normativ əsaslarla reqlamentləşdirilmiş məzmun daşıyır. Bir çox peşələrdə olduğu kimi, praktik psixoloqun da artıq spesifik peşə etikası və buna əsaslanan əxlaqi prinsiplər məcmuyu əxlaq kodeksi yaranmışdır.Təhsil sistemində fəaliyyət göstərən praktik psixoloq pedaqoji kollektivin üzvü olmaqla yanaşı, uşaqların təlim-tərbiyəsində mərkəzi simalardan biri hesab olunur. O, xoş məramlı missiyanı yerinə yetirir, uşaq, yeniyetmə və gənclərin şəxsiyyət kimi inkişafı və formalaşması vəzifələrinin yerinə yetirilməsində peşəkar xidmət göstərir (Bayramov, Əlizadə, 1986).

Psixoloq peşəsində çalışan mütəxəssin özünəməxsus etikası, müəyyən əxlaqi-etik tələbləri və xüsusiyyətləri vardır. Bunların sırasında peşə borcuna sədaqət, peşə sirrini qorumaq, uşaqların mənafeyini qorumaq, ədalət və qərəzsizlik, vicdan və səmimiyyət, yüksək humanizm və s. adlarını qeyd etmək olar.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 54-57
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 54-57
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Psixoloji xidmət işində və onun strukturuna daxil olan praktik psixoloqun fəaliyyətinin idarə olunmasında əxlaq kodeksinin tənzimləyici rolu çox mühümdür. Bu və ya digər sosial situasiyarla qarşılaşarkən praktik psixoloq hüquq normaları təsəvvürü yaradan tənzimləyici qaydalara əməl etməlidir (Çələbiyev, 2003, s. 51).

Praktik psixoloq tez-tez qarşılaşdığı vəziyyətlərdə öz şəxsi hissləri və intuasiyası əsasında qərar qəbul edir. Belə hallar isə hüquq təcrübəsində yolverilməzdir. Hisslər və şəxsi intuisiya praktik psixoloqa vaxtında və dəqiq qərarlar qəbul etməkdə və ya potensial olaraq yanlış qərarın kor-koranə qəbul edilməsini ləngitməkdə, onu təxirə salmaqda kömək edir.

Praktik psixoloqun əxlaq kodeksi bir sıra mənbələr əsasında işlənib hazırlanmışdır. Bu mənbələr sırasına fəlsəfə, din, mədəniyyət, adət-ənənlər ideologiya və siyasət kimi insan fəaliyyəti sahəsinə daxil olan atributlar, ictimai şüur formaları daxildir. Əxlaqın bu sahələri bu və ya digər peşə kodeksinin yaranması və mövcudluğunun baza prinsiplərini müəyyənləşdirir. Məsələn, fəlsəfənin çox qədim sahələrindən biri “etika” adlanır. Bu bilik sahəsi əxlaqın elmi cəhətdən əsaslandırılmış təhlilini verir, bəşər mədəniyyəti və sivilizasiyanın inkişafı gedişində ictimai şüurun bu formasının meydana gəlməsi prosesini işıqlandırır.

Qədimdən bəri dini görüşlər özündə müəyyən mənəvi prinsipləri əks etdirməklə, dindarlar üçün əxlaq qanunu qüvvəsində olmuşdur. Mədəniyyət özündə cəmiyyətdə, ölkədə, təhsil sistemində, insanların şəxsi və işgüzar əlaqələrində ifadə olunan insan münasibətləri normalarını birləşdirir. Hər bir xalqın əxlaq normalarında bəşəri dəyərlərlə yanaşı, spesifik milli kalorit də mövcuddur. Bu, hər bir xalqın tarixi keçmişi, qan yaddaşı, milli adət və ənənələri əsasında yaranır (Əlizadə, 2004, s. 18).

Milli ideologiya və siyasət də öz növbəsində xalqın bütövlüyünü, vahidliyini təmin edilməsinə xidmət etməklə birgə, həm

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

də əxlaqi təsəvvür və normaların əsas mənbələrindən biridir. Onların təsiri altında xalqın milli mentaliteti, əxlaqi, milli və milli mənlik şüuru formalaşır. İdeologiya və siyasət eyni zamanda dövlətin, xalqın, millətin, sosial zümrələrin, siyasi partiyaların və əhalinin digər sosial qruplarının əxlaqi şüurunun təşəkkülündə əsas baza və mənbə funksiyasını yerinə yetirir. Ayrı-ayrı peşə adamlarının peşə əxlaqının əsasını təşkil edən əxlaq kodeksinin konkret məzmunu həm qeyd olunan amillərlə, həm də haqqında söhbət gedən peşənin spesifik xüsusiyyətlərindən asılıdır.

Müasir dövrdə təhsil sistemində psixoloji xidmətin artıq çoxdan fəaliyyət göstərdiyi ABŞ, Almaniya, İspaniya, Kanada, Yaponiya və s. kimi inkişaf etmiş ölkələrdə praktik psixoloqların spesifik əxlaq kodeksləri mövcuddur. Rusiyanın təhsil sistemində psixoloji xidmət ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq formalaşdığından, bu ölkədə praktik psixoloqun əxlaq kodeksi xeyli gec qəbul edilmişdir (Mərdanov, 2006).

Peşəkar praktik psixoloqun əxlaq kodeksinə daxil olan əxlaq normalarını onun fəaliyyət sahələrinə görə bir neçə qrupa ayırmaq olar. Bu mövqelər uşaqların maraqları ilə bağlı məsələlərin müzakirəsi, onların maraq və mənafelərinin pozulması, müəyyən metodikalar əsasında uşaqlarla diaqnostik, psixoprofilaktik, inkişafetdirici və korreksiya işlərinin təşkili və keçirilməsində, valideynlərlə, müəllimlərlə iş və s. kimi sahələrində konkret olaraq özünü göstərir.

Ümumiyyətlə, psixoloq peşəkar fəaliyyətdə onunla əlaqədar olan şəxslərə diqqətlə yanaşmalı, peşə etikasını gözləməyin, sirri saxlamağın zəruriliyini əsaslandırmalıdır. Bunun üçün psixoloq xəbərdarlıq etməlidir ki, onun işinə peşəkar müdaxilə müvafik səlahiyyətlərə malik yuxarı psixoloji xidmət orqanı tərəfindən edilə bilər. Psixoloq kənar şəxslərin qeyri-etik tələblərinin mümkünsüzlüyünü onlara bildirməlidir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Praktik psixoloqun imici və işgüzar nüfuzu onun şəxsi keyfiyyətlərindən, peşəkarlıq səviyyəsindən prinsipial mövqeyindən asılıdır. Psixoloq yüksək intizamı, ədalətli və obyektiv mövqeyi ilə fərqlənməli, qərəzkarlıq və saxtakarlıqdan uzaq olmalı, peşə borcuna, psixoloqun andına sədaqəti, peşə əxlaqı prinsiplərinə hörmətlə yanaşması ilə hamının rəğbətini qazanmağı bacarmalıdır.

## Ədəbiyyat

1. Bayramov, Ə. C., & Əlizadə, Ə. Ə. (1986). *Sosial psixologiyanın aktual məsələləri*. Azərbaycan Dövlət Nəşriyyatı.
2. Çələbiyev, N. Z. (2003). *Psixodiaqnostika məsələləri*. ADPU.
3. Əlizadə, Ə. Ə. (2004). *Müasir Azərbaycan məktəbinin psixoloji problemləri*. Pedaqogika.
4. Mərdanov, M. C. (2006, iyul 15). Azərbaycan Təhsil Sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri (YUNESKO ilə əməkdaşlıq kontekstində). *Azərbaycan müəllimi* qəzeti.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 58-61
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 58-61
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

# Azərbaycan dili dərslərində şagirdlərin psixoloji inkişafı

***Açar sözlər:*** *Azərbaycan dili, şagird, şəxsiyyət, ünsiyyət, psixoloji inkişaf*
***Keywords:*** *Azerbaijani language, student, personality, communication, psychological development*

Azərbaycan dili dərsləri yalnız təhsilalanların dil biliklərini artıran bir fənn deyil, həm də onların psixoloji inkişafında mühüm rol oynayan kompleks pedaqoji mühitdir. Dil öyrənmək şagirdin düşünmə tərzinə, emosional ifadəsinə, ünsiyyət bacarığına, özünüifadə səviyyəsinə və sosiallaşmasına birbaşa təsir edir. Bu səbəbdən Azərbaycan dili dərsləri təkcə qrammatik bilikləri deyil, həm də şagirdlərin şəxsiyyət kimi formalaşmasını dəstəkləyən psixoloji komponentləri özündə birləşdirir. Müasir təlim metodları və kommunikativ yanaşmalar şagirdlərin intellektual inkişafını stimullaşdırmaqla yanaşı, onların emosional və sosial ehtiyaclarını qarşılayan tədris mühiti yaradır.

*Azərbaycan dili dərslərinin psixoloji funksiyaları.* Azərbaycan dili təlimi şagirdlərin psixoloji inkişafına çoxşaxəli təsir göstərir. Buraya ünsiyyət bacarığının inkişafı, təfəkkürün formalaşması, özünəinamın güclənməsi, yaradıcı düşüncə qabiliyyətinin inkişafı, sosial münasibətlərin qurulması və emosional ifadə bacarığının artırılması daxildir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

1. *Ünsiyyət və sosial bacarıqların inkişafı.* Dil öyrənmə prosesi şagirdlərin bir-biri ilə fikir mübadiləsi aparmasını, dialoqa girməsini, münasibətlər qurmasını tələb edir. Azərbaycan dili dərslərində müzakirələr, debatlar, mətnlərin şifahi təqdimatı, dialoq qurma tapşırıqları şagirdlər arasında ünsiyyətin daha rahat və sərbəst olmasına şərait yaradır. Bu, onların sosial adaptasiya bacarıqlarını inkişaf etdirir, öz fikirlərini açıq şəkildə ifadə etməyi öyrədir və kollektivdə davranış mədəniyyətini formalaşdırır.

2. *Yaradıcı və tənqidi düşünmənin inkişafı.* Azərbaycan dili üzrə yazı tapşırıqları, inşa yazıları, mətnlərin təhlili, sual-cavab sessiyaları şagirdlərin həm yaradıcı, həm də tənqidi düşünmə qabiliyyətlərini gücləndirir. Şagird mətn üzərində işləyərkən ideyaları müqayisə edir, səbəb-nəticə əlaqələrini araşdırır, söz və ifadələr arasında əlaqəni müəyyənləşdirir. Bu proses intellektual çevikliyin artmasına, analitik düşüncənin inkişafına və düşüncələrin strukturlaşdırılmasına xidmət edir.

3. *Emosional inkişaf və özünüifadə bacarığı.* Azərbaycan dili dərslərində şagirdlər hekayələr, şeirlər, dialoqlar vasitəsilə öz hiss və düşüncələrini ifadə etməyi öyrənirlər. Yazı və danışıq fəaliyyətləri şagirdin daxili dünyasını üzə çıxarır, emosional tənzimləmə bacarıqlarını inkişaf etdirir. Müəllimin müsbət reaksiyası şagirdin özünəinamını artırır, onun şəxsiyyətini daha güclü şəkildə formalaşdırır.

4. *Motivasiya və təlimə marağın artması.* Tədrisdə müasir metodların, oyunların, qrup işinin və interaktiv fəaliyyətlərin tətbiqi şagirdlərdə motivasiyanı yüksəldir. Maraqlı tapşırıqlar şagirdlərin dərs prosesində fəallığını artırır, onların dilə qarşı müsbət münasibət formalaşdırmasına səbəb olur. Bu, ümumi psixoloji rahatlıq və dərsə qarşı pozitiv emosional yanaşma yaradır.

*Azərbaycan dili dərslərində tətbiq olunan psixoloji yanaşmalar*

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 58-61
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 58-61
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

1. *Şagirdyönümlü təlim.* Müasir Azərbaycan dili dərsləri şagirdin fərdi xüsusiyyətlərinə əsaslanan, onun inkişaf tempinə uyğunlaşan bir sistem üzərində qurulur. Müəllim hər bir şagirdin psixoloji xüsusiyyətlərini nəzərə alaraq tapşırıqları fərdiləşdirir, zəruri hallarda əlavə izah və dəstək göstərir. Bu yanaşma şagirdin özünü təhlükəsiz və dəyərli hiss etməsinə səbəb olur.

2. *Kommunikativ metod.* Kommunikativ yanaşmada əsas məqsəd şagirdi dilin real ünsiyyət mühitində istifadəçisinə çevirməkdir. Bu metod psixoloji baxımdan çox təsirlidir, çünki şagird danışmaqdan çəkinmir, səhv etmək qorxusunu aradan qaldırır, öz fikirlərini sərbəst şəkildə ifadə etməyə başlayır.

3. *İnteraktiv üsullar.* Rol oyunları, debatlar, qrup işləri, yaradıcı yazılar və dinləyib-anlama tapşırıqları şagirdlərin həm intellektual, həm sosial, həm də emosional inkişafını dəstəkləyir. Bu üsullar stresin azalmasına, özünəinamın güclənməsinə və əməkdaşlıq bacarıqlarının formalaşmasına kömək edir.

*Müəllimin rolu və psixoloji mühit.* Azərbaycan dili müəllimi yalnız bilik verən deyil, həm də psixoloji mühitin formalaşdırıcısıdır. Müəllimin münasibəti, ünsiyyət mədəniyyəti, şagirdlərə yanaşması onların davranışına və təlimə münasibətinə ciddi təsir edir. Pozitiv pedaqoji münasibət psixoloji rahatlıq yaradır və təlim prosesinin daha uğurlu olmasına yol açır.

Müəllim şagirdlərin fərdi xüsusiyyətlərinə hörmət etməli, onların inkişaf səviyyəsinə uyğun tapşırıqlar verməli, dərs prosesində təşviqedici yanaşmanı qoruyub saxlamalıdır. Dərsdə stresssiz və rahat mühitin yaradılması şagirdlərin həm akademik, həm də psixoloji inkişafını sürətləndirir.

Azərbaycan dili dərsləri şagirdlərin psixoloji inkişafında mühüm rol oynayır və onların şəxsiyyət kimi formalaşmasının əsas mərhələlərindən birini təşkil edir. Dil vasitəsilə şagird düşünür, hiss edir, əlaqə yaradır, özünü ifadə edir və sosial mühitdə mövcud olur. Buna görə Azərbaycan dili təlimi yalnız

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

söz və qrammatika öyrətməklə məhdudlaşmır; o, şagirdin emosional, sosial və intellektual inkişafını təmin edən əsas vasitələrdən biridir. Müasir təlim metodlarının tətbiqi, interaktiv və kommunikativ yanaşmalar, müəllim–şagird əməkdaşlığı psixoloji inkişafı daha da gücləndirir və şagirdləri gələcək təhsil və həyat üçün daha hazırlıqlı edir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 62-66
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 62-66
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nəzakət Yusifova**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-480-033X
yusifovanezaket233@ndu.edu.az

# Hüseyn Cavid yaradıcılığında şəxsiyyət problemi

***Açar sozlər:*** *şəxsiyyət, yaradicilik, əsərləri, şəxsiyyət, şəxsiyyət problemi*
***Keywords:*** *personality, creativity, works, identity, identity problem*

Müstəqil Azərbaycan dövlətinin dünya cəmiyyətinə uğurla inteqrasiya olunması şəraitində bacarıqlı, öz işi və əməli ilə xalqımızın ulu adət-ənənələrini yaşada bilən, dünənimizə hörmətlə yanaşıb sabahımızın xoşbəxtliyi naminə qəlbən çalışan hərtərəfli inkişaf etmiş yetkin şəxsiyyətlərin formalaşması zərurətini irəli sürür.

Qeyd edək ki, insanın şəxsiyyət kimi kamilləşməsində, mənəvi-estetik ideallarının formalaşmasında, bədii zövqünün tərbiyə edilməsində tükənməz söz sənətinin – bədii ədəbiyyatın rolu və əhəmiyyəti misilsizdir. Azərbaycan mütəfəkkiri və filosofu Hüseyn Cavid yaradıcılığında öz əksini tapmış şəxsiyyət probleminin öyrənilməsi Azərbaycan pedaqoji fikir tarixində önəmlı rola malikdir.

“Hüseyn Cavid yaradıcılığında şəxsiyyət problemi” mövzusu ayrılıqda demək olar ki, tədqiq olunmamış mövzulardan sayıla bilər. Bütövlükdə H.Cavid yaradıcılığı ayrı-ayrı alimlər o cümlədən filoloqlar, filosoflar, pedaqoqlar və s. tərəfindən tədqiq edilmişdir. K.Camalov, S.Xəlilov, R.Z.Xəndan,

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 62-66
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 62-66
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Ə.İbadoğlu, A.İsgəndərov, V.Osmanlı, S.Ş.Sadıqov, G.İ.Babaxanlı, N.Əzizova və s. tədqiqatçılar bu sıradandır.

H.Cavid yaradıcılığında əks olunmuş şəxsiyyətlə bağlı müəyyən məlumatlara dövri mətbuatda ədiblərimizin, tənqidçilərimizin qələmindən çıxan məqalələrdə də rast gəlmək olar. H.Cavid yaradıcılığı ilə bağlı məlumatları həmçinin “Cavidi xatırlarkən” (məqalələr və xatirələr), “Cavidşünaslıq” araşdırmalar toplusu kitablarında da izləmək mümkündür.

H.Cavid insan həyatının, qlobal, dramatik və böhranlı məqamlarını öz yaradıcılığında məharətlə ifadə etməyi bacaran bir dramaturq kimi adını tarixə yazan bir şəxsdir. H.Cavid sənətinin, poeziyasının bu xüsusiyyəti baxımından bütün əsərlərində qeydə alınan şəxsiyyət konsepsiyası onun bir silsilə təşkil edən “Şeyx Sənan”, “İblis”, “Peyğəmbər” dramlarında yüksək poeziya dili ilə öz bədii fəlsəfi tədqiqini tapmışdır. Şəxsiyyət H.Cavid sənətində böyük dramatik bir varlıq kimi əks olunur. Bu varlığın daxilində xeyir və şər, müharibə və sülh, qılınc və qələm arasında mübarizə əks etdirilir. Ən əsas məqam odur ki, bu mübarizədə yüksələn, qələbə çalan insandakı insanilik hissidir. İnsan öz inkişafında, tərəqqisində səmaya, Tanrı yüksəkliyinə can atır

H.Cavid əsərlərində insan, onun şəxsiyyəti, insanın mənəvi yüksəlişi, onun öz daxili mübarizəsi kimi məsələlər ön plana çəkilmiş, insanın tarixi, milli-mənəvi dəyərlərə münasibəti, şəxsiyyətə yanaşması əks etdirilmişdi.

H.Cavid hər yerdə şəxsiyyəti (insanı) öyrənir. Bədxah insanda iblisin, xeyirxah insanda Peyğəmbərin, Tanrının izlərini görən şairin ən böyük mqəsədi insan xoşbəxtliyini təmin etmək yollarını axtarmaqdır.

Şəxsiyyət həmişə hiss, duyğu, xəyal, arzu, idealla yaşayır. Xəyal insanın həyata keçirəcəyi planların təxəyyülündəki

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

təkmindir ki, bu da hələ, gələcəkdə həyata keçiriləcək hadisələrin surətlərini yaradır.

İnsan cövhərindəki İblisə xaslıqla gizli bir faciə rüşeymi də var ki, bu da özünü sonralar şəxsiyyətin özünə vərdiş ideyasında - Allahlıq ideyasında əks olunur.

"Şeyx Sənan" faciəsində şəxsiyyət (insan) ictimai bir anlayış kimi təsvir olunur və bu insan azadlığı, müstəqilliyi ana xətti kimi inkişaf prosesi keçir. H.Cavidin fəlsəfi-panteist görüşləri ilə Şeyx Sənanın azad fikirləri, bu fikirlərdəki mərdlik, köklü-gözütoxluq, saflıq, paklıq, humanizm və beynəlmiləlçilik ideyaları həmanəng səslənir. H.Cavidə və onun idealı Şeyx Sənana görə insan məkansızlıq və zamansızlıqda deyil, özünü öz aləmində, öz mühitində dərk etməlidir. Özünü dərk edən insan elə Allahın özüdür . Şeyx Sənanın sonacan apardığı mübarizə - əzmkarlıq, inadkarlıq, haqq, ədalət, halallığa inam insanda özünə hörmət, ləyaqət, qələbə duyğularını oyandırır.

Gözəllik və məhəbbət nəğməkarı H.Cavid insanı kamilləşdirmə yolunda onun hiss və duyğularından bir məktəb kimi təlim alır. Onun poeziyasının əsasını estetika, gözəllik, zəif duyğular, məhəbbət kimi anlayışlar təşkil edir. H.Cavid ifadəli, ehtiraslı, əyilməz, ürəyigeniş və qardaşlıq hisslərini inkişaf etdirən mülayim təbiətli, ailəcanlı şəxsiyyət idi.

Qadın azadlığı problemi, qadına zülm, şiddət realistləri və romantikləri narahat edən mövzulardan biridir. H.Cavid də mənzum dramlarında, poeziyasında bu mövzuya toxunmuşdur. "Qadın" şerində sillənin, davanın, təhqirin qadına rəva olmadığını bildirmiş, öz narazılığını ifadə etmişdi.

Hüseyn Cavidə görə insan bütün elm sahələrini öyrənməkdə çətinlik çəkir. H.Cavidin insan, şəxsiyyət haqqında fikirləri "Həsbi-hal" adlı silsilə publisistik yazılarında geniş yer tutur.

H.Cavidin əsərləri insan şəxsiyyətinin və cəmiyyətin inkişafına mane olan qara qüvvələrə qarşı mübarizə aparmaq üçün

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

oxucunu mədəniyyətə, maarifə, insanpərvərliyə, dostluğa, əməkdaşlığa səsləyir.

H.Cavid şəxsiyyətin təşəkkülündə tərbiyənin gücünə böyük əhəmiyyət vermiş və onu geniş mənada izah etmişdir. Tərbiyənin rolunu həddən artıq sistemləşmiş, irsiyyəti, xüsusən mühiti də şəxsiyyətin formalaşmasına təsir edən mühüm amil kimi qəbul etmişdir.

Şəxsiyyətin kamilləşməsi prosesi böyük dramaturq H.Cavidin yaradıcılığında əsas yer tutur. H.Cavid qəhrəmanları yüksələn arzularındadır və bu yüksəliş mənəvi təmizlənmə sayəsində baş verir. Şeyx Sənan, Xəyyam, Peyğəmbər və s. obrazlar mənəvi ucalmaqla həqiqətə qovuşurlar. Həqiqətə-haqqa yaxınlaşdıqca xurafata meyillilik getdikcə azalır. İnsanın mənəvi təmizlənməsi, ilahi eşq ilə haqqa yüksılməsi sayəsində dinlərin bir olması ideyası formalaşır.

H.Cavid İblisin dili ilə şəxsiyyəti anladırdı ki, insan heç zaman özü özündən qaça bilməz. O artıq ruhunu ona təslim edib, bundan xilas olması, insanın özündən asılıdır, onun içində Tanrı nuru və Allah zəkası var ki, bu ona kömək edəcək.

H.Cavid yaradıcılığında şəxsiyyət problemini araşdırarkən, görürsən ki, əsərlərindəki obrazların gözəlliyi, fəlsəfi-estetik dəyəri bundadır ki, bu obrazlar incə bir romamntika ilə süslənib, fəlsəfi kamilliyə ucalmışdır.

H.Cavid yaradıcılığında şəxsiyyətə münasibət əslində müəlli-fin həyata baxışının əsasıdır.H.Cavid həmişə əsərlərini öz şəxsiyyəti kimi qoruyan hər insanın da yenilməz şəxsiyyətini yaşadan və insanı heyrətə gətirən bir qürura malik idi.

Mühit özü, insanın reallaşması və tənbəlləşməsi üçün şərt ola bilər. Mühit ideyanı, düşüncəni, təşəbbüsü stimullaşdıra da bilər, onun qarşısını ala da bilər.

Şəxsiyyətin yüksəlişi intellektual müstəvidən daha çox mənəvi müstvidə həyata keçməlidir. Allahı ancaq müqəddəslik

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

duyğusu ilə dərk etmək mümkündür. Məntiq, rasional idrak burada təsirsizdir. H.Cavid bu fikri "Xəyyam" əsərində qeyd etmişdir.

H.Caviddə şəxsiyyət probleminin əsasında tərəqqi, bəşəri problemlər dayanır. Ədibin əsərlərində şəxsiyyət daim şovinist ideyalardan uzaq olmuş, sadəcə millətinə böyük rəğbət bəsləmişdir.

Şəxsiyyətin dəyərləndirilməsi və milli- mənəvi dəyərlərin şəxsiyyətə təsiri ailə-məişət mövzusunda qələmə aldığı silsilə xarakteri daşıyan "Maral", "Uçurum", "Afət" faciələrində öz əksini tapmışdır.

H.Cavid böyük müqəddəslik duyğusundan ayrı salınmış, özgələşmiş, diskinləşmiş, hadisələşmiş, müxtəlifləşmiş və bu müxtəlifliklərin qarşıdurmasını yaratmış əski dünyanın əleyhinə çıxaraq şəxsiyyəti daxili–mənəvi yüksəlişə, sevgiyə, məhəbbətə və insani məhəbbətin gücü ilə əldə edilmiş ümumbəşəri birliyə çağırırdı.

Beləliklə, fəlsəfi, həyati, tarixi-siyasi-etik ideyalılığı ilə seçilən, H.Cavid yaradıcılığının milli dramaturgiyamızda olduqca yüksək yer tutduğunu nəzərə alaraq deyə bilərik ki, bu əsərlər məhz müasir şəraitdə də şəxsiyyətin tərbiyəsində müstəsna rol oynaya bilər. Fikrimizcə, şəxsiyyətin formalaşması yönümündə tərbiyə nəzəriyyəsi ilə məşğul olan mütəxəssislər məhz H.Cavid əsərlərindəki ibrətamiz fikirləri əhatə edən mövzuları tədris etməlidirlər. Sistemli şəkildə tədqiq edilmiş dahi ədibin dram əsərləri araşdırılaraq, onlarda müəllif tərəfindən sətiraltı mənalarda gizlədilmiş olan potensial şəxsiyyət problemləri aydınlaşdırılmalı, zəruri faktlar üzə çıxarılmalıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 67-70
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 67-70
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nəzakət İsmayılova**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-3730-6838
nezaket.ismayilova@yahoo.com

# Təhsil müəssisələrində İnnovativ fəaliyyətin yüksəldilməsi

**Acar sözlər:** təhsil, yenilik, inkişaf, intellekt, texnika
***Keywords:*** *education, innovation, development, intellect, technology*

Azərbaycan təhsilində həyata keçirilən innovativ proseslər müəllimlərin qarşısında tələbələrin bir şəxsiyyət kimi yetişdirilməsi vəzifəsini qoyur. Özünün milli kimliyini dərk edən və mənsub olduğu xalqın tarixi-mədəni irsini qoruyub saxlayan, gələcəkdə cəmiyyətdə tamhüquqlu bir vətəndaş olmağı bacaran şəxsiyyət yetişdirmək təhsilimizin ümdə vəzifəsinə çevrilib. Hər bir tələbənin şəxsiyyətə çevrilmə prosesi onun əvvəlcə bir vətəndaş kimi yetişdirilməsindən keçir.

Bu gün əsas məsələ cəmiyyəti elmi innovasiyalara hazırlamaq, ondan istifadə yollarını araşdırmaq və yetkinləşdirməkdən ibarətdir. Bu da təkcə bir ölkə çərçivəsində deyil, bütün dünyada səylərin birləşdirilməsini labüd edir. Bu gün universitetlərdə tələbələrlə gündəlik ünsiyyət zamanı biz onların sıralarında dünyanın ən məhşur texnoparklarında çalışmağa qabil olan istedadlı gənclər görürük. Amma onlar müasir innovasiyalarla tanış olmadan, onlarla əməli iş vərdişlərinə yiyələnmədən təkcə istedad, güclü nəzəri bilik, dərin hafizə, intellektual səviyyə kifayət edə bilməz. Bunun üçün bütün universitetlərdə belə texniki imkanlar yadadılır. Ona görə də dünya universitetləri

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

arasında inteqrasiya yolu ilə, birgə səylər nəticəsində gənclərin təhsil müddətində elmi innovasiyalarla tanış olmalarına şərait yaradılmalıdır.

Qloballaşan dünyada cəmiyyətin yüksəliş tendensiyaları, xüsusən də inkişaf etmiş ölkələrin iqtisadi sıçrayışlarının əsasları araşdırılarkən məlum olur ki, bu inkişafın səbəbləri sırasında elmi innovasiyaların tətbiqi ön sırada dayanır. Təhsil müəssisəsinin innovasiya fəaliyyəti proqramı müəyyənləşdikdən və əsas gözlənilən nəticələr proqnozlaşdırıldıqdan sonra müəssisənin rəhbərləri təşəbbüs qrupu ilə birgə məqsədli kompleks proqram hazırlamalıdır. Bu proqram təşkilati tədbirlərdən və innovasiyaların reallaşdırılması mərhələlərindən ibarət olmalıdır. İnnovasiyaların, yeniliklərin yaradılması müxtəlif elm sahələrində spesifik cəhətlərlə müəyyən edilir. Amma müxtəlif sahələrdə intellektual yeniliklərin yaradılması, ixtiraçılıq, səmərələşdirmə kimi mürəkkəb proseslərin müəyyən ümumi tərəfləri də mövcuddur.

XXI əsrin tələbləri baxımından təhsildə ənənəviliyin uğurları qorunub saxlanılmaqla yanaşı, innovasiyaların, yeni pedaqoji texnologiyaların tətbiqi təhsilin keyfiyyətini yüksəldən mühüm şərtlərdən hesab edilməlidir. Elə bu səbəbdən yüzlərlə yeni anlayışlar innovasiyalar kimi təhsilimizə daxil olmuşdur. Həyati bacarıqlara əsaslanan təhsil, kurikulum, elektron məktəb, İKT, distant təhsil, fəal və interaktiv metodlar, portfolio, Bolonya prosesi, sinergetik təhsil, konstruktiv təhsil, təhsildə sinektika və s. təhsilimizin yeni anlayışları olmaqla innovativ təhsilin mühüm sahələri və metodlarıdır.

Cəmiyyətdə yeni nəslin milli adət-ənənələrimiz ruhunda tərbiyə edilməsi, onlarda hərtərəfli mənəvi keyfiyyətlərin formalaşmasında peşəkar, səriştəli müəllim fəaliyyəti mühüm rol oynayır. Müstəqilliyimizin hazırkı mərhələsində gənc nəslin əxlaq tərbiyəsinin rolu və əhəmiyyəti xeyli artmışdır. Müasir

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

zamanda milli-mənlik şüurunun artması, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətləri cəmiyyətin inkişafında vacib və önəmli amil hesab edilir. Məhz buna görə də şəxsiyyətin milli-mənəvi, əxlaqi tərbiyəsi, layiqli insan yetişdirmək problemi dövlətin daim diqqət mərkəzindədir. Müəllimin tələbələrə verdiyi bilik, bacarıq və vərdişlər yüksək insani keyfiyyətlərin formalaşdırılmasına xidmət etməlidir.

Müasir dünyada təhsil yalnız məlumat öyrətməklə kifayətlənmir, eyni zamanda yaradıcı düşüncə və problemlərin həlli bacarıqlarını inkişaf etdirməyi hədəfləyir. Texnologiyanın sürətli inkişafı və qlobal iqtisadiyyatın dinamikası, təhsil sistemlərini innovativ və yaradıcı təlim metodlarının tətbiqinə yönəldir. Bu yanaşma, şagirdləri həm fərdi, həm də peşəkar həyatda daha çevik və uğurlu olmağa hazırlayır.

Azərbaycan təhsilində bu yanaşmaların geniş yayılması, gənclərin qlobal standartlara uyğun hazırlanmasına və ölkənin inkişafına böyük töhfə verə bilər. Təhsildə innovasiyalar gələcəyin ən mühüm sərmayəsidir. Azərbaycanda təhsil sistemində yaradıcı və innovativ təlim metodlarının tətbiqi istiqamətində müəyyən addımlar atılmışdır. Xüsusilə, STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) sahələrinə fokuslanan proqramlar və rəqəmsal platformalar bu yanaşmanın bir hissəsidir. Lakin hələ də görülməli işlər var: Təhsilin müasir inkişafı mərhələsində innovativ inkişafının sistemli məhdudiyyətləri və innovativ fəaliyyətin əsas istiqamətləri, təhsil sferasını ümumbəşəri dəyərlərə uyğunlaşdırmağa və insan istehsalı ilə həyatın sosial-mədəni aspektləri arasında uçurumu azaltmağa çalışan elmi-texniki tərəqqinin hazırkı mərhələsinin xüsusiyyəti kimi sosial innovasiyaları təhlil edilir.

Təhsilin informasiyalaşdırılması təhsilin ən mühüm sahələrindən biridir. Eyni zamanda təhsildə innovativ texnologiyaların tətbiqi müasir təhsil texnologiyalarına əsaslanan

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

tədrisə yeni yanaşmalar, təhsilin əsas sosial innovasiya funksiyaları, təhsil sisteminin innovativ inkişafinin elementləri, təhsil sisteminin inkişafında insan amili, təhsil prosesi ilə ictimai həyat arasındakı qanunauyğunluqlar, eləcə də təhsil sisteminin inkişafının sosial-fəlsəfi əsaslarını təşkil edir.

Göründüyü kimi, dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm və təhsilin, elmtutumlu cəmiyyətin və mədəniyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilmişdir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Zeynab Mehdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0564-8805
zeynabmehdiyeva@nmi.edu.az

# Kiçik yaşlı uşaqlarda STEAM təcrübələrinin motivasiya və maraq formalaşdırılmasında rolu

***Açar sözlər:*** *motivasiya, maraq, yaradıcı düçüncə, idraki inkişaf, emosional tənzimləmə*
***Keywords:*** *motivation, interest, creative thinking, cognitive development, emotional regulation*

Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların təlim fəaliyyətində maraq və motivasiya səviyyəsi psixoloji inkişafın ən əsas göstəricisi hesab olunur. Kiçik yaşlı uşaqlar üçün öyrənmə yalnız bilik qazanmaq prosesi deyil, həm də emosional təcrübə, özünüifadə və müstəqillik hissinin formalaşması ilə bağlıdır. Bu baxımdan STEAM yanaşması (elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiyası) uşağın idrak və emosional inkişafına birgə təsir gösərir. STEAM təcrübələri uşağın təbiətə, əşyalara və hadisələrə marağını artırmaqla yanaşı, öyrənmədən həzz alma hissini də formalaşdırır.

Psixoloji baxımdan kiçik yaşlı uşaqlar üçün motivasiya əsasən emosional mühit, uğur təcrübəsi və fərdi maraq üzərində formalaşır. Uşaq öz fəaliyyəti nəticəsində müsbət nəticə əldə etdikdə, bu, onun daxili motivasiyasını gücləndirir. STEAM təcrübələri uşağa "mən bacarıram" duyğusunu yaşadır, bu isə özünə inam və öyrənməyə marağın inkişafı üçün vacib psixoloji amildir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Məsələn, sadə eksperiment zamanı uşağın bir nəticəyə nail olması onda sevinc, təəccüb, maraq kimi müsbət emosiyalar yaradır. Bu emosiyalar beyin fəaliyyətində dopamin ifrazını artıraraq öyrənmə prosesini daha effektiv və davamlı edir. Beləliklə, STEAM təcrübələri təkcə idraki deyil, həm də emosional inkişafı stimullaşdırır. Uşaq öyrənməni oyun kimi qəbul etdikdə, öyrənmə prosesi onun üçün stress mənbəyi deyil, əksinə, zövq və uğur hissi doğuran təcrübəyə çevrilir.

Digər mühüm psixoloji aspect yaradıcılıq və təxəyyülün inkişafıdır. Kiçik yaşlı uşaqların beyin fəaliyyəti çevik və təsəvvürə əsaslandığından, STEAM fəaliyyəti onlara sərbəst düşünmək, yeni ideyalar yaratmaq və fərqli yollarla nəticəyə gəlmək imkanı verir. Bu prosesdə uşaq yalnız nəticə əldə etmir, həm də düşünmə üsulunu dəyişir. Məsələn, rənglərin qarışmasını öyrənərkən uşaq həm riyazi, həm bədii, həm də təcrübəyə əsaslnana düşünmə modelindən istifadə edir. Bu, idrak çevikliyini və emosional sabitliyi formalaşdırır.

STEAM təcrübələrinin psixoloji faydalarından biri də emosional tənzimləmə bacarığının inkişafıdır. Uşaq təcrübə zamanı çətinlik və uğursuzluqla rastlaşdıqda, müəllimin dəsəyi ilə bu vəziyyəti idarə etməi öyrənir. Bu, frustrasiya ilə mübarizə, səbr və özünüidarə bacarıqlarının inkişafına səbəb olur. Məsələn, konstruksiya qurarkən düşən hissələri yenidən düzəltmək uşağa mübarizə və nəticəyə çatmaq vərdişi qazandırır. Belə situasiyalar uşağın emosional dözümlülüyünü və pozitiv düşüncə tərzini möhkəmləndirir.

Psixoloqların fikirincə, maraq öyrənmənin başlanğıc nöqtəsidir. Uşaq ətrafında baş verən hadisələrə maraq göstərmədikcə, motivasiya da yaranmır. STEAM yanaşması uşağın təbii maraqlarını stimullaşdıraraq onları davamlı idraki fəallığa çevirir. Təcrübə yolu ilə öyrənən uşaq “niyə?”, “necə?” və “nəticədə nə baş verəcək?” kimi suallar verməyə başlayır. Bu suallar tədqiqat

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 71-73
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 71-73
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

yönümlü təfəkkürün və ömürboyu öyrənmə motivasiyasının əsasını qoyur.

Müəllimin bu prosesdə rolu psixoloji baxımdan olduqca önəmlidir. O, uşağın marağını qoruyaraq emosional təhlükəsiz mühit yaratmalı, onun təşəbbüslərini dəstəkləməli və uğursuzluqları öyrənmənin təbii hissəsi kimi qəbul etməsinə kömək etməlidir. Uşağın suallarına hörmətlə yanaşmaq, kiçik nailiyyətlərini dəyərləndirmək və fərdi tempinə uyğun yönləndirmə aparmaq mtivasiyanın qorunmasına kömək edir. Bu yanaşma uşaqlarda daxili motivasiyanın uzunmüddətli formalaşmasını təmin edir.

Nəticə olaraq qeyd edim ki, STEAM təcrübələrinin psixoloji təsiri kiçik yaşlı uşaqlarda həm idraki, həm emosional, həm də motivasin inkişafı dəstəkləyir. Bu təcrübələr vasitəsilə uşaq özünü ifadə etməyi, problemləri həll etməyi, fərqli yanamalar tapmağı və uğurla nəticə əldə etməyi öyrənir. Ən əsası isə, uşaq öyrənmədən zövq almağı bacarır. STEAM fəaliyyətləri uşağın təbii maraqlarını canlı saxlayır, öyrənməyə qarşı sevgi yaradır və onun psixoloji sağlamlığını gücləndirir.

Beləliklə, məktəbəqədər yaşlı uşaqların inkişafında STEAM yanaşması yalnız təlimin deyil, həm də emosional rifahın və motivasiyanın möhkəmlənməsi üçün effektiv psixoloji vasitə hesab oluna bilər.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Südabə Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-5650-5304
sudabamammadova@nmi.edu.az

# Riyazi təlimdə psixoloji gərginliyin innovativ metodlarla aradan qaldırılması

***Açar sözlər:*** *gərginlik, metodika, təlim, inkişaf, şəxsiyyət-yönlü*
***Keywords:*** *tension, methodology, training, development, personality-oriented*

Riyaziyyat fənni məntiqi təfəkkürü inkişaf etdirən, dəqiq nəticələrə əsaslanan bir elm sahəsi olmaqla, məktəb təliminin əsas fənlərindən biridir. Lakin çox vaxt şagirdlər bu fənnin öyrənilməsində müxtəlif psixoloji çətinliklərlə – gərginlik, abstrakt anlayışların çoxluğu və səhv etmə qorxusu, özünəinamın azalması, uğursuzluq hissi ilə üzləşirlər.

Bu hallar öyrənmə prosesinə mənfi təsir göstərir, şagirdlərin motivasiya-sını azaldır və nəticədə biliklərin mənimsənilməsini çətinləşdirir. Müasir dövrdə pedaqoji prosesdə tətbiq edilən innovativ metodlar bu gərginliyin aradan qaldırılmasında mühüm əhəmiyyət daşıyır.

Odur ki, müəllimlər tədris zamanı təkcə bilik ötürən deyil, eyni vaxtda emosional mühiti idarəedən şəxs olmalıdır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

| ***Riyazi təlimdə psixoloji gərginliyin səbəbləri*** | ***Psixoloji gərginliyin hansı mənfi nəticələri ola bilər?*** |
|---|---|
| Riyaziyyatı şagirdlərin “çətin fənn” kimi qəbul etməsi və Fərdi yanaşmanın olmaması. | Öyrənməyə mane olan əsas amillərdəndir, motivasiyanı azaldır və nəticələri zəiflədir. |
| Valideyn və müəllimlərin təzyiqi | yüksək gözləntilər, müqayisələr uşaqlarda özünüqiymətləndirmənin aşağı düşməsinə səbəb olur. |
| Şagirdlərin uğursuzluq və səhv etmə qorxusu, sosial münasibətdə passivlik | Cavab verməkdən çəkinmə, kompleks və fobiya hissi yaradır. |
| Müəllimin sərt yanaşması və ya qiymətləndirmə sisteminin sərt olması | gərginliyi artırır, uşaqlarda yanlış fikir formalaşdırır. |
| Müəyyən mövzuların abstrakt xarakter daşıması və monoton izah üsulu | Riyaziyyata qarşı neqativ münasibətə və marağın azalması*na səbəb ola bilər.* |
| Təlim prosesində şagirdlərin diqqətinin yayınması | Yaradıcılıq və təfəkkür çevikliyinin zəifləməsi, tənbəllik və passivliyin formalaşmasına yol açır |
| Riyazi təlimdə passivlik | Şagirdlərdə yaradıcılığı, çevikliyi və məntiqi zəiflədir |

*Psixoloji gərginliyin aradan qaldırılmasında innovativ metodlardan istifadə olunur.* İnteraktiv lövhə, riyazi proqramlar, mobil tətbiqlər öyrənməni əyləncəli edir. Virtual simulyasiyalar və 3D modellər abstrakt anlayışların daha asan qavranmasına kömək edir.

Gərginliyin azaldılması üçün tətbiq ediləcək innovativ metodlar aşağıdakılardır:

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

1. Oyun texnologiyaları:

Əyləncəli riyaziyyat və oyun elementləri:

- Qeyri-standart məsələlər;
- Tapmacalar, rebuslar, riyazi zarafatlar;
- Hekayə əsaslı riyazi situasiyalar;
- Riyazi viktorinalar, tapmacalar, yarışlar.

Riyazi oyunlar, tapmacalar, yarışlar uşaqlarda marağı artırır. Məsələn, "Rəqəmlərlə domino", "Riyazi krossvord", "Əlavə et – qazan" tipli oyunlar həm öyrədir, həm də əyləndirir.

2. İKT-dən istifadə:

Texnologiyadan istifadə etməklə təlim:

- Rəqəmsal oyunlar (Kahoot, Quizizz, GeoGebra və s.);
- Animasiyalar və vizual izahlar;
- Onlayn əməkdaşlıq platformaları (Azerbaijan Ministry of Education, 2019; Aliyev, 2020; Kazimova, 2021)

İnteraktiv lövhələr, onlayn platformalar (Kahoot, GeoGebra, Quizizz) öyrənməni əyləncəli edir (Polya, 2004). Virtual simulyasiya və qrafik proqramlar abstrakt anlayışları vizuallaşdırır, şagirdlərin dərketməsini asanlaşdırır.

3. Differensiallaşdırılmış təlim:

- Şagirdlərin fərdi qabiliyyətlərinə uyğun tapşırıqların verilməsi;
- Zəif şagirdlər üçün sadələşdirilmiş, güclü şagirdlər üçün isə yaradıcı məsələlər hazırlamaq.

4. Kooperativ öyrənmə (qrup işi)

- Komanda ilə tapşırıq yerinə yetirmək;
- Birgə uğurla nəticə əldə etmək;

Qrup daxilində aparılan müzakirə, əməkdaşlıq və tapşırıqların bölüşdürülməsi uşaqlara tək olmadıqları hissini yaradır. Şagirdlərin birgə fəaliyyəti psixoloji təzyiqi azaldır. Komanda şəklində işləmək gərginliyi azaldır, şagirdlər bir-birinə dəstək olduğundan, onlarda müsbət emosiyalar yaranır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 74-78
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 74-78
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

5. Kreativ metodlar

- Riyaziyyatın gündəlik həyatda tətbiqi nümunələrinin göstərilməsi;
- Əyləncəli və qeyri-standart məsələlərin işlənməsi;
- Məsələləri riyazi hekayəyə çevirmək, komikslər və ya şəkillərlə öyrənmə.

Yaradıcı və qeyri-standart üsullarla öyrənməni daha maraqlı, mənalı və təsirli etmək olur. Riyazi təlimdə bu yanaşma xüsusilə psixoloji gərginliyi azaltmaq və marağı artırmaq baxımından vacibdir (Quliyev, 2017).

6. Psixoloji dəstək metodları

- Nəfəs məşqləri, qısa meditasiya və ya yoga hərəkətləri (uşaqlara uyğun sadə formalarda, məsələn, dərin nəfəs alıb-vermə, əzələləri sıxıb boşaltmaq)
- Vizualizasiya (xəyalında xoş bir yeri canlandırmaq)
- Rahatlatıcı musiqi, rəsm və ya boyama ilə istirahət etmək

Dərsə başlamazdan öncə relaksasiya (gərginliyin azaldılması) və motivasiya məşqləri aparılır.

- Dərsöncəsi və dərsarası tətbiq oluna bilər (xüsusilə ibtidai siniflərdə);
- Stressi və psixoloji yüklənməni azaldır;
- Tədrisə diqqəti artırır, yaddaşı gücləndirir;
- Emosional stabillik yaradır.

Ən çox istifadə olunan relaksasiya üsulları:

İbtidai siniflərdə və müəllim hazırlığında relaksasiya texnikalarının tətbiqi həm müəllim, həm də şagird üçün faydalıdır.

- Şagirdlərə səhv etmə haqlarının olduğunu anlatmaq.
- Pozitiv rəy və müsbət emosional mühit yaradılmaq.

Riyazi təlimdə psixoloji gərginliyin aradan qaldırılması şagirdlərin həm bilik, həm də şəxsiyyət kimi inkişafı üçün vacibdir. Bunun üçün müəllim yalnız bilik ötürən deyil, həm də psixoloji mühitin tənzimləyicisi olmalı, innovativ üsullarla və

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

motivasiyaedici mühit yaratmalıdır. İnnovativ metodlar – oyun texnologiyaları, İKT, kooperativ öyrənmə, fərdi yanaşma və psixoloji dəstək vasitələridir. Həmin metodlar düzgün tətbiq olunarsa, şagirdlər riyaziyyatdan qorxmaz, əksinə, təlimi daha əyləncəli maraqlı və həyati faydalı bir sahə kimi qəbul edərlər, riyaziyyata maraqları artar, özünəinamları güclənər, öyrənmələrini səmərəli edər. Bu da öz növbəsində cəmiyyətin riyazi savadlılığını, yaradıcı və məntiqi düşüncəyə malik gənclərin yetişməsini gələcək üçün qaranti edəcəkdir.

## Ədəbiyyat

1. Azerbaijan Ministry of Education. (2019). *Mathematics curriculum document*.
2. Aliyev, T. (2020). *Modern teaching methods and the role of ICT in education*. Təhsil Publishing.
3. Kazimova, N. (2021). Ways to increase motivation in teaching through fun mathematics. *State University, Scientific Article*.
4. Mammadova, S. (2023). Increasing student interest through non-standard tasks in mathematics teaching. *Education and Time*, (1), 42–47.
5. Polya, G. (2004). *How to solve it: A new aspect of mathematical method*. Princeton University Press.
6. Quliyev, M. (2017). *Creative tasks and non-standard problems in mathematics teaching*. Təhsil.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 79-82
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 79-82
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nəzakət Yusifova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0007-7281-5048
yusifovanezaket233@ndu.edu.az
**Sevda Kərimova**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-2381-0928
sevdakarimova@ndu.edu.az

# Müasir təhsil sistemi çərçivəsində tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi problemləri

***Açar sözlər:*** *təhsil, tələbə, təfəkkür, təhsil sistemi, tələbə yaradıcılığı, tələbələrin yaradıcılıq qabiliyyətləri*
***Keywords:*** *education, student, thinking, education system, student creativity, students' creative abilities*

Biz post-sənaye cəmiyyətində yaşayırıq. Hansı peşəkar keyfiyyətlərə tələbat var? Təbii ki, elm iqtisadiyyatın hərəkət-verici qüvvəsinə çevrildiyi üçün müxtəlif elm sahələri üzrə yüksək səviyyəli təhsil və biliyin olması vacibdir. Eyni zamanda, innovasiyalar elə sürətlə inkişaf edir ki, insanlar daim öz biliklərini yeniləməlidirlər. Nəticə etibarilə, digər mühüm peşəkar keyfiyyət öyrənmə qabiliyyətidir. Bununla belə, gələcəyə sıçrayış, iqtisadi və ya digər sahələrdə rəqabət üstünlüyü yalnız yaradıcı yanaşma ilə mümkündür.

Yaradıcılıq nəzəriyyəsinin banilərindən biri olan C.Gilford hesab edirdi ki, məlum olan və yaddaşda saxlanılandan yeni məlumat yaradan iki növ məhsuldar təfəkkür mövcuddur:

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 79-82
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 79-82
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

"Divergent təfəkkürün əməliyyatlarında biz müxtəlif istiqamətlərdə düşünürük, bəzən tədqiq edirik, bəzən də fərqləri tapırıq" (Selevko, n.d.).

Guilford tərəfindən hazırlanmış testlər yaradıcılığın əsası kimi divergent təfəkkürün öyrənilməsinə və onun müxtəlif qabiliyyətləri özündə birləşdirən 6 parametrləri qiymətləndirməyə yönəldilmişdir: problemləri aşkar etmək və qoyma; çoxlu sayda problem yaratmaq müxtəlif ideyalar yaratmaq; uzaq assosiasiyalar, qeyri-standart həllər, qeyri-adi cavablar; obyekti təkmilləşdirmək, qeyri-standart detallar əlavə etmək; yeni obyektlərin istifadəsini tapmaq, yeni xüsusiyyətlər tapmaq. Məhz buna görə də təkcə istedadlı uşaqların müəyyən edilməsi deyil, həm də onların yaradıcılıq qabiliyyətlərinin daha da inkişafı üçün şərait yaradılması vacibdir. Bəs müasir təhsil sistemi belə şərait yaradırmı? Ən mühüm problemlərdən biri də tələbələrin yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması və inkişaf etdirilməsi istiqamətində sistemli işlərin aparılmamasıdır.

Çoxsaylı tədqiqatlar göstərir ki, bir qayda olaraq, müxtəlif sahələrdə istedadlı uşaqlar nisbətən yüksək intellektual inkişaf nümayiş etdirirlər. Bununla belə, müəllimlərin səyləri daha çox akademik uğursuzluğun qarşısını almaq məqsədi ilə öyrənmə çətinlikləri yaşayan tələbələri fərdi işə yönəldirlər.

Guilford yazırdı ki, öyrənmə prosesi zamanı şagird "stimulyasiya-cavab prinsipi əsasında qurulmuş, əmrlə işləyən maşına bənzəyən mexanizm kimi qəbul edilir. Siz sikkə daxil edirsiniz və nəsə peyda olur. Maşın ona müəyyən sikkə daxil olanda hansı cavab verməli olduğunu öyrənir" (Guilford, n.d.). Bu yanaşmanı aradan qaldırmağın yolları varmı? Yaradıcılıq proseslərini stimullaşdıran müəyyən şərtlər var. Uşağın maraqlarına uyğun, müstəqil inkişaf etdirilməsi üçün natamamlıq və ya açıqlıq, sualların həlli və təşviqi hallarıdır. Bütün bunlar müasir pedaqoji

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

texnologiyalarda nəzərə alınır. Pedaqoji prosesin şəxsiyyət yönümlülüyünə əsaslanan pedaqoji texnologiyalar "şəxsiyyətin keyfiyyətlərini, formalaşmasını, kiminsə sifarişi ilə deyil, təbii qabiliyyətlərə uyğun inkişafını" nəzərə alır (Selevko, n.d.); onlar psixodiaqnostikaya əsaslanırlar. Bu yanaşma uşağın fərdi inkişafını, o cümlədən yaradıcı bir insan kimi inkişafını təmin edir, lakin müasir məktəblərdə sistemli şəkildə tətbiq edilmir. Layihə metodundan istifadə etməklə tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafına daha da fərdi yanaşma mümkündür, çünki o, uşağın inkişaf səviyyəsini, maraqlarını nəzərə alır və idrak fəaliyyətini aktivləşdirir, fərziyyələr formalaşdırmaq və onları təsdiqləmək üçün müxtəlif yollar axtarmaq imkanı verir. Yenə problem ondadır ki, bu metod bütün təlim prosesi boyunca tətbiq edilmir, ancaq birdəfəlik tədbirlər üçün istifadə olunur. Səviyyə diferensiallaşdırma texnologiyası təhsil prosesinin təşkili formasını nəzərdə tutur "müəllimin təhsil prosesi üçün əhəmiyyətli olan müəyyən ümumi keyfiyyətlərin mövcudluğu nəzərə alınmaqla formalaşan bir qrup tələbə ilə işlədiyi" (Selevko, n.d.). Bu yanaşma tələbələrin yaradıcı inkişafı üçün şərait təmin edə bilər, çünki onların intellekt səviyyəsini birləşdirir və ya ümumi maraqlara əsaslanır. Problemli təlim müəyyən dərəcədə tələbələrə təlim tapşırığı təqdim etməklə, onların həlli üçün problemli vəziyyət yaratmaqla onların yaradıcılığının stimullaşdırılması məsələsini həll edir. Bu tip öyrənmə idrak fəaliyyətini gücləndirir, bilik, bacarıq və bacarıqların yaradıcı şəkildə mənimsənilməsi baş verir. Bununla belə, mənim fikrimcə, bu, yalnız konvergent təfəkkürü inkişaf etdirir, çünki tələbələr son nəticədə yalnız bir düzgün biliyi, dərslik müəllifləri və elmin təklif etdiyi biliyi kəşf edirlər. Divergent təfəkkürün inkişafı vəzifəsi humanitar və incəsənət dərslərində müxtəlif yaradıcılıq əsərlərinin yaradılması yolu ilə həll edilə bilər. Bununla belə, şagirdlərə qeyri-ənənəvi tapşı-

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

rıqlar vermək lazımdır. Eyni formata uyğun yazılan sərbəst işlərin tələbələrin yaradıcılığının inkişafına töhfə verə bilməsi ehtimalı azdır. Təhsil fəaliyyəti tələbələrin yaradıcılığının inkişafı üçün əhəmiyyətli imkanlar təklif edir: müxtəlif müsabiqələr, festivallar, toplantılar, konsertlər və bayramlar. Qeyd etmək lazımdır ki, təkcə tələbənin yaradıcılıq məhsulu üzərində işi deyil, həm də bu tədbirlərin təşkili prosesi vacibdir. Məsələn, onlar kollektiv yaradıcılıq fəaliyyəti ilə aparılarsa, tələbələr və müəllimlər tərəfindən birgə planlaşdırıldıqda, hazırlandıqda, həyata keçirildikdə və müzakirə edildikdə yaradıcılıq bacarıqlarının inkişafı üçün lazımi şərait yarana bilər. Şübhəsiz ki, ali məktəblərdə yaradıcılığın inkişafı üçün xüsusi təlim və metodlardan istifadə etmək çox gözəl olardı. "Yaradıcı davranışın və özünüifadənin müəyyən aspekt və üsullarının öyrədilməsi, yaradıcı hərəkətlərin modelləşdirilməsi təcrübəsi yaradıcılığın əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirir" (Böyük Psixoloji Lüğət, n.d.). Yalnız bir neçə təhsil müəssisəsi belə xüsusi təşkil olunmuş işin olması ilə öyünə bilər.

Hazırda məzunların yaradıcılıq səviyyəsinə qoyulan tələbləri yerinə yetirməkdən ötrü,müasir təhsil sisteminin onların inkişafı üçün yaratdiği lazımi texnologiyalardan düzğün istifadəni təşkil etməklə həyata keçirmək olar.

## Ədəbiyyat

1. Böyük Psixoloji Lüğət. (n.d.). Yaradıcılıq.
2. Guilford, J. (n.d.). Zəkanın üç tərəfi.
https://docviewer.yandex.ru/view/1163918773/?page=94&*
https://psixoloji.slovaronline.com/857-KREATIVNOST
https://www.psychologyonline.net/articles/doc-643.html
3. Selevko, G. K. (n.d.). Müasir təhsil texnologiyaları.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 83-89
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 83-89
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Sevda Xəlilova**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-1032-1592
xelilovasevda8@gmail.com

# Musiqi tədrisində ekoloji və psixoloji tərbiyənin rolu

***Açar sözlər:*** *ekoloji təhsil, musiqi təhsili, psixoloji proses, motivlər, zehni keyfiyyətlər*
***Keywords:*** *ecological education, music education, psychological process, motives, mental qualities*

Ekoloji tərbiyə və musiqi təhsili – incəsənətin vasitəsilə müasir cəmiyyətdə şəxsiyyətin mənəvi saflaşmasının əsas şərtlərindən biridir. Pedaqogika elminin banisi Yan Amos Komenski belə deyirdi: «İnsan təbiətin bir hissəsidir, deməli, o da təbiət kimi inkişaf edir».

Təbiət – insanın həyat mühitidir, insan onunla minlərlə görünməz tellərlə bağlıdır. Təbiət – təmiz hava, yaşıl meşə, quşların cəh-cəhi, arıların uçuşu, ildırım və göy qurşağıdır. Lakin böyük təhlükə ondadır ki, elə bir dövr gələ bilər ki, biz yalnız incəsənət əsərlərində təbiətin səslərini eşidə bilək.

Məlum həqiqətdir ki, pedaqoji prosesdə ümumpedaqoji prinsiplərə istinad etmədən, pedaqoji üsulların, priyomların gücündən istifadə etmədən heç bir nailiyyət qazanmaq mümkün olmadığı kimi, pedaqoji prosesin ən fəal üzvləri olan şagirdlərə psixoloji cəhətdən düzgün yanaşmadan, heç bir uğura da imza atmaq mümkün deyildir. Xüsusilə, musiqi nümunələrindən istifadə etməklə şagirdlərin ekoloji tərbiyəsinin formalaşdırılması işində onların psixi xassələrinin, o cümlədən qabiliyyət-

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 83-89
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 83-89
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

lərinin, təfəkkür tərzlərinin, istedaının ayrı-ayrı tərəflərini öyrənmədən qarşıda qoyulan məqsədə yetişmək olmaz. Bu işə şagirdlərə bir şəxsiyyət kimi yanaşmaqdan başlamaq lazım gəlir. Psixoloqların yekdil fikrinə görə ictimai münasibətlərdə iştirak edən, ictimai inkişafın tacına çevrilən fərdlər, yəni sosial varlıqlar şəxsiyyət hesab olunur. Lakin bu şəxsiyyət hələ formalaşmamış bir şıxsiyyət nümunəsidir. Onun formalaşması isə ətraf aləmlə qarşılıqlı təsir prosesində formalaşır. Qarşılıqlı təsir isə yalnız fəaliyyət sayəsində mümkün olur. İnsan fəallığının əsas mənbəyini onun tələbatları təşkil etdiyi kimi musiqi nümunələrindən istifadə etməklə ibtidai sinif şagirdlərin cəlb olunduğu ekoloji mühitdə onların yaradıcı fəallığının əsas mənbəyi onların tələbatlarıdır. İbtidai sinif şagirdlərinin fəallığının əsas mənbəyi estetik tələbatlar təşkil edirsə, həmin bu tələbatlar isə onları ətraf mühiti sevib qorumağa təhrik edir. Deməli, tələbat şagiird şəxsiyyətinin haləti olub, onun varlığının mövcud olduğu konkret şəraitindən asılılığını ifadə edir. Yəni musiqi tədrisində şagirdlərin fəallığı istər təlim prosesində, istər dərsdənkənar tədbirlərdə, istərsə də didaktik oyunların təşkilində onların ekoloji mühütün qorunmasına olan tələbatlarının təmin olunması prosesində təzahür edir. Belə bir şəraitdə fəal tərəf motivlər sistemi kimi özünü göstərir. Bizim tədqiqatımızın xarakterinə görə musiqi nümunələrinin bir qismində təqdim olunan mahnıların təbiətə aid melodiyalar sistemi özünün fəal tərəfi ilə motivlər sistemi kimi meydana çıxır, peyda olur. Psixoloqların qeyd etdiyi kimi əgər motivlər şagird şəxsiyyətini fəaliyyətə cəlb edən müəyyən tələbatlar sistemidirsə, onda tələbatlar həm də uşaqları fəallığa cəlb edən motivlər sistemidir. Musiqi nümunələri uşaqları fəallaşdırır. Fəallığın əsas motivində mahnı və melodiyaların təbiəti, təbiət hadisələrini özündə səciyyələndirən cəhətinin özünü biruzə verməsi dayanır. Məhz belə bir anda şagird şəxsiyyətinin fəaliyyətinin motivləş-

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

məsinin çox mühüm, lakin yeganə olamayan bir cəhəti özünü göstərir. Bu, musiqi nümunələrinə olan yaradıcı münasibətlərin məəcmusunu özündə inikas edən maraqdır. Elmi psixologiya çoxdan sübut etmişdir ki, maraqlar şəxsiyyətin fəaliyyətinin motivləşməsinin mühüm, lakin yeganə olmayan cəhətidir. Davranışın mühüm motivi əqidədir (Zeynalov, 1975, s. 119). Doğurdan da musiqi nümunələrinə, bu nümunələrin təbiətə, ekoloji mühitə həsr olunan mahnı melodiyalarını öyrənməyə cəhd göstərən şagirdlər, onları həvəslə ifa etməyə böyük maraq göstərirlər. Lakin şagirdlərin təbiətə aid olan mahnıları oxumağa göstərdikləri marağın da, əgər belə demək mümkünsə, öz müvazinət dairəsi var. Psixoloqlar sübut etmişlər ki, maraqlar da öz davamlılıq dərəcəsinə görə biri-birilərindən fərqlənirlər. Yeri gəlmişkən qeyd etməliyik ki, uşaqlar təbiətə - çiçəklərə, quşlara, heyvanlara çox böyük sevgi-ehtiram hissi bəslədikləri üçün onlara həsr olunan mahnıları da maraqla oxuyurlar. Deməli, şagirdlərin təbiətə və ekoloji mühitə həsr olunan mahnı və melodiyaları oxuyub-dinləməyə olan maraqları davamlı maraqlardır. Davamlı maraqlar isə bir növ qabiliyyətlərin göstəricisidir. Psixologiya elmində çoxdan sübuta yetirilmişdir ki, davamlı maraqlar insanın formalaşmağa başlayan qabiliyyətlərinin ilkin göstəricilərinin biri kimi özünü daha tez biruzə verir. Musiqi dərslərində güllərə, çiçəklərə, quşlara, heyvanlara dair mahnıları oxumağa maraq göstərən kiçikyaşlı məktəblilərin ilkin qabiliyyətlərini üzə çıxaran daha bir tələbatdan irəli gələn təhriklər mövcuddur. Bu da həvəsdir. Həvəsi psixoloji konteksdə izah etmək istəsək, deməliyik ki, həvəs – fəaliyyətin dərk olunmayan təhriklərindən biridir. “Həvəs — fəaliyyətin kifayət qədər aydın dərk edilməmiş, fərqləndirilməmiş tələbatdan ibarət olan təhrikidir. Hər hansı bir sahəyə həvəs göstərən insan üçün subyektiv cəhətdən obyektivə onu nəyin cəlb etməsi, bu həvəslə təhrik olunan fəaliyyətin məqsədinin

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

nədən ibarət olması hələ heç də aydın olmur (Həmzəyev, 2006, s. 120–121). Bəzən musiqi məşğələlərində təbiətə, təbiət hadisələrinə, ekoloji mühitə aid olan mahnıları oxumağa şagirdlər ya həvəs göstərmir, ya da çox az həvəs göstərirlər. Bunun isə səbəbləri çoxdur. Təcrübə və müşahidələr göstərir ki, kiçikyaşlı məktəbliləri bu tipli mahnıları əsasən aşağıdakı səbəblərdən ifa etməyə həvəs göstərmirlər və ya az həvəs göstərirlər. Birinci səbəb musiqi müəllimlərinin və ya ibtidai siniflərdə musiqini tədris edən sinif müəllimlərinin bu tipli mahnıların düzgün seçilməsinə biganə qalmaqlarıdır. İkinci səbəb mahnıların, eləcə də mahnı mətnindəki ekoloji tərbiyə elementlərinin şagirdlərə düzgün çatdırılmamasıdır. Üçüncü səbəb isə mahnıların musiqi mətnindəki təbiətvarilik duyğularının, təbiətə məhəbbət hissinin şagirdlərə düzgün çatdırılmasından ibarətdir. Hər üç səbəbdən uşaqlar bu tipli mahnıları oxumağa həvəs göstərmirlər. Ona görə də musiqi müəllimləri belə mahnıları estetik bədii zövq aşılayan mahnıları kimi məhdud çərçivədə tədris edirlər. Əslində mahnı və melodiyaların insanda yaratdığı estetik hisslərin özü ən ali psixoloji hisslərdir.

Füsunkar təbiət mənzərələri, yaşıl çəmənliklər, güllü, çiçəkli yamaclar, şır-şır axan bulaqlar, aylı gecələr, quşların nəğməsi və s. insanda estetik hisslər doğurur. Məlumdur ki, təbiətin gözəllikləri bizdə müxtəlif əhval-ruhiyyə yaradır. Məsələn, kükrəyib daşan çaylar insanda bir cür, göz yaşı kimi duru, sakit axan sular isə başqa bir əhval-ruhiyyə yaradır. Yaxud aylı-ulduzlu aydın gecələr bizdə fərəh, şadlıq, nikbinlik, qövsü-quzeh müvazinət, sakitlik, sərinlik əmələ gətirir... (Bayramov, & Əlizadə, 2002, s. 178) Deməli, ecazkar təbiət mənzərələrinin insan psixikasına təsiri adi təbiət hadisələrinin təsirindən güclüdür. Quşların nəğmələri içərisində ən şirin nəğmə bülbülün nəğməsi olduğu üçün insanlar ən yüksək bədii-zövq oxşayan

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 83-89
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 83-89
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

səsi bülbülün səsilə müqayisə edirlər. Hətta insanlar onları valeh edən müğənnini vəsf edən "zalım balası, lap bülbül kimi cəh-cəh vurur" deyə onu təqdir edirlər. Deməli, təbiətdə insanları məftun edən səs musiqili səsdir. Hansı ki, səs ürəyəyatımlı olduqda insanlar onun ecazkar səslənməsindən mütəəssir olurlar. Buradan belə qənaət hasil olur ki, musiqinin şən, oynaq, ciddi, şux, lirik ahəngi dinləyicini həm güldürə, həm də ağlada bilər. Bu, o zaman baş verir ki, musiqinin melodik ahəngi insana təkcə estetik təsir göstərməklə məhdudlaşmır. Dinləyici estetik-bədii zövq alır, sonra düşünür, düşüncə tərzindən asılı olaraq mütəəssir olur. Buradan belə bir nəticəyə gəlmək olar ki, musiqi insanda təkcə estetik hissləri ödəməklə məhdudlaşmır. Psixoloqlar da bu fikirdədirlər. "Bizim estetik hisslərimiz həmişə bu və ya digər maddi tələbatımızın ödənilməsilə bilavasitə əlaqədar olmur, onlar aclığımızı təmin etməyə, yaxud həyatımızı mühafizə etməyə yönəlmir. Hətta bəzən gözəl musiqi və ya bədii əsərdən alınan estetik hiss, insana aclığı, susuzluğu belə müəyyən müddət unutdura bilir" (Həmzəyev, 2006, s. 123). Bir halda ki, musiqi yeri gəldikdə insanı bütün maddi tələbatlardan imtina eləməyə zövq edə bilirsə, başqa sözlə desək, bəzən musiqi insanlara açlığı, susuzluğu unutdura bilirsə, deməli, musiqi insanları ekoloji mühiti də qorumağa sövq edə bilər. Musiqinin bütün janrlardan olan bədii yaradıcılıq nümunələri yetişən nəslin nümayəndələrinin ekoloji mühiti sevib-qorumağa sövq etmək baxımından geniş təsir dairəsinə malik olması məlumdur.

Dərsdənkənar tərbiyəvi tədbirlər şagirdlərdə ekologiyanın qnesoloji, proqmatik, etik və gigiyenik istiqamətləri üzrə də müvafiq təsəvvür yaratmalıdır (Əfəndiyev, 2005, s. 112). Çünki bu təsəvvürlər şagirdlərin ekoloji mühitin saflaşdırılması ilə bağlı maraq və meyllərini artırmış olur. Ona görə ki, mahnıların sözlərindəki təbiət hadisələri, güllərə, quşlara, heyvanlara olan

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

məhəbbət hissləri həm ifaçı, həm dinləyici şagirdlərin bədii zövqlərilə yanaşı onların ekoloji tərbiyəsini inkişaf etdirir. Hər iki halda yaranan estetik və ekoloji təsvirlərin mənbəyində təxəyyül imkanları dayanır.

Musiqi tədrisində qarşıya bir sıra vəzifələr qoyulsa da, əsas vəzifələrdən biri bədii zövqü formalaşdırmaq, digəri isə məhz bədii zövqün aşılanması fonunda yeni surətlərin yaradılmasından ibarətdir. Nəzərdə tutulan yeni surətlər isə ekoloji mühitə məhəbbət hissinin formalaşdırılması prosesində özünü biruzə verir. Bu prosesdə məktəblilərin fəaliyyət istiqamətləri müxtəlif xarakterə malik olduğu üçün onları birləşdirən ana xətti də düzgün müəyyənləşdirmək lazımdır. Bizim nəzərdə tutduğumuz ana xətt bədii yaradıcılıq fəaliyyətidir. Çünki məktəbliləri incəsənətin bir neçə fəaliyyət növünə cəlb edən, onları bu xətt ətrafında birləşdirən bədii yaradıcılıq fəaliyyətidir.

Musiqi tədrisində uşaqların ədəbi fəaliyyəti üçün geniş imkanlar olduğuna görə bu dərslərdə onların psixoloji cəhətdən öyrənilməsi çox vacibdir. Mahnı və melodiyaların ifası zamanı uşaqlara göstərilən psixoloji təsirin gücü ilə onlarda ətraf aləmə sevgi hisslərinin yaradılmasına nail olmaq mümkündür. Psixoloji cəhətdən ruhlandırılan məktəblilər ekoloji mühiti dərindən sevir onu qorumağa var qüvvəsilə çalışırlar.

Ümumiyyətlə desək, musiqi tədrisində musiqi nümunələrindən istifadə etməklə şagirdlərin ekoloji tərbiyəsini formalaşdırmağı özündə şərtləndirən ən başlıca cəhətlərdən biri də problemin psixoloji əsaslarının ətraflı öyrənilməsidir. Problemi psixoloji əsasların təsnifatı ilə öyrənilməsinin isə bir sıra üstünlüklər vardır:

- musiqi tədrisində şagirdlərin psixi xassələrinin, psixoloji xüsusiyyətlərinin ayrı-ayrı tərəflərini öyrənməklə; şagird şəxsiyyətinin idrak proseslərini onların duyğularını, qavrayışla-rını, hafizəsini, təfəkkür və təxəyyül tərzlərini, habelə yaradıcı

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

şagirdlərin qabiliyyətlərini dərindən öyrənməklə həm musiqi dərslərində, həm muisiqili-bədii tədbirlərdə, həm də musiqili-didaktik oyunlarda bədii yaradıcılıq nümunələrindən istifadə etməklə məktəblilərin ekoloji tərbiyəsini üzə çıxartmaq olar (Əliyev, & Əliyeva, 2007).

## Ədəbiyyat

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2002). *Psixologiya: Ali məktəblər üçün dərslik*. Çinar-Çap.
2. Əfəndiyev, Ə. (2005). *Didaktika (Yan Amos Komenski)*. Nurlan nəşriyyatı.
3. Əliyev, Q. Ə., & Əliyeva, A. Ə. (2007). *Ekologiya və təhsilin ekoloji problemləri*. Nurlan nəşriyyatı.
4. Həmzəyev, M. Ə. (2006). *Psixologiya*. Nurlan nəşriyyatı.
5. Zeynalov, S. M. (1975). *Təlim prosesinə rəhbərlik və nəzarət*. Maarif.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 90-94
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 90-94
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nazilə Muradova**
Naxçıvan Müəllimlər İnstitutu
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-0682-7095
nazilamuradova@gmail.com

# Riyazi bacarıqların formalaşmasına təsir göstərən psixoloji amillər

***Açar sözlər:*** *riyazi bacarıq, psixoloji amil, motivasiya, özünəinam, diqqət, yaddaş, idrak, emosional vəziyyət, sosial mühit*
***Keywords:*** *mathematical ability, psychological factor, motivation, self-confidence, attention, memory, cognition, emotional state, social environment*

Riyazi bacarıqların inkişafı təkcə zehni qabiliyyətlərdən deyil, həm də psixolji faktorların kompleks təsirindən asılıdır. Motivasiya, özünəinam, diqqət, yaddaş, emosional vəziyyət, sosial mühit, psixoloji dəstək kimi amillər riyaziyyatın öyrənilməsini həm sürətləndirə, həm də əngəlləyə bilər. Bu baxımdan mövzu aktualdır.

Riyaziyyat yalnız dərs vəsaitlərində öyrənilən bir fənn deyil, eyni zamanda həyatın hər sahəsində tətbiq olunan real bir bacarıqdır. Riyaziyyatı öyrənmək və onu düzgün tətbiq etməyi bacarmaq gündəlik həyatımızı asanlaşdırır və daha düzgün qərarlar verməyimizə kömək edir. Digər tərəfdən riyaziyyat məntiqi təfəkkürü, problem həlletmə bacarığını, analitik düşünmə qabiliyyətini inkişaf etdirən əsas fənlərdən biridir. Bununla yanaşı hər bir fərdin riyaziyyata baxışı və bu sahədəki uğuru yalnız zehni qabiliyyətlərlə deyil, həm də psixoloji amillərlə də sıx şəkildə bağlıdır. Ümumiyyətlə, riyazi bacarıqların inkişafı prosesində fərdin motivasiyası, özünəinamı, diqqəti,

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

yaddaşı, idrakı, emosional vəziyyəti və sosial mühit kimi faktorların rolu mühümdür. Bu amillər riyazi bacarıqların formalaşmasına həm müsbət, həm də mənfi təsir göstərə bilər.

Riyazi bacarıqların formalaşmasına təsir göstərən əsas psixoloji amillər aşağıdakılardır:

1. Motivasiya – riyazi bacarıqların formalaşmasına xüsusilə təkan verir. Belə ki, motivasiyanın əsas iki növü olan daxili və xarici motivasiya şagirdin riyaziyyata yanaşmasına fərqli təsir göstərə bilər. Daxili motivasiya hər bir şəxsin öz maraq və istəyindən yaranan öyrənmə həvəsidir. Xarici motivasiya isə qiymət, sosial gözləntilər, müəllim və ya valideynlərin tələbləri kimi xarici amillərlə əlaqədardır. Bu iki motivasiyanı müqayisə etsək görmək olar ki,

- daxili motivasiyası yüksək olan şagirdlər və ya tələbələr dərslərdə daha aktiv olur, sual verir, araşdırır, riyaziyyatın praktik əhəmiyyətini görür və çətinlikdən qorxmurlar;
- xarici motivasiyası yüksək olan şagirdlər və ya tələbələr isə qısamüddətli nəticələr əldə edirlər və öyrəndikləri biliklər müvvəqqəti olur.

Demək olar ki, motivasiya yüksəkliyi özünəinamın artmasına səbəb olur.

2. "Özünəinam" anlayışının da riyaziyyat sahəsində xüsusi əhəmiyyət kəsb etdiyi aşkardır. Belə ki, özünəinamı yüksək olan şagirdlər və ya tələbələr riyazi məsələləri həll etməyə daha çox cəhd göstərir, tapşırıqların tamamilə həllinə nail ola bilir, hətta çətinliklərlə qarşılaşdıqda belə səbrli olub araşdırma apara bilirlər. Deməli, riyaziyyat sahəsində özünəinamın olması yaranan çətinliklərin səviyyəsindən asılı olmayaraq motivasiyanın itməməsinə şərait yaradır. Bunun əksinə olaraq özünəinamı olmayan şagirdlər və ya tələbələr tez bir zamanda riyaziyyatı öyrənməkdən imtina edirlər. Bu isə şagird və ya tələbələrdə

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 90-94
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 90-94
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

riyaziyyat qorxusunun yaranmasına və riyaziyyatı öyrənmədən imtinaya səbəb olur.

Riyaziyyat qorxusu nədir? – sualına diqqət etsək görərik ki, riyazi fəaliyyət zamanı yaranan həyəcan, gərginlik və psixoloji narahatlıqdır. Bu isə riyaziyyat sahəsində yaranan uğursuzluqlara təkan verən əsas səbəblərdəndir. Çünki riyaziyyat qorxusu olan şagird və ya tələbələr məsələ həlli zamanı səhv etməkdən narahat olurlar və riyazi tapşırıqları həll etməkdən, riyaziyyat dərslərində aktiv iştirak etməkdən, lövhədə işləməkdən imtina edirlər. Bunun nəticəsində isə öz potensiallarını tam şəkildə üzə çıxara bilmirlər. Bu psixoloji hal isə şagirdin həm sinif mühitində aktivliyinin itməsinə səbəb olur, həm də özünəinamın azalmasına təsir göstərir.

3. Riyazi bacarıqların formalaşmasında diqqət və konsentrasiya da xüsusi rola malikdir. Bilirik ki, riyaziyyat ardıcıl düşünməyi tələb etdiyindən, məsələlərin həlli mərhələli olduğundan diqqətin yayınması riyazi bacarığın formalaşmasına mənfi təsir göstərə bilər. Çünki diqqət yayınıqlığı riyazi konseptlərin mənimsənilməsini çətinləşdirir. Bu xüsusilə hiperaktiv və diqqət çatışmamazlığı olan fərdlərdə daha çox müşahidə olunur.

Ümumiyyətlə, diqqət bir mövzuya, tapşırığa və ya problemə yönələn, onu anlamağa, yadda saxlamağa kömək edən zehni fəaliyyətdir. Demək olar ki, riyaziyyatın öyrənilməsində diqqət əsas zərurətdir. Bu sahədə uğur qazanmaq üçün diqqətin inkişaf etdirilməsi vacibdir.

4. Riyaziyyatın əsas komponentlərindən biri də yaddaşdır. Qısamüddətli yaddaş riyazi əməliyyatların, yəni hesablamaların yerinə yetirilməsi zamanı istifadə olunur. Uzunmüddətli yaddaş isə riyazi biliklərin saxlanılması və lazım olduqda isə tətbiq edilməsi üçün vacibdir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

5. İdrak ətraf aləmi başa düşmə, məlumatları qavrama və onlardan nəticəçıxarma qabiliyyətidir. Riyaziyyatın öyrənilməsində idrakın rolu aşağıdakı sahələrdə özünü göstərir. Belə ki,

- riyazi məsələlərdə verilən məlumatların düzgün başa düşülməsində və analiz edilməsində;
- məntiqi əlaqələrin ayırd edilməsində və nəticə çıxarılmasında;
- ümumiləşdirmə və mücərrəd şəkildə düşünmənin təmin edilməsində;
- müxtəlif yanaşmalar tətbiq etməklə problemlərin həll edilməsində və müxtəlif üsullarla həllin mümkünlüyünün tədqiq edilməsində;
- riyaziyyatda öyrənilən yeni anlayışların, düsturların və metodların mənimsənilməsində və tətbiqində.

6. Qorxu, stress, utancaqlıq və digər mənfi emosiyalar riyazi fəaliyyətə mənfi təsir göstərən amillərdəndir. Bunun əksinə olaraq pozitiv emosional mühit və psixoloji rahatlıq riyaziyyatın öyrənilməsini daha rahat, effektiv və səmərəli edir. Ümumiyyətlə, müsbət emosiyalar motivasiyanı, diqqəti və yaddaşı artıraraq riyaziyyatı öyrənməni daha da asanlaşdırır və uğur qazanmaq üçün vasitə rolunu oynayır.

7. Riyazi bacarıqların formalaşmasına təsir göstərən amillərdən biri də sosial mühitdir.

Belə ki, müəllim və valideyn münasibətinin düzgün qurulması, müəllimin şagird və tələbəyə yanaşması, valideyn dəstəyi, şagird və ya tələbələr arasındakı münasibətlər riyazi bacarıqların inkişafına birbaşa təsir göstərir. Bu da şagird və tələbələrin riyazi fikirlərini ifadə etməsinə mane olur. Ümumiyyətlə, müsbət yaradılmış psixoloji dəstək motivasiyanın və özünəinamın artmasına, tənqid, laqeydlik, müqayisə isə şagird və tələbələrin motivasiyasının aşağı düşməsinə, onların riyaziyyatdan uzaqlaşmasına səbəb olur.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Ümumiyyətlə, şagirdlərdə riyazi bacarıqların inkişafına təsir göstərmək üçün müəllimlər və valideynlər yalnız akademik deyil, eyni zamanda psixoloji dəstəyi daim təmin etməklə, riyaziyyata müsbət yanaşmanı formalaşdırmalıdırlar.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Samirə Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-5933-3979
samirehesenova75@gmail.com

# Azərbaycan dili təlimində psixoloji yanaşma üsullarının tətbiqinə dair

***Açar sözlər:*** *dil təlimi, psixoloji yanaşma üsulları, emosional mühit,motivasiya, diferensial təlim*
***Keywords:*** *language learning, psychological approaches, emotional environment, motivation, differential learning*

Azərbaycan dili təlimi problemlərinin tədqiqi sahəsində psixoloji yanaşma üsullarının tətbiqinin bu gün də diqqətdən kənarda qalması diaqnostika və proqnozlaşdırma metodlarına münsibətin zəif olması ilə əlaqədardır. Bunun nəticəsidir ki, ölkəmizdə dil təliminin psixoloji əsaslarına dair tədqiqatların aparılmasına böyük ehtiyac duyulur. Qeyd etmək lazımdır ki, təhsilalanlarda bir çox dil hadisələrinə dair anlayışların formalaşdırılması, başqa sözlə, mənimsəmə mexanizmi sırf psixoloji yanaşma mexanizmindən asılıdır. Fikrimizi konkret faktlar əsasında təhlil etsək daha səmərəli nəticələr əldə etmiş olarıq:

Azərbaycan dili təlimində məlum olduğu üzrə şagirdlər öz nitqlərində cümlə üzvlərinin əlavəsi və xüsusiləşməsindən, yaxud aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdən yerli-yerində, düzgün istifadə etmə bacarığına yiyələnməkdə çətinlik çəkirlər. Bunun da səbəbi həmin mövzuların tədrisinə dair didaktik-psixoloji tələblərin istənilən səviyyədə araşdırılmaması və yerinə yetirilməməsidir (Abdullayeva, 2018).

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Məlumdur ki, orta məktəbdə hər üç mövzu ilə bağlı məlumat və biliklərlə şagirdlər yalnız bircə dəfə tanış olurlar. Odur ki, onlara dair məlumatlar əzbərlədilsə də belə, nitq bacarıqlarına çevrilmir. Deməli, bu mövzuların yeri və öyrədilməsi sistemi düzgün müəyyənləşdirilməyib.

Təlim nəzəriyyəsinə görə, nəzəri işlərlə praktik işlər öz həcminə görə bir-birinə uyğun gəlmədiyi üçün bu da psixoloji tarazlığın pozulmasına gətirib çıxardır. Son illərin araşdırmaları dərslərdə idraki fəallığın təcrübi fəallığı üstələdiyini göstərir. Bu, əslində psixoloji tələblərin gözlənilməməsindən irəli gəlir. Müşahidələr göstərir ki, nitq hissələrinin təlimi: öyrənilən sözün üzərində onun işlənmə yerinə, xüsusən də sinonimliyinə dair müvafiq təmrinlər vaxtında aparılmır. Məsələn, *qeyri* qoşması öyrədilərkən həmin sözün hansı hallarda *ayrı, özgə, savayı, başqa* sözləri ilə əvəz olunması şagirdlərə mənimsədilməlidir. Yaxud *-can, -cən, -dək, qədər* (evəcən, evə qədər, evə çatanadək) qoşmaların da ümumi və xüsusi cəhətləri şagirdlərə öyrədilməlidir. Şagirdlərdə sinonimik cərgələr haqqında elə bitkin təsəvvür yardılmalıdır ki, onlar hər sözü məqsəddən asılı olaraq öz məqamında işlətmək bacarığına mükəmməl yiyələnsinlər. Deməli, nəzəri-parktik istiqamətlər bir-birinə uyğunlaşdırıldıqda şagirdlərdə dil təliminə maraq hissi tərbiyə edilmiş olur ki, bu da əsas psixoloji tələb sayılır. Ümumiyyətlə, dil təlimində psixoloji yanaşma üsullarını tətbiq edərək, praktik intuisiyaları, emprikliyi elmi sistemin yaradılmasına istiqamətləndirməliyik. Bu məqsədlə aşağıdakı problem və mövzular üzrə tədqiqatlar aparılması məqsədəuyğun hesab edilməlidir:

1) dil təlimi məzmunun seçilməsi və öyrədilməsi ardıcıllığının əsasları problemi;
2) dil təliminə hazırlığın psixoloji problemi;
3) diferensial təlim problemi;

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 95-99
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 95-99
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

4) dil təlimində induktiv və deduktiv metodların optimal-tətbiqi problemi;

5) dil təlimində şagirdlərin inkişafını təmin etməyin imkan və yolları;

6) dil dərslərində şagirdlərin əqli inkişafı;

7) dil təlimi və şagirdlərdə təlimə həvəs və maraq aşılamağın səmərəli yolları və s.

Təhsilalanlarda dilə dair elmi müddəaları müstəqil surətdə dərk etmək bacarıq və vərdişləri formalaşdırmaq səriştəsini şərtləndirən əsas amil təlim psixologiyasına dərindən bələd olmaqdır. Azərbaycan dili metodikasında belə bir mülahizə irəli sürmək olar ki, ümumiyyətlə, anlayışlar, hökmlər və əqli nəticələr birdən-birə yaranmır; diqqət, hiss, duyğu və qavrayışlar vasitəsilə mümükün olur (Əlizadə, 2017).

Azərbaycan dili təlimində müqayisələrə nə qədər yer verilsə də, nəzəriyyələrə çox az hallarda ehtiyac yaranır. Müvafiq qrammatik konstruksiyalarla şagirdlərin nitqini zənginləşdirmək üçün daha çox hazır modellər əsasında danışığa vaxt sərf etmək lazımdır. Bütün bunlar təlim zamanı istifadə olunan yalnız didaktik tələblər deyil, həm də psixoloji tələblər sayılır. Bu gün təhsilverənlərin qarşısında qoyulan əsas tələblərdən biri dil təlimində müəllimin dərsi şagirdlərin psixoloji xüsusiyyətlərinə uyğun şəkildə planlaşdırması və təqdim etməsidir. Bu yanaşma həm təhsilalalarda motivasiyanı artırır, həm də öyrənmə prosesinin səmərəliliyini, effektivliyini yüksəldir. Dil təlimində öyrənmə prosesinə yanaşmanın əsas istiqamətləri bunlardır:

1. Fərdi yanaşma

Şagirdlərin yaş, maraq və öyrənmə tərzlərinə uyğun metodların seçilməsi. Məsələn, vizual öyrənənlər üçün təsvirlər, eşitmə yönümlü öyrənənlər üçün dinləmə tapşırıqları.

2. Motivasiya və marağın formalaşdırılması

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Dil dərslərini həyatla əlaqələndirmək, oyun, müzakirə, debat, yaradıcı tapşırıqlar vasitəsilə marağı artırmaq.

3. Emosional mühitin yaradılması

Şagirdlərdə özünəinamı gücləndirən, səhv etmə qorxusunu azaldan və sərbəst ifadə imkanı verən mühit yaratmaq.

4. Psixoloji inkişaf mərhələlərinə uyğunluq

İbtidai, orta və yuxarı siniflərdə şagirdlərin psixoloji inkişaf səviyyəsinə görə mətn seçimi, tapşırıqların çətinlik dərəcəsinin tənzimlənməsi.

Koorperativ və qrup işi

Şagirdlərin sosial-psixoloji bacarqlarını (əməkdaşlıq, qarşılıqlı hörmət) inkişaf etdirən cüt və qrup işlərinin təşkili.

5. Duyğu və təsəvvürlərin stimullaşdırılması

Mətndən əvvəl proqnozlaşdırma, hekayənin davamını təsəvvür etmə, obrazlarla empatiya qurma kimi üsullar və s.

Müasir dövrümüzdə dil təliminin, o cümlədən Azərbaycan dili təiminin bir sıra problemləri hələ də öz həllini tapmaqda çətinlik yaradır. Bu poblemlərdən bəziləri, xüsusilə dilə aid proqramların, dərsliklərin və dərs vəsaitlərinin tərtibi prinsiplərində psixoloji amillərin lazımınca gözlənilməməsi, bu sahəyə lazımı diqqətin yetirilməməsi ilə əlaqədardır.

Tezisdən alınan konkret nəticə ondan ibarətdir ki, süni çətinlik praktik fənnin və mövzuların mənimsənilməsinə fayda vermir.

Eyni zamanda təhsilverənlər, yəni müəllimlər bilməlidir ki, hər hansı mövzunun tədrisinə hazırlaşarkən müvafiq mövzunun asanlıq və çətinlik dərəcəsini, şagirdlərin bilik və yaş xüsusiyyətlərini nəzərə alaraq, məhz bu əsasda konkret məqsəd və vəzifələri, təlim nəticələrini düzgün müəyyənləşdirməyi bacarmalıdırlar; çünki bunlarsız müasir dərsin təşkilində müvəffəqiyyət qazanmaq qeyri-mümkündür.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## Ədəbiyyat

1. Abdullayeva, S. (2018). *Azərbaycan dili tədrisi metodikası.*
2. Əlizadə, Ə. (2017). *Ümumi psixologiya.*

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 100-103
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 100-103
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Şəhla Süleymanova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2499-7197
shahla.suleymanova@bk.ru

# Məktəblərdə psixoloji rifahın tədris nəticələrinə təsiri

***Açar sözlər:*** *məktəb, müəllim, şagird, psixoloji rifah, akademik nailiyyət*
***Keywords:*** *school, teacher, student, psychological well-being, academic achievement*

"Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən psixoloji xidmətin əsas məqsədləri-təhsilalanların akademik nailiyyətlərinin artırılması, təhsilalanlarda müsbət davranış modelinin formalaşdırılması, təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması ilə şərtlənir. Bu da məktəbdə şagirdlərin psixoloji rifahının müsbət olmasının mühüm əhəmiyyətini ortaya qoyur.

Aristotelə görə, psixologiya şəxsin xoşbəxtliyi və rifah anlayışına əsaslanan bir elmdir. Deməli şagirdin xoşbəxt olmağı onun psixoloji rifahı ilə birbaşa əlaqəlidir. Psixoloji rifah, xoşbəxtliyin subyektiv təcrübəsi, həyat və fəaliyyətdən məmnunluq hissi ilə birlikdə insanın tam fəaliyyət mexanizmlərini ortaya qoyan şəxsi xüsusiyyətdir. Bu baxımdan şagirdin daxili emosional balansı, özünü təhlükəsiz və dəyərli hiss etməsi, sosial münasibətlərdə müsbət təcrübələr yaşaması və stressə qarşı dayanıqlı olması onun tədrisə və məktəbə münasibətinə güclü təsir göstərir. Sağlam mühitdə təhsil alan

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

şagirdlər akademik göstəriciləri ilə müsbət mənada seçilirlər. Bu prosesin tədrisdə müəllim tərəfindən tam həyata keçirilməsi vacib məsələlərdəndir. Çünki pedaqoji prosesdə əsas aparıcı qüvvə məhz müəllimdir. O, həm şagirdlə, həm də onun valideyni ilə bu işdə əməkdaşlıq etməlidir.

V.A.Suxomlinski hesab edirdi ki, əgər normal uşaq hər hansı bir fənndə uğur qazana bilmirsə, sevimli fənni və ya fəaliyyəti yoxdursa, deməli, məktəb öz məqsədinə çatmayıb. Məktəblərdə psixoloji rifahın məqsədi şagirdlərin öyrənmək stimulunu artırmaqdır. Bu proses psixoloji və akademik nailiyyətlərin müsbət olması ilə nəticələnir.

Müasir dövrdə şagirdlər təzyiq, sosial qarşıdurmalar, ailələri ilə, valideynləri ilə bağlı psixoloji yüklənmələrlə qarşılaşırlar. Bu onların dərsə olan marağına, təhsilə olan münasibətlərinə birbaşa təsir göstərir. Bu zaman dayanıqlı məktəb mühitinin olması, qayğıkeş məktəb rəhbərliyi, təhlükəsiz şəraitin yaradılması motivasiyanı artırır, şagirdin özüninamına səbəb olur. Bununla bərabər həm də şagirdin sosial bacarıqlarının inkişafı da görülməkdədir. Daxilən mənəvi rahatlıq və müsbət iqlimi ilə seçilən sinif mühiti həm də davranış pozuntularının və dərsdən yayınmaların qarşısını alır. Şagirdlər uğur qazanacaqlarına inanır, öz potensiallarını görür və məktəbə həvəslə gedirlər.

Psixoloji rifahı aşağı olan şagirdlər özünüifadə bacarıqlarını inkişaf etdirə bilmirlər, aqressiv olurlar, sinifdə dost münasibətləri yarada bilmirlər, müəllimə və məktəb mühitinə mənfi hisslərlə yanaşırlar. Bu kimi hallar yaşandıqda şagird nəinki akademik cəhətdən aşağı nəticələr göstərir, həm də üumiyyətlə məktəbə getmək istəmir. Texnologiyanın inkişafı, telefonların insanların həyatına çox təsir etdiyini düşünsək, şagirdlərin psixoloji rifahı yaxşı olmayan sinifdə olmamaq kimi hisslərə qapılması gözləniləndir. Deməli, müəllimin şagirdini sevməsi, ona hörmət etməsi, ona qarşı anlayışlı və dəstəkləyici şərait

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

yaratması şagirdin özünü dəyərli hiss etməsinə, dərsə həvəslə gəlməsinə səbəb olacaq. Həmçinin, məktəbin idarəetmə sistemi demokratik və şagirdyönümlü olması psixoloji rifahın yaxşı olmasında vacib rol oynayır.

Bundan başqa COVİD – 19 pandemiyası dövrü şagirdlərin məktəbə, dərsə qarşı fikirlərində və hisslərində mənfi mənada rol oynamışdır. Sağlam həyat tərzi, müsbət düşüncə, sosial əlaqələrin saxlanması psixoloji sağlamlığa təsir edən amillərdəndir. Sosial cəhətdən əlaqələrin zəif olması, məktəblə bağın itməsi, ünsiyyətin olmaması, evdə pandemiya ilə əlaqədar sağlamlıq məsələlərinin ön planda olması və s. şagirdlərin pessimist düşüncədə olmasına, adaptasiya problemlərinin yaşanmasına, psixoloji rifahına ciddi təsir göstərdi, akademik nəticələrinin aşağı düşməsinə səbəb oldu. Bu fakt psixoloji rifahın qaydasında olmasının necə müsbət tərəfləri olduğunu bir daha sübut etdi. Məktəblərdə psixoloji rifaha təsir edən amillərdən biri də şagirdin ailəsinin sosial iqtisadi vəziyyətidir. Bu vəziyyətin çətin olması şagirdin məktəbə aidiyyət hissinin azalmasına, xoşbəxt və təhlükəsiz olmasına şübhə yaradır. Bu yöndə şagird nailiyyət qazana bilmir.

Məktəblərdə şagirdlərin psixoloji rifahını qorumaq və inkişaf etdirmək təkcə onların emosional sağlamlığı üçün deyil, həm də tədris nəticələrinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu səbəbdən məktəblərdə psixoloji xidmətin gücləndirilməsi, müəllimlərin psixoloji savadlılığının artırılması və məktəb mühitinin sosial-emosional baxımdan zənginləşdirilməsi təhsildə uğurun əsas şərtlərindən biri kimi qiymətləndirilməlidir. Bu istiqamətdə aparılan araşdırmalar da göstərir ki, məktəblərdə sosial – emosional öyrənmə şagirdlərdə təhsilə qarşı müsbət tərəfləri görməyə şərait yaradır.

Psixoloji rifah şəxsiyyətin motivasiyasının formalaşması prosesinin ayrılmaz tərəfi və eyni zamanda təhsil prosesinin

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 100-103
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 100-103
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

mühüm nəticəsidir. Məktəb daxilində bütün iştirakçılar — müəllimlər, şagirdlər, valideynlər və digər pedaqoji heyət arasında açıq və etibarlı qarşılıqlı münasibətlərin qurulması psixoloji rifahın təmin olunmasında əsas şərtlərdən biridir.

Dünya ölkələrinin təhsil modellərinə baxdıqda (Finlandiya, Kanada və Hollandiya və s.) onlarda şagirdin psixoloi rifahı ön plandadır və bu ölkələr PİSA (Beynəlxalq şagird qiymətləndirmə proqramı) nəticələrində yüksək sıralarda yer alır. Ölkəmizdəki məktəblərdə keçən illərə nisbətdə bu yöndə irəliləyiş görülməkdədir.

Yaxşı təhsil mühiti şagirdlərin şəxsi bilik və rifahını artırmağa kömək edir, uşaqlıqdan davam edən təhsil şagirdin rifahını və akademik nailiyyətlərini dəstəkləyir. Psixoloji rifah şagirdlərin özlərini daha yaxşı hiss etmələrinə və öyrənmələrinə şərait yaradır. Bu şagirdlərin genişlənmiş idrak perspektivləri, sevinc, qiymətləndirmə və sevgi kimi hisslərindən asılıdır. Bu, psixoloji rifahın səmərəli tədris və öyrənmə üçün əlverişli mühit yaratmağa kömək etdiyini göstərir.

Deməli, təhsil inkişaf etdikcə, şagirdlərin psixoloji rifahını prioritetləşdirmək akademik uğur və şəxsi inkişaf üçün əlverişli öyrənmə mühitlərinin yaradılmasında vacib komponent olaraq özünü göstərir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 104-108
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 104-108
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Rövşən Vəliyev**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-0499-1205
valiyevrovshan@nmi.edu.az

# Riyaziyyatın tədrisində yeni təlim texnologiyalarından istifadə imkanları

***Açar sözlər:*** *yeni təlim texnologiyaları, tədris, layihə əsaslı təlim, motivasiya, pedaqoji texnologiyalar*
***Keywords:*** *new learning technologies, teaching, project-based learning, motivation, pedagogical technologies*

Yeni təlim texnologiyaları dedikdə, tədris prosesində, müəllim və şagirdlərin qarşılıqlı əməkdaşlığı şəraitində həyata keçirilən təlim metodlarının sistemli şəkildə reallaşdırılması başa düşülür. Yəni, müasir təlim metodları vasitəsilə şagirdlərin bilik, bacarıq və vərdişlərinin inkişafına yönəldilən yeni forma və texnologiyalar həyata keçirilir.

Nəticəyönümlü məzmun standartları əsasında hazırlanmış riyaziyyat fənn kurikulumu standartların mənimsənilməsini təmin etmək üçün şagird nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini nəzərdə tutur. Məzmun standartları müəyyən edilərkən məktəbdə təhsil alan hər bir şagirdin qazandığı nailiyyətlər üzrə irəliləyişlərin surətinin getdikcə artırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Qabaqcıl dünya ölkələrində mövcud olan təhsil sistemlərində riyaziyyatın öyrənilməsinə mühüm önəm verilir.

Riyaziyyatın şagirdlərin məntiqi təfəkkürünün inkişafında və formalaşmasında, mühakimə və dərketmə qabiliyyətlərinin yüksəldilməsində müstəsna rolu vardır (Əsgərov, 2003).

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Müasir təlim metodları və təlim texnologiyalarından istifadə zamanı şagirdlərin təfəkkürü, idrakı inkişaf edir. Bu müxtəlif çalışmaların qruplarla icrası, təhliletmə və nəticə çıxarmaq, layihələrin hazırlanması və s. tədbirlərin həyata keçirilməsi ilə formalaşır.

Müasir təlim metodlarının tətbiqinin əsas məqsədi gələcəyimiz olan şagirdləri müasir həyata hazırlamaq, onlarda qlobal dünyada baş verən dəyişiklikləri başa düşməklə lazımlı bilik və bacarıqlara yiyələndirməkdən ibarətdir. Bu təlim metodları şagirdlərdə fəallığı artırır, məntiqi düşünmək, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmaq, müstəqil bilik almaq və fərdi bacarıqları formalaşdırır.

"Müasir təlim metodları" dedikdə ənənəvi dərs – saatı üsullarından fərqli, şagird mərkəzli texnologiyadan istifadə edən, aktiv və adaptiv öyrənməni təşviq edən yanaşmalar nəzərdə tutulur (Mehrabov, 2007).

2025 – ci ildə dünyada aktuallığını qoruyan əsas modern təlim metodları və tendensiyaları bunlardır: aktiv təlim; layihə əsaslı təlim; qarışıq öyrənmə (hibrid təlim); tərsinə sinif modeli; fərdiləşdirilmiş öyrənmə; mikroöyrənmə; innovativ metodlar.

"Müasir təlim metodları" dedikdə, ənənəvi dərs üsullarından fərqli olaraq şagirdin fəallığını, yaradıcı düşünməsini, tənqidi yanaşmasını, əməkdaşlıq vərdişlərini inkişaf etdirən yanaşmalar nəzərdə tutulur. Bu metodlar pedaqoji texnologiyaların əsas hissəsi sayılır və 2020-ci illərdən etibarən təhsil sistemində geniş tətbiq olunur.

Əsas müasir təlim metodları:

Konstruktiv təlim – Şagirdlərin bilikləri hazır formada deyil, özləri tərəfindən kəşf etməsi; müəllim istiqamətləndirici rolunda çıxış edir (Əsgərov, 2003).

Problemlə təlim – Real problemlər üzərində düşünərək biliklərin qazanılması.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Layihə üsulu (Project-based learning) – Müəyyən mövzuda tədqiqat və yaradıcı layihələrin hazırlanması.

Kooperativ təlim – Kiçik qruplarda əməkdaşlıq edərək öyrənmə, bir-birindən öyrənmə.

Tənqidi düşünmə texnologiyası – Məlumatı analiz etmək, müqayisə etmək, nəticə çıxarma bacarığını inkişaf etdirmək.

İKT-dən istifadə – İnteraktiv lövhələr, rəqəmsal platformalar, simulyasiya və multimedia vasitələri ilə öyrənmə.

İnteqrativ təlim – Fənlərarası əlaqələr əsasında biliklərin təqdim olunması.

Rollu oyunlar və simulyasiya – Real həyat situasiyalarını modelləşdirərək şagirdlərin iştirakını təmin etmək.

Blended learning (qarışıq təlim) – Ənənəvi sinifdə təlimlə onlayn öyrənmənin birləşdirilməsi.

Flipped classroom (əks olunmuş sinif) – Şagird dərs materiallarını evdə öyrənir, sinifdə isə praktik məşğələ və müzakirələr aparılır.

Bu metodların tətbiqi Azərbaycan təhsil sistemində də getdikcə genişlənir. Təhsil Nazirliyi müəllimlərin ixtisasartırma proqramlarında müasir pedaqoji texnologiyalara xüsusi önəm verir.

Dünya praktikasında riyaziyyatın tədrisi prosesində tətbiq olunan müasir təlim metodlarını: layihə əsaslı təlim; qarışıq öyrənmə (hibrid təlim); qrup işi və kooperativ öyrənmə; problem əsaslı təlim, mikroöyrənmə;texnologiya dəstəkli təlim; gamifikasiya; differensial təlim; steam yanaşma; formativ qiymətləndirmə və özünü qiymətləndirmə.

Riyaziyyatdan uğurlu nəticələr qazanmaq üçün tədris prosesində vizual resurslardan (qrafiklər, diaqramlar, modellər) daha çox istifadə etmək, riyaziyyatı real həyat konteksti ilə bağlamaq, inteqrativ tətbiqlərlə abstrakt mövzuları sadələşdirmək, hər dərsdə ən azı bir aktiv öyrənmə elementi tətbiq etmək (qrup

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

müzakirəsi, oyun, qısa problem), qiymətləndirməni yalnız imtahanla yox, tədris prosesində formativ şəkildə aparmaq lazımdır.

Müasir təlim metodlarından istifadə etməklə dərs prosesinə tədqiqat xarakteri verilir. Şagird tədqiqata, təlimin subyekti rolunda çıxış edir. Bu prosesdə zəif, sakit, utancaq, melanxolik tipli şagirdlərin fəallaşdırılmasına gətirib çıxarır.

Müasir təlim metodlarından istifadə olunmaqla aparılan riyaziyyat dərsinin strukturuna nəzər salaq:

Fəal təlimin strukturu: motivasiya, tədqiqatın təşkili, məlumat mübadiləsi, məlumatın təşkili, nəticələrin çıxarılması, tətbiqetmə.

Riyaziyyat kursunun dərindən və şüurlu mənimsənilməsi onun elmi nəzəri əsaslarını bilmədən mümkün deyildir.

Riyaziyyat elmi kəmiyyətlərin ölçülməsi, qiymətlərinin hesablanması, dəyişən və kəsilməz təsadüfi kəmiyyətlərin qiymətlərinin hesablanması ilə məşğul olmaqla yanaşı, struktur kimi həm konkret, həm də mücərrəddir. Bu xüsusiyyətlər bir fənn kimi riyaziyyatın tədrisində də özünü göstərir.

Riyaziyyat təliminin mühüm məqsədlərindən biri qazanılmış nəzəri biliklərin praktikaya tətbiq edilməsi, elm və texnikanın inkişafına tətbiqi insanın əmək fəaliyyətini asanlaşdırmaqdan ibarətdir.

Riyazi biliklərin praktikada tətbiqinin reallaşdırılması yollarını öyrədən əlbətdə ki, riyaziyyat müəllimdir.

Ona görə də riyaziyyat müəllimi aşağıdakı müddəanı bilməli və öz praktik fəaliyyətində onu əsas götürməlidir.

Riyazi obyektlər insan ağlının məhsuludur ki, bu obyektlər, riyazi münasibətlər əvvəldən mövcuddur. İnsan ağlı isə onu kəşf edir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

İnteraktiv təlim metodlarından istifadə olunduqda məsələ həlli prosesi vasitəsilə şagird təlim fəaliyyətinə daha tez uyğunlaşır, onlarda riyaziyyata daha çox maraq oyanır.

İnteraktiv metodla keçirilən riyaziyyat dərslərində aşağıdakı məsələlərdən istifadə olunur: dərslikdə verilmiş məsələlər; müəllimin tərtib etdiyi məsələlər; şagirdlər tərəfindən tərtib edilən məsələlər;

İnteraktiv metodlardan istifadə etdikdə şagirdlər proqramda olan həndəsi materialı daha tez mənimsəyirlər. Interaktiv metodlardan istifadə edərkən müəllim keçəcəyi dərsin məzmununa uyğun gələn bir neçə metoddan istifadə etməyə çalışmalı, öz təcrübəsinə, yaradıcılığına üstünlük verməli və sinif şagirdlərinin bilik səviyyəsini nəzərə almalıdır.

Fəal təlim metodlarından dərs prosesində istifadə olunduqda şagirdlər həm düşünür, həm yaradıcılıqla məşğul olur, həm də bütün dərs zamanı fəallıq nümayiş etdirirlər.

## Ədəbiyyat

1. Əsgərov, Ş. (2003). *Təhsilimiz dünən, bu gün, sabah*.
2. Mehrabov, A. (2007). *Azərbaycan təhsilinin müasir problemləri*.
3. Mehrabov, A., *et al.* (2006). *Pedaqoji texnologiyalar*.
4. Nəzərov, A. (2012). *Müasir təlim metodları*.
5. Nəzərov, M., & Quliyev, N. (2020). *Pedaqoji texnologiyalar*.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 109-113
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 109-113
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Salatın Hacıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-4913-4074
salatinhaciyeva72@gmail.com

# Hərbi xidmətçilərin döyüş fəaliyyətinə təsir edən sosial – psixoloji amillər

***Açar sözlər:*** *müharibə, hərbi xidmətçi, döyüş fəaliyyəti, psixoloji vəziyyət, stress*
***Keywords:*** *war, military serviceman, combat activity, psychological state, stress*

Müharibələrin və hərbi sənətinin tarixi göstərir ki, döyüşçülərin döyüş davranışının və möhkəm döyüş əzminin formalaşmasında sosial-psixoloji amillər əsas rol oynayır. Döyüşçülərin mənəvi-psixoloji vəziyyəti daha çox xalqın müharibəyə münasibətindən, müharibənin kütlələrin şüurundakı populyarlığından asılıdır. Populyarlıq, öz növbəsində, müharibənin məqsədlərinin insanlar tərəfindən başa düşülməsi və onları daxilən qəbul etməsi, onu yaradan səbəblərin strukturunda sosial, iqtisadi, milli və dini maraqların təmsil olunması ilə müəyyən edilir. İnsanların şüurunda müharibə obrazı hərbi əməliyyatların nə dərəcədə uğurla və kimin ərazisində aparılmasından, habelə ölkə əhalisinin hansı hissəsinin fiziki və psixoloji cəhətdən iştirak etməsindən asılı olaraq emosional xarakter daşıyır.

Psixoloji sirayət, təklif və təqlid mexanizmlərinin işi sayəsində hərbi qulluqçular cəmiyyətdə hökm sürən əhval-ruhiyyəni mənimsəyir ki, bu da onların döyüş davranışı üçün müvafiq münasibət və motivləri formalaşdırır. Əsrin əvvəllərində

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Rusiyanın hərbi psixoloqları qeyd edirdilər ki, "döyüşçü öz xalqının bir parçası olmaqla öz xalqının həm şücaətini, həm də zəifliyini sədaqətlə və dəqiqliklə əks etdirir", "xalqda" həvəs yoxdursa, orduda həvəsin olması mümkün deyil".

Son zamanlar baş vermiş silahlı münaqişələrin gedişi və nəticəsinin təhlili belə bir psixoloji qanunauyğunluğu inandırıcı şəkildə təsdiqləyir ki, qalib müharibələrdə qələbənin qazanılmasının əsasında başa düşülən, döyüşçünün və bütün xalqın ürəyinə yaxın olan ideyalar dayanır.

Əsgərlərin əhval-ruhiyyəsi xalqın öz ordusuna münasibətindən çox asılıdır. Bu qanunauyğunluq keçən əsrdə hərbi psixoloqlar tərəfindən müəyyən edilmişdir. Belə ki, M.V.Zençenko qoşunların qüdrəti üçün bütün əhalinin rəğbətinin zəruri olduğunu vurğulamış, A.S.Ağapeyev isə Almaniya və Fransa xalqlarının öz ordularına münasibətini nümunə gətirərək, bunun döyüşdə qələbənin əldə olunmasında mühüm amil olduğunu göstərmişdir. Bu qanunauyğunluğun təsiri ABŞ-ın Vyetnamdakı müharibəsi, qoşunlarımızın Əfqanıstan və Çeçenistandakı döyüş əməliyyatları zamanı da açıq şəkildə hiss olunurdu.

Xalqın düşmənə münasibəti döyüşən ordunun döyüş ruhunda mühüm rol oynayan amillərdəndir. Müharibə təcrübəsi də göstərir ki, hansı ordunun əsgərləri vətəninin azadlığına, sərvətinə qəsd edən rəqibə qatı və mənfur düşmən kimi baxırsa, o ordu çox vaxt döyüşlərdə qalib gəlir. Böyük Vətən Müharibəsi hərbi psixoloqlar tərəfindən müəyyən edilmiş nümunənin doğruluğunu bir daha təsdiqlədi: artıq sülh dövründə potensial təhlükəli olan ölkələrin ordularına qarşı əsgərlərdə nifrət hissi aşılamaq lazımdır. Bu isə o deməkdir ki, istənilən müharibə insanların hərbi şüurunun formalaşdırılması üçün uzunmüddətli iş tələb edir. Beləliklə, müharibə şəraitində cəmiyyətin psixoloji vəziyyəti ilə onun ordusu arasında əlaqəni əks etdirən unikal

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 109-113
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 109-113
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

sosial-psixoloji qanun fəaliyyət göstərir. Burada bildirilir ki, döyüşən ordunun mənəvi-psixoloji durumunun əsas mənbəyi onun daxilində deyil, maraqlarını müdafiə etdiyi cəmiyyətdədir.

Bu gün heç kim şübhə etmir ki, hərbi əməliyyatların ən güclü motivatoru və əsgərlər üçün ən təsirli "psixoterapevt" hərbi kollektivdir. Kollektiv münasibətlər və hərbi hissənin birliyi ayrı-ayrı hərbçilərin yüksək psixoloji sabitliyinin və fəallığının qorunması üçün bir növ əsas rolunu oynayır. Dünyanın qabaqcıl ordularının döyüş təcrübəsi göstərir ki, bir-birini yaxşı tanıyan (qohumlar, həmyerlilər və s.) hərbçilərdən ibarət taqım, heyət və bölmələr daha fəal, təşəbbüskar və dözümlü olurlar. Alman hərbi psixoloqu E.Dinter bu qanunauyğunluğu tədqiq edərək vurğulayır ki, qrupun etibarını itirmək və qorxaqlıq ucbatından mənəvi təcrid vəziyyətində qalmaq qorxusu çox güclü təsirə malikdir və bəzən də cəsarətli hərəkətlər etməyə imkan verir. Ailələrdən uzun müddət ayrı qalmaq, yaxınları haqqında məlumatın olmaması, cəmiyyətdən təcrid olmaq, müsbət emosiyaların olmaması, ümidsizlik və narahatlıq da döyüş stressorlarına əlavə olunur.

Döyüş əməliyyatları rəhbərliyinin səlahiyyəti. 20-ci əsrin sonu 21-ci əsrin əvvəllərində yerli hərbi münaqişələrdə qoşunların döyüş təcrübəsi göstərir ki, komandirinə güvənən və ona hörmət edən hərbçilər hətta mahiyyətini başa düşmədikləri və ya mənəvi cəhətdən rədd etdikləri tapşırıqları da fəal şəkildə yerinə yetirə bilərlər. Döyüşçülərin döyüş fəaliyyətinə təsir edən fizioloji amillərə döyüş stressi, yorğunluq, yeknəsəklik, yuxusuzluq (defisit, borc), aclıq, susuzluq və s. daxildir. Stressin əsas funksiyası döyüşün stres faktorlarını aradan qaldırmaq üçün zəruri olan döyüşçünün psixoloji resursunu səfərbər etməkdir.

Döyüş şəraitində həddindən artıq fiziki yük də güclü stress faktoru hesab edilir. Xüsusilə yerli hərbi münaqişələrdə nizami birləşmələrə qarşı döyüş əməliyyatları çox vaxt çətin yerlərdə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

(dağlarda, səhralarda, dağıdılmış şəhərlərdə), hündürlüyün və atmosfer təzyiqinin kəskin dəyişməsi şəraitində həyata keçirilir. Belə şəraitdə avadanlıqların istifadəsi məhdud olur. Nəticədə, məsələn, Qarabağda hərbçilərimiz 56-63 kq ağırlığında texnika daşımalı oldular. Belə şəraitdə enerji sərfi 4500-6000 kkal/gün və daha çox olur ki, bu cür yüksək fiziki yük isə tükənmişlik və döyüş yorğunluğu vəziyyətinə gətirib çıxarırdı.

Əsgərlərin döyüş fəaliyyətinə təsir edən fizioloji amillərə döyüş stressi, yorğunluq, yeknəsəklik, yuxusuzluq (defisit, borc), aclıq, susuzluq və s. aiddir. Bu gün qəbul edilir ki, bütün psixi proseslərin, xassələrin, vəziyyətlərin və formalaşmaların təzahürünə təsir edən döyüşün mərkəzi psixi fenomeni döyüş stressidir. Stressin əsas funksiyası döyüşün stres faktorlarını aradan qaldırmaq üçün zəruri olan döyüşçünün psixoloji resursunu səfərbər etməkdir. Yuxunun müddəti və keyfiyyəti əsgərlərin döyüş fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edir və döyüş stressinin əsas səbəbi ola bilər. Döyüş şəraitində qeyri-kafi və keyfiyyətsiz yuxu stress faktorları ilə mübarizəyə uyğunlaşma mexanizmlərinin həddindən artıq yüklənməsinin əsas səbəblərindən biridir və hərbi personalın psixotravmatizasiyası üçün şərait yaradır. Gecə yuxusunun təbii ritmlərinin pozulması, xüsusən də gecə saat 02:00-dan səhər saat 6:00-a qədər yuxunun ən dərin olduğu vaxtlarda (bədən hərarətinin aşağı düşməsi, metabolik proseslərin ləngiməsi və s.) əsgərin düşünmə və fəaliyyət qabiliyyətini xeyli aşağı salır. ABŞ və Böyük Britaniyada aparılan araşdırmalara görə, 48 saat və ya daha çox yuxu olmaması əsgərləri psixi pozğunluqlardan, xüsusən də eşitmə və görmə halüsinasiyalarından əziyyət çəkməyə başlayan döyüş bölməsini demək olar ki, tamamilə ruhdan salır.

Stressin səbəblərindən biri və eyni zamanda onun göstəricisi yorğunluqdur. Məlumdur ki, döyüşçü orqanizminin stress

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 109-113
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 109-113
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

faktorlarına qarşı müqaviməti, döyüş vəziyyətinin şərtlərinə uyğunlaşması enerji resurslarının sərf edilməsi, yorğunluq, əsəb tükənməsi ilə müşayiət olunur. Yorğunluq bədənin enerji ehtiyatlarının nə dərəcədə tükəndiyini və onları doldurmaq ehtiyacını bildirən bir vəziyyətdir.

Yorğunluq hərbi qulluqçuların səmərəli fəaliyyətinə mənfi təsir göstərir, həssaslığın, diqqətin, yaddaşın və təfəkkürün zəifləməsinə səbəb olur. Məsələn, yorğunluq vəziyyətində insanlar döyüş vəziyyətində obyektlərin qavranılması ilə bağlı müxtəlif illüziyalarla qarşılaşa bilər, müəyyən qıcıqlandırıcılara qarşı ağrılı həssaslıq yaranır, həmkarları ilə münasibətlərdə konflikt artır və s. İntensiv və uzunmüddətli fiziki gərginlik, qavrayış, intellektual, emosional-iradi və motivasiya sahəsində həddindən artıq gərginlik, adi həyat ritminin pozulması (fəaliyyətin dəyişməsi və keyfiyyəti, istirahət, yuxu, qidalanma və s.); insanın psixi özünütənzimləmə sistemindəki uğursuzluqlar nəticəsində yorğunluq yaranır.

Yorğunluq narahatlıq, apatiya, passivlik, kütləvi hallüsinasiyalar, komandirlərə inamsızlıq yaradır, çaxnaşma əhval-ruhiyyəsinin və hərəkətlərinin, fərariliyin və əsirliyin artmasına kömək edir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 114-116
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 114-116
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nazilə Abdullazadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
http://orcid.org/0000-0002-1829-7178
nazile.s.m.d@mail.ru

# Ədəbiyyatın tədrisində psixologiya ilə inteqrasiya: Mahiyyəti və əhəmiyyəti

***Açar sözlər:*** *ədəbiyyat, psixologiya, inteqrasiya, qavrayış, şəxsiyyət-yönümlülk*
***Keywords:*** *literature, psychology, integration, perception, personality-orientation*

Müasir təhsil sisteminin əsas məqsədi yalnız bilik ötürmək deyil, həm də şəxsiyyətin formalaşmasına, emosional-intellektual inkişafına və yaradıcı düşüncənin tərbiyəsinə nail olmaqdır. Bu baxımdan, ədəbiyyat fənni təkcə bədii mətnlərin öyrənilməsi prosesi deyil, həm də insanın psixoloji, mənəvi və emosional dünyasının dərk edilməsi vasitəsidir. Ədəbiyyatın psixologiya ilə inteqrasiyası, yəni qarşılıqlı əlaqə şəklində tədrisi, şagirdlərdə empatiya hissini, emosional idrakı, daxili təhlil bacarığını və mənəvi zövqü inkişaf etdirməyə xidmət edir. Bu inteqrasiya XXI əsr təhsilinin tələb etdiyi humanist və şəxsiyyətyönlü yanaşmanın əsas komponentlərindən biridir.

Ədəbiyyat insan ruhunun, hiss və düşüncələrinin bədii ifadəsidir. Psixologiya isə həmin hiss və düşüncələrin qanunauyğunluqlarını və təzahür formalarını öyrənir. Bu iki sahə bir-biri ilə təbii şəkildə əlaqəlidir. Ədəbiyyat dərslərində psixoloji yanaşma tətbiq olunduqda şagirdlər:

*qəhrəmanların davranış motivlərini daha dərindən anlayır;

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

*empatiya və emosional refleksiya qabiliyyətlərini inkişaf etdirir;

*öz daxili aləmini müqayisə etməyi, analiz və özünüifadə bacarıqlarını təkmilləşdirir.

Məsələn, Nizaminin "Xəmsə"sində insanın mənəvi kamilliyə aparan daxili mübarizəsi, Cəlil Məmmədquluzadənin "Anamın kitabı"nda şəxsiyyətin milli və mənəvi kimlik axtarışı, Mirzə Sabirin əsərlərində psixoloji konfliktlərin təqdimatı şagirdlərdə emosional idrak və psixoloji analiz qabiliyyətini formalaşdırır.

Ədəbiyyatın tədrisinin digər elm sahələri ilə inteqrasiyası konteksitndə psixologiya ilə inteqrasiya müxtəlif formalarda həyata keçirilə bilər. Bu formalara daxildir:

**Empatiya tapşırıqları*: şagird qəhrəmanın yerinə özünü qoyaraq onun hisslərini təsvir edir, qərarlarını psixoloji cəhətdən izah edir.

**Psixoloji portret tərtibi:* qəhrəmanın emosional vəziyyəti, xarakter dinamikası və motivləri analiz olunur.

**Sosiopsixoloji müzakirələr:* əsərin hadisələri cəmiyyət-şəxsiyyət münasibəti kontekstində təhlil edilir.

**Refleksiya yazıları:* şagird oxuduğu əsərin öz dünyasına təsirini yazılı və ya şifahi şəkildə ifadə edir.

**Təqlid və rol oyunları:* emosional iştirak yolu ilə ədəbi material daha dərindən mənimsənilir.

Bu üsulların tətbiqi şagirdlərin tənqidi düşüncəsini və emosional zəkasını inkişaf etdirir, həm də dərsin öyrədici-tərbiyəvi təsirini artırır.

Psixoloji inteqrasiyanın effektivliyi birbaşa müəllimin emosional mədəniyyəti və pedaqoji ustalığından asılıdır. Müəllim yalnız bilik ötürən deyil, həm də şagirdlərin hiss dünyasına körpü salan şəxs olmalıdır. O, ədəbiyyat dərsində psixoloji balansı, emosional atmosferi, şagirdlərin fərdi xüsusiyyətlərini

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

nəzərə almalıdır. Bu zaman müəllim həm psixoloq, həm bədii düşüncə rəhbəri kimi çıxış edir.

Ədəbiyyatın psixologiya ilə inteqrasiyası təlim prosesində həm idrak, həm emosional, həm də tərbiyəvi məqsədlərə xidmət edir. Bu inteqrasiya:

*şagirdlərin emosional-intellektual inkişafını təmin edir;

*dərin məna qavrayışı və dəyərlərin mənimsənilməsi üçün şərait yaradır;

*şəxsiyyətyönlü tədris modelinə uyğun gəlir;

*müəllim-şagird münasibətlərini insani, empatik və etimadəsaslı müstəviyə daşıyır.

Beləliklə, ədəbiyyatın tədrisində psixologiya ilə inteqrasiya şagirdlərin şəxsi və sosial inkişafını, emosional zəkasını və mənəvi dünyagörüşünü zənginləşdirir, təhsil prosesini daha mənalı və məqsədyönlü edir. Ədəbiyyat dərslərində psixoloji təhlil metodları üzrə müəllimlər üçün xüsusi təlimlərin keçilməsi, şagirdlərdə empatiya və emosional intellektin inkişafına yönəlik interaktiv metodlardan sistemli istifadə, tədris proqramlarında bədii əsərlərin psixoloji aspektlərinin öyrənilməsinə geniş yer ayrılması yanaşması XXI əsr təhsil sisteminin humanist və şəxsiyyətyönlü modelinə tam uyğun gəlir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Həsənəli Eyvazlı**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0564-8805
h.eyvazli@gmail.com

# Sərhədsiz və davamlı öyrənmədən, mükəmməl akademik mühitin yaradılmasına doğru

***Açar sözlər:*** *elmi-texniki, çoxşaxəli, nəhəng dünya, psixoloji emosionallıq, innovativ, təhsilin inkişafı*
***Keywords:*** *scientific-technological, varied, great world, psychological emotionality, innovative, development of education*

Elmi-texniki tərəqqinin sürətli inkişafı digər sahələrdə olduğu kimi təhsilin inkişafında da özünü aşkar edir. Çünki bugünkü cəmiyyət çoxşaxəli yeniliklərlə səciyyələnən dinamik dəyişikliklərə məruz qalır. Bu da ondan irəli gəlir ki, bu gün o boyda nəhəng dünya kiçik ovcumuzun içərisindədir. Yəni hərtərəfli informasiya bolluğu yaradan texnologiya ölkəmizdə rəqəmsal təhsilin inkişafı üçün lazımi şəraitin yaradılmasına yönəlmiş olsa, o zaman təhsil innovasiyaları yeni texnologiya və metodların tətbiq olunduğu yeniliklərə söykənəcəkdir. Ona görə ki, indiki dövrdə təhsil innovasiyalarına ehtiyac daha da artıb. Belə olduğu halda ölkənin sosial rifahı vətəndaşların təhsilinin keyfiyyətindən asılı olur.

Bu o deməkdir ki, elm və texnikanın sürətli inkişafı, yeni təhsi islahatının tətbiqi təhsil müəssisələrində innovativ fəaliyyətin məzmununda və təşkilində dəyişikliklərin edilməsinə zərurət yaradır. Lakin bu heç də o demək deyi ki, biz fənlərin tədrisində, əlalxüsus ədəbiyyat fənninin tədrisində və bədii

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 117-120
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 117-120
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

əsərlərin təhlilində klassik və dövrümüzlə səsləsən bir sıra nümunələrdən yan keçək. Çünki hər bir əsərin təhlili prosesi müəllimdən əsərdəki psixoloji durumlara çiddi yanaşmağı və həyat həqiqətlərinin bədii inikasını təhsilalanlara psixoloji emosionallığı təbii, olduğu kimi çatdırmağı tələb edir.

XX əsr Azərbaycan ədəbiyyatı özündən əvvəlki dövrlərlə müqayisədə formasına, məzmununa və janr xüsusiyyətlərinə görə seçilmişdir. 1920-80-ci illərdə yaranan ədəbiyyat nümunələri ideyasına və tərbiyəvi mahiyyətinə görə ümumilikdə götürdükdə əsasən sovet ideologiyasının prinsiplərini özündə əks etdirmişdir. Lakin ayrı-ayrı sənətkarların yaradıcılıq üslubu, mövzu seçimi, sözün bədii dəyəri, xalq yaradıcılığı nümunələrinin bədii inikası ədəbiyyatın inkişafına güclü təsir göstərmişdir.

İstər poeziya, istər nəsr, istərsə də dramaturgiya dövrün ictimai-siyasi burulğanı içərisində öz yolunu tapmağa çalışmış və qismən də olsa buna nail ola bilmişdir. Belə bir dönəmdə şair və yazıçılarımızın əsərlərində xalqın dərd-səri zaman, məkan və ad dəyişikliyi ilə bədii əksini tapmağa başlamışdır. Bu cür ədəbi priyomlar səbəbsiz deyildi.

Professor Abdulla Abasov haqlı olaraq ötən əsrin birinci yarımilini xarakterizə edərək yazırdı: "XX əsrin 20-30-cu illəri ziddiyyətli, şübhəli, insanlar üçün səksəkəli, qorxulu illər idi. Əslinə qalsa repressiya hərəkatının istiqamət axını bu illərdən başlayırdı. Sifariş və çağırış adı altında "тямизлямя", "сафчцрцк етмя" планы щяйата кечирилирди".

Belə bir vaxtda, yəni 1926-cı ildə Cəlil Məmmədquluzadə "Dəli yığıncağı" pyesini yazdı. Əsərdə Müəllif xalqın dilini, dinini və adət ənənələrini bilməyən bir adamın Azərbaycana rəhbərlik etməsinə qarşı münasibətini bildirir. Mövcud ictimai quruluşun sərt qanunlarına əsasən bunu birbaşa yaza bilmir və hadisələri Cənubi Azərbaycana köçürür.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 117-120
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 117-120
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Dərin fəlsəfi və psixoloji mahiyyət daşıyan, dövrün eybəcərliklərini qamçılayan, ictimai-siyasi vəziyyətin sabit olmadığı və cəhalətin hökm sürdüyü bir dövrdə rəhbərlik etdiyi xalqın dilini, dinini və adət-ənənələrini bilməyən, hətta bir xalqı öz ana dilində deyil, özgə dildə danışmağa məcbur edən Həzrəti Əşrəfin hökmünün ağırlığı əsər boyu bizi izləyir. Bu hökmun ağırlığı altında əzab çəkən, çabalayan, lakin çıxış yolu tapa bilməyərək zamanın hökmünə baş əyməyə məcbur olan tacirlərin taleyinə açıyırıq. Zamanın dəyirman daşı altında əzilməyə məcbur edilən, haqq səslərini kimsəyə duyura bilməyən məzlumların- *"dəli"lərin* acınacaqlı hallarına yanırıq.

Xalqın dilini bilməyən doktor Lalbyuzun–*kimdir dəli?* ifadəsi əsər boyu oxucunu intizarda qoyur. *"*Doktor*"* Lalbyuz də çaşbaş qalıb. Ona təqdim olunan bir ovuc məzlumlarmı dəlidir, yoxsa onları bu vəziyyətə salan cəmiyyətdəki insanlarmı?

Əsəri oxuyan hər bir oxucu özünü dumanlı, psixoloji prosesin içində hiss edir, çünki Cinni Mustafanın onu duymayan insanlar qarşısında yumruqlarını düyüb, gözlərinin içinə baxaraq bağırması məzlum insanların əzən cəmiyyətə üsyankar etirazıdır.

*Mən dəli deyiləm!* – deyərək haray salan, lakin haqq səsini kimsələrə duyura bilməyən bu insanların cəmiyyətdə yeri yoxdur. Çünki onlar *"dəlidir",* "cəmiyyət" bu *dəlilərdən* xilas olmaq istəyir.

Müəllif 1926-cı ildə "Dəli yığıncağı" əsəri ilə - *mən dəli deyiləm* - deyərək haray çəkən insanları *(xalqı və xalqları)* sanki 1937-ci ildə başlayacaq repressiya deyilən necə bir bəlanın gözlədiyini xəbər vermək istəyirdi. Əgər mövcud cəmiyyət bu "dəliləri" qəbul etmək istəmirdisə, heç bu "dəlilər" də onlara qarşı duran zümrəni qəbul etmək istəmirdi. Antoqonist ziddiyyət daim güclünün, yəni əzməyə gücü olan təbəqənin qələbəsi ilə

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

sona çatırsa, qarşı tərəf də daim yaşamaq uğrunda, haqq-ədalət uğrunda psixoloji cəhətdən hazırlıqlı mübarizə ruhunu ortaya qoymuş olur.

Ümumiyyətlə, sənətkarlıq nümunəsi olan bədi əsərlərin tədris prosesində təhlilə cəlb olunması təhsilalanların təfəkkürünün müxtəlif aspektlərdən güclü inkişaf etməsinə zəmin yaradır. Yəni məktəbdə pedaqoji prinsiplərin və sosial yanaşmaların düzgün tətbiqi təhsilalanların nadir istedad kimi formalaşmasına şərait yaradır.

Buradan belə nəticə çıxarmaq olar ki, sərhədsiz və davamlı öyrənilərək gedilən yol, mükəmməl surətdə akademik mühitin yaradılmasına doğru gedilən emosional zəkanın yüksəliş yoludur.

Amerikalı professor Daniel Villingham 2010-cu ildə yazırdı: "Uşaqlar intellekt baxımından fərqlənirlər, lakin onların bilikləri davamlı öyrənmə vasitəsilə dəyişdirilə bilər". Bu o deməkdir ki, biz bu gün daha yaxşı, davamlı düşünən, davamlı öyrənən və yüksək təhliletmə qabiliyyətinə malik gənclər yetirməliyik.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Günay Şirəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-7723-4082
shiraligunay@gmail.com
**Əfsanə Abdullayeva**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0000-2604-2899
msabdu11yeva@gmail.com

# Ədəbiyyat nümunələrinin şagirdlərin emosional inkişafına təsiri

***Açar sözlər:*** *ədəbiyyat, emosional inkişaf, şagirdlər, empatiya, mənəvi dəyərlər, estetik tərbiyə, bədii əsərlər, hiss və duyğular, oxu vərdişləri, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, İlyas Əfəndiyev, poetik dil, yaradıcılıq, şagirdin şəxsiyyət inkişafı*

***Keywords:*** *literature, emotional development, students, empathy, spiritual values, aesthetic education, works of art, feelings and emotions, reading habits, Jalil Mammadguluzadeh, Jafar Jabbarli, Ilyas Efendiyev, poetic language, creativity, student's personality development*

Ədəbiyyat insanın yalnız dünyagörüşünü deyil, həm də daxili aləmini zənginləşdirən mühüm bir vasitədir. Ədəbiyyat nümunələrinin şagirdlərin emosional inkişafına təsiri çoxşaxəli və dərin olur. Ədəbiyyat yalnız bilik mənbəyi deyil, həm də insanın hisslərini, empatiyasını, estetik zövqünü formalaşdıran güclü vasitədir. O, insana həyat haqqında biliklər öyrətməklə yanaşı, duyğularını anlamağa, başqalarının hisslərini bölüşməyə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

də kömək edir. Buna görə də ədəbiyyat nümunələrinin şagirdlərin emosional inkişafında xüsusi rolu vardır.Ədəbiyyat əsərləri vasitəsilə şagirdlər obrazların sevincini, kədərini, mübarizəsini, arzularını yaşayır və onları öz həyat təcrübəsi ilə müqayisə edirlər. Ədəbiyyat əsərlərindəki qəhrəmanların sevincini, kədərini, mübarizəsini oxuyan şagird onların hisslərini yaşamağa başlayır. Bu, başqasının daxili aləmini anlamağı, insanlara qarşı daha həssas və anlayışlı olmağı öyrədir. Bu proses şagirdlərdə empatiyanın – başqasının hisslərini anlama və paylaşma bacarığının formalaşmasına səbəb olur. Əsərlərdə təsvir olunan mənəvi dəyərlər – ədalət, mərhəmət, vəfa, dostluq və vicdan hissləri uşaqların daxilində emosional zənginlik yaradır. Ədəbiyyat nümunələrinin poetik dili və obrazlı təsvirləri isə şagirdlərdə estetik zövqün formalaşmasına xidmət edir. Onlar gözəlliyi duymağı, hissləri sözlərlə ifadə etməyi öyrənirlər. Eyni zamanda, oxu prosesi şagirdlər üçün bir növ daxili rahatlıq mənbəyinə çevrilir: əsərlərlə tanış olduqca stressdən uzaqlaşır, mənfi emosiyalardan təmizlənirlər. Bundan başqa, ədəbiyyat gəncləri yaradıcılığa sövq edir, şeir və ya hekayə yazmağa, öz hisslərini ifadə etməyə ruhlandırır.

Şagirdlər müxtəlif obrazların yaşantıları vasitəsilə öz emosiyalarını tanımağı, sözlərlə ifadə etməyi bacarır.Poeziya və bədii nəsr hisslərin təsirli şəkildə ifadəsi üçün yaxşı nümunə rolunu oynayır. Ədəbiyyat nümunələrində ədalət, mərhəmət, vəfa, dostluq, vicdan kimi dəyərlər önə çıxır. Bu dəyərlər şagirdlərin daxili aləminə təsir edərək onların emosional-mənəvi inkişafını dəstəkləyir. İncə bədii dil, obrazlı təsvirlər, poetik ifadələr uşaqlarda gözəlliyi dərk etməyi, duyğularla qəbul etməyi öyrədir. Bu, həm də onların emosional zənginliyini artırır. Ədəbiyyat əsərləri şagirdlər üçün daxili təmizlənmə vasitəsi ola bilər. Oxumaq və müzakirə etmək onlarda mənfi emosiyaların yüngülləşməsinə, stress və gərginliyin azaldıl-

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

masına, daxili tarazlığın bərpa olunmasına kömək edir. Ədəbiyyat nümunələri şagirdləri yaradıcılıq və özünüifadə etməyə, şeir yazmağa, hekayə uydurmağa, düşüncələrini emosional şəkildə ifadə etməyə ruhlandırır. Bu da emosional inkişafın mühüm tərkib hissəsidir. Bu fikirləri daha aydın göstərmək üçün

Cəlil Məmmədquluzadə – "Usta Zeynal" hekayəsi

Müsbət emosiyalar: Usta Zeynalın sadəliyi, zəhmətkeşliyi və mərhəmətli xarakteri oxucuda rəğbət və hörmət hissi oyadır.

Mənfi emosiyalar: Cəmiyyətdəki ədalətsizlik, insanların saflıqdan sui-istifadə etməsi oxucuda qəzəb, kədər və üzüntü yaradır.

Cəfər Cabbarlı – "Sevil" dramı

Müsbət emosiyalar: Sevilin azadlıq uğrunda mübarizəsi, cəsarəti oxucuda ümid, heyranlıq və sevinc doğurur.

Mənfi emosiyalar: Köhnə ənənələrin qadınlara qarşı haqsız davranışı, Sevilin çəkdiyi əzab oxucuda hiddət və kədər oyadır.

İlyas Əfəndiyev – "Söyüdlü arx" povesti

Müsbət emosiyalar: Obrazların saf sevgisi, kənd həyatının səmimiliyi oxucunu sevindirir, doğmalıq hissi yaradır.

Mənfi emosiyalar: Qəhrəmanların qarşılaşdığı çətinliklər, ayrılıqlar və həyatın ədalətsizlikləri kədər və nisgil doğurur.

Daha ətraflı Cəlil Məmmədquluzadənin 'Poçt qutusu' hekayəsi nümunə olaraq göstərə bilərik. Hekayədə dilin sadəlöv-lüyü və obrazların daxili aləminin necə ustalıqla yazıldığını görmüş oluruq.

Novruzəli həmişəki kimi kənddən xana sovqat gətirir. Xan İrəvanda yaşayan dostuna məktub yazaraq ora arvadı ilə gələcəyini, qalacaqları evi səliqəyə salmağı, evi isitməyini məktubda yazır.O, Novruzəlini məktubu poçt qutusuna salmaq üçün poçtxanaya yollayır. Və onu kimsəyə verməməyi poçt qutusuna salıb qayıtmağı tapşırır. Poçtun nə olduğunu bilməyən

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 121-124
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 121-124
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Novruzəli həyatında ilk dəfə qutuya məktub atır. Xandan soruşmadığından məktubu poçt qutusuna atdıqdan sonra nə edəcəyini bilmədiyindən qutunun yanında gözləyir. Poçtalyon qutudan məktubları götürəndə Novruzəli onun oğru olduğunu xanın yazdığı məktubu oğurladını güman edərək onunla əlbəyaxa dalaşır. Nəticədə polisə düşür. Xan Novruzəlini zaminə götürür. Ancaq Novruzəliyə üç ay həbs cəzası kəsilir. Bu hekayə bizdə həm mənfi həm müsbət emosiyalar yaradır. Bu hekayənin təhlilinə baxdığımız zaman bizdə bu fikirlər yaranmış olur ki yazıçının hekayədə erməni və rus millətlərinin nümayəndələrinin poçt qutusuna məktub salmaları səhnəsini təsvir etməsi digər millətlərin elmə, inkişafa böyük maraq göstərmələrini və buna görə də zamanla ayaqlaşa bildiklərini nəzərə çatdırmaq istəmişdir. Eyni sözləri müsəlmanlar barədə demək mümkün deyil. Onlar övladların məktəbə getməkdən yayındırır, cəhalətdən yaxa qurtarmağa heç bir cəhd göstərmirlər. Buna görə də həyatları çətinliklər içində keçir. Novruzəlinin əzab-əziyyətli dolanışığı, başına gələn bəlalar, bunun təsdiqidir. C.Məmmədquluzadə belə təzadlı və təsiredici səhnələr təsvir etməklə ilk növbədə xalqın gözünü açmaq, onları elmə, inkişafa, öz hüquqlarını anlamağa istiqamətləndirmək istəmişdir. Novruzəlinin faciəsi ayrılıqda götürülmüş tək bir fərdin faciəsi deyildir. Belə hal cəhalət içində boğulan xalq və cəmiyyət üçün xarakterik idi. Novruzəliləri faciələrdən qurtarmaq üçün ilk növbədə cəmiyyəti sağaltmaq gərək idi. Xalqını çox sevən, onun acınacaqlı həyat tərzinə ürəkdən acıyan yazıçı dövrünün eybəcərliklərinə güzgü tutmaqda məqsədi elə məhz bu idi.

Təkcə poçt qutusu hekayəsində deyil digər əsərlərdədə məhz bizdə yeni fikirlər emosiyalar yaranmış olur və bu əsərlərdən biz yeni biliklər yeni fikirlər əldə etmiş oluruq.Bu da oxucunun həm

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

müsbət, həm də mənfi duyğuları yaşamasına və emosional baxımdan zənginləşməsinə səbəb olur.

Nəticə etibarilə, ədəbiyyat nümunələri şagirdlərin emosional inkişafında mühüm yer tutur. O, onların həm düşüncəsini, həm də qəlbini zənginləşdirir, insanlara qarşı həssas və anlayışlı münasibət formalaşdırır. Ədəbiyyat gənc nəsli yalnız savadlı deyil, həm də dərin hisslərə sahib, mənəvi cəhətdən yetkin insan kimi yetişdirir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Mehmet Gökhan Özçubukçu**
Bakı Dövlət Universitesi
doktorant
https://orcid.org/0000-0002-2632-9897
mehmetgokhanozcubukcu@gmail.com

# Türk dünyasında inteqrasiyanin yeni mərhələsi Şuşa Bəyannaməsində təhsil sahəsi

***Açar sözlər:*** *Şuşa Bəyannaməsi, Türkiyə-Azərbaycan Münasibətləri, Türk Dövlətləri Təşkilatı (TDT), Orta Dəhliz, Enerji Təhlükəsizliyi*
***Keywords:*** *Shusha Declaration, Turkey–Azerbaijan Relations, Organization of Turkic States (OTS), Middle Corridor, Energy Security*

Şuşa Bəyannaməsində təhsil sahəsi. 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərini rəsmiləşdirən strateji sənəd kimi həm siyasi, həm təhlükəsizlik, həm də humanitar və təhsil sahəsində əməkdaşlığı xüsusi vurğulayır. Sənəddə təhsil sahəsinə dair əsas məqamlar bunlardır:1. Təhsil və mədəniyyət əlaqələrinin gücləndirilməsi. Bəyannamə Azərbaycanda və Türkiyədə ortaq elm, təhsil və mədəniyyət layihələri həyata keçirilməsini nəzərdə tutur.

Bu, xüsusilə: ortaq tədqiqat mərkəzlərinin yaradılması, birgə elmi layihələrin dəstəklənməsi,universitetlərarası əməkdaşlıq platformalarının genişləndirilməsi ilə bağlıdır.

2. Mübadilə proqramları

Sənəddə tələbə və müəllim mübadiləsinin artırılması vurğulanır. Bu istiqamət: tələbə dəyişmə proqramlarının (məsələn,

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Mevlana, Orhun, Erasmus bənzəri), müəllimlərin ixtisasartırma və elmi mübadilə fəaliyyətlərinin genişlən-dirilməs ilə bağlıdır.

3. Türk dünyası ortaq təhsil məkanının inkişafı. Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə əməkdaşlığını Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya ilə əlaqələndirdiyi üçün: ortaq əlifba məsələsi, ortaq dərsliklərin hazırlanması,türk xalqlarının tarixi və mədəni irsinin tədrisi

kimi mövzuların inkişafına təkan verir.

4. Qarabağda təhsilin bərpasında Türkiyə ilə əməkdaşlıq

Bəyannamənin imzalandığı yer – Şuşa – simvolik olaraq Qarabağın bərpasına yönəlmişdir. Bu çərçivədə təhsil sahəsində əməkdaşlıq: Qarabağ bölgəsində təhsil infrastrukturunun bərpasında təcrübə və texniki dəstək, məktəb və universitet layihələrində birgə proqramlar, peşə təhsilinin gücləndirilməsi kimi istiqamətləri əhatə edir. Elm–innovasiya əməkdaşlığı. Bəyannamə yüksək texnologiyalar, innovasiya, süni intellekt və rəqəmsal transformasiya sahəsində birlikdə elmi-tədqiqat işlərinin aparılmasını qarşıya məqsəd qoyur.

21-ci əsrin əvvəllərindən etibarən beynəlxalq sistemin fundamental xarakteri güc mərkəzlərinin yenidən formalaşması, regional aktyorların əhəmiyyətinin artması və qlobal səviyyədə çoxqütblülüyün ön plana çıxması üzərində qurulmuşdur. Soyuq müharibədən sonra Qərb mərkəzli birqütblü nizamın hegemon təsiri tədricən zəiflədikcə regional ittifaqlar, mədəni həmrəylik və geosiyasi kimliklər ön plana çıxdı. Bu transformasiyanın ən bariz təzahürlərindən biri xüsusilə türk dünyasında yaşanmışdır. Türk dilinin, mədəniyyətinin və tarixinin ortaqlığına əsaslanan dövlətlər arasında əməkdaşlığa doğru artan meyl təkcə mədəni yaxınlaşmaya deyil, həm də iqtisadi, strateji və geosiyasi inteqrasiya prosesinə səbəb olmuşdur. Bu kontekstdə, 15 iyun 2021-ci ildə Azərbaycanın simvolik şəhəri Şuşada imzalanan

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Şuşa Bəyannaməsi müasir dövrdə türk dünyasının ən vacib strateji sənədlərindən biri kimi tarixə düşmüşdür.

Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri ittifaq səviyyəsinə qaldırdı və iki ölkənin təhlükəsizlik, müdafiə, enerji, nəqliyyat və mədəniyyət sahələrində vahid inteqrasiyaya yönəlməsini təmin etdi. Lakin bu sənəd sadəcə iki ölkə arasında strateji bir razılaşma deyildi; eyni zamanda Türk Dünyasının gələcəyini formalaşdıracaq bir vizyonun konkret ifadəsi idi. Bəyannamə "Bir Millət, İki Dövlət" tarixi konsepsiyasını institusional və beynəlxalq səviyyələrdə yeni bir səviyyəyə qaldırdı və beləliklə, Türk Dövlətləri Təşkilatının yaradılması üçün yol açdı. Bu baxımdan Şuşa Bəyannaməsi sadəcə ikitərəfli bir razılaşma deyil, həm də Türk Dünyasının siyasi, iqtisadi və təhlükəsizlik əsaslı inteqrasiyasını institusionallaşdıran bir təməl daşı hesab edilə bilər.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Leyla Əliyeva**
Naxçıvan Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0001-7087-2790
aliyeva1987l@gmail.com

# Azərbaycan dilinin tədrisində innovativ texnologiyalardan istifadənin psixoloji əsasları

***Açar sözlər:*** *Azərbaycan dili, innovativ texnologiya, təlim, bacarıq, psixologiya*
***Keywords:*** *Azerbaijani language, innovative technology, training, skills, psychology*

Müasir dövrdə elmin bütün sahələrində kəskin dəyişiklik müşahidə olunur, eləcə də, təhsil sahəsi də dayanmadan inkişaf edir, müasir tələblərə, dünya standartlarına cavab vermək üçün daim təkmilləşir. Elm və texnologiyanın birləşməsi gənc nəslin bilik bacarıq və vərdişlərinin təkmilləşdirilməsini zəruri edir. Hazırkı dövrdə elmin bir çox sahələrinin tədrisində pedaqoji texnologiyalardan, innovativ yanaşma və metodlardan istifadə olunur. Fəal təlim metodlarından istifadə öz təhsil keyfiyyətimizi dünya təhsil sisteminə inteqrasiya etməsi deməkdir. İnteqrasiya zərurəti milli təhsil sistemimizin sürətli inkişafına və yeni təlim texnologiyalarının, innovativ təlim metodların və texnoloji vasitələrdən istifadəyə səbəb olur. Ölkəmizdə həyata keçirilən kurikulum təhsil islahatı bütün fənlərin tədris prosesinin daha səmərəli və yaddaqalan edir. Belə ki, Azərbaycan dili fənninin tədrisində innovativ texnologiyalardan istifadə təkcə dilin müəyyən qanunauyğunlarını aşılamaq deyil, həm də ölkəmizə faydalı gənc nəslin yetişməsində birbaşa rol oynayır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 129-131
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 129-131
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Dil dünyanı dəyişən ən mühüm qüvvədir. Bu gücə nail olmaq üçün əksər inkişaf etmiş ölkələrdə yeni, yəni innovativ yanaşma və üsullar tətbiq olunur. Bunlar "konstruktivist, fəaliyyət və bacarıq yanaşmaları" kimi qeyd olunur. Bacarıq yanaşmasının başlanğıc nöqtəsi "bacarıq" anlayışıdır. Bu yanaşma şagirdlərin dil, əqli, sosial və emosional bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Bacarıq fəaliyyətinə aiddir- bilmək, hərəkət etmək və tapşırığı yerinə yetirmək komponentlərindən ibarətdir.

Azərbaycan dilinin tədrisi zamanı əsas məzmun xətlərinin reallaşdırılması zamanı müəllim həm innovativ metodları tətbiq etməli, həm də şagirdlərin öyrənmə və ya qavrama psixologiyasını da nəzərə almalıdır. Öyrənmə psixologiyası şagirdlərin inkişaf xüsusiyyətlərini və öyrənmə üsullarını araşdıraraq tədris mühitini effektiv şəkildə təşkil etmək və innovativ təlim metodları vasitəsilə öyrənməni asanlaşdırmaq məqsədi daşıyır.

İnnovativ texnologiyalar dedikdə təkcə yeni yanaşma ilə yaradılan təlimin iş forma və üsulları demək deyil, həm də texnologiyanın inkişaf etdiyi dövrdə təlimdə texnoloji vasitələrdən – İKT-dən, süni intellektdən, padletlərdən, podkastlarda, rəqəmsal hekayə, oyunlar, bloglar, audiovizual alətlər, interaktiv lövhə və. s kimi tədris texnologiyalarından da istifadə Azərbaycan dilinin tədrisində dinləyib-anlama, qavrama, oxu, yazı, dil qaydaları kimi məzmun xətlərin mənimsənilməsində əhəmiyyətli rol oynayacaq. Belə ki, şagirdlərin bu texnoloji vasitələrdən istifadə zamanı onların sosial və psixoloji vəziyyətlərinə də müsbət mənada təsir edəcək.

Texnologiya imkanlarının geniş və bol olduğu müasir mühitdə böyüyən şagirdlər ünsiyyət, sosiallaşma, öyrənmə və əyləncə kimi sahələrdə əvvəlki nəsillərdən fərqlənirlər. Bu texnoloji dəyişikliklər, həm Azərbaycan dilinin tədrisində təlim vasitələrindən istifadədə və təlim metodlarında da dəyişikliklər

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

yaradır. Bu gün ümumtəhsil müəssisələrində internet çıxışı olmaları onların bu innovativ texnologiyalardan istifadə etmələri demək deyil. Azərbaycan dili dərslərinin təşkilində texnologiyaya əsaslanan biliklərin düzgün tədrisi və onların mənim-sədilməsini maksimum dərəcədə artırılması bütün şagirdlər üçün vacibdir. Yuxarıda qeyd olunan proqramların məqsədi şagirdlərə bir sıra innovativ alətlər və resurslara çıxış təmin etməklə Azərbaycan dilinin tədrisinin keyfiyyətini artırmaqdır. Bu innovativ vasitələrdən istifadə təkcə şagirdləri deyil, müəllimlərin də İKT-lərdən istifadə bacarıqlarını təkmil-ləşdirəcək.

İnnovativ texnologiyalardan istifadə zamanı şagirdlərin psixoloji vəziyyəti də diqqətdə saxlanılmalıdır. Tədris prosesi zamanı şagirdlərin davranış və düşüncələri, yaş və bilik səviyyələri nəzərə alınmalı və bu mühitə hazırlıq təşkil olunmalı, en effektiv innovativ təlim yanaşmasından istifadə olunmalıdır. Nəzərə alsaq ki Azərbaycan dilinin tədrisində verilmiş problemli situasiyaya münasibət bildirmək, fikirlərini əsaslandırmaq kimi bacarıqlar mütəmadi göz önündədir. Bu texnologiyalardan istifadə zamanı şagirdlərdə özünəinam, ətrafda baş verən hadisələrə şəxsi münasibət bildirmək kimi psixoloji bacarıqlar da öz növbəsində inkişaf edəcək.

Azərbaycan dilinin tədrisində məzmun xətlərin mənimsədilməsi zamanı istifadə olunan innovativ təlim mühiti şagirdlərin bacarıqlarını inkişaf etdirmək üçün tərtib edilməlidir. Mövzuların tədrisi zamanı innovativ texnoloji vəsaitlərdən istifadə artıq adi hala çevrilməldir. Çünki müxtəlif duyğu orqanlarına xitab edən təhsil daha qalıcı və başa düşüləndir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 132-136
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 132-136
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Aygül Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
doktorant
https://orcid.org/0009-0007-6718-9214
metbuat@nmi.edu.az

# Elmi-pedaqoji kadrların hazırılanmasında magistratura təcrübələrinin innovativ yanaşmaları

***Açar sözlər:*** *pedaqoji kadr hazırlığı, magistratura səviyyəsi, tətbiqi təcrübə, innovativ inteqrasiya, rəqəmsal təhsil texnologiyaları, mentorluq əsaslı öyrənmə, reflektiv təcrübə*

***Keywords:*** *pedagogical staff training, master's level, applied practice, innovative integration, digital educational technologies, mentoring-based learning, reflective practice*

Müasir dövrdə ali təhsil pilləsinin magistratura səviyyəsi gələcək elmi-pedaqoji kadr hazırlığının keyfiyyət göstəricilərindən biridir. Təhsilin bu mərhələsində tədris olunan nəzəri fənlərlə yanaşı, təcrübə və kompetensiyalar müəllim və tədqiqatçıların mütəxəssis kimi formalaşmasında əhəmiyyətli rol oynayır.

Elmi pedaqoji təcrübə adından da göründüyü kimi, nəzəri biliyin tədrisində əldə edilmiş təcrübə və bacarıqları ehtiva edir. Yəni, elmi pedaqoji təcrübə dedikdə tədqiqat və təhsil sahələrində əldə edilmiş təcrübi və praktiki bilikləri başa düşürük. Bunlar isə təcrübə müddətində magistrantların qarşı tərəfə effektiv, səmərəli şəkildə bilik ötürməsi, axtarış aparması üçün lazım olan bacarıqlardır. Bu təcrübə müxtəlif və çoxşaxəli formada olur, həmçinin magistrantın təhsil fəaliyyətlərinə və bu sahədə olan tədqiqatlarına əsaslanır. Ona görə də elmi-pedaqoji təcrübə təhsil müəssisələrinin təlim, tədris planında xüsusi yeri

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

olan prosesdir. Bu proses müddətində magistrantlar müasir dövrün qaydalarına, tələblərinə hazırlıqlı olmalı, informasiya cəmiyyətində yaşayıb fəaliyyətini bu istiqamətdə qurmalı, dünyagörüşlü, rəqabətqabiliyyətli olmalı, öz ixtisası ilə bağlı nəzəri biliyə, praktiki iş qabiliyyətinə yiyələnməli, özünü daim inkişaf etdirməlidir (İnnovativ qiymətləndirmə təcrübələri, 2024, s. 147).

Qloballaşma dövründə təhsil sahəsində də baş verən sürətli dəyişiklər, yeni texnologiyaların inteqrasiyası və beynəlxalq əmək bazarının dinamikası bunu göstərir ki, magistratura pilləsində aparılan elmi- pedaqoji təcrübələrin məzmunu və tətbiq formaları da ən son çağırışlara uyğunlaşdırılmalıdır.

Bu günə qədər aparılan təcrübə modellərinin müəyyən qədər üstünlükləri olsa da, bir neçə məhdudiyətləri də vardır. Belə ki, ölkəmizdə fəaliyət göstərən ali təhsil müəssisələrinin heç də hamısında fərdiləşmə və çeviklik üçün tələblərə tam cavab verə bilən şərait yaradılmır, tələbələrin təcrübələri əsasən fakültə və kafedra səviyyəsində auditoriyalarda təşkil olunur. Bu zaman isə məhdudiyyətlər səbəbindən tələbələrin praktik bacarıq və təlim texnologiyalarına dair hazırlığı ləngiyir (İnnovativ qiymətləndirmə təcrübələri, 2024; Azərbaycan Respublikası Təhsil Nazirliyi, n.d.).

Bu problemlərin aradan qaldırılması üçün həm inteqrativ, həm texnoloji, həm də konstruktivist yanaşmalar həmin təcrübəyə daxil edilməlidir. Belə olduğu halda, təcrübə prosesi daha çevik, şəffaf və daha çox nəticəyönümlü olur. Bunun üçün aşağıdakı yanaşmaların tətbiq edilməsi məqsəduyğun qəbul olunur:

- Burada ilkin olaraq hibrid təcrübə modelini qeyd edə bilərik. Çünki bu metodla həm ənənəvi auditoriya məşğələlərini, həm də onlayn və rəqəmsal platformalar üzərindən qurulan interaktiv fəaliyyətləri özündə birləşdirir. Həmçinin bu gələcək

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

elmi-pedaqoji kadrların fərdi qrafiklərlə işləmək, tədris prosesində yeni texnologiyalardan səmərəli istifadə və hamımızın bildiyi distant mühitdə resurslardan faydalanmaq imkanları yaradır. Buna əlavə olaraq deyə bilərik ki, hibrid model təcrübədə yer-məkan və vaxt məhdudiyyətlərini aradan qaldırır, eləcə də təlim və tədris fəaliyyətində tələbəyönümlü yanaşmanı stimullaşdırır.

- İkinci olaraq burada yeni texnologiyalara əsaslanan təlim və qiymətləndirmə vasitələrinin seçilməsi olduqca əhəmiyyətlidir. Müasir təlim platformalarının vasitəsilə interaktiv simulyasiyalar, elektron testlər və oyunlaşdırma kimi üsullarla magistrantların bacarıqları obyektiv şəkildə ölçülə bilər. Bu, eyni zamanda yaradıcılıq, problem həll etmə və tənqidi düşüncə kimi 21-ci əsr kompetensiyalarının inkişafını da dəstəkləyir. Bu kontekstdə xüsusilə formativ və summativ qiymətləndirmə üsullarının magistratura pilləsində də düzgün dizayn edilməsi aktuallaşır. Hansı ki burada formativ qiymətləndirmə prosesində tələbələrin təcrübədə göstərdiyi davamlı inkişaf, yəni müşahidə qeydləri, portfolio, qiymətləndirmə və özünüqiymətləndirmə formaları ilə izlənilə bilir. Qeyd edildiyi kimi, summativ qiymətləndirmədə isə təcrübəçilərin yekun təqdimatları, layihə hesabatları, əyani dərs nümunələri və apardıqları reflektiv təhlilləri əsas baza rolunu oynayır.
- Üçüncü aspekt olaraq innovativ yanaşmalara mentorluq və həmyaşıdların qiymətləndirilməsi əsaslı təcrübələrin təşkilini misal göstərə bilərik. Burada magistrantlara təcrübə dövründə təcrübəli müəllimlər-mentorlar rəhbərlik edir, müntəzəm geridönüşlər verilib-alınır və bu mexnizmlərin tətbiqi onların öz üzərində refleksif düşünmə bacarıqlarını artırılmasına gətirib çıxarır. Bu həm də təcrübə prosesində fərdi və sosial aspektləri balanslaşdırmağa kömək edir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 132-136
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 132-136
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

- Dördüncü yanaşma kimi təcrübənin məzmununun real həyat problemlərinə əsaslanan fəaliyyət və layihələr vasitəsilə zənginləşdirilməli olduğunu deyə bilərik. Burada magistrantlar təhsil aldıqları ali təhsil müəssisələrində qarşıya çıxan konkret problemlərin həlli istiqamətində layihələrdə iştirak etməli, bu problemlərin araşdırılması, nəticələrinin təhlil və tətbiq edilməsini öyrənməlidirlər. Bu da bilavasitə təfəkkürün, tədqiqatçılıq və təşəbbüskarlıq bacarıqlarının formalaşmasına xüsusi töhfə verə bilər.
- Digər bir tərəfdən müasir informasiya kommuniksiya texnologiyalarının təcrübəyə inteqrasiyasına ehtiyac duyulur. Rəqəmsal labaratoriyalar, virtual dərslər, interaktiv simulyasiya mühitləri və xüsusilə elektron resurs bazaları təcrübəyə daxil edilməli, hətta tədris prosesində istifadə olunmalıdır. Bu həm də gələcəkdə peşəkar müəllim olmaq istəyən magistrantların texnoloji savadlılıqlarının da artırılmasına dəstək olacaqdır. Deyə bilərik ki, rəqəmsal resursların düzgün seçimi və pedaqoji məqədlərə uyğun tətbiqi elmi-pedaqoji kadr hazırlığında da metodik və texnoloji innovasiyaların vəhdətini təmin edəcəkdir.

Nəticə etibarilə, yuxarıda qeyd edilən yanaşmaların praktik nəticə verməsi üçün magistratura təcrübə proqramlarının yenidən nəzərdən keçirilməsi, təcrübənin əsasnamə və normativ sənədlərinə bu müddəalardan da salınması arzuolunandır. Həmçinin vurğulamalıyıq ki, ali təhsil müəssisələrində təcrübə rəhbərlərinin özünün də müvafiq ixtiasartırma və mentorluq təlimlərindən keçirilməsi, bütün aspektlərdən müasir yanaşmalara yiyələnməsi də bu prosesin keyfiyyətinə birbaşa təsir göstərən amillərdən biridir. Eyni zamanda tələbələrin fərdi maraq və bacarıqları nəzərə alınmalı,onlara məxsus fərdiləşmiş təcrübə imkanlarının yaradılması, digər yerli və beynəlxalq ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində təcrübə

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

mübadilələrinin təşkili çox mühüm əhəmiyyət daşıyan faktordur (Azərbaycan Milli Kitabxanası, n.d.).

Beləliklə, magistratura səviyyəsində pedaqoji təcrübələrin innovativ formatda həyata keçirilməsi təhsilin keyfiyyətinə, elmi-pedaqoji kadr hazırlığının güclənməsinə və peşəkar formalaşmasına strateji dəstək verir. Təklif olunan bu yanaşmaların tətbiqi yalnız magistr tələbələrinin praktik bacarıqlarının artırılmasına deyil, həmçinin onların tədqiqatyönümlü, texnoloji savadlı və reflektiv düşüncəyə malik gələcək mütəxəssis kimi formalaşmasına xidmət edir. Magistratura proqramlarının bu istiqamətdə uyğunlaşdırılması, təcrübə rəhbərlərinin də təkmilləşdirmə kursları ilə dəstəklənməsi keyfiyyətli nəticələrin əldə olunmasını təmin edə bilər.

## Ədəbiyyat

1. İnnovativ qiymətləndirmə təcrübələri. (2024). *Magistrant: Pedaqoji-psixoloji elmlər*, (7[19]). https://adpu.edu.az/images/adpu_files/elm/elmi-jurnallar/05magistrant/magistrant-7-2024.pdf
2. Azərbaycan Milli Kitabxanası. (n.d.). *Rəsmi sayt*. https://www.millikitabxana.az/
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (n.d.). *Ali təhsil müəssisələrində elmi-pedaqoji təcrübənin təşkili qaydaları*.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nuriddin Altınboyev**
Daşkənd Dövlət Şərqşünaslıq Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-5113-0030
nuriddinaltinbaev@gmail.com

# Türk Dilində "Ailə" Konsepti: "Ocaq" və "Yuva" vahidlərin linqvomədəni təhlili

***Açar sözlər:*** *Türk Mədəniyyəti, ailə, Ocak (Ocaq/Kaminə), Yuva (Yuva/Ev), linqvokultural tədqiqatlar, konsept, etimologiya, Eşik (Eşik), atalar sözləri*

***Keywords:*** *Turkish Culture, family, Ocak (Hearth/Fireplace), Yuva (Nest/Home), Linguo-cultural Studies, Concept, Etymology, Eşik (Threshold), proverbs*

Dil, mədəniyyət və insan arasındakı üzvi əlaqə müasir dilçiliyin ən mühüm tədqiqat sahələrindən biridir. Linqvomədəniyyətşünaslıq məhz bu üçlüyü birlikdə öyrənərək, xalqın dünyagörüşü, dəyərlər sistemi və mədəni təcrübəsinin dil vasitəsilə necə əks olunduğunu müəyyənləşdirməyi hədəfləyir. Türk xalqlarının mədəni irsində ailə cəmiyyətin ən qədim və sabit institutu olaraq xüsusi yer tutur. Buna görə də, türk dilində ailə konsepti və onu formalaşdıran linqvomədəni vahidlərin elmi təhlili öz aktuallığını itirməmişdir. Bu tezisdə türk dilində "ailə" konsepti ilə bağlı olan ocaq və yuva vahidləri etimoloji, semantik və linqvomədəni cəhətdən təhlil edilir. Həmçinin, onların türk xalq yaradıcılığında, qədim adət-ənənələrdə və atalar sözlərində əks olunma mexanizmləri nəzərdən keçirilir.

**1. "Ocaq" Konseptinin Etimologiyası və Mədəni Əsasları**

Ocaq sözünün ilkin mənası "atəş, alov" mənası ilə bağlıdır və o, türk xalqlarının qədim dünyagörüşündə həyat, istilik, bərəkət və qoruma rəmzi kimi təfsir edilmişdir (Mamegasanova, 2014, s.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

138). Zaman keçdikcə bu sema genişlənərək, çadırdakı ocaq, evin istiliyi, xanədanın bərəkəti, nəsil-nəcabətin davamlılığı kimi mədəni mənalar qazanmışdır. Qədimdə ocaq təkcə yemək bişirilən və ya ev isidilən yer deyil, bütün xanədanın timsalı kimi qəbul edilmişdir. Evlənmə prosesi "sönməz alov yandırmaq" kimi təfsir edilmiş, gəlin isə "evə nurun gəlməsi", "evə istilik verən alov"a bənzədilmişdir. Ailə həyatının davam etməsi isə ocaqdakı alovun sönməməsi ilə ölçülmüşdür. Türk adət-ənənələrində ailənin sabitliyi çox vaxt ocağın davamlılığı ilə əlaqələndirilmişdir. Gəlin ərinin evinə daxil olarkən ocağa yağ atması bərəkət və xanədanın yüksəlişi rəmzi olmuşdur. Bu mərasim ocağın qoruyucu qüvvəsinə, ev əhalisini şər qüvvələrdən qorumasına olan inanc ilə bağlıdır.

**2. "Ocaq"ın İctimai Quruluşdakı Yeri**

Türklərin qədim ictimai quruluşunda ocaq nəslin, sülalənin davam etmə rəmzi kimi təfsir edilmişdir. İçgüdənin (içküyövün) olmaması, gəlinin bəyi deyil, bəyin gəlini öz evinə aparması ənənəsi də məhz ocağın sabitliyi ilə əlaqələndirilmişdir. Kiçik oğulun atasının evində qalaraq "at tiqin" kimi ocağı davam etdirməsi ailə və nəsil konsepti ilə üzvi bağlıdır (Mandalıoğlu, 2022, s. 492).

Türk dilinin izahlı lüğətində ocaq sözünün on bir mənası mövcuddur ki, onların bir qismi birbaşa ailə, xanədan, nəsil və evin sabitliyi ilə bağlıdır. Xüsusən, "ocağım kurulmadan yıkılmıştı" (A. Gündüz) misalında ocaq "ailə, xanədan" mənasını verən güclü metafora kimi çıxış edir.

**3. "Ocaq" İştirak Edən Frazeologizmlər**

Frazeoloji birliklərdə ocaq sözü çox vaxt ailənin sabitliyi, nəslin davamlılığı və ya dağılması ilə bağlı mənaları ifadə edir. Bəziləri müsbət məzmun daşısa da, əksəriyyəti mənfi semalara malikdir: *ocağı tütemek – "nəsli davam etmək, həyat davam etmək"; ocağı sönmek – "ailə dağılmaq, nəsil kəsilmək";ocağı batmak – "xanədan viran olmaq";ocağı kor kalmak – "varissiz qalmaq"; ocağına incir dikmek/darı ekmek – "ailənin dağılmasına*

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

*səbəb olmaq"*. Bu birliklər türk xalqının ailənin sabitliyini müqəddəs dəyər kimi gördüyünü göstərir.

**4. "Yuva" Konsepti və Onun Semantik Dairəsi**

Türk dilindəki yuva sözünün əsas mənası heyvanların və quşların yuvası ilə bağlı olsa da, ikinci dərəcəli, mədəni semantikasında ailə, evlilikdəki istilik, ev mühitinin səmimiliyi mərkəzi yer tutur. Lüğətdə yuvanın "ailəvi məkan", "insanın ən isti sığınacağı" kimi mənaları verilmişdir. S.F.Abasıyanıkın: "İnsanın kendi yuvasından daha sıcak ... hiçbir yer olmazdı" cümləsi yuva obrazının emosional-mədəni xüsusiyyətlərini əks etdirir.

Yuva sözü ilə əmələ gələn bir sıra frazeologizmlər evlənmə, xanədanın sabitliyi və ya ailənin dağılması ilə bağlıdır:

*yuva kurmak, yuva yapmak – "evlənmək, ailə qurmaq";*
*yuvayı bozmak, dağıtmak, yıkmak – "ailəni dağıtmaq";*
*yuvayı yürütmek – "ailəni idarə etmək, dolandırmaq".*

Bu birliklərin hamısı yuva konseptinin türk ailə təsəvvüründəki mərkəzi yerini göstərir.

**5. Ailə ilə Bağlı Digər Linqvomədəni Vahidlər**

Ailə konsepti türk mədəniyyətində yalnız ocaq və ya ev ilə məhdudlaşmır, daha geniş simvollar sistemində özünü göstərir. Onlar arasında: *otaq / ev, astana (eşik), xanədan.*

kimi vahidlər mövcuddur. Xüsusən, astananın müqəddəs məkan kimi təfsir edilməsi qədim türklərin inanclarında dərin köklərə malikdir. Qapı önündə dayanan "gözətçi ruhlar" haqqındakı təsəvvürlər nəticəsində astananı basıb keçməmək, ona hörmətlə daxil olmaq adətləri formalaşmışdır (Gömeç, 2015, s. 8).

Bu inanclar ailə məkanının nəinki maddi, həm də mənəvi müqəddəsliyini ifadə edir.

**6. Linqvomədəni Yanaşmada Ailə Konsepti**

Müasir linqvomədəniyyətşünaslığın antroposentrik (insan mərkəzli) paradiqmasına görə, mədəni konseptlər xalqın tarixi təcrübəsi, dəyərləri və dünyagörüşünü birləşdirən əsas vahidlər

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

hesab olunur. Ailə konsepti də türk xalqlarının tarixi-mədəni yaddaşında mərkəzi yerə sahib olub, freym, geştalt, mədəni konseptlər şəklində müxtəlif dil vahidlərində əks olunur.

Türk xalqlarının dövlətçilik ənənələri də ailənin möhkəmliyinə əsaslanmışdır. Ailənin dağılması – dövlətin zəifləməsi, ailənin sabitliyi isə cəmiyyətin qüdrəti kimi təfsir edilmişdir. Buna görə də atalar sözlərində beşik, cehiz, qızıl, elçilik, evlənmə, toy kimi vahidlər ailə konseptinin tərkib hissələri kimi tez-tez rast gəlinir.

Türk atalar sözləri təhlili onu göstərir ki, ailə təsəvvürü çox vaxt ev, ocaq, astana simvolları vasitəsilə ifadə olunur; bəzi hallarda isə in-yuva, ocaq, xanədan kimi məcazi birliklər vasitəsilə geniş mənalı mədəni təsəvvürlər yaradır.

## Ədəbiyyat

1. Gömeç, S. (2015). *Türk Ailesine Genel Bir Bakış*. Aile Yazıları / 7 (1-baskı). Aralık.
2. Mandaloğlu, M. (2022). Eski Türklerde aile ve evlilik anlayışı. *Genel Türk tarihi araştırmaları dergisi*, *4*(8), 488–501.
3. Mamegasanova, A. A. (2014). *Farklı toplumların dil dünya görüşü bağlamında ‘ev’, ‘aile’, ‘ocak’ konseptleri. Kültürdilbilim: temel kavramlar ve sorunlar*.
4. Türk Dil Kurumu. (2011). *Türkçe Sözlük* (11. baskı)

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 141-143
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 141-143
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Bəyim Tarverdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-5914-9814
tarverdiyevabeyim1982@gmail.com

# Müasir dövrdə dil dərslərinin aktual problemləri və dilin tədrisində müasir metodlardan istifadənin məqsədi

***Açar sözlər:*** *təhsil standartları, dilin tədrisi, müasir tədris metodları, təlim materialı, kommunikativ bacarıq*
***Keywords:*** *educational standards, teaching of language, modern teaching methods, teaching material, communicative skill*

Müasir dövrdə xarici dillərin tədrisi prosesində dil öyrənən-lərə eşidib-anlama, danışıq, oxu və yazı üzrə zəruri bacarıqların aşılanması, onlarda tənqidi düşünmə qabiliyyətinin və kommunikativ səriştənin formalaşdırılması xarici dil müəllimlərinin qarşısında duran əsas vəzifələrdən hesab olunur. Dil öyrənənlərin xarici dildə şifahi ünsiyyət qura bilməsi və həmin dildə informasiya mübadiləsi apara bilməsi mühüm məsələ kimi ön plana çəkilir. Müasir xarici dil dərslərinin səmərəli təşkili problemi müzakirə edilərkən isə ilk məsələ, həmin dərslərin təşkilatçısı olan müəllimin rolunun müəyyən edilməsindən ibarətdir. Ona görə də, xarici dil müəllimlərindən tələb edilən yeni vəzifələr həm müasir dövrdə dil öyrənənlərin maraq, ehtiyac və tələbləri, onların bilik və bacarıqlarının səviyyəsi, yaş və fərdi xüsusiyyətləri, həm də daima dəyişən və yenilənən texnoloji vasitələrin inkişaf qanunauyğunluqları ilə uzlaşmalı-dır. İngilis dili dərslərinin təşkil edilməsi zamanı dil müəllimləri motivasiyaedici tərəf olaraq yeni metod və yanaşmalardan istifadə etməlidir. Hazırkı dövrdə müasir cəmiyyətdəki sürətli inkişaf tələbədən ən azı bir xarici dil bilməyi tələb edir. Ona

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

görə də, xarici dillərin öyrənilməsi prosesinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına diqqət yetirmək lazımdır.

Dilin tədrisində ən təsirli üsul interaktiv metoddur. İnteraktiv metod təlim prosesində tələbələrdən fəal olmağı tələb edir və məqsəd bütün tələbələri təlim prosesinə cəlb etməkdən ibarətdir. İnteraktiv metodlar kommunikativ bacarıqları, məntiqi təfək-kürü və təhlil etmək, sintez, müqayisə və ümumiləşdirmə aparmaq kimi müxtəlif intellektual fəaliyyət növlərini inkişaf etdirir. Tələbə mərkəzli bu üsulların istifadəsi olduqca məqsədəuyğundur. Şübhə-siz ki, bu da öz növbəsində tələbələrin ünsiyyət və şəxsiyyətlərarası bacarıqlarını təkmilləşdirməyə və inkişaf etdirməyə xidmət edir.

Yeni pedaqoji texnologiyalar fəal təlimə əsaslanır. Təlimin subyekt-subyekt xarakter daşıması, dərsin dialoq şəklində aparılması, müəllim və şagirdlər arasında qarşılıqlı əməkdaşlı-ğın, qrup işindən geniş istifadə, tələbələrin birgə fəaliyyəti, təlim vasitələrinin və tapşırıqların müxtəlifliyi, yeniliyi və s. fəal təlimin üstün xüsusiyyətlərindən hesab olunur. Fəal təlimin modeli müəyyən komponentlərlə şərtlənir. Bura fəal təlimin məzmunu, metodları, öyrədici mühit, qiymətləndirmə daxildir. Fəal təlim zamanı müəllim tələbələrə fərdi yanaşmalı, onların bilik, bacarıq və vərdişlərinin inkişafı üçün daha səmərəli tədris üsullarından, informasiya texnologiyalarından istifadə etməli-dir.Tələbənin mövqeyi – “kəşf edən”, “tədqiqatçı” mövqeyidir, tələbələr təlim prosesinin tamhüquqlu iştirakçısı olaraq, bu prosesdə tədqiqatçı kimi çıxış edirlər. Müəllimin mövqeyi – bələdçi mövqeyidir, problemli vəziyyətləri planlı və istiqamət-lənmiş şəkildə təşkil edir və onların həllinə metodiki kömək göstərir.

Müasir təlim texnologiyaları tələbələrə aşağıdakı keyfiyyət-ləri aşılamalıdır: müstəqil düşünmək, sərbəst fikir söyləmək, öz biliyini təhlil etmək qabiliyyəti, özünü qiymətləndirmək, əməkdaşlıq etmək, başqalarını dinləmək, müxtəlif fikirlərə hörmət etmək, öz fikirlərini nümunələrlə izah etmək, yaradıcı təfəkkürün inkişafı.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Müasir təlim texnologiyaları dərsə qədər hazırlıq prosesində müəllimin, dərsdə isə tələbələrin fəallığını tələb edir. Müasir təlim texnologiyalarının köməkliyi ilə təlimin həm təhsilverici, həm inkişafetdirici, həm də tərbiyələndirici funksiyaları özünü daha qabarıq şəkildə büruzə verir və təlimin keyfiyyətinin yüksəldilməsinə səbəb olur.

Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu müəllim üçün dərsin keyfiyyətini artırmaq məqsədi ilə güclü vasitə ola bilər. Bu metod tələbələr üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal (interaktiv) təlim həm təlimin məzmunun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, tələbələrin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Tələbələrin öyrənməyə həvəsi və nailiyyətləri artdıqca, müəlli-min də fəaliyyəti yüngülləşir. Lakin bu o demək deyil ki, müəllimin zəhməti azalır. Fəal dərsin hazırlanması müəllimdən planlaşdırma mərhələsində daha çox zəhmət tələb edir.

Xarici dilin tədrisində əsas vəzifə dilin yalnız nəzəri baxımdan öyrənilməsi deyil, həmçinin onun praktiki mənim-sənilməsidir. Təlim prosesində əldə edilmiş bacarıq və vərdişlər digər məqsədlərə çatmaq üçün bir vasitə hesab edilir. Təlim materialının (leksik, fonetik, qrammatik) mənimsənilməsi vərdişlərinin formalaşdırılması, şifahi nitqin (danışıq və dinləmə), oxu və yazı bacarıqlarının inkişaf etdirilməsi ünsiyyət prosesində həyata keçirilir. Dil tədrisinin əsas vəzifəsi praktiki dil bacarıqlarının əsasının qoyulması, tələbələrin nitq bacarıq-larının inkişaf etdirilməsi və xarici dilin keyfiyyətli mənim-sənilməsindən asılı olaraq öyrənmə üçün uyğun şəraitin yaradılmasıdır. Düzgün seçilmiş təlim metodu müəllimlə tələbənin qarşılıqlı əlaqəsini nəzərdə tutur və bu fəaliyyət nəticəsində tələbənin dil mənimsəməsi prosesi həyata keçirilir. İnkişaf edən cəmiyyətin daim dəyişən ehtiyaclarını ödəmək üçün vasitələr, metodlar və yanaşmalar tələb olunur ki, bunlar da öz növbəsində mütəmadi olaraq yenilənməli və təkmilləşdirilməlidir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 144-146
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 144-146
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Xatın Ağayeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0000-0003-4406-456X
khatinagayeva@nmi.edu.az
**Bulqeyis Nağıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0003-3086-0095
tebiettyutorbulqeyis@nmi.edu.az

# İdman psixologiyasının tədris strategiyaları

***Açar sözlər:*** *idman, psixologiya, tədris, strategiya, müasir təlim*
***Keywords:*** *sports, psychology, teaching, strategy, modern training*

Müasir dövrdə idman yalnız fiziki hazırlığın deyil, həm də psixoloji davamlılığın və emosional dayanıqlığın formalaşdırılmasını tələb edir. İdmançının uğuru birbaşa onun psixoloji hazırlığı ilə bağlıdır. Buna görə də idman psixologiyasının tədrisi həm ali məktəblərdə, həm də məşqçilik kurslarında xüsusi əhəmiyyət daşıyır. Tədrisin məqsədi yalnız nəzəri biliklərin öyrədilməsi deyil, həm də praktik situasiyalarda tətbiq edilə bilən psixoloji strategiyaların formalaşdırılmasıdır.

**İdman psixologiyasının mahiyyəti və tədrisdə rolu**

İdman psixologiyası idmançının davranışını, emosiyalarını, motivasiyasını və sosial mühitlə münasibətlərini öyrənən elm sahəsidir. Bu elm idman fəaliyyətinin səmərəliliyini artırmaq üçün nəzəri yanaşmaları və praktik metodları özündə birləşdirir. Tədris prosesində tələbələr idmançının emosional gərginliklə necə mübarizə apardığını, yarış öncəsi və yarış zamanı psixoloji hazırlıq metodlarını öyrənirlər. Məsələn, tələbələrə stresin idarə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

olunması, diqqətin toplanması, özünəinamın möhkəmləndirilməsi, həmçinin komanda daxilində qarşılıqlı münasibətlərin tənzimlənməsi kimi mövzular praktiki məşğələlərlə izah edilir.

**Tədris strategiyaları**

1. Motivasiyanın inkişaf etdirilməsi:

İdman psixologiyası dərslərində motivasiya aparıcı mövzulardan biridir. Tədrisdə idmançının daxili və xarici motivasiya faktorları müzakirə edilir. Məsələn, tələbələrə real idmançıların uğur hekayələri təqdim edilir və onların motivasiya mənbələri təhlil olunur.

2. Fərdi yanaşma və qrup dinamikası:

Tədrisdə psixoloji fərqlərin nəzərə alınması vacibdir. Bəzi idmançılar həyəcanlı şəraitdə daha yaxşı nəticə göstərirlər, bəziləri isə sakit mühitdə. Praktiki dərslərdə tələbələr qrup oyunları vasitəsilə liderlik, əməkdaşlıq və komanda daxilində rol bölgüsünü öyrənirlər.

3. Praktiki məşğələlərin psixoloji aspektləri:

İdman psixologiyası yalnız nəzəriyyə ilə məhdudlaşmır. Tədris prosesində simulyasiya məşqləri, psixoloji testlər, yarış öncəsi vizuallaşdırma texnikaları tətbiq edilir. Bu üsullar tələbələrin gələcəkdə idmançılarla işləyərkən psixoloji dəstək göstərmələrinə imkan yaradır.4. Müasir texnologiyaların tətbiqi:

Tədrisdə psixoloji hazırlığın qiymətləndirilməsində xüsusi kompüter proqramları, mobil tətbiqlər və biofeedback texnologiyalarından istifadə edilir. Bu texnologiyalar tələbələrə idmançının emosional vəziyyətini izləmək və psixoloji hazırlıq planını qurmaq imkanı verir.

**Müasir yanaşmalar və beynəlxalq təcrübə**

Avropa və ABŞ universitetlərində idman psixologiyasının tədrisində interaktiv metodlara üstünlük verilir. Tələbələr yalnız nəzəri dərslərdə iştirak etmir, həm də müxtəlif idman komandalarının hazırlıq proseslərində praktik müşahidələr aparırlar.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Azərbaycanda da bu təcrübənin tətbiqi vacibdir. Belə yanaşma tələbələrin nəzəri biliklərini praktikada sınamasına şərait yaradır.Məsələn, bəzi universitetlərdə tələbələr real komanda məşqlərinə qoşularaq oyunçuların emosional reaksiyalarını təhlil edir və psixoloji tövsiyələr hazırlayırlar. Bu metod həm onların nəzəri biliklərini gücləndirir, həm də praktik bacarıqlarını inkişaf etdirir.

İdman psixologiyasının tədris strategiyaları idmançıların həm fiziki, həm də psixoloji baxımdan inkişafına yönəlmişdir. Nəzəri biliklərlə yanaşı, praktiki üsulların tətbiqi tələbələrə gələcək fəaliyyətlərində uğurlu mütəxəssis olmaq imkanı verir. Müasir tədris strategiyalarının tətbiqi, texnologiyaların istifadəsi və beynəlxalq təcrübənin öyrənilməsi idman psixologiyasının inkişafına mühüm töhfə verir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 147-151
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 147-151
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Həsən Hüseynov**
Naxçıvan NMR Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi tabeliyində
Dövlət Tibbi-Sosial Ekspertiza və
Reabilitasiya Agentliyi
https://orcid.org/0009-0005-9365-6037
hasan.f.huseynov@sosial.gov.az

# İnklüziv təhsildə istifadə edilən metodların tətbiqi

***Açar sözlər:*** *inklüziv təhsil, əsas prinsiplər, fərdi xüsusiyyətlər, şagirdyönümlü təlim, metodlar*
***Keywords:*** *inclusive education, fundamental principles, individual characteristics, student-centered learning, methods*

Təhsil sisteminin ənənəvi formatında müəllim, sinifdəki bütün uşaqlara eyni proqram və metodları tətbiq edir, nəticələr isə standartlara əsaslanaraq qiymətləndirilir. Uşaqların fərdi inkişaf səviyyələrinin eyniləşdirilməsi isə doğru hesab edilmir. Bu yanaşma nəticəsində, şagirdlərin təlim nəticələri, onların fərdi inkişaf səviyyələrinə görə dəyişir; nəticədə, aşağı qiymət alan "zəif" şagirdlər çox vaxt tənqid olunur.

Ənənəvi sistemdəki əsas prinsip, şagirdin təhsil standartlarına uyğunlaşmasıdır. Bəzi mütəxəssislər, məktəbin və şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşmağın çətin olduğunu irəlilədərək, hər bir şagirdin eyni dərəcədə dəstək alması gərəkdiyini iddia edirlər. Bu yanaşma, şagirdlərin, təhsil müəssisəsinin standartlarına uyğun bir təcrübə qazanmalarını hədəfləyir.

Hegel bu məsələni daha dərindən ələ alaraq, insanların fərdi xüsusiyyətlərini dəyərləndirmənin əslində mənasız olduğunu bildirir. Onun fikrincə, müəllimlərin şagirdlərin fərdiliyini

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 147-151
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 147-151
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

öyrənməsi və buna uyğunlaşması üçün vaxtı yoxdur; uşaqların özünəməxsusluğu ailələrində qəbul edilməli, məktəbdə isə ümumi qaydalara riayət olunmalıdır. Məktəbdə uşaqları fərdi vərdişlərindən əl çəkərək, ümumi qaydalara uyğun davranmağa yönəltmək lazımdır. Tərbiyənin mahiyyəti də, yalnız bu cür dəyişikliklərin həyata keçirilməsindədir (Zinov'yeva & Neskromnykh, 2017, s. 33).

Müxtəlif mütəxəssislər, təlim və tərbiyənin fərdiyyətə əsaslanmasının əhəmiyyətini vurğulayır. Komenskinin pedaqogikasında şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması əsas prinsiplərdəndir (Guseynov, Turchin, 2015). Fundamental pedaqogika, bir sinifdə eyni inkişaf səviyyəsinə və öyrənmə üslublarına malik uşaqların bir araya toplanmasının mümkün olmadığını nəzərə alır (Broderick, Mebta-Parekb, Reid, 2005). Homogen siniflər yaratmağa çalışdıqda, müəllimlərin çətinliklərlə üzləşən şagirdlərə dair gözləntiləri azalır və nəticədə təlim materialları bütün sinif üçün sadələşdirilir (Tomilson, 1999).

İnklüziv təhsil, fərdi yanaşma prinsipi ilə müxtəlif ehtiyaclara malik uşaqların birgə öyrənməsini təmin etməyə çalışır. Bu yanaşma, təlimin vahid standartlar əsasında təşkil olunmasının mümkün olmadığını ortaya qoyur. Sosial ədalət anlayışı, hər kəsin ictimai resurslardan bərabər yararlanmasını tələb edir (Booth, Ainscow, 2002). Bu səbəbdən, inklüziv təhsilin prinsiplərinə zidd olaraq, bəzi şagirdlərin aktiv, digərlərinin isə passiv iştirak etməsi qəbul edilə bilməz. İnklüziv təhsil, sinifdəki təlim metodlarını və gözləntiləri şagirdlərin imkanlarına və fərdi xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışır, bu da hər bir şagirdin öz potensialını inkişaf etdirməyə imkan yaradır. Beləliklə, inklüziv təhsilin əsas göstəricisi, sinifdəki birgə təlimin şagirdlərin inkişaf potensialına uyğunlaşmasıdır (Hoppey, McLeskey, 2014).

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

İnklüziv təhsildə istifadə edilən metodlar müxtəlif ehtiyaclara malik şagirdlərin öyrənmə prosesini dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Fərdiləşdirilmiş təhsil yanaşması, şagirdlərin individual ehtiyaclarını nəzərə alaraq dərs planlarının hazırlanmasını təmin edir. Kooperativ öyrənmə, şagirdlərin birgə işləməsini və əməkdaşlığı təşviq edir. Multisensor yanaşma, öyrənmə prosesini daha cəlbedici etmək üçün bir neçə hissi aktivləşdirir. İnteraktiv metodlar, müzakirələr və oyunlar vasitəsilə şagirdlərin fəal iştirakını artırır. Müasir texnologiyalar, inklüziv təhsildə əhəmiyyətli rol oynayır və şagirdlərin ehtiyaclarına uyğun geniş imkanlar təqdim edir. Dəstək xidmətləri, şagirdlərin fərdi ehtiyaclarına uyğun əlavə kömək təmin edir. Fasilitasiya metodları, şagirdlərin öz fikirlərini ifadə etmələrinə imkan tanıyır. Geribildirim, təlim prosesi zamanı şagirdlərin inkişafını izləməyə kömək edir. Bu metodların tətbiqi, inklüziv təhsilin əsasını təşkil edir (Zinov'yeva & Neskromnykh, 2017, s. 66).

Şagirdyönlü təlim, inklüziv siniflərdə həyata keçirildikdə, beynəlxalq elmi ədəbiyyatda təlimin keyfiyyət göstəricisi kimi qəbul edilir. Bu yanaşma, şagirdləri səlahiyyətləndirərək və onların fərdi xüsusiyyətlərini, eləcə də təhsil ehtiyaclarını nəzərə alaraq təlim prosesində fəallaşdırır. Şagirdyönlü təlim, konstruktivizm paradiqmasına əsaslanır və bu nəzəriyyə, şagirdlərin müəllimləri və yaşıdları ilə bərabərhüquqlu müsbət qarşılıqlı münasibət qurduqda, öz potensiallarını gerçəkləşdirmələrini mümkün edir. Şagirdlərin dərsin planlaşdırılması və təşkili prosesində müəllimlə bərabər hüquqlara malik olması, müəllimlərin təlim üslubunu dəyişməyə və şagirdyönlü yanaşmaya keçməyə imkan tanıyır.

Bu yanaşma, şagirdlərin şəxsi müstəqil öyrənmə və qərarvermə bacarıqlarını inkişaf etdirməyə yönəlir. Müasir cəmiyyət,

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 147-151
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 147-151
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

ənənəvi müəllimyönlü tədris üsulunun yerini şagirdyönlü təlimə verməsini tələb edir (Tasmanian Government, 2019).

Şagirdyönlü təlimdə, şagirdlərin maraqları və fikirləri əsas götürülür. Tədqiqatçılar qeyd edirlər ki, bu prosesdə şagirdlər nəyi öyrənəcəklərinə və öyrəndiklərini necə qiymətləndirəcəklərinə dair qərar verirlər. Beləliklə, şagirdyönlü təlim, ənənəvi təhsil metodlarına zidd olan bir yanaşmadır. Müəllimlər, passiv şəkildə iştirak edən şagirdlər qarşısında fəal rol oynayırlar. Müəllimyönlü yanaşmada, müəllim öyrənmə məqsədini və metodlarını müəyyənləşdirir, lakin şagirdyönlü təlimdə, şagirdlərin bu prosesdəki öhdəlikləri var və onların aktiv iştirakı tələb olunur.

Nəticə etibarı ilə, şagirdyönlü təlim hər bir uşağın maraq və öyrənmə üslubunu önə çıxarır, müəllimi isə şagirdin fərdi ehtiyaclarına uyğun fasilitator roluna çevirir. Tədqiqatların nəticələri göstərir ki, bu cür təlim, məktəbdən yayınma səviyyəsini azaldır, məktəbdən sonra təhsili davam etdirənlərin sayını artırır, riyaziyyat və oxu üzrə səriştələri yüksəldir, şagirdlər arasında ünsiyyəti artırır və digər siniflərə keçid hallarını azaldır.

Şagirdyönlü yanaşma, fərdi xüsusiyyətləri nəzərə alan mühitin formalaşmasına imkan yaradır. Bu, xüsusi təhsil ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərində digər uşaqlarla birgə təhsil almasına şərait yaradır (Young, & Paterson, 2007, p. 45).

İnklüziv təhsildə istifadə edilən metodlar, müxtəlif ehtiyaclara malik şagirdlərin bərabər şəkildə təhsil almasını təmin edən əsas komponentlərdir. Bu metodlar, şagirdlərin fərdi xüsusiyyətlərini və öyrənmə üslublarını nəzərə alaraq, onlara daha uyğun bir təhsil mühiti yaradır. Fərdiləşdirilmiş yanaşmalar, kooperativ öyrənmə, multisensor metodlar və

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

texnologiyadan istifadə, inklüziv sinifdə öyrənmə prosesini zənginləşdirir və şagirdlərin aktiv iştirakını təşviq edir.

Bununla yanaşı, inklüziv təhsil, sosial ədalət prinsiplərinə əsaslanaraq, bütün şagirdlərin eyni resurslardan faydalanmasını təmin edir. Nəticə etibarilə, inklüziv metodların tətbiqi, təhsilin keyfiyyətini artırır, hər bir şagirdin potensialını inkişaf etdirir və bərabər imkanların yaradılmasına kömək edir. Bu yanaşma, cəmiyyətin müxtəlifliyini dərk etməyə və qəbul etməyə yönəldir, beləliklə, daha inklüziv və ədalətli bir təhsil sistemi formalaşdırır.

## Ədəbiyyat

1. Tasmanian Government. (2019). Inclusive language guidelines. Department for Education. https://publicdocumentcentre.education.tas.gov.au/Documents/Guidelines-for-Inclusive-Language.pdf
2. Young, L. E., & Paterson, B. L. (2007). Teaching nursing: Developing a student-centered learning environment. Lippincott Williams & Wilkins, 600.
3. Zinov'yeva, T. V., & Neskromnykh, N. I. (2017). Organizatsiya differentsirovannogo podkhoda k obucheniyu resheniyu matematicheskikh zadach detey mladshego shkol'nogo vozrasta.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Kəmalə Bayramova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0006-5180-8706
alizadakamala98@gmail.com

# Məktəbəqədər təhsildə psixoloji yanaşmalar və innovativ metodların əhəmiyyəti

***Açar sözlər:*** *məktəbəqədər təhsil, inkişaf, nəzəriyyələr, idrak*
***Keywords:*** *preschool education, development, theories, cognition*

Təhsil sisteminin müasir inkişafı,cəmiyyətin sosial-iqtisadi tələblərinə uyğun olaraq,innovasiyayönümlü və şagirdmərkəzli yanaşmanı zəruri edir. Əlbəttə ki,təhsil sisteminin davamlı inkişafı,ölkəmizin rəqabətqabilliyətli gənclərinin gələcəyində baş rolda durur. Bu sahədə baş verən islahatlar və texnologi-yaların inteqrasiyası,biliklərin ötürülməsindən daha çox, kompetensiyaların formalaşdırılmasında və təfəkkürün inkişa-fında öz təsirini daha çox göstərir. Həmçinin daim yenilikdə olan təhsil modeli,psixoloji baxımdan da zəngin bir sistemin qurulmasını tələb edir.

Məktəbəqədər təhsildə psixoloji yanaşmaların tətbiqi və innovvativ metodlardan istifadə uşaqların koqnitiv,sosial və emosional inkişafına müsbət mənada təsir göstərməklə yanaşı, onların fərdi potensialını üzə çıxarır, öyrənməyə həvəsləndirir hətta yaradıcı və tənqidi təfəkkürün formalaşmasına zəmin yaradır. Təbii ki, psixoloji yanaşma və innovativ metod dedikdə məktəbəqədər yaş dövrünün ali və qədim pedaqoqlarının nəzəriyyələrinə düzgün yanaşmaq lazımdır. Piajenin "Koqnitiv inkişaf nəzəriyyəsi" nə baxsaq buradan məlum olur ki, pedaqoqların fikrini uşaqların nəyi bildikləri üzərində deyil,

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

öyrənməyə gəlmə yolları üzərində cəmləşdirmək lazımdır. Belə ki,müəllim mövzunu öyrətmək haqqında qərarlar verməyə yalnızca hər bir uşağın onu psixoloji və idraki baxımdan necə anladığını başa düşəndən sonra başlamalıdır.

Məktəbəqədər təhsildə istifadə olunan əsas psixoloji yanaşmalar bunlardır:

- **Uşağın maraqlarına əsaslanan təlim:** Bu yanaşma, uşaqların seçimlərinə və maraqlarına uyğun fəaliyyətlər təklif etməklə onların öyrənməyə olan motivasiyasını artırır.
- **Oyuna əsaslanan təlim:** Oyun, uşaqların sosial, emosional və kognitiv bacarıqlarını inkişaf etdirmələri üçün əsas vasitədir. Bu yanaşma, oyun vasitəsilə öyrənməyə və özünü ifadə etməyə imkan yaradır.
- **Təcrübəyə əsaslanan təlim:**Uşaqlar, real dünya ilə əlaqəli təcrübələr vasitəsilə daha yaxşı öyrənirlər. Bu yanaşma, uşaqlara ətraf mühitlərini kəşf etmək və yeni şeylər öyrənmək üçün şərait yaradır.
- **Sosial-emosional öyrənmə:** Bu yanaşma, uşaqların öz emosiyalarını anlamaq, idarə etmək və başqaları ilə müsbət münasibətlər qurmaq bacarıqlarını inkişaf etdirməyə kömək edir.
- **Fərdi yanaşma:** Hər bir uşaq fərqli bacarıq və ehtiyaclara malikdir. Bu yanaşma, hər bir uşağın fərdi xüsusiyyətlərinə uyğun dəstək və təlim imkanları yaradır.
- **Valideynlərlə əməkdaşlıq:** Valideynlər, uşaqların təlim prosesində mühüm rol oynayırlar. Məktəbəqədər təhsil müəssisələri, valideynlərlə sıx əməkdaşlıq edərək uşaqların daha yaxşı inkişafına nail ola bilərlər.
- **Oyuncaqlarla təlim:** Oyuncaqlar, uşaqların yaradıcılığını, fantaziyasını və problem həll etmə bacarıqlarını inkişaf etdirmək üçün mükəmməl bir vasitədir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Məktəbəqədər təhsildə psixoloji yanaşmaların tətbiqi, uşaqların sağlam bir şəkildə böyümələri, özünə inamlı və sosial cəhətdən bacarıqlı fərdlər olmaları üçün mühüm əhəmiyyət daşıyır.

**Bəs Yaradıcı və İnnovativ Metod Nədir?**

Yaradıcı və innovativ təlim, ənənəvi təhsil metodlarını yeni texnologiyalar, fərqli yanaşmalar və praktik öyrənmə ilə birləşdirən prosesdir. Bu metodlar uşaqların marağını artırır, onların fəal iştirakı ilə öyrənməni daha əyləncəli və məhsuldar edir. Əsas xüsusiyyətlər bunlardır:

- **Problem əsaslı öyrənmə (PBL):** Uşaqlar real həyatda qarşılaşdıqları problemlər üzərində işləyərək praktiki bacarıqlar qazanır.
- **Layihə əsaslı təlim:** Uşaqlar komandalarda işləyərək layihələr hazırlayır və yaradıcı həllər tapır.
- **Texnologiyanın tətbiqi:** Rəqəmsal alətlər, virtual reallıq və oyun əsaslı tədris uşaqların diqqətini cəlb edir.
- **Fərdi yanaşma:** Hər bir uşağın maraq və qabiliyyətlərinə uyğun fərdiləşdirilmiş tədris proqramları hazırlanır.

Bununla yanaşı həmçinin **STEAM** metodikasını uşaqların yaş və idraki səviyyələrinə əsasən təbiət, texnologiya və digər sahələrlə əlaqələndirərək uşaqlara ətraf mühiti daha dərindən dərk etməyə yardımçı olmaq olar. Bu onlarda kompleks düşüncə bacarıqlarını inkişaf etdirəcəkdir.

Təbii ki, bu sahənin inkişafı üçün bir sıra mühüm işlərin görülməsi daha məqsədə uyğun olar:

✓ Müəllimlərin təlimlərinin artırılması.
✓ Bağçaların texnoloji imkanlarının genişləndirilməsi.
✓ Tədris materiallarının müasirləşdirilməsi.
✓ Uşaqların yaradıcı təşəbbüslərini dəstəkləyən tədbirlərin təşkili.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Bu səbəbdən belə nəticəyə gəlmək olar ki, məktəbəqədər təhsil müəssisələrində müasir pedaqoji və psixoloji biliklərə əsaslanan inteqrativ yanaşma vacibdir.

Resublikada bu sahənin inkişafı üçün psixoloji yanaşmalarla yanaşı innovativ tədris metodlarının düzgün və məqsədyönlü tətbiqi məktəbəqədər uşaqların təlimə adaptasiyasını asanlaşdırır və uşaqların gələcəkdəki digər təhsil mərhələlərinə sağlam əsas yaradır.

Son illərdə ölkə məktəbəqədər təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həmin müəssisələrdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 156-159
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 156-159
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Günay Əlizadə**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0001-4231-3932
gunayalizade@nmi.edu.az

# Tarix fənninin tədrisində motivasiya və idrak fəaliyyətinin psixoloji əsasları

***Açar sözlər:*** *təhsil, tarix, psixologiya, motivasiya, idrak fəailiyyəti*
***Keywords:*** *education, history, psychology, motivation, cognitive activity*

Tədris prosesi yalnız biliklərin ötürülməsi deyil, həm də şəxsiyyətin formalaşması prosesidir. Bu baxımdan motivasiya və idrak fəaliyyəti təhsilin əsas psixoloji dayaqları sayılır. Tarix fənninin tədrisində motivasiyanın rolu xüsusilə böyükdür, çünki tarix keçmişlə bu gün arasında əlaqə yaradır, insanı düşünməyə, müqayisə etməyə və nəticə çıxarmağa təşviq edir. Şagirdin tarix fənninə marağını oyatmaq onun idrak fəaliyyətinin dərinləşməsi ilə birbaşa əlaqədardır. Müasir təhsil sistemində müəllim yalnız məlumat verən deyil, həm də öyrənmə prosesinə istiqamət verən, psixoloji mühit yaradan şəxsdir. Bu səbəbdən, tarix dərslərində motivasiya üsullarının düzgün seçilməsi və idrak fəaliyyətinin psixoloji mexanizmlərinin nəzərə alınması təlimin keyfiyyətini müəyyən edən əsas amillərdəndir. Motivasiya təlimin hərəkətverici qüvvəsidir. Şagird niyə öyrənir, nə üçün öyrənir və bu prosesdən nə qazanır suallarının cavabı onun motivasiyasından asılıdır. Tarix dərslərində motivasiya həm daxili, həm də xarici amillərlə formalaşır. Daxili motivasiya, şagirdin fənnə şəxsi marağı, tarixi hadisələri öyrənmək həvəsi, öz milli kimliyini dərk etmək istəyi ilə bağlıdır. Xarici

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

motivasiya, müəllimin qiymətləndirmə üsulu, mükafatlandırma, sosial rəqabət və qrup işlərində tanınma hissi ilə əlaqədardır. Motivasiyanın düzgün istiqamətləndirilməsi şagirdin dərs prosesində fəallığını və məsuliyyətini artırır. Məsələn, "Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunu öyrənərkən müəllim müasirliklə tarixi əlaqələndirərsə, şagird özünü bu tarixdə bir hissə kimi görür və öyrənmə prosesi daha mənalı olur.

İdrak fəaliyyəti insanın düşünmə, qavrama, hafizə və təfəkkür mexanizmlərinin birgə fəaliyyətidir. Tarix fənni bu fəaliyyətləri kompleks şəkildə inkişaf etdirən sahələrdən biridir. Şagird tarixi hadisələri təhlil etdikcə onun məntiqi düşünməsi, səbəb-nəticə əlaqələrini qurmaq bacarığı və analitik təfəkkürü formalaşır. Psixologiyada idrak fəaliyyətinin mərhələləri — qavrama, anlayış, yadda saxlama və tətbiq etmə kimi təsnif olunur. Müəllim bu mərhələləri nəzərə alaraq dərs planı qurarsa, təlim prosesi daha səmərəli olar. Məsələn: Qavrama mərhələsində vizual materiallar (xəritə, video, şəkil) istifadə olunsa, yadda saxlama mərhələsində təkrarlama və müzakirə üsullarına üstünlük verilsə, tətbiqetmə mərhələsində isə yaradıcı tapşırıqlar (debat, rol oyunu, tədqiqat işi) aparılsa — şagirdin idrak fəaliyyəti tam şəkildə işə düşür.

Tarix fənninin tədrisində psixoloji yanaşma dedikdə, müəllimin dərs prosesində şagirdlərin fərdi xüsusiyyətlərini, emosional vəziyyətini, idrak tipini və öyrənmə motivlərini nəzərə alması başa düşülür. Hər bir şagirdin öyrənmə tərzi, diqqət toplama bacarığı və maraq səviyyəsi fərqlidir. Buna görə də müəllim yalnız məzmunu izah etməklə kifayətlənməməli, həm də psixoloji baxımdan rahat, maraqlı və təhlükəsiz öyrənmə mühiti yaratmalıdır. Dərsdə emosional mühitin yaradılması xüsusi əhəmiyyət daşıyır. Psixologiyada sübut olunub ki, müsbət emosiyalar idrak fəaliyyətini aktivləşdirir, mənfi emosiyalar isə onu zəiflədir. Əgər şagird dərsdə özünü qiymətli,

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

dinlənilən və başa düşülən hiss edirsə, onun öyrənməyə marağı artır, yaddaş və diqqət funksiyaları da daha səmərəli işləyir. Bu səbəbdən müəllim dərsə pozitiv atmosferlə başlamağı, şagirdlərin fikirlərini dəyərləndirməyi və səhvlərə qarşı dözümlü yanaşma göstərməyi unutmamalıdır. Tarix dərslərində psixoloji yanaşmalar həm də empatiyanın formalaşdırılmasına xidmət edir. Tarixi hadisələri sadəcə fakt kimi deyil, insan taleləri və hissləri prizmasından öyrənmək şagirdin emosional-intellektual inkişafına təsir edir. Məsələn, müharibə dövrlərini, deportasiyaları və ya azadlıq hərəkatlarını müzakirə edərkən müəllim hadisələrin insan üzərindəki psixoloji təsirlərini təhlil etdirə bilər. Bu, şagirdlərdə həm milli kimlik, həm də humanist dəyərlərin formalaşmasına şərait yaradır. Psixoloji yanaşma həm də öyrənmə üslublarının fərqliliyini nəzərə almağı tələb edir. Bəzi şagirdlər vizual (görmə), bəziləri eşitmə, digərləri isə kinestetik (hərəkət və təcrübə ilə) tipdə öyrənməyə meyllidirlər. Tarix fənninin tədrisində bu fərqləri nəzərə alaraq müxtəlif metodlardan – xəritə və cədvəllərlə işləmək, səhnəciklər oynamaq, hadisələri qrup müzakirəsi şəklində təhlil etmək və ya tarixi film parçalarına baxmaq kimi üsullardan istifadə etmək lazımdır. Bu, həm dərsin maraqlı keçməsinə, həm də idrak fəaliyyətinin müxtəlif istiqamətlərdə inkişafına şərait yaradır. Müasir pedaqogikada geniş tətbiq olunan kooperativ öyrənmə və problemyönlü təlim yanaşmaları da psixoloji baxımdan mühüm hesab olunur. Kooperativ öyrənmə zamanı şagirdlər qrup halında işləyir, bir-birini dinləməyi və əməkdaşlıq etməyi öyrənirlər. Bu zaman həm sosial, həm də emosional bacarıqlar formalaşır. Problemyönlü təlim isə şagirdi düşünməyə, araşdırmağa və öz fikrini əsaslandırmağa sövq edir. Bu üsullar şagirdin özünü ifadə etmə, məsuliyyət daşıma və qərarvermə qabiliyyətini artırır. Eyni zamanda, psixoloji yanaşma müəllimin şagirdin fərdi motivlərini tanıma bacarığı ilə də bağlıdır. Bəzi şagirdlər

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 156-159
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 156-159
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

üçün tarixi öyrənmək milli qürur mənbəyidir, bəziləri üçün isə sadəcə maraqlı faktlar toplusu. Müəllim motivin mənbəyini düzgün dərk etdikdə, onu istiqamətləndirmək və dərs prosesinə cəlb etmək daha asan olur.

Nəticə etibarilə, tarix fənninin tədrisində psixoloji yanaşmalar yalnız dərsin emosional atmosferini formalaşdırmır, həm də şagirdin idrak fəallığını, təfəkkürünü və şəxsiyyət kimi inkişafını dəstəkləyir. Belə dərslərdə tarix keçmişin sadəcə izahı deyil, həm də insanın özünü və cəmiyyətini dərk etmə vasitəsinə çevrilir.Yeni təlim texnologiyaları motivasiya və idrak prosesini birləşdirən mühüm vasitədir. İnteraktiv metodlar – “beyin həmləsi”, “rol oyunu”, “problemin həlli”, “tədqiqat işi” kimi üsullar şagirdin öyrənməyə aktiv münasibətini formalaşdırır. Tarix fənnində bu üsullar hadisələrin səbəb-nəticə əlaqəsini anlamaq və tənqidi düşünmə bacarığını inkişaf etdirmək üçün çox əlverişlidir. Rəqəmsal platformalar, virtual muzeylər və interaktiv xəritələrdən istifadə də idrak fəaliyyətini gücləndirən müasir psixoloji vasitələrdir. Şagirdlər tarixi hadisələri yalnız oxumaqla deyil, həm də vizual və praktik formada dərk etdikdə öyrənmə prosesi daha dayanıqlı olur.

Tarix fənninin tədrisində motivasiya və idrak fəaliyyəti bir-birini tamamlayan iki əsas psixoloji mexanizmdir. Şagirdin tarixi hadisələrə marağını artırmaq üçün müəllim həm emosional, həm də idraki motivasiyaları nəzərə almalıdır. Tədris prosesində fərdi yanaşma, müasir texnologiyalar, yaradıcı tapşırıqlar və pozitiv psixoloji mühit şagirdin idrak fəallığını artırır, təlim nəticələrini daha uğurlu edir. Beləliklə, tarix dərslərinin effektivliyi müəllimin pedaqoji ustalığı ilə yanaşı, onun psixoloji biliklərindən düzgün istifadə etmə bacarığından da asılıdır. Motivasiya və idrakın psixoloji əsaslarını düzgün qurmaq həm müəllimin, həm də şagirdin təlim prosesində uğurunun açarıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 160-163
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 160-163
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Günel Nuriyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0008-4153-2982
nuriyevag894@gmail.com

# Rəqəmsəl texnologiyaların şagirdlərin emosional inkişafına təsiri

***Açar sözlər:*** *rəqəmsal texnologiyalar, emosional inkişaf, şagirdlər, sosial şəbəkələr, planşet, smartfon, kompyüter*
***Keywords:*** *digital technologies, emotional development, students, social networks, tablet, smartphone, computer*

Rəəqəmsal texnologiyalar müasir dövrdə hər yaş qrupu daxil olmaqla insanların gündəlik həyatına nüfuz etməsi, emosional inkişafları üzərində vacib rol oynayır. Sosial şəbəkələr, gündəlik daşına bilən müasir texnologiyalar- planşetlər, smartfonlar və kompyüterlər yalnız təhsil sahəsində deyil, eyni ilə sosiallaşma və əyləncə vasitəsi kimi istifadə olunur. Hətta günümüzdə artıq əsas mahiyyəti asudə vaxtların keçirilməsi, stress azaltmaq, günlük problemlərdən uzaqlaşmaq kimi qəbul edilir.

Bu vəziyyət, xüsusilə emosional inkişaf dövründə olan şagirdlərin psixoloji vəziyyətinə həm mənfi, həm də müsbət təsir göstərə bilir. Bu tezisdə rəqəmsal texnologiyaların şagirdlərin emosional inkişafına təsiri müxtəlif müxtəlif aspektlərdən təhlil edilir.

**1. Emosional inkişaf anlayışı nədir?**

Emosional inkişaf - uşağın duyğularını tanıma, ifadə etmə, tənzimləmə və sosial bacarıqların yaranması üçün əsas təşkil edən başqalarının duyğularını anlama bacarığının formalaşması prosesidir. Bu inkişaf, şəxsiyyətin formalaşmasında əsas rol olaraq qəbul edilir. Eyni ilə bu dövrdə uşaqlar emosional

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

dayanaqlıq, özünütənzimləmə və empatiya kimi vacib keyfiyyətlər qazanırlar.

**2. Rəqəmsal texnologiyaların müsbət təsirləri**

- Özünüifadə və yaradıcılıq: İnteraktiv proqramlar və sosial platformalar uşaqlara duyğuların ifadə etmək, fikir bildirmək və kreativ layihələr üzərində işləməyə imkan verir.
- Empatiya və sosial şəbkələşmə: Uşaqlar internet vasitəsi iləfrqlə mədəniyyətlərlə tanış olur, bu da empatiya və sosial düşüncə tərzinin inkişafına zəmin yaradır.
- Psixoloji dəstək və resurslar: Bəzi mobil tətbiqlər, animasiya və təhsil proqramları emosional maarifləndirməni artıraraq uşaqların stress və gündəlik problemlərlə mübarizə aparmağa kömək edir.

**3. Rəqəmsal texnologiyaların mənfi təsirləri**

- Sosial təcrid və narahatlıq: Aşırı texnologiya istifadəsi şagirdlərin real sosial münasibətlərdən uzaqlaşmasına, tənha, təcrid olunmuş hiss etmələrinə səbəb ola bilir.
- Aqressiv davranışlar: Bəzi video oyunlar və vizual məzmunlar aqressiyanı stimullaşdıra, emosional tənzimləməni zəiflədə bilər.
- Asılılıq və diqqət pozuntusu: Ekrana həddindən artıq bağlılıq diqqət dağınıqlığı, əsəbilik və emosional qeyri-sabitliklə nəticələnə bilər.

Məsələn: Yeni cizgi filmlərdə sürətlə dəyişən kadrajlar uşaqların sinir sisteminin sürətlə uyarılması nəticəsində, ayıq və həssas olaraq təkamü edir.

- Bəyənilməyə ehtiyac və özünü qiymətləndirmə: Sosial şəbəkələrdə “bəyənilmə” mədəniyyəti artıq istər uşaq, istərsə də gənclər arasında “ehtiyac” halı alıb. Bu da uşaqlarda çoxunluqla özünəgüvənsizlik və neqativ özünüqiymətləndirmə yaradadır.

**4. Təkliflər və həll yolları**

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

- Valideyn nəzarəti və müşahidə: Uşaqların texnologiyadam istifadə müddəti və məzmunu müəyyən yaşa qədər nəzarətdə saxlanılmalı və mütəmadi söhbətlər ilə də emosional ehtiyacları öyrənilməlidir.
- Məktəbdə psixoloji maarifləndirmə: Rəqəmsal texnologiyanın düzgün istifadəsi və emosional bacarıqların inkişafı üçün məktəbdə maarifləndirici təlimlər keçirilməlidir.
- Alternativ fəaliyyətlər: İdman, sənətlə, musiqi və ya kitab oxumaq kimi günün asudə vaxtlarını sadəcə texnologiya ilə keçirilməməsi üçün təşviq edici fəaliyyətlərlə məşğul oluna bilər.
- Rəqəmsal savadlılıq: Şagirdlərə rəqəmsal təhlükəsizlik, sağlam istifadə və duyğusal təsirlərə qarşı müqavimət mövzularında təlimlər keçirilməlidir.

**5. Texnologiya inkişafının nəsillərə görə psixoloji təsiri**

XXI əsr texnologiyanın sürətlə inkişaf etməsi nəticəsində insan həyatında yeni bir dönəm başlatdı. Müasir təhsil sistemi problem əsaslı öyrənmə, layihə əsaslı öyrənmədir və texnologiya bunun böyük hissəsini əhatə edir. Nəsillər üzrə müşahidə etdikdə 2000-2012-ci illər aralığındakı təhsil alanlar üçün kompyuter, telefon dərs vəsaiti olaraq qismən geniş istifadə edilirdi. Bu nəsil -Z nəsli – texnologiya ilə birlikdə böyüyən nəsil adlandırsaq, texnologiya vasitələrini inkişaf etdirici təməllər əsasında istifadə edə bilmir, sadəcə asudə vaxtların əyləncə mənbəyi olaraq dəyərləndirir. Digər tərəfdən 2012-ci ildən sonra doğulan və təhsil alan nəsil -Alfa nəsli- bir başa texnologiya əsaslı sistemlə tanış olmuşdur. Belə ki, tabletli siniflərin formalaşdırılması, suni intellektin inkişafı qısa müddətdə yaranan kəskin dəyişiklər nümunədir. Bu yeni nəslin texnologiyanın təhsildəki faydalarından yararlanmağı öyrənməyə daha meyilli və uğurludur. Texnologiyanın şagirdlərin emosional inkişafında mənfi və müsbət istiqamətləri onların

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

xarakter, temperament tiplərindən əlavə sosial aləmində hansı inkişaf səviyyəsindən olmasından asılı olaraq dəyişkənlik göstərə bilir. Ümumi olaraq təhsil alanların hansı nəslin nümayəndəsi olduğuda başlıca rol oynayır.

Rəqəmsal texnologiyalar günümüzdə uşaqların emosional inkişafında həm dəstəkçi, həm də təhlükəli rol oynaya bilir. Onların  bu texnologiyadan necə və nə qədər istifadə etməsi emosional rifahlarını birbaşa müəyyənləşdirir. Bu səbəblə ailələr, müəlimlər və cəmiyyət texnologiyadam balanslı və məqsədyönlü istifadəni təmin etməli, şagirdlərin emosional inkişafını müdafiə etməlidirlər. Unutmaq olmaz ki, texnologiya bir vasitədir – bu vasitə yalnız  insanın təməl iradəsi və rejiminə uyğun şəkildə istifadə edildiyi müddətcə faydalıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 164-166
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 164-166
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Əzizə Cəfərzadə**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0009-8127-9747
ezizeceferzadee@gmail.com

# Müasir psixoloji yanaşmaların təhsildə tətbiqi

***Açar sözlər:*** *psixoloji yanaşmalar, təhsil, konstruktivizm, humanist psixologiya, koqnitiv psixologiya, pozitiv psixologiya, şagird yönümlü təhsil*
***Keywords:*** *psychological approaches, education, constructivism, humanistic psychology, cognitive psychology, positive psychology, student-centered education*

Təhsil sistemi insan potensialının inkişafını təmin edən əsas sosial strukturlardan biridir. Müasir dövrdə baş verən sürətli texnoloji, iqtisadi və mədəni dəyişikliklər təhsildə yeni yanaşmaların zəruriliyini artırmışdır. Ənənəvi tədris modelləri daha çox müəllim mərkəzli və bilik yönümlü olduğu halda, müasir psixoloji yanaşmalar insanın fərdi xüsusiyyətlərini, emosional vəziyyətini, öyrənmə motivasiyasını və sosial qarşılıqlı əlaqələrini əsas götürür. Psixologiya elminin inkişafı nəticəsində formalaşan konstruktivizm, humanist psixologiya, koqnitiv və pozitiv psixologiya təhsil prosesinə elmi əsaslar gətirmişdir. Bu yanaşmaların birləşməsi nəticəsində "şagird yönümlü təhsil" konsepsiyası meydana çıxmış, müəllim və şagird münasibətlərində qarşılıqlı hörmət, əməkdaşlıq və fərdi inkişaf prioritetə çevrilmişdir.

Konstruktivist nəzəriyyəyə görə, öyrənmə prosesi passiv bilik qəbulu deyil, biliklərin fərdi təcrübə və fəaliyyət nəticəsində qurulması prosesidir. Bu yanaşmanın əsas nümayəndələri J.Piaget və L.S.Vıqotskidir. Piaget-in fikrincə, uşaqlar dünyanı

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

idrak etmək üçün aktiv şəkildə "kəşf" edir, yeni bilikləri əvvəlki biliklərlə əlaqələndirərək öz idrak strukturunu formalaşdırırlar. Vıqotski isə "yaxın inkişaf zonası" anlayışı ilə sosial qarşılıqlı əlaqənin öyrənmədəki əhəmiyyətini vurğulamışdır.

Humanist psixologiya XX əsrin ortalarında davranışçılıq və psixoanaliz istiqamətlərinə alternativ olaraq formalaşmışdır. A.Maslou və K.Rocers bu istiqamətin əsas nümayəndələridir. Onlara görə, hər bir insanın əsas məqsədi özünüaktualizasiya, yəni potensial imkanlarını tam şəkildə reallaşdırmaqdır. Rocersin "öyrənməyə yönəlmiş insan" modeli təhsil sistemində xüsusi əhəmiyyət daşıyır. O, hesab edirdi ki, öyrənmə prosesi yalnız o zaman səmərəli olur ki, şagirdlər özlərini dəyərli və qəbul edilmiş hiss etsinlər. Təcrübə göstərir ki, humanist yanaşma ilə çalışan müəllimlərdə şagird-müəllim münasibətləri daha etibarlı və açıq olur, bu da öz növbəsində təlim nəticələrinə müsbət təsir göstərir.

Koqnitiv psixologiya öyrənməni insan beynində gedən idrak prosesləri — diqqət, qavrayış, yaddaş, təfəkkür və problem həll etmə mexanizmləri ilə əlaqələndirir. Bu yanaşmanın əsas nümayəndələri J.Bruner, R.Gagne və D.Ausubel olmuşdur. Bu yanaşma xüsusilə yeniyetmələrin öyrənmə motivasiyasını və müstəqilliyini artırmaq üçün effektivdir, çünki onlar artıq abstrakt düşünmə qabiliyyətinə malik olur və öz fikirlərini məntiqi əsaslarla ifadə edə bilirlər.

Pozitiv psixologiya insanın yalnız problemlərinə deyil, həm də onun güclü tərəflərinə və rifahına diqqət yetirir. Təhsildə bu yanaşmanın məqsədi şagirdlərin emosional sağlamlığını, özünə inamını və həyat məmnuniyyətini artırmaqdır. Müasir psixoloji yanaşmalar təhsil sisteminə insanın idrak, emosional və sosial inkişafını prioritetləşdirən, eləcə də fərd yönümlü və diferensiallaşdırılmış bir baxış gətirmişdir. Bu yanaşmaların tətbiqi nəticəsində təhsil prosesi yalnız biliklərin mənim-

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 164-166
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 164-166
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

sənilməsi ilə məhdudlaşmır, eyni zamanda şəxsiyyətin formalaşması, yaradıcılıq potensialının inkişafı və emosional rifahın təmin olunması üçün mühüm şərait yaradır.

Nəticə olaraq qeyd edə bilərik ki, müasir psixoloji yanaşmaların təhsil sistemində məqsədyönlü və elmi əsaslarla tətbiqi XXI əsrin sosial-mədəni tələblərinə cavab verən, yaradıcı düşünmə qabiliyyətinə malik, emosional cəhətdən dayanıqlı və sosial məsuliyyət hissi güclü fərdlərin formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu, həm də təhsilin humanist mahiyyətinin qorunması və onun davamlı inkişafının təmin olunması üçün elmi-nəzəri baza yaradır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 167-171
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 167-171
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Leyla Qurbanova**
Gözdən Əlil Uşalar üçün Xüsusi İbtidai məktəb
https://orcid.org/0009-0002-9820-6842
leyla.quliyeva075@icloud.com

# Təhsilin psixoloji aspektlərində emosional intellektin rolu

***Açar sözlər:*** *özünüdərk, özünüidarəetmə, motivasiya, empatiya, məqsədyönlülük*
***Keywords:*** *self-awareness, self-management, motivation, empathy, purposefulness*

Emosional intellekt özündə beş kataqoriyanı birləşdirir özünüdərk, özünüidarə, motivasiya, sosial məlumatlılıq, münasibətlərin idarə edilməsi

*1) Özünüdərk* - dəqiq desək insanın özünü tanıması özü haqqında məlumatlı olması kimi dəyərləndirilir.

-yaxın və uzaq məqsədlərimizi;

özümüz və başqaları haqqında formalaşmış təsəvvürlərimizi - prinsiplərimizi;

-bizim üçün əziz olan dəyərlərimizi;

-işimizə və davranışımıza təsir göstərən impulslar;

-əməl etdiyimiz qaydaları: edilməsi lazım, vacib və gərəkli olan hərəkətləri; -daxili dialoqumuzu: edə biləcəklərimizi və bilməyəcəklərimizi söyləyən daxili səsimizi....

Və bütün bunların əməllərimizə və şəxsi dünyamızın dəyişməsinə, yaxud formalaşmasına necə təsir göstərdiyinin fərqinə varmaq, dərk etmək qabiliyyətidir. Hisslərini tanımaq yalnız insanın hansı hisslərə malik olmasını bilməkdən ibarət deyil. Qoulman qeyd edir ki, özünüdərk yüksək intuisiya və düzgün nəticə çıxarmanın əsasıdır. Özünü dərk edən şəxslərdə insan

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 167-171
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 167-171
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

özünün mənfi və müsbət cəhətlərini dərk edib ona uyöun fəaliyyətini nizamlayır. Keçirtdiyi hissin sevinc, kədər, qorxu, heyacan, əsəb olduğunu dərk edir və hislərindən xəbərdar olduğu üçün sakitliyi qoruya bilir.

*2) Özünüidarəetmə* - Emosiyaları effektiv idarə edə bilmək - sizin üçün real bir nəticə verməyən və ya əhəmiyyəti olmayan davranışların fərqinə varmaq deməkdir. Çətin bir həmkarınız və ya müştərinizlə hay-küylü mübahisədən qalib çıxmaqla özünüzü əla hiss edə bilərsiniz, lakin bu, qısamüddətli və ötəri bir qalibiyyət» olur.

Baş verən hadisənin tərəfinizdən şərhi ilə ona verəcəyiniz reaksiyalar arasındakı düşüncə əlaqəni başa düşərək hisslərinizi ifadə etməyin alternativ yolunu seçə bilərsiniz. Özünüidarəetmə zamanı keçirilən hisslərin rasu ilə köklənməsi çox vacibdir. Şagirdə düzgün yönəldici suallar verməklə  mövcud hisslərini əsaslandırmağa kömək edə bilərik. Özünü idarənin formalaşdığı şəxsiyyətlərdə insan yaşadığı hissi dərk edir və reaksiya verərkən bunu nizamlamağı bacara bilirlər. Məsələn: bir şagird ani yaşanan qalmaqal zamanı hirslənir, bu zaman şagird keçirtdiyi hissin əsəb olduğunu bilir, bu prossesin baş verdiyi şagirddə özünü dərk prossesi baş verir, çünki hisslərindən xəbərdar olur. Hissini bildikdən sonra davranışını tənzimləyə bilirsə yəni: əsəbi hərəkətlərə, bullingə yol verimirsə bu zaman şagirddə özünü idararəetmə qabiliyyəti formalaşmış olur.

*3) Motivasiya* - Motivasiya - latın mənşəli söz olub «hərəkət etmək deməkdir. Məqsədyönlülük insanlara xas bir xüsusiyyətdir və özünümotivasiya sayəsində biz hədəflərimizə doğru məqsədyönlü şəkildə, həvəslə, yorulmadan və əzmkarlıqla irəliləyirik. Yüksək motivasiyaya nail olmaq, əngəlləri aradan qaldırmaq və əlimizdən gələnin ən yaxşısını etmək, həmçinin xoşbəxtliyimiz və mənəvi rifahımız naminə pozitiv nəticələr əldə edə bilmək üçün psixoloji halımızı idarə etməyi,

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 167-171
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 167-171
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

emosiyalarımızı cilovlamağı və düzgün bir məcraya yönəltməyi bacarmalıyıq. Motivasiya daxili və xarici motivasiya olmaqla təsnif edilir. Daxili motivasiya görülən işin özündən əldə olunan zövqdən qaynaqlanmaqla insanı davamlı fəaliyyətə təşviq edir. Daxili motivasiya problemlərin öhdəsindən gəlməyə, onun arxasındakı nailiyyəti təsəvvür etməyə, nəticəyə fokuslanmaqla yanaşı, prosesdən zövq almağa xidmət edir. Məsələn: şagird hər hansı bir işi icra edərkən yaxud dərs oxuyarkən onun sonunda əldə edəcəyi nəticəsini və uğurunu düşünüb icra etdiyi işi daha həvəslə yerinə yetirirsə bu zaman şagirddə daxili motivasiya həyata keçmiş olur.

Xarici motivasiya isə bir işin icrası zamanı göstərilən həvəs kənar təsirlərdən yaranırsa yeni, şagird dərs oxuyur valideyni çalışmağın müsbət cəhətlərini və nəticəsini sadalanır bunun nəticəsində şagird oxumaq üçün daha çox həvəslənirsə bu şagirddə xarici motivasiya formalaşmış olur.

*4. Sosial məlumatlılıq (Empatiya)* - Sosial məlumatlılıq başqalarının hisslərindən xəbərdar olmaqdır. Bu prosesdə empatiya həlledici rola malikdir. Empatiya dedikdə insanın qarşısındakı şəxsin idraki və emosional vəziyyətini duymaq nəzərdə tutulur. Qarşımızdakı şəxsə empatiya göstərən zaman diqqət etməli olduğumuz əsas məqam onu mühakimə etməməkdir. Burada empatiya hissi ilə mühakiməni qarışdırmamalıyıq. Empatiya hissinin inkişaf etdirmək üçün istifadə edilən strategiyalardan biri də akademik ilin əvvəlində şagirdlərin bir-birini və müəllimi tanımaq üçün buzqıran adlanan fəaliyyətlərdən istifadə edilməsidir. Məsələn şagird yoldaşlarından birinin valideynini itirdiyini görür və bu zaman digər şagirdin aqqressiv yanaşmasını normal qəbul edir və düşünür ki, özüdə o şagirdin yerində olsa idi esərgilədiyi davranış yoldaşının davranışından fərqli olmayacaqdı, bunu düşünən şagirddə isə empatiya hissi formalaşmış olur.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 167-171
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 167-171
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

*5. Münasibətlərin idarəedilməsi* - Araşdırmalar göstərir ki, münasibətlər insanın bir şəxsiyyət kimi formalaşması və mənəvi rifahının təmin edilməsində mühüm rol oynayır. Emosional zəkaya malik sərbəst idarə edilən bir karyeranın qurulması o deməkdir ki, münasibətlərin effektiv idarə edilməsi sosial kapitalın yaradılmasında çox vacib rol oynayr. Daha dəqiq desək, çoxtərəfli və dəyişkən karyera münasibətlər toplusundan müxtəlif dəstək resursları ilə təmin edən bir şəbəkədən asılı olur. Sosial bacarıqlar dedikdə aktiv dinləmək, verbal və qeyri-verbal kommunikasiya qurmaq, liderlik və inandırıcılıq qabiliyyəti nəzərdə tutulur. Onu da vurğulayaq ki, sosial bacarıqlara sahiblik başqalarını anlamağın və düzgün münasibət qurmağın açar məqamıdır. Münasibət qurmaq yalnız qarşı tərəfi anlamaq deyil, eyni zamanda bu anlayışı ünsiyyət və kommunikasiyada tətbiq etməkdir. Empatiyadan fərsli olaraq münasibətlərin ədarə olunmasında keçirdiyi hislər nitqə çevrilir və bu zaman qarçı tərəfin keçirdiyi hislərə münasibət bildrilir. Şagird valideynini itirən digər şagirdi anlaması empatiya olduğu halda, bunu dilə gətirib “səni anlayıram, sənin yerində kim olsa idi belə davranardı, yaşadıqların heçdə asan deyil” və s. kimi sözlərdən istifadə etməsi münasibətlərin idarəedilməsinə aiddir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 171-173
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 171-173
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Fatma İslamlı**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-6580-4029
islamlifatma@nmi.edu.az

# Süni intellektə əsaslanan tədris mühitində emosional zəka və uyğunlaşma

***Açar sözlər:*** *süni intellekt, emosional zəka, tədris mühiti, rəqəmsal uyğunlaşma, adaptiv öyrənmə sistemləri*
***Keywords:*** *artificial intelligence, emotional intelligence, educational environment, digital adaptation, adaptive learning systems*

Müasir dövrdə təhsildə süni intellektin tətbiqi olduqca genişlənməkdə və təhsil sistemləri yeni texnologiyalarla zənginləşməkdədir. Bu proses nəinki texnoloji imkanları, həmçinin insan psixologiyasını öyrənməyə yanaşmaları dəyişdirməkdədir. Rəqəmsal tədris mühitində emosional zəkanı nəzərə almamaq olmaz. Çünki bu proses tələbələrin motivasiyası, iştirak səviyyəsi və nəticələrinə mənfi təsir edə bilər. Emosional zəkanın nəzərə alınması, yəni tələbənin hissləri, psixoloji reaksiyaları nəzərə alınaraq tədrisin təşkil olunması müasir təhsil sistemində önəmli rol oynayır. Bu səbəbdən süni intellektə əsaslanan sistemlərin insan emosiyalarına uyğunlaşa bilməsi tədrisin səmərəliliyini artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Rəqəmsal tədris sistemləri yalnız texnoloji innovasiya deyil, eyni zamanda emosional və psixopedaqoji aspektlər baxımından da uyğunlaşdırılmalıdır (Hüseynova, 2020). Bu səmərəlilik yalnız texnoloji aspektlərlə məhdudlaşmamalı, insan faktorunun – xüsusilə də emosional zəkanın rolu da nəzərə alınmalıdır. Emosional zəka- insanın özünün və başqalarının

emosiyalarını dərk etməsi, idarə etməsi və ondan öz münasibətlərində istifadə etməsi müasir təhsil sistemində uğurlu ünsiyyətin əsas şərtlərindən biridir. Təhsil prosesində emosional zəkanın nəzərə alınması müəllim-tələbə münasibətlərində və rəqəmsal adaptasiyada mühüm rol oynayır (Əhmədova, 2021). Lakin süni intellektə əsaslanan təhsil mühiti hələ də tələbə ilə empatiya qurmaq baxımından yetərli səviyyədə deyil. Bu baxımdan tədqiqatın əsas məqsədi süni intellektə əsaslanan tədris mühitlərində emosional zəkanın nəzərə alınma səviyyəsini və bu sistemlərin təhsilalanların fərdi xüsusiyyətlərinə uyğunlaşma imkanlarını təhlil etməkdir. Tədqiqat müxtəlif pedaqoji, texnoloji aspektləri özündə birləşdirən kompleks yanaşma ilə aparılır, emosional zəkanın təhsil prosesində yeri və əhəmiyyəti təhlil edilir (Məmmədov, 2019).

Bütün bunlarla yanaşı süni intellektə əsaslanan tədris mühitində “uyğunlaşma” anlayışı, tələbənin öyrənmə tempi, motivasiya səviyyəsi və emosional vəziyyətinə uyğun olaraq təlimin fərdiləşdirilməsi prosesi kimi başa düşülür. Uğurlu uyğunlaşma üçün akademik uyğunlaşma, psixoloji uyğunlaşma və interaktiv uyğunlaşma kimi aspektlər səciyyəvidir. Bütün bu aspektlər tələbənin emosional vəziyyətinə cavab verərək, stres və motivasiyaya təsir etmək, öyrədici strategiyalar tətbiq etmək və s. kimi xüsusiyyətləri özündə ehtiva edir. Bu yanaşmaların tətbiqi zamanı emosional zəkanı nəzərə almaq öyrənənin tədris prosesinə marağını artırır, beləliklə də öyrənmənin keyfiyyəti yüksəlir və təlimin fərdiləşdirilməsi mümkün olur (Pekrun, 2014).

Tədqiqatın nəticələri göstərmişdir ki, süni intellektə əsaslanan tədris mühitlərində emosional zəkanın inteqrasiyası təhsilalanların təlim nəticələrində, motivasiyasında mühüm rol oynayır. Emosional zəkanın nəzərə alınması dedikdə tədris prosesində tələbənin dərsi mənimsəmə bacarığı, problemləri həll

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

etmə qabiliyyəti, qarşılaşdıqları çətinliklərə münasibətini və ünsiyyət bacarığını müsbət istiqamətdə inkişaf etdirməsi nəzərdə tutulur. Nəticə olaraq qeyd etmək lazımdır ki, süni intellekt yalnız texniki vasitə deyil, o təhsildə fərdi yanaşmanı təmin etməklə tələbələrin emosional və akademik inkişafına töhfə verir. Bu səbəbdən də, emosional zəkanın nəzərə alındığı süni intellekt əsaslı tədris mühitləri gələcək üçün uğurlu, effektiv və humanist təhsil modellərindən biri hesab olunur.

## Ədəbiyyat

1. Əhmədova, S. (2021). Emosional zəkanın təhsil prosesində rolu. *Təhsil Problemləri Jurnalı*.
2. Hüseynova, M. (2020). Rəqəmsal təhsil və onun psixopedaqoji aspektləri**.**
3. Məmmədov, A. (2019). Süni intellekt və onun təhsildə tətbiqi perspektivləri. *Azərbaycan Milli Elmlər Akademiyası nəşri*.
4. Pekrun, R. (2014). Emotions and learning. *Educational Practices Series* (Vol. 24). International Academy of Education.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 174-176
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 174-176
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Fərahilə Babayeva-Şükürova**
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutu
https://orcid.org/0000-0002-4900-5166
fereh_7@mail.ru

# Qloballaşma və yeni sosial çağırışlar

***Açar sözlər:*** *qloballaşma, sosial dəyişmə, rəqəmsal transformasiya, identiklik, sosial risklər, mədəni müxtəliflik, qlobal kommunikasiya*

***Keywords:*** *globalization, social change, digital transformation, identity, social risks, cultural diversity, global communication*

XXI əsrin başlanğıcı dünya ictimai həyatında yeni sosial, siyasi, iqtisadi və mədəni proseslərin sürətlə inkişafı ilə xarakterizə olunur. Bu proseslərin aparıcı determinantlarından biri qloballaşmadır. Qloballaşma sərhədsiz informasiya axınını, insan və ideyaların mobilliyini, dövlətlərarası qarşılıqlı asılılığı və sosial strukturda yeni dinamikaları formalaşdıraraq cəmiyyətlərin inkişaf trayektoriyasını dəyişdirir. Qloballaşmanın təsiri altında yeni sosial çağırışlar, risklər və fürsətlər meydana gəlir ki, bunların elmi təhlili müasir sosial elmlərin əsas istiqamətlərindən biridir.

Qloballaşma iqtisadi, siyasi, mədəni və texnoloji inteqrasiyanın çoxsəviyyəli prosesidir. Bu proses:

- dünyanı vahid informasiya məkanına çevirir,
- transmilli şirkətlərin rolunu gücləndirir,
- bilik və texnologiyaların sürətli yayılmasına şərait yaradır,
- lokal mədəniyyətlərin qarşılıqlı təsirini artırır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Sosioloji aspektdə qloballaşma yalnız struktur dəyişikliklərini deyil, həm də identiklik, sosial münasibətlər, dəyərlər sistemi və gündəlik həyat təcrübələrini yenidən formalaşdırır. Rəqəmsal texnologiyalar və süni intellektin inkişafı insan davranışını, mütaliə vərdişlərini, ünsiyyət modelini və əmək münasibətlərini dəyişdirir. "Rəqəmsal fərd" anlayışı formalaşır və sosiallaşma həm fiziki, həm də virtual mühitlərdə baş verir. Eyni zamanda rəqəmsal uçurum – texnologiyaya çıxışdakı qeyri-bərabərlik – yeni sosial bərabərsizlik forması yaradır.

Müharibələr, iqlim dəyişikliyi, iqtisadi səbəblər qlobal miqyasda miqrasiyanı artırır. Müasir şəhərlər multikultural məkana çevrilir. Bu isə:

- adaptasiya və inteqrasiya problemləri,
- mədəni identikliyin qorunması,
- tolerantlıq və sosial həmrəylik məsələlərini gündəmə gətirir

Qloballaşma şəraitində identiklik həm qlobal, həm də lokal təsirlər altında yenidən qurulur. "Qlobal vətəndaşlıq" anlayışı genişlənir, lakin eyni zamanda milli kimliyin qorunması ehtiyacı güclənir. Bu ikili dinamika müasir cəmiyyətlərdə sosial balansın əsas elementidir.

Beck-in "Risk cəmiyyəti" konsepsiyasının aktuallığı daha da artır. İqlim dəyişiklikləri, kibertəhlükələr, pandemiyalar və geosiyasi gərginliklər sosial sistemlərin davamlılığını sınağa çəkir. Bu risklər qlobal koordinasiyanı, sosial məsuliyyəti və kollektiv təhlükəsizlik mexanizmlərini tələb edir.

Qloballaşma dövründə bilik əsas resursa çevrilir. Təhsil:

- qlobal rəqabətə hazırlıq,
- innovativ bacarıqların inkişafı,
- sosial kapitalın gücləndirilməsi

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 174-176
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 174-176
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

kimi funksiyaları yerinə yetirməlidir. Sosioloji yanaşmalar göstərir ki, modern təhsil həm də qlobal mədəniyyətlə yerli dəyərlər arasında tarazlığı qorumağa xidmət edir.

Qloballaşma müasir cəmiyyətlərin sosial strukturunu, dəyərlər sistemini və identiklik modelini köklü şəkildə dəyişən çoxşaxəli bir prosesdir. Bu proses həm yeni imkanlar – bilik axını, innovasiya, iqtisadi inteqrasiya – yaradır, həm də sosial riskləri artırır. Yeni sosial çağırışlar cəmiyyətlərdən çevik uyğunlaşma, innovativ idarəetmə, sosial həmrəylik və davamlı inkişaf strategiyaları tələb edir. Qloballaşmanın mahiyyətini dərindən anlamaq və onun sosial nəticələrini elmi əsaslarla təhlil etmək müasir sosial elmlərin, o cümlədən sosiologiyanın əsas missiyasıdır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Gülnarə Səfərova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/009-0004-0182-8974
gulnarasafarova@nmi.edu.az

# Şagirdlərin emosional zəka səviyyəsinə uyğun fərdiləşdirilmiş biologiya tədrisi

***Açar sözlər:*** *müasir təhsil, emosional zəka, fərdiləşdirilmiş təhsil, inklüziv təhsil*

***Keywords:*** *modern education, emotional intelligence, personalized education, inclusive education*

Müasir təhsil sistemi yalnız bilik ötürməyə deyil, həm də şagirdlərin şəxsiyyət kimi formalaşmasına xidmət etməlidir. Bu kontekstdə emosional zəka anlayışı getdikcə daha çox diqqət mərkəzinə çevrilir. Emosional zəka insanın öz və başqalarının hisslərini tanımaq, başa düşmək və bu hisslər əsasında düzgün münasibət qurmaq bacarığı kimi qiymətləndirilir. Təhsilin psixoloji aspektləri və fərdiləşdirilmiş yanaşmaların birləşdirilməsi biologiya kimi kompleks və həyatla sıx bağlı olan fənnin tədrisini daha effektiv və insani edə bilər.

Daniel Golemanın təqdim etdiyi emosional zəka modeli aşağıdakı beş əsas komponentdən ibarətdir:

- özünü tanıma;
- özünü idarəetmə;
- daxili motivasiya;
- empatiya;
- sosial bacarıqlar.

Bu bacarıqların məktəb mühitində inkişaf etdirilməsi şagirdlərin akademik nailiyyətləri ilə yanaşı, sosial uyğunlaşma səviyyəsini də artırır. Biologiya dərsləri canlı aləmlə bağlı

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

mövzuları əhatə etdiyindən, empatiya, məsuliyyət və sosial şüur kimi emosional keyfiyyətlərin inkişafı üçün əlverişli bir mühit yaradır.

Məsələn, ətraf mühitin mühafizəsi, heyvan hüquqları, genetik müdaxilələr və biotexnologiyanın etik tərəfləri kimi mövzular şagirdlərdə dəyərlərə əsaslanan düşüncə formalaşdırır. Bu nöqteyi-nəzərdən, emosional zəkanın tədrisə inteqrasiyası yalnız psixoloji uyğunlaşmanı deyil, həm də dərin mənəvi və sosial biliklərin formalaşmasını dəstəkləyir.

*Fərdiləşdirilmiş tədrisin mahiyyəti*

Fərdiləşdirilmiş təhsil-şagirdin öyrənmə sürəti, üslubu, maraqları və emosional ehtiyaclarına uyğunlaşdırılmış təlim deməkdir. Bu modeldə müəllim təkcə bilik ötürücüsü deyil, eyni zamanda müşahidəçi, psixoloji dəstəkçi və fərdi inkişafı təşviq edən bələdçi rolunu oynayır.

Biologiya fənnində fərdiləşdirilmiş yanaşma aşağıdakı prinsiplər əsasında qurula bilər:

- öyrənmə tərzlərinin nəzərə alınması: bəzi şagirdlər vizual materiallara üstünlük verərkən, digərləri praktiki fəaliyyətlər və ya diskussiyalar vasitəsilə daha yaxşı öyrənirlər.
- emosional zəka səviyyəsinə uyğun tapşırıqlar: yüksək eq səviyyəsinə malik şagirdlər liderlik, təqdimat və qrup işi kimi fəaliyyətlərdə effektiv iştirak edə bilər. əks halda, müəllim daha sadə, fərdi və dəstəkləyici tapşırıqlar seçməlidir.
- əməkdaşlıq mühitinin yaradılması: şagirdlərin sosial emosional bacarıqlarını inkişaf etdirmək üçün qrup işləri və dialoqlara əsaslanan dərslər vacibdir.

Biologiya dərslərində emosional zəka və fərdiləşdirmənin bir çox tətbiq yolları vardır. Aşağıda onların bir neçə yolları göstərilmişdir.

1. Dəyərlərə əsaslanan mövzuların vurğulanması: biologiya proqramında yer alan ekoloji tarazlıq, canlıların hüquqları,

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

təbii sərvətlərin mühafizəsi kimi mövzular müəllim üçün emosional və mənəvi tərbiyəni tədrisə inteqrasiya etmək baxımından geniş imkanlar yaradır.

2. Diskussiya əsaslı dərslər: “Klonlaşdırma doğrudurmu?”, “Genetik modifikasiya haraya qədər məqbuldur?”, “Ekosistemlərin dağıdılmasına görə kim məsuliyyət daşıyır?” kimi suallar şagirdlərin təkcə biliklərini yox, həm də dəyərlərini və emosional münasibətlərini ifadə etməyə imkan verir.

3. Reflektiv yazı və gündəliklər: şagirdlərdən öyrəndikləri məlumatlar haqqında şəxsi hisslərini ifadə etmələri istənildikdə onların həm emosional şüurluluğu artır, həm də mövzu ilə daha dərindən əlaqə qururlar.

4. Layihə və təqdimat formatlı qiymətləndirmə: fərdi və ya qrup şəklində hazırlanmış ekoloji layihələr, biologiyada aktual problemlərə dair təqdimatlar şagirdlərin həm biliklərini, həm də emosional yanaşmalarını nümayiş etdirməyə imkan verir.

5. “Mentor-müəllim” yanaşması: müəllim şagirdlərin emosional ehtiyaclarını müşahidə edərək, onlara fərdi motivasiya, dəstək və inam verə bilər. bu, xüsusilə aşağı eq səviyyəsinə malik, özünəinamı zəif olan şagirdlər üçün vacibdir.

Bu yanaşma həm inklüziv təhsilə, həm də XXI əsrin əsas bacarıqları olan emosional intellekt, əməkdaşlıq və şəxsiyyətlərarası ünsiyyətin inkişafına mühüm töhfə verir. Beləliklə, biologiya fənni təkcə elmi düşüncəni deyil, eyni zamanda insani münasibətləri formalaşdıran güclü təlim vasitəsinə çevrilir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nuray Sadiqova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0004-3027-4536
nurayehmedli26@gmail.com

# Müəllim tələbə münasibətlərinin psixoloji əsasları

***Açar sözlər:*** *müəllim-tələbə münasibətləri, psixoloji amillər, təhsil prosesi, motivasiya, sosial bacarıqlar, emosional dəstək, pedaqoji proses, özünənəzarət, emosional stabillik*

***Keywords:*** *teacher-student relationship, psychological factors, education process, motivation, social skills, emotional support, pedagogical process, self-control, emotional stability*

Müasir təhsil sistemində müəllim-tələbə münasibətləri pedaqoji prosesin mərkəzi elementi hesab olunur. Bu münasibətlər yalnız dərs keçmə və bilik ötürmə ilə məhdudlaşmır; onlar tələbənin psixoloji inkişafı, motivasiyası, sosial bacarıqları və davranışlarının formalaşmasında mühüm rol oynayır. Psixoloji əsaslar bu münasibətlərin keyfiyyətini müəyyən edir və təhsil prosesinin effektivliyini artırır. Müəllim-tələbə münasibətləri, həmçinin, tələbənin özünəinamının güclənməsi, emosional stabilliyinin təmin olunması və akademik uğurlarının artırılması üçün vacibdir.

Müəllim-tələbə münasibətlərində psixoloji amillər çoxşaxəlidir. Bu amillərə aşağıdakılar daxildir:

1. Emosional dəstək və etimad: Tələbələr müəllim tərəfindən anlayışla qarşılandığını və hörmət gördüyünü hiss etdikdə, öyrənməyə daha açıq olurlar. Bu, onların özlərini ifadə etməyə və suallarını sərbəst verməyə imkan yaradır. Emosional dəstək

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 180-182
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 180-182
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

tələbənin psixoloji rahatlığını təmin edir və dərs prosesində stresin azaldılmasına səbəb olur.

2. Motivasiya və təşviq: Müsbət münasibətlər tələbənin daxili motivasiyasını gücləndirir. Müəllim tərəfindən uğurların qeyd olunması və səhvlərin konstruktiv formada düzəldilməsi öyrənmə prosesini stimullaşdırır. Tələbələr öz potensiallarını reallaşdırmaq üçün daha çox səylə çalışırlar.

3. Empatiya və fərdi yanaşma: Müəllimin tələbənin fərdi xüsusiyyətlərini, çətinliklərini və ehtiyaclarını nəzərə alması onun psixoloji bağlılığını artırır. Hər bir tələbənin öyrənmə qabiliyyətləri və üslubu fərqlidir. Müəllim bu fərqlilikləri anladıqda, pedaqoji proses daha humanist və effektiv olur.

4. Pozitiv rəy və konstruktiv tənqid: Müəllimin tələbəyə verdiyi müsbət rəy onun özünüqiymətləndirməsini yüksəldir və özünü inkişaf etdirməyə həvəs oyadır. Konstruktiv tənqid isə səhvlərin düzəldilməsinə və gələcəkdə eyni xətalara yol verməməyə kömək edir.

Müəllim-tələbə münasibətlərinin keyfiyyəti birbaşa tələbənin psixoloji vəziyyətinə təsir göstərir. Yaxşı qurulmuş münasibətlər aşağıdakı nəticələri doğurur:

Öyrənməyə marağın artması: Tələbə dərs prosesində iştirak etməyə həvəs göstərir və öz biliklərini genişləndirməyə çalışır.

Daxili motivasiyanın güclənməsi: Tələbələr yalnız qiymət üçün deyil, həm də bilik əldə etmək üçün çalışırlar.

Sosial bacarıqların inkişafı: Tələbə həm müəllim, həm də digər tələbələrlə effektiv ünsiyyət qurmağı öyrənir, qrup işlərində aktiv iştirak edir.

Özünəinam və müstəqillik: Tələbə öz qabiliyyətlərinə inanır və öyrənmə prosesində daha məsuliyyətli olur.

Müəllim tələbə münasibətlərinin səmərəli qurulması üçün bir neçə psixoloji prinsiplər mövcuddur:

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

1. Müəllim tələbəyə qarşı həmişə hörmətlə davranmalı və onun fikirlərini dinləməlidir. Bu, qarşılıqlı etimadın formalaşmasına kömək edir.

2. Müəllim və tələbə arasında səmimi dialoq tələbənin dərs prosesində iştirakını artırır. Tələbə öz suallarını çəkinmədən verə bilir.

3. Müəllim tələbənin psixoloji və emosional vəziyyətini anlamalı, onun çətinliklərini nəzərə almalıdır.

4. Uğurların qeyd olunması və səhvlərin konstruktiv formada izahı tələbənin öyrənməyə marağını artırır.

5. Müəllim tələbəyə yalnız dərs zamanı deyil, dərsdən kənar da dəstək olmalıdır. Bu, tələbənin özünü qiymətli hiss etməsinə səbəb olur.

Müəllim-tələbə münasibətləri pedaqoji prosesin keyfiyyətini müəyyən edən əsas psixoloji komponentlərdən biridir. Bu münasibətlərin müsbət qurulması tələbənin akademik, sosial və emosional inkişafını dəstəkləyir. Psixoloji əsaslar, yəni hörmət, etimad, empatiya, açıq ünsiyyət və müsbət rəy, təhsil prosesinin səmərəliliyini artırır və hər iki tərəf üçün uğurlu nəticələr təmin edir. Təhsil sahəsində uğur qazanmaq üçün müəllimlər tələbələri yalnız bilik baxımından deyil, həm də psixoloji baxımdan dəstəkləməlidirlər.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 183-185
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 183-185
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Sarıngül Hacıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0008-9917-1358
haciyevasaringul@gmail.com

# XXI əsrin təhsil mühitində psixoloji faktorlar və yeni təhsil texnologiyalarının uzlaşdırılması

***Açar sözlər:*** *təhsilin keyfiyyəti, təhsil texnologiyaları, effektiv təlim, rəqəmsallaşma, öyrənmə modelləri*
***Keywords:*** *quality of education, educational technologies, effective learning, digitalization, learning models*

XXI əsrin təhsil mühitində dəyişən sosial-iqtisadi və texnoloji şərait pedaqoji yanaşmalarda da ciddi transformasiyalara səbəb olmuşdur. Müasir təlim prosesində yalnız bilik ötürülməsi kifayət etmir – öyrənənin fərdi xüsusiyyətləri, psixoloji ehtiyacları və emosional vəziyyəti də nəzərə alınmalıdır. Eyni zamanda, rəqəmsallaşma və innovativ texnologiyaların tədrisə inteqrasiyası bu sahədə yeni imkanlar və çətinliklər yaratmışdır. Yeni dövrün təhsil texnologiyaları, təhsilin keyfiyyətini artırmaq, fərdi öyrənmə imkanları yaratmaq və müəllim-tələbə əlaqələrini gücləndirmək məqsədilə istifadə olunan müasir texnoloji vasitələri əhatə edir. Bu texnologiyalar tədris prosesinə çeviklik, əlçatanlıq və daha çox interaktivlik gətirir.Bu tezisdə təlimin effektivliyinə təsir edən psixoloji faktorlar və bu faktorların yeni dövrün təhsil texnologiyaları ilə necə uzlaşdırıla biləcəyi araşdırılır. Psixoloji amillər öyrənmə prosesində şagirdlərin motivasiyası, diqqəti, yaddaşı, emosional vəziyyəti və sosial əlaqələrini müəyyən edir. Bu faktorların nəzərə alınması, texnologiyanın effektivliyinin artırlmasında mühüm əhəmiyyəti var. Təlim prosesində iştirakçıların emosional

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 183-185
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 183-185
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

vəziyyətinin öyrənmə prosesinə təsiri geniş şəkildə tədqiq edilmişdir. Müsbət emosiyalar, iştirakçıların diqqətini artıraraq, öyrənmə prosesini gücləndirir. Əksinə, mənfi emosiyalar, məsələn, stress və narahatlıq, öyrənmə qabiliyyətini zəiflədir. Bu səbəbdən, təlim mühitinin emosional baxımdan dəstəkləyici olması, öyrənmə effektivliyini artırır. Harvard, Stanford və Carnegie Foundation-un ortaq araşdırmasına görə, peşəkar uğurun təxminən 85%-i emosional və sosial bacarıqlardan asılıdır, yalnız 15%-i texniki bilik və IQ ilə bağlıdır. Daniel Golemanın öz araşdırmaları göstərir ki, liderlik qabiliyyətinin 90%-i emosional intellektə əsaslanır. Albert Bandura – Sosial Öyrənmə Nəzəriyyəsi- insan davranışının yalnız şəxsi təcrübə ilə deyil, başqalarını müşahidə edərək öyrənilə biləcəyini irəli sürür. Rollu oyunlar, video dərslər, müşahidəyə əsaslanan praktiki məşğələlər Banduranın nəzəriyyəsinə əsaslanan effektiv təlim metodlarıdır.

Əsas yeni təhsil texnologiyaları

1. Süni İntellekt (AI)

• Fərdi öyrənmə yolları təqdim edir (adaptiv öyrənmə platformaları).

• Şagirdlərin zəif və güclü tərəflərini təhlil edərək fərdi planlar yaradır.

• Avtomatik qiymətləndirmə və geribildirim sistemləri qurur.

2. Virtual Reallıq (VR) və Artırılmış Reallıq (AR)

• Tarixi hadisələri "canlı" izləmək, kimya-biologiya laboratoriya təcrübələrini virtual mühitdə aparmaq imkanı yaradır.

• Tibb, mühəndislik və dizayn kimi sahələrdə praktik təcrübə verir.

3. Onlayn Öyrənmə Platformaları

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

- Coursera, Khan Academy, Udemy, EdX kimi platformalar dünyanın istənilən nöqtəsindən tədrisə çıxış imkanı verir.
- Universitetlər LMS (Learning Management Systems) – Moodle, Canvas, Blackboard kimi sistemlərdən istifadə edir.

4. Gamifikasiya (Oyunlaşdırma)

- Təhsili daha maraqlı və motivasiyaedici edir.
- Nəticəyə əsaslanan öyrənmə modelləri (xal, medal, səviyyə) tətbiq olunur.

5. Blended Learning (Hibrid Təhsil)

- Ənənəvi sinif dərsləri ilə onlayn dərslərin kombinasiyasıdır.
- Şagirdlər öz sürətində öyrənir, müəllimlər isə əsas məqamları dərsdə vurğulayır.

6. Bulud Texnologiyaları

- Təhsil materiallarının saxlanılması və paylaşılması üçün effektivdir.
- Google Drive, Microsoft OneDrive kimi vasitələrlə əməkdaşlıq imkanı artır.

7. Mobil Təhsil (M-Learning)

- Dil öyrənmə (Duolingo), proqramlaşdırma (SoloLearn) və s. tətbiqlər geniş istifadə olunur.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 186-191
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 186-191
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Ülviyyə Fətəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-2764-1070
ulviyyefeteliyeva@nmi.edu.az

# Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının qiymətləndirilməsi və inkişaf yolları

***Açar sözlər:*** *müəllim, ünsiyyət, bacarıq, empatiya, dinləmə*
***Keywords:*** *teacher, communication, skills, empathy, listening*

Ali məktəblərdə fəaliyyət göstərən müəllimlərin ünsiyyət qurma bacarıqlarının necə olduğunu müəyyən etmək, həmin bacarıqların şifahi, yazılı, dinləmə, empatiya kimi tərkib hissələrinin güclü və zəif tərəflərini aşkar edib, bu bacarıqların müsbət yöndə inkişaf etdirilməsi üçün daha da faydalı, praktik istiqamətli yolların təklif edilməsi bu tədqiqat işinin əsas məqsədidir. Araşdırmanın istiqamətlərini belə qeyd etmək olar: Cari vəziyyətin qiymətləndirilməsi. Bura yazılı kommunikasiya, qeyri-şifahi ünsiyyət, empatiya və münasibətlərin tənzimlən-məsi, dinləmə və geribildirim, şifahi ünsiyyət daxildir. Öyrədən-lərin kommunikasiya bacarıqlarının bu kimi müxtəlif tərkib hissələri üzrə mövcud vəziyyətin qeyd olunması, bu bacarıqların göstəricilərinin təhlili cari vəziyyətin diaqnostikasına aiddir. Daha sonra müəllimlərin ünsiyyət bacarıqlarına təsir göstərən əsas amillərin araşdırılmasıı. Tədris prosesini idarə edən müəllimlərin peşəkar ünsiyyət bacarıqlarına təsir edən məsələlərin rolu araşdırılır. Bu faktorlara müəllimlərin iş təcrübəsini, yaş məsələsini, ixtisas hazırlığını, təhsil müəssisəsi-nin növünü, həmkarlar arasında əməkdaşlıq mədəniyyətini, məktəb mühitini, idarəetmə üslubunu və s. aid etmək olar. Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarından bəhs edərkən bu xüsusiyyətin təlim-tərbiyə prosesinə təsirinin qiymətləndiril-məsi xüsusilə qeyd

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

olunmalıdır. Müəllimlərin kommunikasiya bacarıqlarının, ünsiyyət tərzinin tələbələrin motivasiyasına, onların dərsə münasibətinə, sinifdaxili mühitə, valideynlərlə, həmkarlarla, rəhbərliklə əməkdaşlığa və onlarla işgüzar münasibətlərin keyfiyyətinə necə təsir göstərdiyi araşdırılır. İnkişaf istiqamətinin müəyyən edilməsi. Səmərəli inkişaf yollarını müəyyən etmək üçün seminarlar, məqsədyönlü təlimlər, mentorluq dəstəyi, kommunikasiya texnologiyalarından istifadə, özünüinkişaf bacarıqlarının artırılması, özünüqiymətləndirmə, əməkdaşlıq mühitinin inkişafı üçün imkanlar və gözlənilən nəticələr qiymətləndirilir. Bu sadaladıqlarımıza aid vəziyyəti qiymətləndirməklə müəllimlərin peşəkar inkişa-fına, tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, nəticədə təhsil sisteminin ümumilikdə daha da səmərəli şəkildə inkişaf etməsi nəzərdə tutulur.

***Aktuallığın əsaslandırılması:*** Yaşadığımız müasir dövrdə təlim prosesində iştirak edən müəllimlərin rolu təkcə elə bilik ötürməkdən ibarət deyil. Müəllimlər üçün ən əsas, vacib amillərdən biri də təhsil müəssisələrində, auditoriya daxilində peşəkar şəkildə ünsiyyət qurmağı bacarmaqdır. Çünki uğurlu təhsilin açarı məhz elə müəllimlərdə peşəkar ünsiyyət bacarıqlarının olmasındadır. Qloballaşan dünyada texnologiya-ların sürətli inkişafı ilə əlaqədar olaraq, daha sonra yeni pedaqoji metodların dəyişməsi, təhsil alanların həm sosial, həm də emosional ehtiyaclarının artması nəticəsində müəllimlərdən yüksək səviyyədə kommunikasiya bacarıqlarının olması tələb olunur. Müəllimlər situasiya ilə əlaqədar olaraq qarşılaşdıqları konfliktləri idarə etməyi, aktiv şəkildə dinləməyi, rəqəmsal kommunikasiya vasitələrindən məharətlə istifadə etməyi bacarmalı və qarşısındakı istər tələbə olsun, istərsə də həmkarlarına empatiya hissi ilə yanaşmalıdır. Bütün bunlara rəğmən, hələ də bizim ölkəmizdə təlim prosesində iştirak edən müəllimlərin peşəkar ünsiyyət bacarıqlarını qiymətləndirən, bu bacarıqların uğurlu inkişafına yönəlmiş

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

davamlı təlim strategiyaları geniş miqyasda tətbiq olunmayıb. Bunları nəzərə alaraq araşdırmanın aktuallığının bir neçə əsas səbəblə müəyyən edilməsi qeyd oluna bilər. Birinci növbədə öyrədənlə-öyrənən arasındakı münasibətləri keyfiyyətli ünsiyyət gücləndirir, idarəetməni daha da asanlaşdırır, eyni zamanda təlim nailiyyət-lərinin yüksəlməsinə səbəb olur. Elə bunun üçün də yaxşı ünsiyyət bacarıqları təhsil sisteminin strateji prioritetinə çevrilməlidir. Müəllimlərin inkişaf proqramlarında ünsiyyət bacarıqlarını ölçən qiymətləndirmə standartları məhduddur və bu boşluq da təlimin peşəkar şəkildə davam etməsini, təlim prosesinin effektli olmasını məhdudlaşdırır. Qlobal təcrübələr göstərir ki, müəllimlərin peşəkar bacarıqlarının inkişaf etdirilməsi tələbələrin həm sosial, həm də akademik inkişafına müsbət təsir göstərir. Bu da öz növbəsində ölkəmizdə təhsilin beynəlxalq rəqabətinin artırılması üçün çox vacibdir. Bu səbəblərlə tədqiqat işinin aktuallığını nəzərə almaq olar.

***Tədqiqatın metod və üsulları:*** Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının mövcud vəziyyətini öyrənmək, onların inkişafına təsir göstərən amilləri müəyyən etmək, eləcə də səmərəli təkliflər formalaşdırmaq məqsədilə bir neçə bir-birini tamamlayan tədqiqat metodlarından istifadə edilmişdir. Nəzəri əsasların geniş şəkildə təhlil olunması və real təhsil mühitində ünsiyyət prosesinin yaxından müşahidə edilməsi üçün uyğun metodlar seçilmişdir. Tədqiqatın başlanğıc mərhələsində həm yerli, həm də xarici fikir sahiblərinin bu sahə ilə əlaqəli olan əsərləri sistemli şəkildə araşdırılmışdır. Bunun üçün də nəzəri-metodoloji analizdən istifadə edilmişdir. Elmi mənbələrin təhlil edilməsi müəllimin pedaqoji ünsiyyətinin qiymətləndirmə modellərini müəyyən etməyə imkan yaratmışdır. Müşahidə metodundan istifadə edilərək, tədqiqt müddətində bir-neçə dərs prosesinin müşahidəsi aparılmışdır. Müşahidə zamanı öyrədənin öyrənənlərlə ünsiyyət tərzi, onun tələbələrə geribildirim forması, jestləri, mimikası, göz

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 186-191
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 186-191
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

təması, auditoriyanı idarə etmək üçün nitqin rolu qeydə alınmışdır. Müəllimlərdən daha geniş məlumat almaq üçün müsahibələr aparılmışdır. Müsahibələr zamanı müəllimlərin öz ünsiyyət bacarıqlarına aid şəxsi fikirləri, onların tədris prosesində qarşılaşdıqları çətinliklər müəyyən edilmişdir. Bu da onların ehtiyac duyduqları təlim prosesinin istiqamətini müəyyən etməyə və onlar üçün lazım olan inkişaf strategiya-larının tətbiq olunmasında onlara dəstək olmağa şərait yarat-mışdır. Toplanmış məlumatları müqayisə etmək, ümumiləş-dirmək üçün təhlil-sintez metodundan istifadə edilimişdir.

***Tədqiqatın orijinallığı və elmi yeniliyi:*** Tədqiqat işinin yeniliyini qeyd edərkən müəllimlərin peşəkar ünsiyyət bacarıqları-nın qiymətləndirilməsi, eləcə də onun inkişaf etdiril-məsi məsələsinə yeni mövqedən yanaşılmasını vurğulamaq olar. Mövzunun tədqiqatı zamanı bu tədqiqtla bağlı olan araşdırma-ların əsasən ümumilikdə pedaqoji ünsiyyət nümunələrinin təsvir edilməsi müşahidə olundu. Ancaq bu araşdırmanın tədqiqatında müəllimin ünsiyyət bacarıqları yalnız nəzəri cəhətdən deyil, eyni zamanda real tədris prosesində müşahidə olunan kommunika-siya bacarıqları əsasında təhlil edilməsi ilə fərqlənir. Tədqiqatın orijinal-lığı müəllimlərin pedaqoji ünsiyyət bacarıqlarının nəzəri, empirik və praktik yanaşmaların bir-biri ilə əlaqəsi əsasında aparılmışdır. Bu zaman müəllimlərin özünüdəyərləndirməsi, müşahidə və müsahibələr birlikdə təhlil edilmişdir. Həm verbal, həm də qeyri-verbal ünsiyyət bacarıqlarının komponentlərini özündə birləşdirən bütöv bir model üzrə qiymətləndirilmişdir. Burada aparılan tədqiqat zamanı təkcə müəllimin nitq bacarığı deyil, eyni zamanda onun emosional münasibətləri, sosial cəhətdən uyğunlaşması, tədris mühiti və rəqəmsal ünsiyyət bacarıqları ilə sıx əlaqədə olduğu da göstərilmişdir. Müəllimlər üçün dörd komponentdən ibarət yeni ünsiyyət modelinin təklif edilməsi tədqiqat işinin elmi yeniliyini təşkil edir. Bunlara aid edilə bilər pedaqoji nitq bacarığı,

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

yəni açıqlıq, sadəlik, məntiq. Qeyri-verbal kommunikasiya, jest, mimika, göz kontaktı. Emosional-etik ünsiyyət, empatiya, dəstək, motivasiya. Rəqəmsal kommunikasiya bacarıqları, online dərsdə istifadə olunan ünsiyyət strategiyaları. Bu modelin yerli təhsil mühitinə uyğunlaşdırılmış ilk yanaşmalarından biri olduğu qeyd edilə bilər. Müəllimin pedaqoji ünsiyyətinin qiymətləndirilməsi üçün yeni göstəricilər hazırlanmışdır. Tədqiqat çərçivəsində müəllim və şagird münasibətlərini, dərs prosesində nitqin idarə olunmasını və konfliktlərin kommunikasiya vasitəsilə həllini ölçən praktiki qiymətləndirmə meyarları təqdim olunmuşdur. Ünsiyyət problemlərinin səbəblərini aşkar edən analitik çərçivə hazırlanmışdır.

***Tədqiqatın praktiki əhəmiyyəti (tətbiq sahəsi qeyd edilməklə)***

Araşdırmanın nəticələri ali məktəblərdə fəaliyyət göstərən müəllimlərin pedaqoji fəaliyyətinin daha səmərəli təşkil olunmasına birbaşa praktik töhfə vermək istifadə oluna bilər. Apardığımız araşdırmada müəyyənləşdirilən meyarlar və tövsiyələr həm müəllimlərin ünsiyyət bacarıqlarının qiymət-ləndirilməsi, həm də bu bacarıqların planlı şəkildə inkişafı üçün tətbiq oluna bilən yollar təklif edir. Tədqiqatın praktiki əhəmiyyəti ilk növbədə təhsil müəssisələrində, dərs prosesində tələbə və müəllim ünsiyyətinin keyfiyyətinin yüksəldilməsi ilə bağlıdır. Burada təqdim olunan təkliflər müəllimlərin özünü-qiymətləndirmə prosesinə, dərs müşahidələrinin aparılmasına və ünsiyyət mədəniyyətinin daha da təkmilləşdirilməsinə real imkan yaradır. Eyni zamanda, burada irəli sürülən yanaşmalar tələbə və müəllimlərin praktik bacarıqlarının inkişafına şərait yaradır. Tədqiqat nəticələrinin müəllimlərin peşəkar inkişafı üzrə təlimlərdə, seminar və treninqlərdə də istifadə edilməsi mümkündür. Ünsiyyət bacarıqlarının inkişaf istiqamətləri və praktik nümunələr müəllimlərin gündəlik fəaliyyətinə uyğunlaş-dırıla biləcək real imkan yaradır. Aparılmış araşdırma müəllimlərin peşəkar ünsiyyət

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

bacarıq-larının tədris prosesində oynadığı həlledici rolu bir daha təsdiq etmişdir. Tədqiqatın nəticələri göstərir ki, müəllimin kommunikasiya mədəniyyəti yalnız bilik ötürməyin texniki vasitəsi deyil, həm də sinifdə psixoloji iqlimin formalaşmasını, şagird-lərin motivasiya səviyyəsini və ümumi tədris keyfiyyətini müəyyən edən əsas faktordur. Məlum olmuşdur ki, müəllimlərin ünsiyyət bacarıqlarında mövcud olan çətinliklər çox vaxt metodiki hazırlığın qeyri-kafiliyi, emosional yüklənmə, sinif idarəçiliyi ilə bağlı stress və rəqəmsal kommunikasiya vərdiş-lərinin yetərsizliyi ilə əlaqəlidir. Bununla yanaşı, əldə edilən nəticələr göstərmişdir ki, müəllimlər özlərinin ünsiyyət bacarıqlarını inkişaf etdirməyə maraqlı, yeniliyə açıq və öz fəaliyyətlərini təkmilləşdirməyə inkişaf etdirməyə həvəslidirlər. Tədqiqat zamanı aparılan müşahidə, sorğu və müsahibə nəticələri müəllim ünsiyyətinin bir-neçə əsas komponentdən - pedaqoji nitq, qeyri-verbal ünsiyyət, empatiya və rəqəmsal kommunikasiya bacarıqlarından ibarət bütöv bir sistem olduğunu ortaya çıxarmışdır. Bu komponentlərin bir-biri ilə qarşılıqlı təsiri müəllimin peşəkar fəaliyyətində həm səmərəli təlim mühiti yaradır, həm də şagirdlərin sosial-emosional inkişafına töhfə verir.

Nəticə olaraq demək olar ki, müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının sistemli şəkildə qiymətləndirilməsi və inkişaf etdirilməsi təhsil prosesinin keyfiyyətinin yüksəldilməsi üçün mühüm əhəmiyyət daşıyır. Pedaqoji ünsiyyət müəllim üçün sadəcə texniki bir bacarıq kimi qiymətləndirilməməlidir. Bəzən müəllimin bir baxışı, bir sözü və ya bir jesti dərsin taleyini dəyişə bilər. Buna görə də ünsiyyəti müəllimin bütün fəaliyyətinə istiqamət verən əsas amil kimi dəyərləndirmək lazımdır. Necə deyərlər: Hər bir öyrənənin qəlbində bir qığılcım var, müəllim istəsə bir cümlə ilə o qığılcımı əbədi olaraq söndürə bilər, ya da o qığılcımı alovlandıra bilər. O qığılcımı alovlandırmaq üçün də müəllim peşəkar ünsiyyət bacarıqlarına sahib olmalıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 192-197
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 192-197
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Tamara Baxşəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0001-3505-5787
tamarabakhshaliyeva@nmi.edu.az

# Məktəbdə metodiki işlərin təşkilinə psixoloji rəhbərlik

***Açar sözlər:*** *təhsil sistemi, islahatlar, müəllim rolu, şagird nəticələri, dövlət standartları, təlim-tərbiyə prosesi, fənn bilikləri*
***Keywords:*** *education system, reforms, teacher's role, student outcomes, state standards, teaching and upbringing process, subject knowledge*

Azərbaycanda təhsil sistemində islahatlara başlamaqla dünyada gedən ictimai-siyasi təcrübəni öyrənmək, müəyyən nəticələr çıxarmağa nail olmaq, inidyədək mövcud olanlara nəzər salmaq, bu vaxta qədər keçdiyimiz yola yanaşaraq onu obyektiv və subyektiv qiymətləndirməyə geniş imkanlar açmağa nail olmuşdur. Bu, yalnız təhsilin məzmununa deyil, onun idarə olunması, şagird naliyyətlərinin qiymətləndirilməsi, nəticələrin nəzərdən keçiril-məsi məsələlərinə də aiddir. Təhsil haqqında elm tədricən formalaşır, onun əsas vəzifəsi elmi biliklərin toplanması və sistemə salınmasıdır.

Təlim-tərbiyə prosesində təhsilin məqsədlərinə, onun məzmununun müəyyənləşdirilməsinə, təlim-tərbiyənin həyata keçirilməsinə və s. xüsusi diqqət yetirilir. Bu işləri həyata keçirərkən məktəbdə müəllimin roluna, yeni təlim üsulllarından istifadə qaydalarına, metodlar sisteminin tətbiqinə, üsul və vasitələrdən istifadə yollarına və s. xüsusi diqqət yetirilir. Hal-hazırda ümumi orta təhsil sistemində çalışan müəllimlər içərisində az müəllim tapılar ki, təhsilin nəticələr formasında

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

müəyyənləşdirilən dövlət standartları üzərində qurulması ideyasını qəbul etməsin. Bu gün şagirdlərin təlim–tərbiyəsi ilə məşğul olan müəllimlərimizdə belə bir fikir formalaşmışdir ki, orta məktəbdə şagirdlərin topladığı biliklərin keyfiyyəti yalnız şagirdin əldə etdiyi bilik, bacarıq və vərdişlərin səviyyəsi ilə ölçülə bilməz. Bu,demək olar ki, qoyulan məsələnin bir tərəfidir. Məsələnin əsas tərəfi odur ki, orta təhsili bitirən hər bir şəxs müstəqil həyata tam biliklərə yiyələnmiş şəkildə qədəm qoysun. Müstəqil həyata qədəm qoyan şəxs sağlam düşünməyə, öz hayat şəraitini necə quracağına, məişət həyatına, dövlətçilik və vətəndaşlıq hüququna malik olsun, əksər hallarda məsuliyyəti üzərinə götürsün, müstəqil qərarlar qəbul etsin, cəmiyyətin fəal, işküzar, hər sahətə qabaqcıl bir üzvü olmağı qarşısına məqsəd qoysun.

Hal-hazırda məktəblərdə belə bir məsələ ilə qarşılaşırıq ki, müəllimlərin əksəriyyəti şagirdlərə öz fənnləri üzrə potensial "riyaziyyatçı", "fizik", "tarixçi" və s. kimi yanaşır. Başqa fənlərdən proqram materiallarını öyrənmək, mənimsəmək iqtidarında olmayanlara, başqa sözlə desək, "laqeyd" şagirdlər kimi görürlər. Tamamilə bu doğrudur, onları qınamaq da olmaz, çünki qarşılarına qoyulmuş tələbi yerinə yetirirlər. Qarşıya qoyulmuş tələb isə bundan ibarətdir ki, hər bir şagird fənnlər üzrə müəyyən olunmuş bilikləri hökmən dərk edib öyrənməlidir.

Qarşıya çıxan əsas problemlərdən biri budur ki, şagirdlərin əksəriyyəti əsasən riyaziyyat, fizika, kimya və təbiət fənlərini yaxşı oxumurlar, bu dərslərə səthi yanaşırlar, fənnin məqsədini yaxşı dərk etmirlər və zəruri bilik, bacarıq və vərdişlər qazanmadan formal olaraq sinifdən-sinfə keçirlər. Bu göstərilən faktlara görə də uşaqlar ümumi orta təhsil məktəblərini bitirdikdən sonra bu fənlərdən müstəqil həyatda praktik baxımdan, demək olar ki, istifadə edə bilmirlər. Ən başlıca cəhət ondan ibarətdir ki, belə hallar şagirdlərdə həmin fənlərin onlar üçün lazımsız olması qənaətinə gəlməsinə zəmin yaradır. Bəs necə etməli ki, orta

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

məktəblərdə tədris edilən fənlər gələcəkdə hansı peşəni seşmələrindən asılı olmayaraq, bütün şagirdlərə fayda versin, onlarda cəmiyyətin tələbatına uyğun bacarıqların formalaşmasına əhəmiyyətli təsir göstərsin? Nə qədər məntiqi sayıla bilər ki, bu və ya digər sahələri təmsil edən fənlər daha çox həmin fənlər üzrə qabliyyəti olanların inkişafına xidmət etməlidir? Axı ümumi orta təhsilin yekununda şagirdlərə verilən attestat onun məhz ümumi orta təhsilli şəxs olduğunu təsdiq edir. Əgər şagird hazırki şəraitdə öz potensial imkanlarına görə, tədris edilən fənlərdən bir qrupuna mövcud tələblər baxımından mənimsəyə bilmirsə və ona məktəbi bitirmək xatirinə formal  qiymətlər yazılırsa, belə şagirdi necə ümumi təhsilli şəxs adlandırmaq olar?

Hal –hazırda zəruri informasiyaları toplayıb onlarla işləmək, təhlil və tətbiq etmək, müstəqil qərarlar qəbul etmək, ideyalar irəli sürmək və qoyulan məsələlərə yaradıcı, tənqidi münasibət bəsləmək, icraçılıq, təşkilatçılq və idarəetmə qabliyyəti, unsiyyət mədəniyyəti, tolerantlıq, rəqabətə davamlılıq nümayiş etdirmək, müasir texnıka və kommunikasiya vasitələri ilə davranmaq, əməkdaşlıq etmək və sair bu kimi keyfiyyətlər şəxsiyyəti şərtləndirən ən vacib keyfiyyətlərdən biri sayılır. Tədris edilən hər bir fənn bu bacarıqların şagirdlərə aşılanması işinə öz bəhrəsini verməlidir. Məzmunla bağlı məsələlərə yeni yanaşma həm də onunla şərtlənir ki, bilik verrmək hələ son hədd deyildir. Bilik o zaman zəruri əhəmiyyət kəsb edir ki, şagirdlər qazandığı biliklər vasitəsilə həyati bacarıqlar əldə edir,onlarda bu bilikləri tətbiq etmə vərdişləri formalaşır. Məlum məsələdir ki, məktəb illərində əxz olunan biliklər müstəqil həyatda şagirdlərin köməyinə gəlmirsə, onların əhəmiyyəti heçə yenir

Ümumiyyətlə, nəticəyönümlü təhsilin həyata keçirilməsi mürəkkəb bir prosesdir və Azərbaycanın ümumi təhsil sistemində bununla əlaqədar hələ ilk addımlar atılır. Yeni yanaşma və ideyaların təcrübədə reallaşdırılması istiqamətində bu gün aparılan

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 192-197
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 192-197
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

işlər gələcəkdə ölkəmizin ümumi təhsil sistemində köklü məzmun dəyişiklikləri yaradılacaqdır.

Əvvala, istər hər hansı bir təhsil pilləsi, istərsə də təhsil pillələri çərçivəsində tədris olunan fənlər üzrə, habelə konkret fənnin siniflər üzrə təlım nəticələri idrakı, informativ- kommunikativ və qeyri-iradi bacarıqlar formasında konkretləşməklə fərdin, cəmiyyətin təlabatlarını ifadə etməli, təhsil alanın dünyagörüşünü və şəxsiyyətin formalaşmasına, intellektual səviyyənin inkişafına yönəlməlidir. Başqa sözlə, mənimsənilən biliklər əsasında formalaşan bacarıqlar orta məktəb məzununun gələcək həyatının qurulmasını, cəmiyyətdə öz yerini tapmasını, növbəti mərhələlərdə təhsil ala bilməsini təmin etməlidir.

İkincisi, təlim nəticələrinə görə formalaşan standartlar fənlər üzrə hər bir təhsil pilləsində, hər bir sinif üzrə şagirdlərin yaşına, fizioloji və idraki inkişaf səviyyələrinə uyğun müəyyən edilməlidir. Şagirdlərə elə təlim yükü verilməlidir ki, onların potensial imkanlarına nə az, nə də çox təsir etməsin.

Beləliklə, inkişafyönümlülük və şagirdyönümlülük prinsiplərini əsas tutmaqla məqsəd və vəzifələrin, ümumi təlim nəticələrinin müəyyənləşdirilməsi, fənlərin əsaslandırılması, fənlər üzrə təlim nəticələrinin konkretləşdirilməsi hər bir təhsil pilləsi üçün ayrılıqda həyata keçirilir ki, bu da ümumi təhsilin məzmununda ardıcıllığın, varisliyin gözlənilməsinə əlverişli şərait yaradır, interaktivliyin təmin olunmasına, müasir təlim üsullarının və qiymətləndirmə standartlarının tətbiqinə geniş imkanlar açmasına səbəb olur.

Ümumi təhsilin Konsepsiyası sənədi və onun əsasında hazırlanmaqda olan fənn kurikulumları ümumi təhsil sistemində forma, məzmun və mahiyyət etibarilə tamamilə yeni bir hadisədir. Bunu daha aydın təsəvvür etmək üçün müəyyən konkret nümunələr əsasında həm Milli Kurikulum sənədinin 1999–ci ildə təsdiq edilən "Ümumi orta təhsilin dövlət standartları" sənədi, həm

də yeni fənn kurikulumları layihə-lərinin hazırki fənn proqramları ilə müqayisəsini diqqətə çatdırmaq məqsədəuyğun olardı.

"Ümumi orta təhsilin dövlət standartları" sənədində təhsil pillələri qarşısında duran məqsədlər çox ümumi şəkildə təsvir edilmiş, müvafiq fənləri özündə birləşdirən təhsil sahələrinin hansı məsələləri əhatə etdiyi müəyyən mənada əsaslandırılsa da, heç bir təlim nəticəsi göstərilməmişdir.

Müasir fənn kurikulumlarının ümumi təhsilin Konsepsiyası sənədində təsbit olunmuş strukturu kurikulumların hazırlanmasında sistemliyi təmin etməklə yanaşı, fənlərin məzmununa yeni yanaşmanı nümayiş etdirir. Burada fənnin məqsəd və vəzifələrinin, əhəmiyyətinin, xarakterik xüsusiyyətlərinin ətraflı işıqlandırılması vahid tələb kimi qarşıya qoyulur. Kuriku-lumlarda fənn üzrə təlimin təşkilinə dair əsas tələblərin, təlimin forma və üsullarının təkmilləşdirilməsinə dair zəruri tövsiyyə-lərin, müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına aid nümunələrin verilməsinin, kurikulum və eyni zamanda təhsil pillələri yekun qiymətləndirmə vasitələrinin hazırlanmasının nəzərdə tutulması bu sənədlərin praktik əhəmiyyətini qat-qat artırır.

Qəbul edilmiş struktura əsasən, kurikulumlarda fənn üzrə məzmun xətlərinin müəyyənləşdirilməsi və onların əsaslandırılması cəmiyyətin təlabatına görə fənnin optimal məzmununun, zəruri təlim standartlarının və alt standartların dəqiqləşdirilməsində mühüm rol oynayır. Ümumi nəticələrə əsasən, fənn üzrə standartlar və alt standartların dəqiq müəyyən olunması gələcəkdə dərsliklərin artıq, ikinci dərəcəli materiallarla yüklənməsinin qarşısını alan ciddi amil kimi meydana çıxır.

Yeni kurikulumların tələbləri əsasında tədris prosesini quran və əmək faliyyətində bu sənədin tələblərini əsas götürən müəllimlərə aşağıdakı tövsiyyələri verməyi məqsədəmüvafiq hesab edirik:

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

- Şagirdlərin istifadə edəcəyi birinci informasiya mənbəyi olmayan, onların öyrənəcəyi problemlərlə bağlı çoxlu sayda informasiya mənbələrindən biri olmağa çalışsın:
- Mövcud biliklər sistemi ilə bağlı konsepsiyalara, Milli Kurikulumun əsas göstəricilərinə yaradıcı münasibətlərini bildirən şagirdlərdən istifadə edin:
- Verilmiş məsələni həll edən şagirdə imkan yaradın, bu məqsədlə onların yaradıcılıq imkanlarının inkişafına, onun düşünməsinə və öz düşuncələrini tənqidi surətdə ifadə etməsinə şərait yaradın.
- Şagirdlərin nəyi isə müzakirə etmələrini təqdir edin, sinfə mübahisə yaradan suallar verin:
- Öyrənilən problemə, hadisəyə dair materialın izahında və müzakirələrdə ilkin mənbələrdən tez-tez istifadə edin:
- Sualları cavablandırdıqda şagirdlərin aydın, səlis danışmasını tələb edin, vacib olan şagirdlərin nəyi anlaması yox, həm də onu necə anlamasıdır:
- Qazanılmış elmi biliklərin olduğu kimi qəbul edilməsi və surətinin çıxarılmasını onların dərk edilərək tətbiq edilməsindən fərqləndirməyi bacarsın:
- Tədris fənninin məzmunundan asılı olaraq, elmi-pedoqoji ideyaları əsas tutaraq dərsin quruluşu, təşkili və gedişinə uyğun olaraq konkret tədris planınızı tərtib edin, pedoqoji ustalığın nümunəsi olan bu tərtibatda tədris prosesini konstruksiya edərək onun inkişafını idarə edin, tədris prosesini tələb olunan istiqamətə yönəldin.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 198-200
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 198-200
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Xədicə Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0003-7761-0595
khadicaaliyeva@nmi.edu.az

# Müasir təhsil sistmində psixoloji ehtiyacların və yaradıcılığın vəhdəti

**Açar söz:** *müasir təhsil, özünü ifadə, təhsil mühiti, yaradıcı düşüncə, motivasiya, holistik inkişaf*
***Keywords:*** *modern education, self-expression, educational environment, creative thinking, motivation, holistic development*

Müasir dövrdə təhsil sistemi artıq yalnız biliklərin ötürülməsi funksiyası ilə məhdudlaşmır. Təhsil insan kapitalının müxtəlif istiqamətlər üzrə formalaşmasına xidmət edən mühüm bir sosial institut kimi çıxış edir. Bu kontekstdə fərdin psixoloji ehtiyaclarının ödənilməsi, emosional balansının qorunması və yaradıcı qabiliyyətlərinin inkişafı təhsil prosesinin ayrılmaz tərkib hissəsinə çevrilir. XXI əsrin dinamik və sürətlə dəyişən mühitində cəmiyyət, yeni şəraitə uyğunlaşa bilən, yaradıcı düşüncə tərzinə malik və psixoloji baxımdan dayanıqlı insanlara daha çox ehtiyac duyur. Buna görə də təhsil sistemləri məzmun və təşkilati modellərini yenidən nəzərdən keçirərək elə şərait yaratmalıdırlar ki, şagird və tələbələrin həm psixoloji rifahı dəstəklənsin, həm də onların yaradıcı potensialı tam şəkildə üzə çıxsın.

Psixoloji ehtiyaclar insan davranışını istiqamətləndirən əsas motivasiya amillərindən biridir. Abraham Maslowun irəli sürdüyü ehtiyaclar iyerarxiyası göstərir ki, insan yalnız fundamental ehtiyacları təmin edildikdən sonra öz daxili

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 198-200
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 198-200
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

potensialını gerçəkləşdirə bilir. Təhlükəsizlik, mənsubiyyət hissi, sevgi və hörmət kimi ehtiyaclar ödənilmədikdə, öyrənmə prosesinə tam şəkildə qoşulmaq xeyli çətinləşir. Bu səbəbdən təhsil mühitində emosional sabitliyin qorunması, psixoloji dəstəyin əlçatan olması və müəllimlə şagird arasında etimada əsaslanan münasibətlərin mövcudluğu xüsusi əhəmiyyət daşıyır. Psixoloji ehtiyacların nəzərə alınmadığı tədris sistemi isə şagirdlərin akademik nailiyyətlərinə və sosial inkişafına mənfi təsir göstərə bilər.

Yaradıcılıq da müasir təhsilin mühüm istiqamətlərindən biri hesab edilir. Yaradıcılıq anlayışı yalnız incəsənət sahələri ilə məhdudlaşmır; o, insanın problemləri analiz etmə, qeyri-ənənəvi həll yolları tapma, tənqidi düşünmə və innovativ yanaşma bacarığını özündə birləşdirir. Yaradıcılıq qabiliyyəti formalaşmış fərd hazır bilikləri passiv şəkildə mənimsəmir, əksinə, yeni ideyalar irəli sürür, fərqli yanaşmalar axtarır və mövcud problemlərə innovativ həllər tapır. Bu baxımdan təhsil sistemləri yaradıcı düşüncəni inkişaf etdirən metodlara üstünlük verməli, şagird-mərkəzli, interaktiv və layihə əsaslı təlim modellərini genişləndirməlidir.

Psixoloji ehtiyaclarla yaradıcılıq arasında mövcud olan vəhdət təhsilin daha səmərəli və dərin təsir gücünə malik formalaşmasını təmin edir. Özünü ifadə etmək həm psixoloji tələbatdır, həm də yaradıcılığın əsas sütunlarından biridir. Şagird özünü təhlükəsiz, dəyər verilmiş və dəstəklənmiş hiss etdikdə, yaradıcılıq potensialı daha rahat üzə çıxır. Yaradıcılıq fəaliyyəti, eyni zamanda, fərdin özünü tanımasına, emosional və sosial bacarıqlarının inkişafına, həmçinin öz dəyərini dərk etməsinə imkan yaradır. Buna görə də təhsil prosesində psixoloji ehtiyacların və yaradıcı düşüncənin birgə şəkildə nəzərə alınması şagirdin bütöv inkişafı üçün zəruri hesab olunur.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Bu yanaşmanın tətbiqi təhsil mühitində müxtəlif metodlarla reallaşdırıla bilər. Məsələn, oyun əsaslı təlim, problem əsaslı öyrənmə, dram və rol oyunlarından istifadə, fərdi layihələrin hazırlanması və təqdimatların təşkili şagirdlərin həm yaradıcılıq bacarığını gücləndirir, həm də emosional ehtiyaclarını qarşılayır. Bundan başqa, məktəblərdə psixoloqların fəaliyyət dairəsi genişləndirilməli, müəllimlərin psixoloji hazırlıqla bağlı davamlı təlimlərdə iştirakı təmin edilməlidir. Müəllim yalnız bilik ötürən şəxs deyil, eyni zamanda şagirdin emosional vəziyyətini diqqətdə saxlayan, ona dəstək olan və inkişafına istiqamət verən mentor kimi çıxış etməlidir.

Təhsil proqramlarında psixoloji rifahı və yaradıcı düşüncəni hədəfləyən fənlərə və modul tipli dərs bölmələrinə yer verilməli, qiymətləndirmə mexanizmləri də bu istiqamətə uyğun yenilənməlidir. Ənənəvi test və əzbərçiliyə əsaslanan qiymətləndirmə sistemləri yaradıcı təfəkkürün formalaşmasına imkan tanımır. Bunun əvəzinə layihə əsaslı işlər, portfoliolar, özünüqiymətləndirmə və proses yönümlü yanaşmalar daha məqsədəuyğundur.

Beləliklə, müasir təhsil sistemi yalnız akademik nailiyyətləri deyil, həm də fərdin psixoloji sabitliyini və yaradıcılıq potensialını nəzərə almalıdır. Cəmiyyətin inkişafı üçün savadlı olmaqla yanaşı, özünü ifadə edə bilən, yaradıcı düşüncəyə sahib və psixoloji baxımdan güclü fərdlərə böyük ehtiyac vardır. Bu məqsədlə təhsil siyasətləri və proqramları yenidən strukturlaşdırılmalı, psixoloji ehtiyaclar və yaradıcılığın sintez olunduğu təlim mühiti yaradılmalıdır. Belə yanaşma həm fərdin şəxsi rifahına, həm də ümumi ictimai inkişafın möhkəmlənməsinə xidmət edir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Bəyim Tarverdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-5914-9814
tarverdiyevabeyim1982@gmail.com
**Şəfəq Muradova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-7803-510X
shafaqmuradova@nmi.edu.az

# Tələbələrin xarici dildə müstəqil və yaradıcı düşünmə bacarıqlarının inkişafında müasir pedaqoji texnologiyaların rolu

***Açar sözlər:*** *inteqrasiya, interaktivlik, motivasiya, yaradıcı düşünmə, innovasiya*
***Keywords:*** *integration, interactivity, motivation, creative thinking, innovation*

Müasir dövrdə qlobal ünsiyyət dili hesab olunan ingilis dilini öyrənənlərin sayı get-gedə artmaqdadır. Bu dilin beynəlxalq aləmdə rolu artdıqca dili öyrənənlərə olan tələbat da artır. İngilis dilinin kommunikativ formada aşılanmasını tələb edən amillərdən biri onun global ünsiyyət vasitəsi olmasıdır.Onu da qeyd etmək lazımdır ki, bir çox inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edən respublikamızda xarici dillərin, xüsusilə də ingilis dilinin tədrisi sahəsində mühüm isləhatlar aparılır və bu islahatlar ümumiyyətlə təhsilin məzmunu və strukturu, dillərin öyrənilməsin-də istifadə olunan təlim metod-ları, tədris prosesində müəllim və tələbənin rolu,tələbə-müəllim münasibətləri, təhsilin forması və s. məsələlərdən bəhs edir. İngilis dilinin tədrisindən bəhs edərkən yalnız dilin qrammatik qaydalarına, linqvistik vahidlərinə deyil, eləcə də digər amillərə diqqət yetirmək lazımdır. Xarici dili

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

öyrənməklə yanaşı, həmin dilin mədəniyyətini də dərindən öyrənmək vacibdir, çünki bunların hər ikisi vəhdət təşkil edir. Xarici dilin tədrisində müəllim əsasən vasitəçi rolunu oynamalıdır. Beləki, o dilin mənimsənilməsi üçün lazımi atmosferi yaratmalıdır. Dərs prosesində öyrənənlərin yaradıcı düşünmə bacarıqlarının inkişaf etdirilməsi üçün problemli situasiyalara, düşündürücü suallara mümkün qədər geniş yer verilməlidir. Bu cür qurulmuş dərs prosesi tələbələrin müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir.

Təlim prosesinin keyfiyyətini yüksəltmək üçün interaktiv təlim metodları əhəmiyyətli bir vasitə ola bilər. Bu metodla keçirilən dərs öyrənənlər üçün daha maraqlı və cəlbedici olur. Ənənəvi metodlardan fərqli olaraq interaktiv təlim metodları ünsiyyətdən və interaktivlikdən daha səmərəli istifadə etməyə imkan verir və bu metodların tətbiqi xarici dilin qısa müddətdə daha yaxşı öyrənilməsinə şərait yaradır. İnteraktiv dərs elə qurulmalıdır ki, yeni bilik tədqiqat üsulu ilə əldə edilsin. Öyrənənlərin əldə etdikləri tədqiqat nəticələri ümumiləşdirilməli, sistemləşdirilməli və sonda şagirdlərin dərsin əvvəlində irəli sürdükləri fikirlər və tədqiqatın nəticələri müqayisə edilməlidir. Sonda tələbələr müqayisə zamanı üst-üstə düşən fərziyələrin, onlar üçün yeni olan fikirlərin şahidi olur və düzgün nəticə çıxarırlar. Əvvəlki illərdə tələbələr lazımi bilikləri əldə etmək üçün yalnız bilik mənbəyi olaraq müəllim və dərslikdən istifadə edirdilərsə, indi daha genişmiqyaslı informasiya mənbələrindən yararlanırlar. Buna görə də, indi təlimin əsas vəzifəsi öyrənənləri bilik və bacarıqları müstəqil əldə etməyə həvəsləndirməkdir. Mütəxəssislərin fikrincə, müasir təlim üsullarının düzgün tədris edilməsi üçün xarici dil müəllimlərinin nümunəvi, müasir təcrübəyə sahib olan müəllimlərin dərsində iştirak etməsi zəruridir. Müşahidə olunan dərsin təhlili və müzakirəsi keçirilməli,yekun nəticə əldə olunmalıdır. Belə halda müəllimlərin metodik cəhətdən biliyi artır, eyni zamanda onlar

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

innovativ təlim texnologiyalarından düzgün, səmərəli istifadə etmək imkanlarına malik olurlar.

Müstəqil düşünmə bacarığı XXI əsrdə beynəlxalq təhsildə əsas bacarıqlar arasında yer alır. Xarici dil öyrənmək bu bacarığı tələb edir. Xarici dili öyrənən tələbə yeni dil öyrənməklə yanaşı digər mədəniyyət və düşüncə sistemi ilə də tanış olur. Beləliklə, onda öz fikrini ifadə etmək, başqalarının fikrinə münasibət bildirmək bacarığı formalaşır. Müstəqil düşünmə bacarığı öyrənənin məlumatı təhlil edə bilməsi, tənqidi və yaradıcı yanaşma sərgiləməsi, öz fikirlərini əsaslandıra bilməsidir və bu xarici dil öyrənənlər üçün çox mühüm amildir. Çünki tələbə yeni dil öyrənməklə bərabər, yeni mədəniyyətləri də mənimsəyir, müstəqil qərarvermə və perespektivləri müqayisə etmə qabiliyyəti nümayiş etdirir.İnnovasiyalardan istifadə etməklə hər bir tələbə öz ehtiyac və maraqlarına uyğun resurs seçmək imkanı əldə edir.Tələbədə interaktiv materiallara maraq artır, onlarda səhvlər üzərində işləmək, rəy vermək bacarığı formalaşır. Xarici dil öyrənənlərin müstəqil,tənqidi və yaradıcı düşünmə bacarığını inkişaf etdirmək üçün eləcə də, lüğət ehtiyatını zənginləşdirmək, qrammatik biliklərini artırmaq üçün müasir innovativ texnologiyalar ən güclü vasitədir.Dil öyrə-nənlər paralel olaraq həm dil, həm də düşünmə bacarıqlarını inkişaf etdirmək imkanı əldə edirlər.

Tədris prosesinin daha məhsuldar, daha maraqlı təşkili üçün müasir pedagoji texnologiyalardan iştifadə edilməsi məqsədəuyğundur. Yeni innovativ texnologiyaların səmərəli istifadəsi xaici dilin öyrənilməsində motivasiyanın inkişafına və təlimin keyfiyyətinin yüksəlməsinə kömək edir. Ölkəmizdə demək olar ki, bütün universitetlərdə tədris prosesində müasir pedaqoji innovasiyalardan maksimum istifadə olunur. Təlim prosesində keyfiyyətin daha yüksək səviyyəyə qalxması, eyni zamanda xarici dildə praktik bacarıqların inkişaf etdirilməsində bu texnologiyaların rolu əvəzsizdir. Hazırda xarici dil dərslərini müasir texnologiyalardan

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

istifadə etmədən təsəvvür etmək mümkün deyil. Təlimin fərdiləşdirilməsini və differensiallaşdırılmasını təmin etmək üçün yeni informasıya texnologiyaları, layihə texnologiyası, əməkdaşlıq texnologiyalarından istifadə olunması zəruridir. Xarici dilin tədrisi prosesində müxtəlif didaktik tapşırıqları həll edərkən internetdən istifadə etmək olar. Tədris olunan xarici dildə oxu bacarıqlarının inkişaf etdirilməsi, yazı bacarıqlarının təkmilləşdirilməsi, tələbələrin lügət ehtiyatlarının zənginləşdirilməsi, xarici dili öyrənmək üçün motivasiyanın formalaşdırılması üçün qlobal şəbəkələrin materiallarından istifadə etmək məqsədəuygundur. İnternetdən istifadə tələbələrə xarici ölkələrdə yaşayan həmyaşıdları ilə işgüzar əlaqələr qurmağa kömək edir, onların üfüqlərini genişləndirir, mədəniyyətlərarası qarşılıqlı əlaqə bacarığını inkişaf etdirir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 205-208
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 205-208
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Gülmirə Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-8172-4512
gulmiraaliyeva@nmi.edu.az

# Xarici dilin tədrisində innovativ metodlardan istifadənin əhəmiyyəti

***Açar sözlər:*** *dil tədrisi, yeni yanaşmalar, müəllim, şagird, təlimin keyfiyyəti*
***Keywords:*** *teaching of language, new approaches, teacher, student, quality of teaching*

Xarici dilin öyrənilməsinin həm də öyrədilməsinin effektivliyinin artırılması müasir tədris sisteminin qarşısında duran əsas vəzifələrdəndir. Xarici dillər üzrə tərtib edilmiş proqram və dərsliklər müəllimlərdən öz işlərində ciddi dönüş yaratmağı, yeni və səmərəli üsullardan istifadə edərək xarici dil dərslərini müasir dərsə verilən tələblər səviyyəsinə qaldırmağı qətiyyətlə tələb edir. Yeni proqrama keçməklə əlaqədar olaraq müəllim köhnə üsulların əsiri olaraq qalırsa, yeni üsullar axtarmırsa,onlardan istifadə etmirsə, demək o yeni metodlardan istifadə etmir, 45 dəqiqəlik tədris saatından məqsədə müvafiq və səmərəli istifadə etmir. Dərs elə qurulmalıdır ki, şagirdlər 45 dəqiqə ərzində fəal tərzdə fikirləşsinlər, axtarış aparsınlar, qarşıya qoyulmuş problem məsələləri həll etməyə çalışsınlar, çətinlikdən çıxış yolu axtarsınlar və s.

Xarici dillərin tədrisi digər humanitar fənlərin tədrisindən özünün spesifikliyi ilə seçilir. Xarici dillərin tədrisində dərsin məqsədə müvafiq olaraq intensiv, metodik baxımdan düzgün təşkilinin və praktik istiqamətə yönəldilməsinin çox böyük əhəmiyyəti vardır. Xarici dil dərsləri digər fənlər üzrə aparılan

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

dərslərdən, hətta ana dili dərslərindən belə fərqlənir. Ana dili dərslərində şagirdlər nitq prosesində istifadə etdikləri forma və konstruksiyaları əsasən nəzəri cəhətdən dərk etməli və öyrənməlidirlərsə, xarici dil dərslərində onlar öyrəndikləri dilə xas olan forma və konstruksiyaları həm nəzəri baxımdan dərk etməli, öyrənməli, həm də onlardan praktik olaraq istifadə etmək bacarıq və vərdişləri qazanmalıdırlar. Ona görə də, xarici dil dərsləri öz spesifik xüsusiyyətlərinə görə ana dili dərslərindən fərqlənir.

Hər bir fənn üzrə aparılan dərsin məzmun və quruluşu həmin fənnin tədrisi qarşısına qoyulmuş məqsədlə müəyyənləşir. Xarici dil fənni üzrə aparılan dərslər elə qurulmalı və elə keçirilməlidir ki, o, şagirdlərə öyrəndikləri dildə praktik dil bacarıq və vərdişləri aşılasın,onlara xarici dili praktik olaraq öyrənmək imkanı versin.Müasir dövrün əsas tələbi innovativ metoddur: Tədrisdə innovativ metoda üstünlük verilsə daha yaxşı nəticələr əldə etmək mümkündür. Xarici dil dərslərində innovativ metodların tətbiqinə dərsin motivasiya hissəsindən başlamaq lazımdır. Xarici dil dərslərində şagirdlərin aktiv olmalarını təşkil etmək elədə asan iş deyil, bu müəllimin bacarığından asılıdır. İlk dərs müddətində müəllim şagirdləri xarici dil məfhumu ilə tanış edir. Bununla əlaqədar olaraq ümumiyyətlə dilin insan cəmiyyətindəki rolundan, xarici dilin o cümlədən, ingilis dilinin müxtəlif xalqlar, millətlər arasında ünsiyyət vasitəsi olmasından, xarici dillərin öyrənilməsinin əhəmiyyətindən, xarici dilin öyrənilməsinin gələcək perspektivlərindən geniş danışmaq lazımdır. Xarici dillərin öyrənilməsinin elm və texnikanın, ədəbiyyat və mədəniyyətin inkişafındakı, Vətənimizin müdafiəsindəki rolundan, böyük ədib və alimlərin xarici dillərin öyrənilməsinə olan münasibətlərindən yığcam şəkildə danışmaq olar. Burada “Neçə dil bilsən, o qədər də adamsan” misalını şagirdlərə xatırlatmaq olar. Çünkü müxtəlif

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

millətlərə mənsub olan adamlar xarici dillər vasitəsilə öz fikirlərini bir-birinə başa sala bilir və öz sərhədləri xaricində baş verən hadisələrlə tanış olurlar.

Elm və texnikanın sürətlə inkişaf etdiyi indiki dövrdə müasir təlim texnologiyalarından istifadə dərsi daha maraqlı edir. İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, çağdaş insan yetişdirmənin ən doğru yolu şagirdi sinifdə təlimin obyekti kimi yox,subyekti kimi qəbul edən şagirdyönümlü innovativ təlim metodlarından istifadə etməkdir. Avropa ölkələrinin təhsil sistemində innovativ metod tətbiq edilir. Xarici dili yaxşı öyrənmək üçün təkcə məktəb proqramı və sinif dərslikləri ilə kifayətlənmək düzgün deyil. Bunun üçün biz müəllimlər mütəmadi olaraq öz üzərimizdə işləməli, mövzuya uyğun əlavə ədəbiyyat və kitablardan istifadəni bacarmalıyıq. Öyrənmək müəyyən vaxt və əmək sərfi tələb edir. Ancaq effektiv metodlarla bu işi əyləncəli və maraqlı şəkildə həyata keçirmək daha səmərəli olur. Bunun üçün şagirdlərə dərs və dərsdənkənar məşğələlərdə xarici dildə kitablar oxumağı, sadə yazılardan, uşaq kitablarından istifadə etməyi məsləhət görmək olar.

Yeni təlim texnologiyalarının tətbiq edildiyi dərslərdə qrup forması üstünlük təşkil edir. Burada mahiyyət də dəyişir, qrupu təşkil edən şagirdlər qarşılıqlı ünsiyyət, mülahizə zəminində verilmiş tapşırığı icra edirlər. Yeni təlim metodları şagirdlərdə bacarıqlar formalaşdırmağa çalışır, onlarda analiz etmək, mühakimə etmək, yaradıcılıq qabiliyyəti formalaşdırır. Şagird bu gün informasiyanı lazımı vaxtda ala bilirsə, qarşıdakı insanı dinləyərək onu tam anlayırsa, demək yeni təlim savadlı kadr yetişdirir. İnnovasiya bir pedaqoji fəaliyyət olaraq təhsilə yenilik gətirir, təhsil prosesinin təkmilləşdirilməsinə xidmət edir. Ənənəvi metodların müsbət cəhətlərindən istifadə edərək yeni yanaşmanın, yeni təlim texnologiyalarının, innovasiyaların tətbiqi ilə fəal şagird, sosial şagird və yaradıcı şagird yetişdirmək

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

mümkündür. Çünki dərs tədrisin əsas təşkilat forması olub çox mürəkkəb və çoxcəhətli bir prosesdir. Buna görə də, çox vaxt bir plan üzrə iki eyni dərs aparmaq mümkün olmur. Bir sıra obyektiv və subyektiv amillərin nəticəsi olaraq müəyyən bir mövzu üzrə iki müxtəlif sinifdə dərs deyən müəllim, tədris materialının eyni olmasına baxmayaraq, hər dəfə müxtəlif üsullardan istifadə etməli olur. Bəzən isə müəllim deyəcəyi dərs üçün hazırladığı planı, nəzərdə tutduğu üsulu dərsin gedişində ya qismən,ya da tamam dəyişmək məcburiyyətində qalır və s. Bu bir daha sübut edir ki, dərs çox mürəkkəb bir yaradıcılıq prosesidir. Buna görə də, hər bir dərsi bir pedaqoji əsər adlandırmaq olar. Bu əsərin müəllifi də dərsi aparan müəllimdir. Bu əsərin nə dərəcədə müvəffəqiyyətli yazılması hər kəsdən və hər şeydən əvvəl onun müəllifi olan müəllimdən asılıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 209-211
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 209-211
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Ayşən İmanlı**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0008-2209-8201
ayshan_imanli@hotmail.com

# İngilis dili dərslərində innovativ texnologiyaların tətbiqi metodologiyası

***Açar sözlər:*** *innovativ texnologiyalar, tədris metodologiyası, interaktiv öyrənmə, rəqəmsal təhsil, dil bacarıqları, müasir təlim üsulları, mobil tətbiqlər, flipped classroom, EdTech*

***Keywords:*** *innovative technologies, teaching methodology, interactive learning, digital education, language skills, modern teaching methods, mobile applications, flipped classroom, EdTech*

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişafı təhsil sisteminə də öz təsirini göstərmiş, xüsusilə dil tədrisində köklü dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi tədris metodlarının yerini texnologiya əsaslı yanaşmalar almaqdadır. Bu dəyişikliklər çərçivəsində ingilis dili dərslərində innovativ texnologiyaların tətbiqi həm tədris prosesinin keyfiyyətini yüksəltmiş, həm də şagirdlərin dərsə marağını artırmışdır. Artıq ingilis dili yalnız qrammatika və söz öyrənməyə əsaslanan bir fənn deyil, dinamik və interaktiv bir öyrənmə sahəsinə çevrilmişdir.

Texnologiyanın dil tədrisində tətbiqi müxtəlif vasitələr üzərindən həyata keçirilir. İnteraktiv lövhələr, planşetlər, mobil tətbiqlər və veb-resurslar bu vasitələr arasında xüsusi yer tutur. Bu alətlər müəllimə dərsi daha rəngarəng və funksional şəkildə qurmaq imkanı yaradır. Məsələn, video materiallardan istifadə etməklə tələbələrin dinləmə və anlama bacarıqları təkmil-

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 209-211
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 209-211
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

ləşdirilir, müxtəlif onlayn oyunlar və tapşırıqlar vasitəsilə isə dil öyrənmə prosesi əyləncəli və yadda qalan olur.

Eyni zamanda texnologiya şagirdlərə daha fərdi və ehtiyaclara uyğunlaşdırılmış öyrənmə imkanı verir. Müxtəlif tədris platformalarında hər bir şagird öz sürətində öyrənə, zəif tərəflərini müəyyən edə və onları gücləndirmək üçün əlavə resurslardan istifadə edə bilər. Bu baxımdan texnologiya fərdi yanaşmanı dəstəkləyir və müəllimə şagirdin inkişafını daha obyektiv qiymətləndirmək imkanı verir.

İnnovativ texnologiyaların tətbiqi dərs strukturuna da yeni nəfəs gətirmişdir. Əvvəllər müəllim mərkəzli tədris üstünlük təşkil edirdisə, indi interaktiv və şagirdmərkəzli modellər ön plana çıxır. Məsələn, "flipped classroom" (tərs sinif) yanaşması ilə şagirdlər dərsə gəlməmişdən əvvəl öyrənəcəkləri mövzu ilə onlayn tanış olur, dərsdə isə daha çox praktik tapşırıqlar yerinə yetirir, müzakirələr aparırlar. Bu isə öyrənmənin daha dərin və mənalı olmasına şərait yaradır.

Bununla yanaşı, texnologiyanın tədrisdə tətbiqi bəzən müəyyən çətinliklər də yarada bilir. İnfrastruktur çatışmazlığı, müəllimlərin texniki biliklərinin yetərli olmaması, eləcə də texnologiyanın bəzən şagirdin diqqətini yayındırması kimi problemlər təcrübədə müşahidə olunur. Buna baxmayaraq, doğru planlama və uyğun metodoloji yanaşma ilə bu problemlərin öhdəsindən gəlmək mümkündür.

Nəticə olaraq, ingilis dili dərslərində innovativ texnologiyaların tətbiqi tədris prosesini daha effektiv və müasir tələblərə uyğun hala gətirir. Şagirdlərin motivasiyasını artırmaqla yanaşı, onların dörd əsas dil bacarığını da inkişaf etdirir. Ən əsası isə bu texnologiyalar şagirdləri passiv öyrənən deyil, aktiv iştirakçıya çevirir və onları real həyatda ingilis dilindən istifadə etməyə təşviq edir. Gələcəkdə bu metodların daha da təkmilləşdirilərək geniş tətbiq olunması təhsil sisteminin keyfiyyət göstəricilərinə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

əhəmiyyətli töhfələr verə bilər. Yuxarıdakı mətnə əsaslanaraq belə bir geniş nəticə çıxarmaq olar ki, müasir təhsil sistemində ingilis dili dərslərində innovativ texnologiyaların tətbiqi zərurətə çevrilmişdir. Ənənəvi tədris metodlarının informasiya cəmiyyətinin dinamik tələblərinə cavab verməməsi səbəbindən texnoloji vasitələrin tədrisə inteqrasiyası artıq sadəcə seçim deyil, müasir pedaqoji yanaşmanın əsas tərkib hissəsidir. Bu yanaşma şagirdin dərsə fəal cəlb olunmasını təmin edir, onların dil bacarıqlarını kompleks şəkildə inkişaf etdirməyə şərait yaradır və fərdi tədris imkanlarını genişləndirir. Eyni zamanda, innovativ texnologiyalar vasitəsilə dərslərin daha maraqlı, vizual və interaktiv şəkildə təqdim olunması şagirdlərin motivasiyasına və dərsə marağına müsbət təsir göstərir. Bu isə birbaşa olaraq tədrisin keyfiyyətinə təsir edir və nəticələrin yüksəlməsinə səbəb olur. Məsələn, müxtəlif mobil tətbiqlər, video materiallar, oyunlaşdırma əsaslı fəaliyyətlər vasitəsilə şagirdlər yalnız nəzəri deyil, praktik bacarıqlar da qazanır.

Lakin bu müsbət aspektlərlə yanaşı, texnologiyanın tətbiqində müəyyən problemlər də mövcuddur. Bu problemlər əsasən texniki infrastrukturun yetərsizliyi, müəllimlərin lazımi hazırlıq səviyyəsinin olmaması və bəzi hallarda texnologiyanın diqqəti yayındırması ilə bağlıdır. Bu səbəbdən, texnologiyanın tədrisə düzgün və balanslaşdırılmış şəkildə inteqrasiyası üçün müəllimlərin metodoloji və texnoloji hazırlığı ön planda olmalıdır.

Nəticə olaraq demək olar ki, ingilis dili tədrisində innovativ texnologiyaların istifadəsi şagirdlərin öyrənmə prosesinə daha aktiv və mənalı şəkildə qoşulmasına şərait yaradır, onların müasir dünya ilə ayaqlaşan dil bacarıqları formalaşdırmasına kömək edir və ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verir. Gələcəkdə bu texnologiyaların davamlı inkişafı və düzgün metodoloji yanaşma ilə tətbiqi tədrisin səmərəliliyini daha da artıracaqdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 212-214
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 212-214
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Fəridə Mikayılova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0003-2342-9686
farida.aliyeva1008@gmail.com

# Yanlış tədris və tərbiyə üsullarının didaktogenetik təsiri

***Açar sözlər:*** *pedaqoji metod və üsullar, tədris və tərbiyə prosesi, bilik, bacarıq və vərdişlərin formalaşdırılması, şagirdin şəxsiyyət inkişaf, müasir pedaqogika*
***Keywords:*** *pedagogical methods and techniques, teaching and upbringing process, formation of knowledge, skills and habits, student's personality development, modern pedagogy*

Müasir pedaqogikada əsas məqsəd şagirdlərin bilik, bacarıq və vərdişlərini formalaşdırmaqla yanaşı, onların şəxsiyyət kimi inkişafına dəstək olmaqdır. Tədris və tərbiyə prosesində tətbiq olunan metod və üsullar düzgün seçilmədikdə isə, bu proses tərsinə işləyərək şagirdlərdə psixoloji gərginlik, motivasiya itkisi və mənfi emosional münasibət yarada bilər. Bu hal pedaqoji ədəbiyyatda didaktogenetik təsir anlayışı ilə izah olunur.

**Didaktogenetik təsir anlayışı**

"Didaktogenetik təsir" – müəllim və ya valideyn tərəfindən tətbiq edilən səhv yanaşma, kobud davranış və ya yanlış təlim-tərbiyə üsullarının şagirdin psixikasında yaratdığı mənfi nəticələrdir. Bu təsir birbaşa şagirdin tədrisi münasibətinə, emosional vəziyyətinə və gələcək inkişafına mənfi istiqamətdə təsir gös-tərir.

**Yanlış tədris və tərbiyə üsulları**

Yanlış pedaqoji yanaşmalar müxtəlif formalarda özünü göstərə bilər:

-Avtoritar yanaşma – şagirdin fikirlərini nəzərə almadan sərt şəkildə idarəetmə.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

-Tez-tez tənqid və təhqir – şagirdin şəxsiyyətini alçaltmaq, kobud üslubda danlama.

-Müqayisəetmə – şagirdi başqaları ilə müqayisə etməklə onda aşağılıq kompleksi yaratmaq.

-Laqeydlik – şagirdin suallarını, maraqlarını, hisslərini görməməzlikdən gəlmək.

-Həddən artıq yükləmə – yaş və psixoloji imkanlara uyğun olmayan tapşırıqlar vermək.

-Müsbət motivasiya olmadan öyrətmə – yalnız cəza və qorxu ilə yönləndirmə. Didaktogenetik təsirin nəticələri

Yanlış üsulların şagird üzərindəki təsirləri aşağıdakı isti-qamətlərdə müşahidə olunur:

1. Psixoloji nəticələr: qorxu, təşviq, özünə inamsızlıq, aqressiya və ya passivlik.

2. Təlim nəticələri: motivasiya itkisi, dərsə marağın azal-ması, zəif akademik göstəricilər.

3. Sosial nəticələr: müəllimə, valideynə və ümumən cəmiyyətə qarşı mənfi münasibət.

4. Şəxsiyyət inkişafı ilə bağlı nəticələr: aşağı özünəqiymət, kommunikasiya problemləri, gələcəkdə riskli davranış forma-larının yaranması.

Qarşısının alınması yolları

-Müəllim–şagird münasibətlərində hörmət və qarşılıqlı etimad mühiti yaratmaq.

-Tənqidi fərdi yanaşma və dəstəklə əvəz etmək.

-Şagirdin maraqlarını və fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris aparmaq.

-Müsbət motivasiya metodları – mükafat, təşviqedici sözlər, kollektiv oyunlar tətbiq etmək.

- Müəllim və valideynlərin pedaqoji-psixoloji savadlılığını artırmaq.

Yanlış tədris və tərbiyə üsulları uşağın yalnız dərs nailiyyətlə-

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

rinə deyil, həm də şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərir. Didaktogenetik təsirlərin qarşısını almaq üçün pedaqoqların pedaqoji etikaya əməl etməsi, təlim-tərbiyədə hümanist yanaşmadan istifadə etməsi zəruridir. Uşağın psixoloji sağlamlığını qorumaq, onun təlimə maraq və motivasiyasını dəstəkləmək müasir təhsilin əsas vəzifələrin-dəndir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 215-219
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 215-219
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Aytəkin Qəhrəmanova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0004-8494-6182
aytekinqehramanova@nmi.edu.az

# Tarix dərslərinə psixoloji faktorların təsiri: 44 günlük vətən müharibəsi nümunəsində

***Açar sözlər:*** *psixoloji faktor,öyrənmə motivasiyası, tarix dərsləri,emosional mühit, müasir təhsil*
***Keywords:*** *psychological factor, learning motivation, history lessons, emotional environment, modern education*

Müasir dövrdə tədris prosesində pedaqoji faktorların təsiri mühüm əhəmiyyət kəsb edir. Xüsusilə tarix dərslərində şagirdlərin milli-mənəvi dəyərlərlə tərbiyə olunması, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi pedaqoji baxımdan əsas istiqamətlərdən biridir. Azərbaycan tarixinin ən yeni mərhələsi olan 44 günlük Vətən müharibəsi mövzusu isə bu prosesin parlaq nümunəsidir

2020-ci il sentyabr ayının 27-si başlanan və 44 gün ərzində qalibiyyətlə, zəfərlə başa çatan Vətən müharibəsi yalnız hərbi zəfər deyil, həm də milli kimliyin, birliyin və şüurun möhkəmlənməsi baxımından əlamətdar hadisədir. Bu hadisənin məktəblərdə tarix dərslərində pedaqoji faktorların təsiri ilə şagirdlərə öyrədilməsi mühüm əhəmiyyət kəsb edir.

Bəs pisixoloji faktor dedikdə nə başa düşülür? Psixoloji faktorlar dedikdə şagirdlərin öyrənmə motivasiyası, emosional mühit, diqqət və hafizə qabiliyyətini gücləndirən, həmçinin dərs prosesində müsbət münasibət yaradan psixoloji mexanizmlər başa düşülür. Pedaqoqların fikrincə bu faktorlar şagirdlərin dərs prosesində fəallığını, mövzunu mənimsəmə dərəcəsini və gələcəkdə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

həmin bilikləri praktikada tətbiq edə bilməsini müəyyənləşdirir (Kazımov, 2020, s. 34).

Müasir təhsil sistemində tarix dərslərinin tədrisinin məqsədi yalnız faktların öyrədilməsi ilə məhdudlaşmır, həm də şagirdlərin şəxsiyyət kimi formalaşmsını, onların milli-mənəvi dəyərlərə bağlılığının möhkəmlənməsinə xidmət edir. Bu prosesdə müəllimin seçdiyi metodlar, yaratdığı psixoloji və şagirdlərə verdiyi motivasiya həlledici rol oynayır. Bu baxımdan psixoloji faktorların dərs prosesinə təsiri xüsusi əhəmiyyət kəsb edir (Əliyev, 2020, s. 23).

Tarix dərslərində psixoloji faktorların (travma, kollektiv yaddaş, patriotik identifikasiya, emosional reaktivlik və s.) rolundan və əhəmiyyətindən danışarkən, ilk olaraq şagird motivasiyasını qeyd etmək lazımdır. Motivasiya tarix dərslə-rində şagirdlərin dərsə marağını və öyrənmə həvəsini artıran əsas psixoloji amildir. Müəllim keçmiş hadisələri şagirdlərin gündəlik həyat təcrübəsi ilə əlaqələndirdikdə, onlar daha maraqlı və yaddaqalan olur.

Motivasiya tarix dərslərininin uğur qazanmasında həlledici rol oynayır. Şagird yalnız faktları əzbərləmir, həmin faktların onun həyatı ilə necə əlaqəli olduğunu dərk etməklə dərsdə fəal iştirak edir. Məsələn, “44 günlük Vətən müharibəsi” mövzusunun tədrisində müəllim hadisələri sadəcə xronoloji ardıcıllıqla izah etməklə kifayətlənərsə, şagirdlər bunu soyuq bir tarixi məlumat kimi qəbul edə bilərlər. Ancaq müəllim, müharibənin gedişatını, kənd və rayonlarımızın düşmən tapdağından azad olmasını, əsgərlərimizin qəhrəmanlığını, mülki əhalinin əsgərlərə göstərdikləri qayğı haqqında danışıb, sənədli filmlər əsasında mövzunu tədris etsə, bu, onların dərsə marağını daha da gücləndirər. Digər tərəfdən, müəllim şagirdlərin gündəlik həyat təcrübəsi ilə tarixi hadisələr arasınada körpü qurmalıdır. Məsələn II Qarabağ (Vətən müharibəsi) müharibəsində cəbhə bölgəsinə yaxın olsayıdınız bir vətəndaş kimi hansı məsuliyyətləri üzərinizə götürərdiniz? Belə suallar

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

şagirdlərdə motivasiyanı artırmaqla yanaşı, həmçinin onlarda vətəndaş məsuliyyəti hissini də inkişaf etdirər.

Psixoloqların fikrincə pedaqoji psixologiya dərsdə emo-sional zənginlik, müəllimin şagirdlərə düzgün psixoloji münasibəti öyrənmə nəticələrinə birbaşa təsir edir (Vəliyev, 2018, s. 45). Aydındır ki, tarix dərsləri yalnız faktların öyrədil-məsi deyil, həm də vətənpərvərlik tərbiyəsi, sosial dəyərlərin aşılanması baxımından mühüm funksiyaya malikdir. Burada pedaqoji faktorlar şagirdlərin diqqətini mövzunun mənəvi tərəfinə yönəldir. Məsələn, şəhidlərin qəhrəmanlığının tədrisi emosional faktorlarla gücləndirildikdə dərsin təsir gücü artır (Həsənov, 2021, s. 89).

Tarix dərslərinin psixoloji təsir gücünü artıran ən mühüm amillərdən biri də emosional mühitdir. Şagird dərs zamanı özünü güvənli və dəyərli hiss etdikdə, öyrənməyə can atır. Burada müəllimin səmimi münasibəti, şagirdlərin fikrirlərinin dinlənilməsi və müzakirələrdə onların iştirakını təşviq etməsi emosional mühiti gücləndirir (Hüseynova, 2019, s. 89).

Məsələn, "44 günlük Vətən müharibəsi" mövzusunun öyrədilməsi zamanı müəllim şagirdlərin fikirlərini dinləyir, onların fikrinə münasibətin bildirir. Müəllim dərsin daha emosional mühit yaratmaq üçün təkcə faktları sadalamaqla kifayətlənməməlidir. O, müharibəyə aid foto şəkillərdən, şahidlərin xatirələrindən və ya sənədli filmlərdən istifadə edərsə dərsin şagirdlərə emosional təsirini daha da artırır. Bu cür dərsdə şagirdlər yalnız məlumat əldə etmir, həm də empatiya hissi formalaşdırır, milli kimliyinə daha dərindən bağlanır. Bununla yanaşı, tarix dərslərinin emosional mühiti eyni zamanda şagirdlərin dərs prosesində fəal iştirakını stimullaşdırır. Tədqiqatçıların fikrincə emosional zəngin mühitdə şagirdlərin həm intellaktual, həm də mənəvi inkişafı təmin olunur (Hüseynova, 2019, s. 89). Bununla yanaşı, tarix dərsləri milli kimliyin qorunmasında mühüm vasitədir. Müəllim şagirdlərə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

psixoloji yanaşma ilə vətənpərvərlik, fədakarlıq, milli-mənəvi dəyərlərə hörmət kimi keyfiyyətlərin formalaşmasına nail olur.

Qeyd edə bilərik ki, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi şagirdlər üçün güclü psixoloji motivasiya mənbəyidir. Tarix dərslərində bu hadisələrin müəllim tərəfindən emosional və psixoloji aspektdə öyrədilməsi onların milli şüuruna bir başa təsir edir.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının yaddaşına qalibiyyət, qürur və milli birlik simvolu kimi daxil olmuşdur. Bu mövzunun tədrisi şagirdlərin milli-mənəvi dəyərlərinin möhkəmlənməsində mühüm əhəmiyyət daşıyır. Məktəblilərə şəhidlərin qəhrəmanlığı, döyüşlərin gedişi, qazanılan qələbə faktlarla yanaşı, pedaqoji yanaşma ilə çatdırıldıqda onların dərslərə münasibəti daha da fəallaşır (Kazımov, 2020, s. 112).

Psixoloji atmosfer pedaqoji faktorların əsas istiqamətlərindən biridir. Müəllimin dərs zamanı yaratdığı emosional-psixoloji mühit şagirdlərin diqqətini toplamağa, mövzunu dərindən dərk etməyə imkan yaradır. Xüsusilə, 44 günlük Vətən müharibəsi ilə bağlı dərslərdə emosional faktorlar daha güclü olur, çünki bu mövzu hər bir şagirdin ailəsinə, cəmiyyətinə toxunur (Əliyev, 2022, s. 56).

Vətən müharibəsinin tədrisi zamanı pedaqoji faktorların təsiri ilə şagirdlərdə vətənpərvərlik hissləri güclənir. Dərslərdə şəhidlərin xatirəsinə hörmət, qazilərin fədakarlığı, xalqın birliyi xüsusi vurğulandıqda gənclərdə milli kimlik şüuru möhkəmlənir (Həsənov, 2021, s. 94).

44 günlük Vətən müharibəsi mövzusu yalnız ənənəvi mühazirə ilə deyil, həm də innovativ metodlarla tədris olunmalıdır. Debat, diskussiya, layihə işləri, sənədli filmlərə baxış kimi metodlar pedaqoji faktorların təsirini gücləndirir. Bu zaman şagirdlər yalnız dinləyici deyil, həm də aktiv iştirakçıya çevrilirlər (Əlizadə, 2018, s. 78).

Pedaqoji faktorların düzgün tətbiqi nəticəsində şagirdlər dərs prosesində daha fəal olur, öz fikirlərini sərbəst şəkildə ifadə etməyə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

başlayırlar. 44 günlük Vətən müharibəsi mövzusunun müzakirəsi zamanı şagirdlərin suallar verməsi, öz ailə nü-munələrini çəkməsi dərsin effektivliyini artırır (Əliyev, 2022, s. 64).

Nəticələr:

1. Tarix dərslərində pedaqoji faktorların tətbiqi şagirdlərin milli-mənəvi dəyərlərə bağlılığını gücləndirir.
2. 44 günlük Vətən müharibəsinin tədrisi emosional, motivasion və psixoloji baxımdan böyük təsirə malikdir.
3. Müasir təlim metodları pedaqoji faktorların effektivliyini artırır.

Təkliflər:

Tarix dərslərində 44 günlük Vətən müharibəsi mövzusuna xüsusi dərslik və metodik vəsaitlər hazırlanmalıdır.

Pedaqoji faktorların tətbiqi zamanı emosional-psixoloji mühitə daha çox diqqət edilməlidir.

Şagirdlərin aktiv iştirakını təmin edən interaktiv metodlara üstünlük verilməlidir.

## Ədəbiyyat

1. Ahmadov, T. (2021). *The 44-day Patriotic War and education*. Elm.
2. Aliyev, F. (2020). *Issues of pedagogy and psychology*. Elm.
3. Guliyeva, A. (2021). Motivation factors in history lessons. *Azerbaijan School Journal, (2)*, 67.
4. Huseynova, S. (2019). *The role of teaching in the emotional development of students*. Maarif.
5. Mammadov, E. (2022). Formation of national and moral values in history teaching. *Education and Time, (1)*, 31.
6. Sadiqova, L. (2023). Application of modern teaching technologies. *Pedagogical Research*, 7.
7. Valiyev, R. (2018). *Pedagogical psychology*. Tehsil.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 220-223
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 220-223
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Ayxan Hüseynli**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0000-0002-3040-7333
aykhanhuseynli@nmi.edu.az

# Kiçikyaşlı məktəblilərdə nitq qüsurlarında pedaqoji prosesə psixoloji təsir faktorları və korreksiya işlərinin həyata keçirilməsi

***Açar sözlər:*** *nitq fəaliyyəti, savad təlimi, düyünlü törəmə, tələffüz qüsurları, pedaqoji proses, xüsusi təlim*

***Keywords:*** *speech activity, literacy training, knotted derivative, pronunciation disorders, pedagogical process, special training*

Müasir psixologiyada, uşaq nitqinin inkişafı üç mərhələyə ayrılır: Birinci mərhələ nitqə yiyələnmədən əvvəl gələn, təxminən iki aydan on bir aya qədər olan dövrü əhatə edir. Nitqə qədərki mərhələ qığıldama, tək-tək hecaları işlətmə (kəkələmə) dövrünü əhatə edir.

İkinci mərhələ, on bir aydan təxminən bir yaş yeddi aya qədərki dövr, dilin ilkin mənimsənilməsi dövrü adlanır.

Üçüncü mərhələ dilin qrammatik quruluşuna yiyələnmək mərhələsi adlanır. Bu mərhələ 1-3 yaşına qədərki dövrü əhatə edir.

Böyük məktəbəqədər və məktəbyaşı dövrü nitq fəaliyyətinin daha da mürəkkəbləşməsi və fəallaşması dövrüdür. Məktəbdə ana dili kursunun mühüm vəzifələrindən biri, uşaqda öz nitqinə və onu təşkil edən dil ünsürlərinə şüurlu və ixtiyari münasibət aşılamaqdan ibarətdir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Psixoloji tədqiqatlara istinadən, müasir savad təlimi metodikası məhz, uşaqda nitqin sərbəst səs təhlili bacarığını təşəkkül etdirməyi, bu cür təlimin əsası kimi irəli sürür.

Göstərmək lazımdır ki, nitqin müxtəlif komponentləri nitq fəaliyyətinin bu və digər tərəflərinə eyni cür təsir etmir. Bu təsirin seçiciliyi pedaqoji prosesi qənaətlə və məqsədyönlü şəkildə aparmağa, əsas və ikinci dərəcəli effektləri fərqləndirməyə imkan verir. Uşaqlarda nitq qüsurlarının aradan qaldırılması və qarşısının alınması mütləq nitq proseslərinin bir çoxunun normal gedişinə təsir edən düyünlü törəmələrə yönəldilməlidir. Düyünlü törəmələrə sözün səs təhlili misal ola bilər. İşin məqsədinə görə, səs təhlili fəaliyyət olub, bir tərəfdən şifahi nitqin yazılı formasını, digər tərəfdən isə nitqin məna və fonetik tərəfini əlaqələndirir.

Xüsusi təlim prosesində sözün səs tərkibinə yiyələnmə düzgün səs tələffüzünün formalaşmasına, oxu və yazı, eləcə də leksik və qrammatik mənaların dəqiqləşməsinə kömək edir. Düyünlü törəmələrə misal kimi, nitqin başa düşülməsini göstərmək olar.

Nitqin anlaşılmaması, nitqin qavranılmaması və onunla əməli istifadənin arasındakı qarşılıqlı fəaliyyətin kifayət qədər olmamasının nəticəsidir. Beləliklə, nitq qüsurlarına psixoloji cəhətdən yanaşılmasının əsas göstəricisi odur ki, bütün psixi proseslər nitqlə əlaqəlidir. Məhz, bu yanaşma təcrübədə digər təsirin olmasını, pedaqoji təsiri şərtləndirir.

Qeyd etmək lazımdır ki, uşağın nitqinin pozulamsı onun inkişafının böhranlı mərhələlərində 1 yaşla – 2 yaş arasında, 3 yaşında və ya 6-7 yaşlarında baş verə bilər (Dostuzade, Sadiqov, 2017, s. 13).

Tədqiqatlar göstərir ki, korreksiya işinin daha səmərəli təşkili üçün həm tibbi, həm də psixoloji-pedaqoji cəhətdən nitq

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

qüsurlarına yanaşmaq lazımdır, yəni onların birgə təsirindən istifadə etmək daha məqsədəuyğundur.

Uşaqların çox böyük hissəsində tələffüz qüsurları nitqin digər tərəflərinə mənfi təsir göstərməyərək, təkcə bir müstəqil qüsur kimi özünü göstərir və tədris materialının mənimsənilməsində heç bir çətinlik yaratmır. Tədqiqatlardan göründüyü kimi, belə uşaqlar loqopedik kömək olmadan da, ötüşür və kütləvi məktəblərin ibtidai siniflərində oxuyur, dərs materialını müvəffəqiyyətlə mənimsəyirlər.

Göstərmək lazımdır ki, nitqi qüsurlu uşaqların pedaqoji və psixoloji cəhətdən öyrənilməsi prosesinə linqvistika elminin də cəlb edilməsinin böyük əhəmiyyəti vardır. Bu elmlərin birgə tətbiqi nəticəsində, loqoped - müəllim korreksiya təlimini düzgün istiqamətləndirə bilər, həmçinin onun məzmun, həcm və mütərəqqi metodlardan istifadə imkanlarını genişləndirməyə şərait yaradır. Nitqi qüsur uşaqda kiçik və ya məktəbəqədər yaşda aşkar edilirsə, erkən tibbi və pedaqoji korreksiya onun məktəbdə mükəmməl təhsil almaq imkanını əhəmiyyətli dərəcədə artıra bilər (Dostuzadə, Sadiqov, 2017, s. 14).

Loqopedik məşğələlərdə keçirilən nitq materialının şüurlu aparılması, xüsusi təlimin yüksək inkişaf edən müvəffəqiyyətinə səbəb olur. Nitqin bu və ya digər qüsurlarından əziyyət çəkən uşaqların təlim - tərbiyəsi xüsusi ilə vacibdir. Nitq qüsurlarının korreksiya işi loqopeddən, həm də uşağa pedaqoji təsirin vasitəsi və üsullarını da bilməyi tələb edir. İdrak proseslərinə nisbətən, pedaqoji təsirin özünəməxsus cəhətlərinin olması nəticəsində, nitq vasitəsilə aşağıdakı kimi formalaşır.

Qavrama pedaqoji prosesdə nitqi qüsurlu şagirdlərin verilən nitq materialını kəsb etməsi deməkdir. Verilmiş bu və ya digər söz, ifadə və cümlələri qavramaq, onları hafizələrində saxlamaq və faktla əlaqədar onları həyatda əməli olaraq istifadə etmək pedaqoji təsirin əsas xüsusiyyətlərindən biridir. 5 yaşında uşaq

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

öyrənməyə açıqdır. Dərketməsi daha da inkişaf edir, diqqətin, yaddaşın, nitqin, qavramanın, təfəkkürün inkişafı sürətlə gedir (Mardanova, 2020, s. 80-81).

Anlama zamanı loqoped şagirdlərə əşya və hadisələrə istinad edərək, əlaqədar qanunauyğunluqlar, qanunlar, qaydalar haqqında məlumat verir və şagirdin təfəkkür əməliyyatına istiqamət verməklə, onları əməli olaraq istifadə etməyi öyrədir. Müəllim tərəfindən verilən hər düşünülmüş sual, öyrənənləri sistemli öyrənməyə və dərindən anlamağa sövq etməlidir (Sadiqov, 2018, s. 276).

Möhkəmlətmədə məqsəd qavrama və anlama prosesində qazanılmış bilikləri, şagirdlərin hafizəsində uzun müddət saxlamasını təmin etməkdən ibarətdir. Müxtəlif nitq materialının öyrənilməsi ilə bağlı təmrinlərin, çalışma və tapşırıqlarının yerinə yetirilməsi tətbiq etmənin ən bariz nümunəsidir. Bu baxımdan loqopediya pedaqoji elmlər sisteminə aid olub, nitqi qüsurlu uşaqların xüsusi metod və üsullarla təlim - tərbiyəsini öyrənir.

Beləliklə, yalnız əsas idrak proseslərinin (qavrayış, təfəkkür və təxəyyül) formalaşmasında dilin və nitqin oynadığı müstəsna rolu anlamaqla, onların psixoloji xarakteristikasını vermək olar. Bu və ya digər səbəblərdən yaranmış nitq qüsurlarının təbiətini başa düşməyə və onları düzgün korreksiya etməyə imkan yaradır.

## Ədəbiyyat

1. Dostuzade, D. A., & Sadiqov, F. B. (2017). *Dysarthria: Textbook*. ADPU.
2. Mardanova, R. N. (2020). *Every child has their own world: Know me, understand me, and love me. Child psychology*. Sharq-Qarb.
3. Sadiqov, F. B. (2018). *General pedagogy*. Maarif.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 224-227
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 224-227
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Fatimə Kazımova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0007-3412-0755
fatimekazimova@nmi.edu.az
**Gülmirə Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-8172-4512
gulmiraaliyeva@nmi.edu.az

# Şəxsiyyət tiplərinin xarici dilin öyrənilməsinə təsiri məsələləri

***Açar sözlər:*** *şəxsiyyət tipləri, xarici dil, introvert, ekstrovert, özünəinam*

***Keywords:*** *personality types, foreign language, introvert, extrovert, self -confidence*

Xarici dilin mənimsənilməsi müxtəlif koqnitiv, emosional, sosial və ətraf mühit amillərinin təsiri altında olan mürəkkəb bir prosesdir. Bunların arasında şəxsiyyət dil öyrənmə nəticələrinə təsir edən davamlı, lakin mürəkkəb dəyişən kimi seçilir. İkinci dilin mənimsənilməsində ənənəvi nəzəriyyələr əsasən daxiletmə, çıxış və qarşılıqlı əlaqə üzərində cəmlənsə də, son tədqiqatlar öyrənənlərin necə və nə üçün uğur qazandığını və ya yeni dil öyrənməkdə çətinliklərlə üzləşdiyini formalaşdırmaqda fərdi öyrənən fərqlərinin, xüsusilə də şəxsiyyət xüsusiyyətlərinin əhəmiyyətini vurğulayır. Şəxsiyyət xüsusiyyətləri öyrənənlərin məlumatı necə emal etməsinə, rəylərə reaksiya verməsinə, sinifdə qarşılıqlı əlaqəyə girməsinə və zamanla motivasiyanı qorumasına təsir göstərir.

Şəxsiyyət növlərinin xarici dil öyrənməsinə necə təsir etdiyini anlamaq üçün tətbiqi dilçilik, təhsil psixologiyası və

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

koqnitiv elmdən əldə edilən fikirləri birləşdirən multidissiplinar yanaşma tələb olunur. Ekstraversiya, xüsusilə ikinci dil öyrənmə tədqiqatlarında əhəmiyyətli dərəcədə diqqəti cəlb etmişdir. Ekstravert öyrənənlər tez-tez daha çox şifahi rəvanlıq və kommunikativ səriştə nümayiş etdirirlər, çünki onlar sinifdə qarşılıqlı əlaqədə daha fəal iştirak etməyə, söhbətləri başlatmağa və dil riskini götürməyə meyllidirlər. Əksinə, introvert öyrənənlər kommunikativ tapşırıqlar zamanı daha təmkinli və ya tərəddüdlü görünə bilər; lakin bu, qabiliyyətin çatışmazlığından xəbər vermir. İntrovertlər dərin koqnitiv iştirakın faydalı olduğu oxunu anlama, yazmaq və əks etdirən dil emalı kimi sahələrdə üstün ola bilər. Eyni şəkildə, təcrübəyə açıqlığı yüksək olan öyrənənlər həm dil, həm də mədəniyyətlərarası bacarıqları artıra biləcək yeni dil strukturlarını və mədəni normaları tədqiq etməyə daha çox həvəslidirlər. Əsas odur ki, şəxsiyyət xüsusiyyətləri də dil öyrənmə strategiyalarının formalaşmasında həlledici rol oynayır. Oksfordun (1990) araşdırması göstərir ki, öyrənənlər öz şəxsiyyətlərindən asılı olaraq müxtəlif koqnitiv və metakoqnitiv strategiyalardan istifadə edirlər. Ekstravertlər tez-tez söhbət tərəfdaşları axtarmaq və ya qrup müzakirələrində iştirak etmək kimi sosial strategiyaya meyllidirlər. Onların sosial qarşılıqlı əlaqədə olan rahatlığı onlara daha tez-tez danışıq və dinləmə təcrübəsinə imkan verir. Digər tərəfdən, introvertlər məlumatı təşkil etmək, mətnləri tərcümə etmək və öyrənmə prosesinə öz-özünə nəzarət etmək kimi koqnitiv və metakoqnitiv strategiyaları qəbul etməyə meyllidirlər.

Hər iki yanaşma uğurlu dil mənimsənilməsinə səbəb ola bilsə də, strategiyanın effektivliyi çox vaxt onun şagirdin şəxsiyyətinə və öyrənmə kontekstinə uyğun olub-olmamasından asılıdır. Sinif dinamikası eyni şəkildə şagirdlərin şəxsiyyət tərkibinə də təsir edir. Qarşılıqlı əlaqə və şifahi rəvanlığa üstünlük verən kommunikativ siniflərdə ekstravert tələbələr

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 224-227
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 224-227
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

müzakirələrdə üstünlük təşkil edə və qrup işi zamanı liderlik rollarını öhdələrinə götürə bilərlər. Onların fəal iştirakı öyrənmə mühitinə fayda versə də, güclü tərəfləri introspektiv və ya yazılı tapşırıqlarda olan daha sakit tələbələri təsadüfən kənarlaşdıra bilər. Əgər müəllimlər şüurlu şəkildə inklüziv fəaliyyətlər planlaşdırmırlarsa, introvert tələbələr geri çəkilə və ya zəif nəticə göstərə bilərlər. Mədəni kontekst şəxsiyyət və dil öyrənmə arasındakı qarşılıqlı əlaqəni daha da çətinləşdirir. Şəxsiyyət müəyyən dərəcədə sosial şəkildə qurulmmalıdır. Bir mədəniyyətdə ekstravert hesab edilən davranışlar başqa bir mədəniyyətdə neytral və ya hətta introvert kimi şərh edilə bilər. Məsələn, Şərqi Asiya tələbələri dinləmə və təvazökarlığı vurğulayan mədəni normalara görə çox vaxt daha introvert kimi qəbul edilirlər. Bununla belə, eyni tələbələr daha az görünən üsullarla yüksək səviyyədə məşğulluq və idrak emal nümayiş etdirə bilərlər. Buna görə də müəllimlər şəxsiyyət xüsusiyyətlərini şərh edərkən ehtiyatlı olmalıdırlar.

Şəxsiyyət tipologiyalarının verdiyi dəyərli anlayışlara baxmayaraq, bir sıra problemlər qalmaqdadır. Şəxsiyyəti dəqiq qiymətləndirmək həmişə asan olmur. Bundan əlavə, şəxsiyyət etiketlərinə əsaslanan tələbələri həddindən artıq ümumiləşdirmə və ya stereotipləşdirmə riski var ki, bu da onların öyrənmə potensialını məhdudlaşdıra bilər. Müəllimlər şəxsiyyətə zamanla inkişaf edən və təhsil təcrübələri, emosional inkişaf və sosial qarşılıqlı əlaqə ilə formalaşan maye və dinamik bir quruluş kimi baxmalıdırlar. Müəllimlərin müxtəlif şəxsiyyət tiplərinə uyğun olaraq öz metod və materiallarını dəyişdiyi diferensiallaşdırılmış təlim inklüziv dil təhsilində effektivliyini sübut etmişdir. Həm fəal şifahi məşğuliyyəti, həm də səssiz düşüncəni özündə cəmləşdirən balanslaşdırılmış sinif mühiti yaratmaqla müəllimlər bütün tələbələrə öz güclü tərəflərinə uyğun şəkildə iştirak etmək imkanı verə bilərlər. Ümumilikdə, şəxsiyyət dil

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

öyrənmədə sadəcə əsas faktor deyil, o, öyrənənin səyahətinin hər aspekti ilə qarşılıqlı əlaqədə olan mərkəzi formalaşdıran qüvvədir. Şəxsiyyət fərqlərinin tanınması və hörmət edilməsi daha effektiv, ədalətli və emosional cəhətdən ağıllı dil təliminə yol aça bilər.

Müəllimlər və kurrikulum tərtibatçıları tələbələri onların şəxsiyyətləri ilə ziddiyyət təşkil edən öyrənmə üslublarına məcbur etməkdən çəkinməli, əvəzində bütün şagirdlərin uyğunlaşa və uğur qazana biləcəyi mühitlər yaratmalıdırlar. Gələcək tədqiqatlar davamlı dil öyrənmə ilə şəxsiyyət xüsusiyyətlərinin zamanla necə dəyişdiyini və onların motivasiya və idrak amilləri ilə necə qarşılıqlı əlaqədə olduğunu müşahidə edən uzunmüddətli tədqiqatlara diqqət yetirməlidir. Nəhayət, dil sinfində şəxsiyyətlərin müxtəlifliyini başa düşmək müəllimlərə hamıya uyğun bir yanaşmadan daha uyğunlaşa bilən, əhatəli və effektiv təlimə keçməyə kömək edir. Şəxsiyyəti maneə deyil, bir aktiv kimi dəyərləndirməklə, biz təkcə dil bacarıqlarını deyil, həm də öyrənəni şəxsiyyətini və özünə inamını inkişaf etdirən daha çox insan mərkəzli dil təhsilini təşviq edə bilərik.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 228-231
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 228-231
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nüşabə Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0009-6426-0243
nushabamammadova@gmail.com

# Təhsildə psixoloji xidmətlə əlaqədar aparılan işlərin xüsusiyyətləri

***Açar sözlər:*** *şagird, müəllim, məktəb psixoloqu, psixoloji xidmət, təhsil sistemi*
***Keywords:*** *student, teacher, school psychologist, psychological service, education system*

Təhsil sistemində psixoloji xidmət cəmiyyətinin inkişafının müasir mərhələsində və perspektivdə ən zəruri komponentlərindən biridir. Onun tətbiqinin məqsədəmüvafiqliyi hər bir uşağın fərdi xüsusiyyətlərinin, həyata yaradıcı münasibətinin inkişaf etdirilməsi tələbatı ilə müəyyənləşdirilir.

Müasir dövrdə bu vəzifələrin yerinə yetirilməsində təhsil sistemi xeyli çətinliklərlə qarşılaşır. Bu çətinliklərin yaranmasının başlıca səbəblərindən biri təlim və tərbiyə proseslərinin uşağın inkişafı, onun şəxsiyyətinin formalaşması haqqında mövcud biliklər kompleksinə zəif istinad edilməsi ilə əlaqədardır.

Lakin, bu gün bu sahədə yaranan çətinliklər məktəb psixoloqları tərəfindən aradan qaldırılmağa çalışılır.Psixoloji xidmətin məqsədi hər bir şagirdin maksimum əqli və şəxsi inkişafına töhfə verən psixoloji şəraitin təmin edilməsidir. Psixoloji xidmətin təşkilinin əsas prinsipi ardıcıllıqdır, yəni, psixoloq bütün 5 funksiyanı həyata keçirməli və bunu sistemli şəkildə yerinə yetirməlidir.Məktəbdə psixoloqun uğurlu işi pedaqoji problemlərin optimal həllinə şərait yaradır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Praktik psixoloqun fəaliyyətinin ən mühüm, həm də mürəkkəb sahələrindən biri psixodiaqnostik iş adlanır. "Əsasnamə"də psixodiaqnostika üzrə aparılan işlərin sistemi verilmiş, bu istiqamətdə aparılacaq işlərin qarşısında konkret olaraq aşağıdakı vəzifələr qoyulmuşdur:

- zəruri hallarda uşağın psixi inkişafının gedişini, inkişafın yaş normativlərinə müvafiqliyini diaqnostik müayinə metodları vasitəsilə müəyyən etmək;
- tərbiyə işi prosesində fərdi yanaşmanı təmin etmək, şagirdlərin peşə və şəxsiyyət yönümündə özünütəyinətmə imkanlarının inkişafına kömək göstərmək, onların maraq, meyl və qabiliyyətlərinin inkişaf səviyyəsini aşkara çıxarmaq;
- uşaqların yaşlılar və yaşıdları ilə ünsiyyətinin diaqnostikasını aparmaq, ünsiyyət pozulmalarının psixoloji səbəblərini müəyyənləşdirmək;
- müvafiq profilli mütəxəssislərlə birlikdə tibbi və defektoloji təbiətə malik pozğunluqların müəyyənləşdirilməsi;
- sosial davranış xarakterli pozğunluqların forma və səbəblərinin müəyyənləşdirilməsi, psixi inkişafda özünü göstərən müxtəlif kənaraçıxma hallarının diferensial diaqnostikasının həyata keçirilməsi (Çələbiyev, 2009, s. 87-88).

Praktik psixoloq təhsil prosesində mühüm rol oynayaraq müəllimlər, valideynlər və şagirdlərlə psixoprofilaktik işlər həyata keçirir. Praktik psixoloq məktəb mühitində psixoloji sağlamlığın qorunması və sosial-emosional rifahın təmin edilməsi barədə valideynlərə, müəllimlərə məlumat və məsləhətlər verir. Müasir təhsil mühitində psixoloji rifahın təmin edilməsi şagirdlərin akademik uğurlarına, müəllimlərin peşəkar fəaliyyətinə və valideyn-məktəb əməkdaşlığının səmərəliliyinə birbaşa təsir edir. Bu baxımdan, məktəb psixoloqunun profilaktik fəaliyyəti psixoloji problemlərin erkən mərhələdə aşkarlanması və həllinə yönəlmiş mühüm vasitələrdən biridir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 228-231
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 228-231
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Psixoprafilaktik istiqamətdə iş aparan psixoloq aşağıdakı konkret tədbirləri həyata keçirir:

-müəllim və şagirdlər arasında pedaqoji-psixoloji bilikləri təbliğ edir;

-psixologiya üzrə dərnək, yaxud maraq kursu təşkil edir və ona rəhbərlik edir;

-şagirdlərin şəxsiyyətinə mənfi təsir edən zərərli mənbə- ləri aşkara çıxarır, pedaqoji kollektiv üçün onların təc- rid edilməsi və ya neytrallaşdırmasına yönəlmiş tövsi- yələr hazırlayır;

-qayğıdan kənarda qalmış, qabiliyyətli olan baxımsız uşaqları aşkara çıxarır, onların inkişafı məqsədilə müəllimlər üçün fərdi planlar tərtib edir;

-sinif rəhbərlərinə, tərbiyəçilərə məsləhətlərlə psixoloji yardım göstərir, şagirdlər arasında alkoqolizm, narkomaniya, toksikomaniya və s. kimi neqativ halların genişlənməsi təhlükəsinin qarşısını almaq üçün zəruri iş aparır, pedaqoji şuraya təkliflər hazırlayır (Nuriyev, İbrahimova, 2016, s. 165).

Təhsil müəssisəsində psixokorreksiya işi uşağın inkişafındakı çatışmazlıqların və sapmaların düzəldilməsi və ya qarşısının alınmasını nəzərdə tutan psixoloji və pedaqoji təsirlərin məcmusudur.

Psixoloji-pedaqoji korreksiya, yaş, sosial-mədəni və fərdi inkişaf normalarını bilməyə əsaslanan uşağın zehni inkişaf pozğunluqlarının idarə edilməsi məqsədi ilə psixoloji təsirlər sisteminə əsaslanan müəllim, psixoloq və valideynlərin birgə peşə fəaliyyətinin bir formasıdır. İslah işləri həm təhsil müəssisələrində, həm də ailədə hər bir uşağın tam zehni inkişafı üçün şərait yaratmağa yönəlmişdir. Psixoloq uşağın zehni inkişaf qanunlarını böyüklər ilə əməkdaşlıqda həyata keçirilən aktiv bir proses kimi rəhbər tutur. Bu proses yaşın quruluşu və dinamikası, yaşla əlaqəli neoplazmaların formalaşmasında fəaliyyət nəzəriyyəsi, müəyyən bir uşağın inkişafının sosial-

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

mədəni vəziyyəti haqqında psixoloji məlumatlar əldə etməkdən ibarətdir.

Psixoloji-pedaqoji korreksiya zamanı yaş norması ilə münasibətdə zehni inkişaf səviyyəsinin düzəldilməsi; məktəbə və məktəb tələblərinə psixoloji uyğunlaşma çətinliklərinin aradan qaldırılması; məktəbdə oxumaq üçün aşağı motivasiyanın düzəldilməsi; fərdi inkişafın mənfi cəhətlərindəki dəyişikliklər; həmyaşıdları, müəllimləri, valideynləri ilə ünsiyyət və qarşılıqlı təsir problemlərinin aradan qaldırılması da qeyd olunmuşdur.

Korreksiyaedici işin vəzifələri yalnız diaqnostik müayinə, proksimal inkişaf zonasının qiymətləndirilməsi və uşağı zehni inkişafın daha yüksək səviyyəsinə qaldırmaq üçün tətbiq olunan korreksiya və pedaqoji vasitələr əsasında təyin edilə bilər.

## Ədəbiyyat

1. Çələbiyev, N. Z. (2009). *Təhsil sistemində psixoloji xidmət*.
2. Nuriyev, S. Ş., & İbrahimova, D. R. (2016). *Təhsildə sosial-psixoloji xidmət* (dərs vəsaiti).

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 232-235
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 232-235
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Aygün Əsgərova**
Naxçıvan, Azərbaycan
https://orcid.org/0009-0006-0809-1906
aygun.askerova1989@gmail.com
**Ayşən İmanlı**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0008-2209-8201
ayshan_imanli@hotmail.com

# Müəllim-şagird münasibətlərinin dil bacarıqlarının mənimsənilməsinə təsiri məsələləri

***Açar sözlər:*** *müəllim, şagird, hədəf dil, motivasiya, qarşılıqlı münasibət*
***Keywords:*** *teacher, student, target language, motivation, mutual relationship*

Xarici dilin tədrisində müəllim-şagird münasibətlərinin əhəmiyyəti öyrənənlərin dil bacarıqlarının və ümumi iştirakının formalaşmasında əsas amilə çevrilmişdir. Ənənəvi tədris metodları kurrikuluma və təlimata diqqət yetirsə də, cari tədqiqatlar sinifdə şəxsiyyətlərarası dinamikanın vacibliyini getdikcə daha çox vurğulayır. Dil bacarıqlarını (dinləmə, danışma, oxuma və yazma) əldə edərkən müəllim və şagird arasındakı qarşılıqlı əlaqənin keyfiyyəti öyrənməyə ya dəstək verə, ya da ona mane ola bilər. Müsbət əlaqələr motivasiyanı artırır, narahatlığı azaldır və risk etməyi və davamlı iştiraka təşviq edən dəstəkləyici mühiti gücləndirir. Digər tərəfdən, gərgin və ya laqeyd münasibətlər şagirdin özünə inamını zəiflədə və dil inkişafını ləngidə bilər.Sinif şəraitində dilin mənimsənilməsi əsasən qrammatik tapşırıqların həll edilməsi və lüğət siyahısının əzbər

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 232-235
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 232-235
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

öyrənilməsindən ibarət olur. Bu əsas etibarı ilə sosial və psixoloji addım olsa da, burada insanların qarşılıqlı əlaqəsi mühüm rol oynayır. Ən əhəmiyyətli qarşılıqlı əlaqə arasında müəllim və şagird arasındakı əlaqədir. Bu əlaqə təkcə öyrənənin motivasiyasına və ünsiyyət qurmaq istəyinə deyil, həm də onların özünə hörmətinə, dillə bağlı narahatlıq və tərəddüd etmə səviyyələrinə və risk etmək qabiliyyətlərinə təsir edir. Tətbiqi dilçilik və təhsil psixologiyasında aparılan tədqiqatlar dil öyrənilməsində affektiv dəyişənlərin əhəmiyyətini getdikcə daha çox qəbul edir, lakin müəllim-şagird münasibətlərinin təsir göstərdiyi xüsusi mexanizmlərdaha dərin araşdırmatələb edən sahə olaraq qalır.

Viqotskinin sosio-mədəni nəzəriyyəsi öyrənmənin mahiyyətcə sosial olduğunu və ən təsirli şəkildə mənalı şəxsiyyətlərarası qarşılıqlı əlaqədə baş verdiyini iddia edir. Müəllim daha bilikli bir şəxs kimi, effektiv dil əldə etmək üçün əlaqə və emosional təhlükəsizliyin ilkin şərtlərini qoyaraq, yaxın inkişaf zonası daxilində öyrənənlərin inkişafına kömək edir. Krashenin “Affektiv filtr” fərziyyəsi dilin mənimsənilməsinin uğurunu müəyyən etməkdə emosional dəyişənlərin - motivasiya, narahatlıq və özünəinamın rolunu vurğulayır. Müsbət müəllim-şagird münasibəti affektiv filtri azaltmağa kömək edir, daxil olan məlumatların daha çox qəbul edilməsinə və işlənməsinə imkan verir. Öyrənənlər dəstək və dəyərli olduqlarını hiss etdikdə, onlar daha çox dil ilə məşğul olurlar və kommunikativ tapşırıqlarda fəal iştirak edirlər.Təhlükəsiz müəllim-şagird münasibətləri emosional sabitliyi təmin edir və daxili motivasiyanı artırır. Ryan və Decinin “Öz müqəddəratını müəyyənetmə nəzəriyyəsi” üç əsas psixoloji ehtiyacdan biri olan əlaqənin motivasiya və akademik uğuru artırdığı fikrini daha da dəstəkləyir. Göz təması, açıq bədən dili, tələbə adlarından istifadə və fərdiləşdirilmiş rəy kimi müəllimin ani davranışları şagirdlərin artan əlaqəsi və dil təcrübəsi ilə güclü şəkildə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

bağlıdır. Şagirdlərin bu halda suallara cavab vermək inamı artır . Konstruktiv rəy, qayğıkeş münasibətdə verildikdə, tənqidi deyil, dəstəkləyici kimi qəbul edilir. Şagirdlər, müəllimlərinin onların tərəqqisinə əhəmiyyət verdiyinə inandıqları zaman düzəlişləri qəbul etməyə və təkmilləşməyə doğru üzərlərində işləməyə daha həvəsli olurlar. Qarşılıqlı hörmət, təşviq və inklüzivliklə xarakterizə olunan isti sinif mühiti emosional təhlükəsizliyi artırır. Bu təhlükəsizlik, xüsusilə şagirdlərin utanmaqdan qorxa bildiyi danışma və yazı tapşırıqlarında ünsiyyət riski götürmək üçün çox vacibdir.

Böyük siniflərdə fərdi diqqət çətinləşir və bu, müəllim-şagird əlaqələrini potensial olaraq zəiflədir. Şagirdlər müxtəlif mədəni və ya dil mənşəli müəllimlər və şagirdlər münasibətlərin qurulmasına təsir edən anlaşılmazlıqlarla üzləşə bilərlər. Emosional əmək - səbr, həvəs və empatiya nümayiş etdirmək səyi - institusional dəstək və peşəkar inkişaf olmadan vergi verə bilər. Müəllimlər münasibətlərin güclü və zəif tərəflərini müəyyən etmək üçün özünüqiymətləndirmədən və həmyaşıdların müşahidəsindən faydalana bilərlər. Reflektiv təcrübə qəsdən əlaqələr qurmağı təşviq edir. Mədəni cəhətdən cavab verən tədris həm də potensial mədəni uyğunsuzluqları minimuma endirir. Mükəmməllikdən daha çox səy və tərəqqini qeyd edən sinif etikasını həvəsləndirmək inam və möhkəmliyi artırır.

Güclü müəllim-şagird münasibətləri, xüsusən də şagirdlərin hədəf dilin çətinliklərini hiss edə biləcəyi və ya öz qabiliyyətlərinə inamsızlıq hiss edə biləcəyi mühitlərdə güclü motivasiya mənbəyi rolunu oynayır. Həqiqi qayğı göstərən, fərdiləşdirilmiş rəy təmin edən və öyrənən mərkəzli mühitlər yaradan müəllimlər tez-tez inkişaf etmiş akademik performans və daha çox şagird müstəqilliyini görürlər. Üstəlik, bu əlaqə faktorunun əhəmiyyəti anlaşılmazlıqlar və ya mədəni həssaslığın olmaması yanlış ünsiyyətə və əlaqənin kəsilməsinə səbəb ola biləcəyi

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 232-235
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 232-235
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

mədəni və linqvistik cəhətdən müxtəlif siniflərdə daha da artır. Dil öyrənmək düşüncələr, hisslər və sosial qarşılıqlı əlaqələr də daxil olmaqla bir çox amilləri əhatə edir. Bunların arasında müəllim-şagird münasibətlərinin keyfiyyəti tələbələrin dili nə dərəcədə yaxşı öyrənməsində həlledici rol oynayır. Psixoloji tədqiqatlar göstərir ki, müsbət, dəstəkləyici münasibətlər motivasiyanı artırır, narahatlığı azaldır və dil inkişafı üçün dəstəkləyici emosional mühit yaradır. Böyük siniflər, mədəni fərqlər və emosional tükənmə kimi problemlər münasibətləri çətinləşdirə bilsə də, əks etdirmə təcrübəsi, mədəni şüur və müsbət möhkəmləndirmə kimi qəsdən hərəkətlər bu maneələri dəf etməyə kömək edə bilər.

Ümumilikdə, güclü müəllim-şagird əlaqələrinin inkişafı XXI əsrdə effektiv və inklüziv dil təhsili üçün vacibdir.

Nəticə etibarilə, dilin mənimsənilməsində müəllim-şagird münasibətlərinin rolu şagirdin motivasiyasını formalaşdırdığı, emosional rifaha təsir etdiyi və idrak məşğuliyyətinə təsir göstərdiyi üçün həm dərin, həm də çoxşaxəlidir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Zeynab Abbaslı**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-2257-0373
zeynebabbasli1997@gmail.com

# Müasir təhsildə psixoloji yanaşmalar və rəqəmsal innovasiyalar: yeni nəsil tələbələrə doğru

***Açar sözlər:*** *müasir təhsil, psixoloji yanaşmalar, rəqəmsal innovasiyalar, yeni nəsil tələbələr fərdiləşdirilmiş öyrənmə*
***Keywords:*** *modern education, psychological approaches, digital innovations, new generation students, personalized learning*

Müasir təhsil sahəsi sürətlə dəyişən informasiya və texnologiya mühitinin təsiri altında fundamental transformasiyalar yaşayır. Bu transformasiyalar yalnız təhsil məzmunu və metodologiyasını deyil, həm də tələbələrin psixoloji xüsusiyyətlərini, öyrənmə davranışlarını və sosial münasibətlərini yenidən nəzərdən keçirməyi zəruri edir. "Yeni nəsil tələbələr" kimi adlandırılan Z və Alfa nəsli xüsusilə rəqəmsal dünyaya inteqrasiya olunmuş, multimedialı, sürətli və çoxmənbəli informasiya axınına uyğunlaşmış fərdlərdir. Bu nəsillərin psixoloji profili və öyrənmə tərzi müasir təhsildə tətbiq olunan ənənəvi yanaşmaların effektivliyini şübhə altına qoyur və yeni, innovativ, fərdiləşdirilmiş və texnologiya ilə sintez olunmuş təhsil strategiyalarının yaradılmasını tələb edir.

Yeni nəsil tələbələrin psixoloji xüsusiyyətləri diqqət yayını, informasiyanın sürətli emalı, yüksək vizuallıq tələbi, emosional dəyişkənlik və sosial medianın həyatdakı dominant rolu ilə xarakterizə olunur. Onlar çoxsaylı informasiya mənbələrindən eyni anda faydalanaraq paralel öyrənməyi üstün tuturlar, bu isə onların diqqət müddətini qısaldır və ənənəvi monoton tədris

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

formalarına qarşı marağın azalmasına səbəb olur. Eyni zamanda, bu tələbələr üçün təhsil prosesində emosional dəstək və özünüifadə imkanları önəmlidir, çünki onların psixoloji rifahı həm akademik uğurlara, həm də sosial inkişaflara birbaşa təsir göstərir. Bu kontekstdə, təhsil psixologiyası humanist, konstruktivist və sosial öyrənmə nəzəriyyələri əsasında formalaşan yeni yanaşmaları önə çəkir. Humanist psixologiya, xüsusilə Carl Rogers və Abraham Maslow-un nəzəriyyələri tələbənin özünüaktualizasiya potensialını, daxili motivasiyasını və emosional sağlamlığını ön planda tutur. Rogersin tələbə-mərkəzli təhsil modeli müəllim-tələbə münasibətlərində empatiya və şəffaflığı vurğulayır, təhsil prosesini daha insani və dəstəkləyici mühitə çevirir. Konstruktivist yanaşma isə tələbənin aktiv, tədqiqatçı mövqeyini və sosial qarşılıqlı əlaqələrin təhsildə rolunu əsas götürür. Lev Vygotsky-nin "ZPD" (Zone of Proximal Development) konsepti müəllimin dəstəyi ilə tələbənin bilik və bacarıqlarının potensial səviyyəyə çatdırılmasını mümkün edir, bu da fərdi öyrənmənin əsasıdır (Dede, 2016, s. 166).

Müasir təhsildə psixoloji yanaşmaların digər mühüm aspekti isə emosional zəkanın inkişaf etdirilməsidir. Daniel Goleman tərəfindən irəli sürülmüş emosional zəka modeli — özünüidarəetmə, empatiya, sosial bacarıqlar və streslə mübarizə — tələbələrin akademik uğuru ilə yanaşı, sosial uyğunlaşmasında da mühüm rol oynayır. Təhsil sistemlərində psixoloji sağlamlığın dəstəklənməsi və emosional zəka bacarıqlarının inkişaf etdirilməsi üçün proqramlar hazırlanır ki, bu da tələbələrin həm şəxsi, həm də kollektiv həyat keyfiyyətini yüksəldir (Greenhow, Robelia, & Hughes, 2019, s. 5).

Rəqəmsal innovasiyalar isə müasir psixoloji yanaşmalarla sintez olunaraq təhsil prosesinin strukturunu, məzmununu və metodlarını köklü şəkildə dəyişir. Virtual reallıq (VR) və

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 236-239
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 236-239
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

artırılmış reallıq (AR) kimi texnologiyalar tədrisi interaktiv və immersive edir, tələbələrin abstrakt anlayışları praktik, təcrübə əsasında mənimsəməsini təmin edir. Süni intellekt (AI) əsasında qurulan adaptiv öyrənmə platformaları tələbənin fərdi ehtiyaclarına və öyrənmə sürətinə uyğun məzmun təklif edir, öyrənmə motivasiyasını yüksəldir və təkrarlanan testlərlə tələbənin zəif tərəflərini aşkarlayaraq ona xüsusi diqqət yetirir. Onlayn təhsil resursları və interaktiv simulyasiyalar isə coğrafi və sosial məhdudiyyətləri aradan qaldırır, inklüzivliyi artırır və təhsil imkanlarını demokratikləşdirir (Molenaar, Chiu, Sleegers, & Van Boxtel, 2019, s. 282).

Bütün bu texnoloji vasitələr tələbənin psixoloji ehtiyaclarını da qarşılayır: məsələn, VR ilə qurulan stress idarəetmə modulları tələbələrin psixoloji rahatlığını təmin edir; sosial media inteqrasiyası sosial əlaqələrin qurulmasına və kollaborativ öyrənməyə dəstək olur; AI tədris köməkçiləri tələbələrə anında fərdi dəstək göstərir. Beləliklə, rəqəmsal innovasiyalar yalnız texniki vasitələr kimi deyil, həm də psixoloji və sosial rifahı gücləndirən sistemlər kimi çıxış edir.

Müasir təhsil sistemlərinin əsas vəzifəsi bu psixoloji və texnoloji dəyişiklikləri inteqrasiya etməklə yeni nəsil tələbələrin öyrənmə potensialını maksimuma çatdırmaqdır. Bu, tədris proqramlarının fərdiləşdirilməsi, müəllimlərin yeni psixoloji bacarıqlarla təchiz olunması, innovativ texnologiyaların inteqrasiyası və təhsil mühitində inklüzivliyin təminatı ilə mümkün olur. Nəticədə, psixoloji yanaşmalar və rəqəmsal innovasiyalar bir-birini tamamlayaraq tələbələrin həm kognitiv, həm də emosional inkişafını dəstəkləyir, onları gələcəyin mürəkkəb çağırışlarına hazırlayır. Gələcəkdə təhsil sistemlərinin bu sintez edilmiş, çevik və tələbə mərkəzli modeli daha geniş yayılacaq və dünya üzrə təhsil keyfiyyətinin yüksəlməsinə mühüm təsir göstərəcəkdir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## Ədəbiyyat

1. Dede, C. (2016). Technology integration research and the development of thinking skills. In *International handbook of the learning sciences* (pp. 1–20).
2. Greenhow, C., Robelia, B., & Hughes, J. E. (2019). Learning, teaching, and scholarship in a digital age: Web 2.0 and classroom research: What path should we take now? *Educational Researcher, 48*(3), 163–171.
3. Molenaar, I., Chiu, M. M., Sleegers, P., & Van Boxtel, C. (2019). Effects of self-directed learning and collaborative learning on students' learning outcomes: A meta-analysis. *Educational Psychology Review, 31*, 279–310.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Günay Babayeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0005-7156-553X
karimovagunay55@gmail.com

# Təlim prosesində davranış psixologiyası və müasir pedaqoji strategiyalar

***Açar sözlər:*** *davranış psixologiyası, təlim prosesi, pedaqoji strategiyalar, motivasiya, interaktiv təhsil*
***Keywords:*** *behavioral psychology, learning process, pedagogical strategies, motivation, interactive education*

Davranış psixologiyası, öyrənmənin müşahidə olunan davranış və mühitlə qarşılıqlı əlaqə vasitəsilə necə gerçəkləşdiyini anlamaqda əhəmiyyətli rol oynayır. Onun əsas konsepsiyası davranışın müsbət gücləndirmə, rəy və təcrübə vasitəsilə inkişaf etdirilə bilməsidir. Bu prinsiplər tədris metodlarına əhəmiyyətli təsir etmiş və müasir təhsildə öz aktuallığını qoruyub saxlamışdır (Əliyev, 2015).

Davranış psixologiyasının təhsil prosesinə olan əsas təsirlərindən biri mükafatlandırmadır. Tərif, fikirlər və qiymətləndirmə nəticələri kimi müsbət təşviqlər şagirdləri təlim vəzifələrində aktiv olmağa motivasiya edir. Müasir pedaqoji strategiyalar formativ qiymətləndirməni möhkəmləndirməyə daxil edir və yalnız nəticələrə deyil, həmçinin səy, irəliləyiş və əzmkarlığa da önəm verir.

Başqa mühüm prinsip həyata keçirmək və yenidən etməkdir. Şagirdlərin biliklərini dəfələrlə istifadə etməsi öyrənmə prosesini daha effektiv edir. Müasir öyrənmə metodları interaktiv fəaliyyətlər, layihələr və problem yönümlü təlimlər vasitəsilə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

mexaniki təkrarlamanı aşır və şagirdlərin bacarıqları mənalı mühitlərdə tətbiq etməsinə şərait yaradır (Quliyev, 2018).

Davranış psixologiyası eyni zamanda təsirli sinif idarəçiliyini təşviq edir. Aydın prinsiplər, ardıcıl gözləntilər və nizamlı rutinlər təhlükəsiz və təşkilatlanmış təlim mühiti formalaşdırır. Müasir pedaqogika cəza yerinə müsbət intizamı, rəhbərliyi və dəstəkləyici müəllim-şagird münasibətlərini təşviq edərək bu əsas üzərində formalaşır.

Bu günki tələbə mərkəzli təhsildə davranış prinsipləri aktiv öyrənmə strategiyalarıyla bir araya gətirilir. Aydın təlim məqsədləri, görünən nəticələr və mütəmadi rəylər şagirdlərə gözləntiləri anlamağa və irəliləyişlərini izləməyə dəstək verir. Texnologiya ilə inkişaf etdirilmiş öyrənmə, tələbənin müstəqil şəkildə düşünməsini təşviq edərkən, dərhal geri dönüş və irəliləyişin izlənməsi vasitəsilə davranış anlayışlarını daha da həyata keçirir (Hüseynova, 2012).

Nəticə etibarilə, müasir təhsil tənqidi düşüncəyə və tələbə mərkəzli öyrənməyə önəm versə də, davranış psixologiyası əhəmiyyətli bir əsas olaraq qalır. Müasir pedaqoji yanaşmalarla birləşdirildikdə, həm akademik nailiyyətləri, həm də şəxsi inkişafı stimullaşdıran strukturlaşmış, motivasiyalı və səmərəli öyrənmə mühitlərinin formalaşmasına dəstək olur.

## Ədəbiyyat

1. Əliyev, Ə. (2015). *Müasir pedaqoji texnologiyalar və təlim strategiyaları*. Təhsil.
2. Quliyev, A. (2018). Təlim prosesində davranış yanaşmaları. *Azərbaycan Məktəbi*, №2, 45–52.
3. Hüseynova, R. (2012). *Şagird davranışlarının psixoloji əsasları.* Elm.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 242-245
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 242-245
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Solmaz Bayramova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0001-2244-3481
slmzbrm@gmail.com

# Məktəblilərdə fəallıq və təşəbbüskarlıq iradi keyfiyyətlərinin formalaşması və inkişafı

***Açar sözlər:*** *iradə,iradə tərbiyyəsi, fəallıq, təşəbbüskarlıq, iradi nəzarət*
***Keywords:*** *will, will education, activity, initiative, volitional control*

Pedaqoji-psixoloji tələblərin səmərəli təşkil edilməsi baxımından gənc nəslin yüksək iradi keyfiyyətlərə yiyələnməsi yollarının tədqiqi hər bir yaş dövrü üçün öz aktuallığını saxlayır. Klassik pedaqoqlar və psixoloqlar iradə tərbiyəsini gənc nəslin ideya-siyasi hazırlığının və insan amili fəallığının zəruri amili kimi qiymətləndirmiş, şəxsiyyətin hərtərəfli formalaşması üçün iradə tərbiyəsinə və formalaşmasına xüsusi üstünlük vermişlər. İradə-iradi keyfiyyətlər müxtəlifliyinə baxmayaraq, biri digərini tmamlayır, vahid şəkildə cərəyan edir. Bütün iradi keyfiyyətlər ümümi qanunauyğunluqlara tabe olsalar da, onlardan hər birinin özünəməxsus xüsusiyyətləri vardır.

Məktəblilərin təlimi üçün ciddi əhəmiyyət kəsb edən, onun bir şəxsiyyət kimi formalaşmasında böyük rol oynayan iradi keyfiyyətlərdən biri də fəallıqdır. Konkret fəaliyyət sahəsi ilə əlaqədar olaraq,fəallıq  həm şəxsiyyətin öz fəaliyyətini, həm də ətraf mühitə olan mühasibətini və istiqamətini təyin edir.

Fəallıq məktəblinin mürrəkkəb və rəngarəng münasibətlər sistemində özünü qabarıq şəkildə göstərir. Konkret fəaliyyət sahəsi ilə əlaqədar olaraq, fəallıq həm şəxsiyyətin öz

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

fəaliyyətini, həm də ətraf mühitə olan münasibətinin mahiyyətini və istiqamətini təyin edir.

Fəallıq məktəblilərin mürəkkəb və rəngarəng münasibətlər sistemində özünü qabarıq şəkildə göstərir. Münasibətlər şəxsi və içtimai əhmiyyətli olmaqla ikili səciyyə daşıyır. Əgər şəxsi mənafe əsas götürülürsə münasibətlərin əhatə dairəsi məhdudlaşır. Belə olan halda isə fəallıq baş vermir, sadəcə olaraq nümayiş olunur, başqalarına fəal görünmək ön plana keçir. Bu isə şəxsiyyətin fərdiyyət kimi formalaşmasına heç bir müsbət təsiri göstərmir.

Fəallıq nədir? Psixoloji ədəbiyyatlarda fəallıq özünütərbiyə məhfumuna daxil olan özünütəhlil, özünütənqid, özünütəqlid, özünəqiymət, özünənəzarət, özünütəsdiq, özünü-təkzib, özünəinam və s. ünsürlərlə əlaqələndirilir.

Təşəbbüskarlıq iradi keyfiyyəti də fəallıqla əlaqədardır. Ona görəki fəal olmayan heç bir zaman təşəbbüskar ola bilməz, yaxud əksinə, təşəbbüskarlıq eyni zamanda insanın təxəyyül fəaliyyətindən aslıdır. Fəallıqda olduğu kimi təşəbbüskarlıqda da ictimai mənafe ön plana keçməlidir.

Məktəblilərdə fəallıq və təşəbbüskarlıq kiçik yaşlarından başlayaraq formalaşaraq tərbiyənin düzgün təşkili ilə inkişaf edir. Bu prosesdə isə intizamın rolu əvəzedilməzdir.

Təxəyyül surətlərinin yaradılması, təxəyyül laboratoriyasının fəaliyyəti, məqsəd aydınlığı, motiv olmadan fəallığın təmin olunması qeyri-mümükündür. (məs.: İsmayılov, 2015)

Müşahidələr göstərir ki,təlim prosesində hər bir fənnin, yaxud mövzunun məqsədinin şagirdlərə düzgün və dəqiq aydınlaşdırılması onların  maraqlarının inkişafına və artmasına böyük təsir göstərir. Müəllim şagirdlərin yalnız təlim prosesində fəallaşdırılması ilə kifayyətlənə bilməz. Təlimdə fəallığın inkişaf etdirilməsi mütləq içtimai fəallığa çevrilməlidir. Eyni zamanda belə fəallıq ən gözlənilməz situasiyalar üçün faydalı

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

fəaliyyətin təmin edilməsinə şərait yaratmalıdır. Dərs zamanı müəllim şagirdlərin yardıcı yazılarına, müstəqil mülahizələrinə, polemik söhbətlərə qoşulmalarına, sərbəst fikirləşmələrinə daha şox şərait yaratmalıdır. Hər bir şagird fərdi mühakimə yürütmək, müstəqil fikir demək, öz mövqeyinə malik olmaq bacarığına malik olmalıdır. Bunun üçündə müəllim şagirdləri düşündürəcək mətnlərə yer verməlidir ki,bu da onların çox suallar vermələrinə  şərait yardır.

Göründüyü kimi fəallıq və təşəbbüskarlıq boş yerdə deyil, yalnız məqsədyönlü fəaliyyət prosesində baş verə bilər. Burada müəllim şəxsiyyəti,onun öz peşəsinə olan vurğunluğu,bütün dərs boyu fəal və təşəbbüskar olması çox vacibdir. Fikrin durğunluğu, ləngimə, maraq yaratmayan jestlər, səsdəki monotonluq, yorğunluq, emosiyaların zəifliyi və s. amillər onun peşəsinə yad olmamalıdır.

Müəllim gənc nəslin əlindən tutaraq onları irəli aparan loğmandır, müdrikdir. Mənəviyyat aləmində belə bir ifadə vardır nə qədər ki, fəal və təşəbbüskarsan deməli içtimai varlıqsan, yəni cəmiyyətə lazımsan. Məktəb məhz bu gün belə fəaliyyət göstərir.

Müşahidələr göstərir ki, kiçik yaşlarında ailə mühitində fəallığa və təşəbbüskarlığa alışdırılan, məişət məsələlrinin həllində fəal iştirak edən uşaqlar, məktəb illərində bu xüsusiyyətləri öz xarakterlərində daha dərindən aşılayırlar.

Məktəblərdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsində şagirdlərin fəallıq və təşəbbüskarlığı özünü daha qabarıq şəkildə göstərir. Çünki tədbirlər rəngarəng, maraqlı və cəzbedici olur, onlara hazırlıq yüksək şəkildə olur və nəticədə şagirdlərdə dərin maraq yaradır. Marağın hər iki növünün vasitəli və vasitəsiz-inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Təşəbbüskarlıq-başqası tərəfindən məcbur edilmədən işə başlamaq və fəaliyyətdə yaradıcılıq göstərməkdir. İradi fəaliyyət öz qayəsini, adətən, təşəbbüskarlıqda tapir. Təşəbbüskarlıq geniş və dərin bilik, möhkəm bacarıq və zəngin təxəyyüllə əlaqədardır.

Təlim prosesində şagirdlərin təşəbbüskarlığı üçün geniş imkankanlar vardır. Lakin bu sahədə hər şeyin onların özü ilə bağlı olduğunu düşünməkdə səhv olardı. Burda müəllim fəaliyyəti, onun münasibətləri təşəbbüskarlığa şərait yaratmaq baxımından həllediciidir. Ona görədə istiqamət vermək, həvəsləndirmək və inam yaratmaq daha çox əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2002). *Psixologiya.*
2. Peyo, J. (2023). *İradə tərbiyəsi.* Qanun Nəşriyyatı.
3. Seyidov, S. İ., & Həmzəyev, M. Ə. (2007). *Psixologiya.*
4. İsmayılov, S. H. (2015). *Şəxsiyyətin iradi keyfiyyətləri.*

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 246-249
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 246-249
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Şəfəq Muradova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-7803-510X
shafaqmuradova@nmi.edu.az

# Tələbələrin xarici dildə müstəqil və yaradıcı düşünmə bacarıqlarının inkişafında müasir pedaqoji texnologiyaların rolu

***Açar sözlər:*** *inteqrasiya, interaktivlik, motivasiya, yaradıcı düşünmə, innovasiya*
***Key words:*** *integration, interactivity, motivation, creative thinking, innovation*

Müasir dövrdə qlobal ünsiyyət dili hesab olunan ingilis dilini öyrənənlərin sayı get-gedə artmaqdadır. Bu dilin beynəlxalq aləmdə rolu artdıqca dili öyrənənlərə olan tələbat da artır. İngilis dilinin kommunikativ formada aşılanmasını tələb edən amillərdən biri onun global ünsiyyət vasitəsi olmasıdır. Onu da qeyd etmək lazımdır ki, bir çox inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edən respublikamızda xarici dillərin, xüsusilə də ingilis dilinin tədrisi sahəsində mühüm isləhatlar aparılır və bu islahatlar ümumiyyətlə təhsilin məzmunu və strukturu, dillərin öyrənilməsində istifadə olunan təlim metodları, tədris prosesində müəllim və tələbənin rolu, tələbə-müəllim münasibətləri, təhsilin forması və s. məsələlərdən bəhs edir. İngilis dilinin tədrisindən bəhs edərkən yalnız dilin qrammatik qaydalarına, linqvistik vahidlərinə deyil, eləcə də digər amillərə diqqət yetirmək lazımdır. Xarici dili öyrənməklə yanaşı, həmin dilin mədəniyyətini də dərindən öyrənmək vacibdir, çünki bunların hər ikisi vəhdət təşkil edir. Xarici dilin tədrisində müəllim əsasən vasitəçi rolunu oynamalıdır. Beləki, o dilin mənim-

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

sənilməsi üçün lazımi atmosferi yaratmalıdır.Dərs prosesində öyrənənlərin yaradıcı düşünmə bacarıqlarının inkişaf etdirilməsi üçün problemli situasiyalara, düşündürücü suallara mümkün qədər geniş yer verilməlidir. Bu cür qurulmuş dərs prosesi tələbələrin müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir.

Təlim prosesinin keyfiyyətini yüksəltmək üçün interaktiv təlim metodları əhəmiyyətli bir vasitə ola bilər. Bu metodla keçirilən dərs öyrənənlər üçün daha maraqlı və cəlbedici olur. Ənənəvi metodlardan fərqli olaraq interaktiv təlim metodları ünsiyyətdən və interaktivlikdən daha səmərəli istifadə etməyə imkan verir və bu metodların tətbiqi xarici dilin qısa müddətdə daha yaxşı öyrənilməsinə şərait yaradır. İnteraktiv dərs elə qurulmalıdır ki, yeni bilik tədqiqat üsulu ilə əldə edilsin. Öyrənənlərin əldə etdikləri tədqiqat nəticələri ümumiləşdirilməli, sistemləşdirilməli və sonda şagirdlərin dərsin əvvəlində irəli sürdükləri fikirlər və tədqiqatın nəticələri müqayisə edilməlidir. Sonda  tələbələr müqayisə zamanı üst-üstə düşən fərziyələrin, onlar üçün yeni olan fikirlərin şahidi olur və düzgün nəticə çıxarırlar. Əvvəlki illərdə tələbələr lazımi bilikləri əldə etmək üçün yalnız bilik mənbəyi olaraq müəllim və dərslikdən istifadə edirdilərsə,indi daha genişmiqyaslı informasiya mənbələrindən yararlanırlar. Buna görə də, indi təlimin əsas vəzifəsi öyrənənləri bilik və bacarıqları müstəqil əldə etməyə həvəsləndirməkdir. Mütəxəssislərin fikrincə, müasir təlim üsullarının düzgün tədris edilməsi üçün xarici dil müəllimlərinin nümunəvi, müasir təcrübəyə sahib olan müəllimlərin dərsində iştirak etməsi zəruridir. Müşahidə olunan dərsin təhlili və müzakirəsi keçirilməli, yekun nəticə əldə olunmalıdır. Belə halda müəllimlərin metodik cəhətdən biliyi artır, eyni zamanda onlar innovativ təlim texnologiyalarından düzgün, səmərəli istifadə etmək imkanlarına malik olurlar.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 246-249
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 246-249
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Müstəqil düşünmə bacarığı XXI əsrdə beynəlxalq təhsildə əsas bacarıqlar arasında yer alır. Xarici dil öyrənmək bu bacarığı tələb edir. Xarici dili öyrənən tələbə yeni dil öyrənməklə yanaşı digər mədəniyyət və düşüncə sistemi ilə də tanış olur. Beləliklə, onda öz fikrini ifadə etmək, başqalarının fikrinə münasibət bildirmək bacarığı formalaşır. Müstəqil düşünmə bacarığı öyrənənin məlumatı təhlil edə bilməsi, tənqidi və yaradıcı yanaşma sərgiləməsi, öz fikirlərini əsaslandıra bilməsidir və bu xarici dil öyrənənlər üçün çox mühüm amildir. Çünki tələbə yeni dil öyrənməklə bərabər, yeni mədəniyyətləri də mənimsəyir, müstəqil qərarvermə və perespektivləri müqayisə etmə qabiliyyəti nümayiş etdirir.İnnovasiyalardan istifadə etməklə hər bir tələbə öz ehtiyac və maraqlarına uyğun resurs seçmək imkanı əldə edir. Tələbədə interaktiv materiallara maraq artır, onlarda səhvlər üzərində işləmək, rəy vermək bacarığı formalaşır. Xarici dil öyrənənlərin müstəqil,tənqidi və yaradıcı düşünmə bacarığını inkişaf etdirmək üçün eləcə də, lüğət ehtiyatını zənginləşdirmək, qrammatik biliklərini artırmaq üçün müasir innovativ texnologiyalar ən güclü vasitədir. Dil öyrənənlər paralel olaraq həm dil, həm də düşünmə bacarıqlarını inkişaf etdirmək imkanı əldə edirlər.

Tədris prosesinin daha məhsuldar, daha maraqlı təşkili üçün müasir pedagoji texnologiyalardan iştifadə edilməsi məqsə-dəuyğundur. Yeni innovativ texnologiyaların səmərəli istifadəsi xaici dilin öyrənilməsində motivasiyanın inkişafına və təlimin keyfiyyətinin yüksəlməsinə kömək edir. Ölkəmizdə demək olar ki,bütün universitetlərdə tədris prosesində müasir pedaqoji innovasiyalardan maksimum istifadə olunur. Təlim prosesində keyfiyyətin daha yüksək səviyyəyə qalxması, eyni zamanda xarici dildə praktik bacarıqların inkişaf etdirilməsində bu texnologiyaların rolu əvəzsizdir.Hazırda xarici dil dərslərini müasir texnologiyalardan istifadə etmədən təsəvvür etmək

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

mümkün deyil. Təlimin fərdiləşdirilməsini və differensiallaşdırılmasını təmin etmək üçün yeni informasıya texnologiyaları, layihə texnologiyası, əməkdaşlıq texnologiyalarından istifadə olunması zəruridir. Xarici dilin tədrisi prosesində müxtəlif didaktik tapşırıqları həll edərkən internetdən istifadə etmək olar. Tədris olunan xarici dildə oxu bacarıqlarının inkişaf etdirilməsi, yazı bacarıqlarının təkmilləşdirilməsi, tələbələrin lügət ehtiyyatlarının zənginləşdirilməsi, xarici dili öyrənmək üçün motivasiyanın formalaşdırılması üçün qlobal şəbəkələrin materiallarından istifadə etmək məqsədəuygundur. İnternetdən istifadə tələbələrə xarici ölkələrdə yaşayan həmyaşıdları ilə işgüzar əlaqələr qurmağa kömək edir, onların üfüqlərini genişləndirir, mədəniyyətlərarası qarşılıqlı əlaqə bacarığını inkişaf etdirir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 250-251
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 250-251
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Ülviyyə İbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universitetin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
https://orcid.org/0009-0002-0241-9705
ibrahimova.ulviyya@adpk.edu.az

# Şagird motivasiyasının formalaşmasında psixoloji faktorların və rəqəmsal texnologiyaların rolu

***Açar sözlər:*** *motivasiya, psixoloji faktorlar, təhsil, rəqəmsal texnologiyalar*

***Keywords:*** *motivation, psychological factors, education, digital technologies*

Təlim prosesində motivasiya tədrisin ən vacib elementlərindən biridir. Əgər şagirdin öyrənməyə həvəsi və marağı yoxdursa, ən mükəmməl tədris proqramı belə gözlənilən nəticəni verməyəcəkdir. Bu baxımdan müəllim yalnız bilik ötürən deyil, həm də motivasiya yaradan şəxs olmalıdır. Müasir pedaqogika şagird mərkəzli yanaşmanı ön plana çəkdiyi üçün motivasiyanın formalaşdırılması həm psixoloji, həm də texnoloji yanaşmalarla dəstəklənməlidir.

Psixoloji faktorların rolu. Motivasiyanın formalaşmasında ən mühüm amillərdən biri şagirdin daxili və xarici motivasiyasıdır.

- Daxili motivasiya öyrənmənin özündən zövq almaq, yeni biliklər qazanmaq və şəxsi inkişaf arzusu ilə əlaqəlidir. Bu halda şagird müstəqil öyrənməyə daha meylli olur.
- Xarici motivasiya isə qiymətlər, valideynlərin gözləntiləri, müəllimin rəy və mükafatları ilə bağlıdır. Hər iki motivasiya növü balanslı şəkildə tətbiq olunmalıdır.

Şagirdin psixoloji rifahı da motivasiya üçün vacibdir. Tədris prosesində emosional dəstək, pozitiv müəllim münasibəti, səhv

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

etmək qorxusunun azaldılması öyrənmə prosesini daha məhsuldar edir. Özünəinamın gücləndirilməsi və uğurların qeyd olunması isə davamlı motivasiyanın əsasını təşkil edir.

Rəqəmsal texnologiyaların rolu. XXI əsrdə rəqəmsal texnologiyalar təhsilin ayrılmaz hissəsinə çevrilmişdir. Şagirdlər rəqəmsal mühitdə böyüdükləri üçün onların maraqlarına uyğun öyrənmə metodlarının seçilməsi vacibdir.

- İnteraktiv platformalar (Kahoot, Quizizz, Wordwall və s.) öyrənməni oyunlaşdıraraq dərslərə marağı artırır.
- Virtual laboratoriyalar və simulyasiyalar abstrakt mövzuların öyrənilməsini asanlaşdırır və vizual yaddaşı gücləndirir.
- Multimedia vasitələrinin (video, animasiya, 3D modellər) istifadəsi mövzuların daha yaxşı mənimsənilməsinə şərait yaradır.
- Onlayn resurslar və mobil tətbiqlər şagirdə fərdi öyrənmə imkanı verir ki, bu da onun öz sürətinə uyğun bilik qazanmasına imkan yaradır.

Psixoloji və texnoloji faktorların sintezi. Motivasiyanın ən effektiv şəkildə formalaşması üçün psixoloji və texnoloji yanaşmalar bir-birini tamamlamalıdır. Məsələn, müəllim interaktiv platformalardan istifadə edərkən eyni zamanda şagirdlərin emosional ehtiyaclarını nəzərə almalı, rəqabətdən çox əmək-daşlığı təşviq etməlidir. Belə olan halda rəqəmsal texnologiyalar yalnız texniki vasitə deyil, həm də psixoloji dəstək rolunu oynayır.

Şagird motivasiyasının formalaşmasında psixoloji faktorlarla yanaşı rəqəmsal texnologiyaların düzgün tətbiqi vacibdir. Müəllim həm şagirdin emosional ehtiyaclarını, həm də müasir texnologiyalara olan marağını nəzərə alaraq tədris prosesini təşkil etdikdə təhsil daha effektiv olur. Bu isə yalnız akademik nəticələri deyil, həm də şagirdlərin gələcək həyat bacarıqlarını inkişaf etdirir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Qızıltac Şahbazova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-2381-0928
qshahbazova@gmail.com

# Ali təhsildə psixoloji dəstək işinin təşkilində innovativ yanaşmalar

***Açar sözlər:*** *Ali təhsil, psixoloji dəstək, innovativ yanaşmalar, tələbə rifahı, texnologiya əsaslı müdaxilələr, tele-məsləhət, peer dəstəyi*

***Keywords:*** *higher education, psychological support, innovative approaches, student well-being, technology-based interventions, tele-counseling (or tele-mental health), peer support*

Yeni təhsil sistemi və onun tələbləri keçmişdən kəskin şəkildə fərqlənir. Təlim prosesi tələbələrin yüksək akademik təzyiqlə mübarizə aparmaq, sosial mühitə uyğunlaşmaq və karyera inkişafı imkanları axtarmaq üçün qərar qəbuletmə bacarıqlarını inkişaf etdirmək ehtiyaclarına əsaslanır. Bu ehtiyaclar, şübhəsiz ki, təhsil mühitində tələbələr arasında depressiya, narahatlıq və stress kimi problemlərə səbəb olur (Ölçülən psixi sağlamlıq müdaxilələri vasitəsilə ali təhsildə psixi sağlamlıq xidmətlərinin islahatı, 2023).

Bu sahədə tədqiqat aparan Beiter ənənəvi üz-üzə məsləhət modelini aşağıdakı kimi izah edir:

1. Məhdud resurslar tələbələrin artan ehtiyaclarını ödəmək üçün kifayət deyil.

2. Tələbələrin uyğunlaşma problemləri onlar üçün çətinliklər yaradır (Ali Təhsildə Ruhi Sağlamlıq Xidmətlərinin Transformasiyası, 2023).

Buna görə də, innovativ yanaşmaların tətbiqi xidmətlərin əlçatanlığını və çevikliyini təmin etmək üçün şərait yarada bilər. İnnovativ yanaşmalar ruhi sağlamlıq dəstək xidmətlərinin təşkili üçün vacibdir; innovasiya həm problemləri həll edə, həm də tələbələrin rahatlıq təcrübəsini artıra bilər (Ali Təhsildə Ruhi Sağlamlıq Çətinliklərinin Aradan Qaldırılması, 2024).

Bu məqalədə mövcud elmi ədəbiyyatı təhlil etmək və müxtəlif tədqiqatların nəticələrini ümumiləşdirmək üçün analitik və sistemli metodlardan istifadə olunur. Bu ədəbiyyat icmalı açıq şəkildə göstərir ki, tədqiqat mövzumuzun əhəmiyyəti 2014-cü ildən bəri əhəmiyyətli dərəcədə artmışdır. Tədqiqatçılar tədqiqatlarını əsasən innovasiyanın aşağıdakı üç sahəsinə yönəldiblər (Beiter, et al., 2015):

1. Texnologiya inteqrasiyası və tətbiqi.
2. İnnovativ metodlar və müdaxilələr.
3. Həm ekspertlərin, həm də qeyri-ekspertlərin dəstəyi.

Texnologiyanın inteqrasiyası və tətbiqi ilə bağlı aşağıdakı məqamlar tətbiq olunur:

1. Texnologiya inteqrasiyası və tətbiqi.

Rəqəmsal alətlər psixoloji dəstəyin təmin edilməsində və ayrı-seçkiliyin aradan qaldırılmasında mühüm rol oynayır. Bu alətlərə onlayn proqramlar və mobil tətbiqlər daxildir. Tədqiqatlar göstərir ki, rəqəmsal alətlərdən istifadə narahatlıq və depressiya kimi simptomların azaldılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Nümunələrə kompüter əsaslı kurslar və tapşırıqlar daxildir (Davies və b., 2014). Bu platformalarda rəqəmsal alətlərdən istifadə yalnız davranış zamanı idrak proseslərini səfərbər etmir, həm də terapevtik prinsipləri avtomatik olaraq tətbiq edir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Virtual reallıq cihazları ən vacib rəqəmsal vasitələrdən biridir. Bugünkü mühitdə virtual reallıq cihazları tələbələrin öyrənməsinin və zehni sağlamlığının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bu cihazlardan istifadə edərək tələbələr təhlükəsiz, simulyasiya edilmiş mühitdə stress idarəetmə bacarıqlarını öyrənə bilərlər və beləliklə, sosial bacarıqların inkişafı üçün şərait yarada bilərlər (Ali Təhsildə Psixoloji Təhsil: İnternet Dövründə İmkanlar və Çətinliklər, 2024).

2. İnnovativ Yanaşmalar və Müdaxilələr

Təlim prosesi zamanı tələbələrin stress səviyyələrini azaltmaq üçün müxtəlif növ incəsənət terapiyası da istifadə olunur. İncəsənət terapiyası ənənəvi danışıq terapiyasından daha təsirli hesab olunur və daha yaradıcı və ifadəli alternativlər təqdim etməklə tələbələrin zehni sağlamlığını yaxşılaşdırmağı hədəfləyir (Boyle, 2025).

Fərdiləşdirilmiş təlim, tələbələri müsbət və mənalı fəaliyyətlərdə iştirak etməyə istiqamətləndirmək, onları müəllimlərə diqqət yetirməyə təşviq etmək və əqli sağlamlığa vahid yanaşma tətbiq etmək bu prosesi təkmilləşdirməyi hədəfləyir (Kollec Tələbələrinin Əqli Sağlamlığının Yaxşılaşdırılması: Sistematik Ədəbiyyat İcmalı, 2021).

3. Peşəkar və Qeyri-Peşəkar Dəstək

Peşəkar dəstək həmyaşıd dəstəyi vasitəsilə təmin edilə bilər. Bu yanaşma təhsil prosesində texnoloji innovasiyanın yaradıcı tətbiqi üçün çox vacibdir. Buna görə də, müxtəlif təlim proqramları vasitəsilə texnoloji savadlılıq qazanmış həmyaşıdların dəstəyi tələbələrin stress səviyyələrini azalda bilər və tələbələrin texnologiyaya əsaslanan təlim proseslərinə daha asan uyğunlaşdıqları müşahidə edilmişdir. Bundan əlavə, tələbələr həmyaşıdları ilə ünsiyyət qurmağı daha asan tapırlar. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə bu yanaşma tələbələrin empatiyasını, sosial dəstəyini və daha effektiv əməkdaşlıq üçün motiva-

siyasını artırdığı düşünülür (Zhou, 2023: Kollec Tələbələrinin Əqli Sağlamlığını və Rifahını Yaxşılaşdırmaq üçün Hansı Tədbirlər Kömək Edə Bilər, 2020).

Qeyri-peşəkar dəstək mütəxəssislər tərəfindən yaradılan müxtəlif mobil tətbiqlər, videolar və posterlər vasitəsilə və ya qeyri-peşəkarlara müxtəlif texnologiyalar və innovativ bacarıqlar öyrətməklə təmin edilə bilər. Hazırda təlim prosesində texnoloji dəstəyə ehtiyacı olan tələbələrə innovativ yardım göstərmək və onları müxtəlif tətbiqlərdən istifadə etməkdə istiqamətləndirmək çox vacibdir. Bu yanaşma öyrənmə və tədris prinsiplərinə əsaslanır (Ali Təhsildə Ruhi Sağlamlıq Xidmətlərinin Transformasiyası, 2023).

Ali təhsildə ruhi sağlamlıq dəstəyinin təşkilinə innovativ yanaşmaların nəticələri göstərir ki, xidmətlərin miqyasını və keyfiyyətini artırmaq mümkündür. Texnologiyanın inteqrasiyası (virtual reallıq, mobil tətbiqlər) dəstəyin əlçatanlığını və fərdiləşdirilməsini təmin edir; yaradıcı və vahid modullar (incəsənət, 4M modeli) müdaxilələrin effektivliyini artırır; sistemli yanaşmalar (həmyaşıd dəstəyi, qeyri-peşəkar dəstək) ayrı-seçkiliyin qarşısını almağa və aradan qaldırmağa kömək edir. Ali təhsil müəssisələri bu innovativ strategiyaları qəbul etməli və daha dayanıqlı, müsbət və tələbə mərkəzli ruhi sağlamlıq ekosistemi yaratmalıdırlar.

## Ədəbiyyat

1. Beiter, R., et al. (2015). Mükəmməllik və nailiyyət axtarışının təhlükələri: Tələbələrin zehni sağlamlığına dair ədəbiyyatın tənqidi icmalı. *Stress və Sağlamlıq*.
2. Boyle, J. (2025). Ali təhsildə tələbələrin zehni sağlamlığını və rifahını dəstəkləmək üçün innovativ yanaşmalar: İncəsənət terapiyası perspektivi. *Tətbiqi Akademik Təcrübə Perspektivləri Jurnalı*, 13(1).

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**


3. Davis, E. B., et al. (2014). Kollec tələbələrinin zehni sağlamlığını və rifahını yaxşılaşdırmaq üçün müdaxilələr haqqında ədəbiyyatın qısa icmalı.
4. Ali təhsildə psixologiya təhsili: İnternet+ dövründə imkanlar və çətinliklər. (2024). *PMC - PubMed Central.*
5. Kollec tələbələrinin zehni sağlamlığının yaxşılaşdırılması: Sistematik ədəbiyyat icmalı. 4M fərdi müdaxilə modelinə giriş. (2021). *PMC - PubMed Central.*
6. Ölçülən psixi sağlamlıq müdaxilələri vasitəsilə ali təhsildə psixi sağlamlıq xidmətlərinin islahatı. (2023). *PMC - PubMed Central.*
7. Ali təhsildə psixi sağlamlıq problemlərinin aradan qaldırılması: Ədəbiyyat icmalı. (2024). *Sərhədlər.*
8. Zhou, S. (2023). Psixoloji məsləhət vasitəsilə kollec tələbələrinin psixi sağlamlığını dəstəkləmək üçün innovativ yanaşma. *Tətbiqi Psixologiya və Müasir Təhsil üzrə 2023-cü il Beynəlxalq Konfransının materialları.* Atlantis Press.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 257-258
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 257-258
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Ülviyyə Nağıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9962-5913
ulviyyenagiyeva921@gmail.com

# Müasir təhsildə süni intellektin tətbiqi və perspektivləri

***Açar sözlər:*** *Süni intellekt, rəqəmsal təhsil, fərdiləşdirilmiş öyrənmə, yaradıcı düşüncə, tədris innovasiyaları*
***Keywords:*** *artificial intelligence, digital education, personalized learning, creative thinking, educational innovations*

XXI əsrin ən mühüm texnoloji nailiyyətlərindən biri süni intellekt təhsil sistemində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Müasir təhsil mühitində süni intellekt yalnız texnoloji vasitə deyil, həm də tədrisin keyfiyyətini artıran və fərdiləşdirilmiş öyrənməni dəstəkləyən mühüm pedaqoji amil kimi çıxış edir. Süni intellekt texnologiyaları vasitəsilə şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun tədris materiallarının seçilməsi, avtomatik qiymətləndirmə və təlim nəticələrinin təhlili daha effektiv şəkildə həyata keçirilir. Bu, müəllimə tədris prosesini daha məqsədyönlü şəkildə idarə etmək, tələbəyə isə öz potensialını daha dərindən dərk etmək imkanı verir. Eyni zamanda, süni intellektin təhsildə tətbiqi yeni tələblər və məsuliyyətlər yaradır. Müəllimlərin rəqəmsal savadlılığı, şəxsi məlumatların məxfiliyi, etik normaların qorunması kimi məsələlər bu prosesdə mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə süni intellekt texnologiyalarının təhsil sisteminə daha dərindən inteqrasiyası, tədris metodlarının

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

yenilənməsi və müəllim hazırlığında bu istiqamətin gücləndirilməsi müasir təhsilin əsas prioritetlərindən biri olmalıdır.

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətli inkişafı təhsil sistemində yeni imkanlar və yanaşmalar formalaşdırır. Süni intellektin təhsildə tətbiqi tədris prosesinin fərdiləşdirilməsinə, müəllim və tələbə fəaliyyətinin yüksəldilməsinə, qiymətləndirmə sistemlərinin obyektivliyinin artırılmasına və öyrənmənin səmərəliliyinə xidmət edir. Süni intellekt vasitəsilə adaptiv öyrənmə sistemləri, intellektual tədris proqramları, avtomatik qiymətləndirmə alətləri və virtual təlim mühitləri müəllimlərin işini asanlaşdırır, eyni zamanda tələbələrin maraq və ehtiyaclarına uyğun tədris mühiti yaradır. Bununla yanaşı, süni intellektin təhsildə geniş tətbiqi etik, texnoloji və pedaqoji problemləri də gündəmə gətirir. Məlumat təhlükəsizliyi, müəllim-öyrənən münasibətlərinin dəyişməsi və insan faktorunun azalması kimi məsələlər diqqətlə tənzimlənməlidir. Gələcəkdə təhsilin keyfiyyətinin yüksəldilməsi üçün süni intellekt texnologiyalarının pedaqoji prinsiplərlə uzlaşdırılması, müəllimlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi və bu sahədə elmi tədqiqatların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 259-261
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 259-261
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Xatın Ağayeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0000-0003-4406-456X
khatinagayeva@nmi.edu.az

# İdmançı şəxsiyyətinin formalaşmasında sosial və psixoloji amillər

***Açar sözlər:*** *idman, idmançı, şəxsiyyət, sosiologiya, psixologiya, psixoloji amil*
***Keywords:*** *sport, tools, personality, sociology, psychology, psychological factor*

Qloballaşan və getdikdə inkişaf edən, müasir dövrdə idman yalnız fiziki sağlamlıq vasitəsi hesab edilə bilməz, həm də insanın sosiallaşmasında, psixoloji inkişafında və həyat tərzinin formalaşmasında mühüm rollardan birini oynayır. İdmançının peşəkar və ya həvəskar səviyyədə fəaliyyət göstərməsi, onun xarakterinin inkişafına, emosional sabitliyinə, sosial münasibətlərinə və həyat məqsədlərinə birbaşa təsir göstərir. Bu baxımdan, idmançı şəxsiyyətinin formalaşmasını şərtləndirən sosial və psixoloji amillərin öyrənilməsi aktual və vacib məsələlərdən biridir.

Sosial amillər aşağıdakı kimi quruplaşdırıla bilər:

1. Ailə mühiti – valideyn dəstəyi və hər bir kəsin sahib olduğu ailəyə məxsus dəyərlər idmançının ilk əsas motivasiyasını formalaşdırır.

2. Məktəb və təhsil mühiti – yeni mühit, yeni insanlar və onların təmsil etdiyi dəyərlərə uyğunlaşma və öz ailə dəyərlərini qoruma yeni sosial bacarıqlar formalaşdırır. Bu bacarıqlar gələcək həyatında idmançının yetişməsində və uğurlarında əsas bacarıqlara və dəyişməz keyfiyyətlərə çevrilir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 259-261
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 259-261
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

3. Məşqçi faktoru – məşqçi yalnız texniki bilik vermir, həm də şəxsiyyətin formalaşmasına təsir edir. Yaxşı məşqçi idmançının sadəcə fiziki cəhətdən deyil həmdə psixoloji cəhətdən yarışa tam hazır olmasına nail ola bilməlidir.

4. Komanda və kollektiv – Komanda münasibətləri bəlkədə ən əsas rolu oynayır. Komanda münasibətləri ünsiyyət, əməkdaşlıq və adaptasiyanı gücləndirir.

5. Cəmiyyət və media – ictimaiyyətin marağı və medianın təqdimatı idmançının motivasiyasına təsir göstərir. Cəmiyyətin böyük qisminin rəğbətinui qazanmış idmançı yarışlara daha inamla hazırlaşır.eyni zamanda cəmiyyətdən və mediadan rəğbət görə bilməyən idmançı isə ruh düşkünlüyünə düşə bilər.

Psixoloji amilləri isə a.ağıdakı kimi qruplaşdırmaq olar:

İdmançının uğurları və şəxsiyyətinin inkişafında psixoloji amillər də mühüm yer tutur:

1.Motivasiya və məqsədyönlülük – daxili və xarici motivasiya idman fəaliyyətini istiqamətləndirir. Daxili motivasiya idmançının bilavasitə öz daxilində yaratdığı özünə inamdırsa, xarici motivasiya cəmiyyətin ona verdiyi inma vəya inamsızlıqdır.

2. İradə və özünüidarəetmə – çətinliklərlə mübarizə şəxsiyyətin sabitliyini artırır. İradəsi zəif olan idmançı hər nə qədər çalışmağa cəhd etsə də iradəsizlik onda mübarizə əzmini qıracaq və sonda geri addım atacaqdır. İradəsi güclü olan idmançı isə bütün çətinliklər qarşısında dözüm göstərə biləcəkdir. Buna misal olaraq Dünyanın ən məşhur ağır atletlərindən biri olan Naim Süleymanovun həyat yoluna nəzər salmaq lazımdır.

3. Emosional sabitlik – yarış zamanı stres və gərginliyin idarə olunması vacibdir. Emisiyalarını idarə edə bilməyən idmançı nailiyyət əldə edə bilməz. Çünki ən kiçik bir narahatlıq vəya kənar müdaxilə onda mənfi halyaradacaqdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 259-261
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 259-261
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

4. Özünəinam və özünüqiymətləndirmə – qələbə və məğlubiyyətlər idmançının özünə münasibətini formalaşdırır. Özünəinamı olmayan idmançı hər nə qədər fiziki cəhətdən hazır olsa da çox zəif bir rəqibə belə məğlub ola bilər. Qədim bir misalda deyildiyi kimi, “Qələbənin 10 ehtimalından 9-u yalnız özünə inama bağlıdır”.

5. Psixoloji dəstək – ailə, komanda və psixoloqun dəstəyi psixi sağlamlığı qoruyur. Psixolojidəstək idmançının özünə inamını artırmaqla yanaşı onun əvvəlcədən qarşılaşdığı qorxularla da mübarizə apara bilməsinə kömək edən vasitədir.

Soaial və psixoloji amillərin qarşılıqlı təsiri

Sosial və psixoloji faktorlar bir-biri ilə sıx bağlıdır. Ailə və məşqçinin verdiyi dəstək idmançının özünəinamını gücləndirir, komanda mühiti emosional sabitliyi artırır, cəmiyyətin idmana marağı isə motivasiya yaradır. Bu qarşılıqlı təsirlər nəticəsində idmançı yalnız fiziki deyil, həm də sosial-mənəvi cəhətdən güclü şəxsiyyətə çevrilir.

İdmançı şəxsiyyətinin formalaşması çoxşaxəli prosesdir və bu prosesdə həm sosial, həm də psixoloji amillər mühüm rol oynayır. Ailə, təhsil mühiti, məşqçi və komanda sosial mühitin əsas faktorlarıdırsa, motivasiya, emosional sabitlik, iradə və özünəinam psixoloji amillərin əsasını təşkil edir. Bu iki amilin qarşılıqlı təsiri idmançının təkcə idman nailiyyətlərini deyil, həm də bütövlükdə onun şəxsiyyət kimi inkişafını təmin edir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 262-264
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 262-264
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Kifayət Əhmədova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0004-3747-7205
kifayet.ehmedova11@gmail.com

# Təhsildə psixoloji dəstəyin rolu

***Açar sözlər:*** *təhsildə psixoloji dəstək, məktəb psixoloqları, şagird inkişafı, emosional və sosial öyrənmə, humanist yanaşma, psixoloji rifah.*

***Keywords:*** *psychological support in education, school psychologists, student development, emotional and social learning, humanistic approach, psychological well-being.*

Müasir təhsil sistemləri yalnız bilik və bacarıqların əldə edilməsinə deyil, həm də şagirdlərin psixoloji və emosional inkişafına diqqət yetirməlidir. Təhsil prosesi fərdin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır və psixoloji dəstək bu prosesin əvəzolunmaz tərkib hissəsidir. Psixoloji dəstəyin əsas məqsədi şagirdlərin emosional sabitliyini, özünəinamını və sosial münasibətlərə uyğunlaşma qabiliyyətini gücləndirməkdir.

Psixoloji dəstək şagirdlərin emosional rifahını, özünütənzimləmə qabiliyyətlərini və təhsil mühitində davranış sabitliyini yaxşılaşdırmağa yönəlmiş sistemli fəaliyyət kimi müəyyən edilə bilər. Bu konsepsiya bir neçə fundamental psixoloji nəzəriyyəyə əsaslanır. Təhsildə humanist yanaşma şagirdlərə öz dəyərlərini yaşamağa imkan verir və onların təşəbbüskar və məsuliyyətli fərdlər kimi inkişafını dəstəkləyir. Bu yanaşma fərdiliyə, şəxsi inkişafa və özünüdərkə hörməti vurğulayır.

Psixoloji dəstək yalnız fərdi səviyyədə deyil, həm də qrup və sinif mühitində tətbiq olunmalıdır. Belə bir yanaşma şagirdlər arasında əməkdaşlığın, empatiyanın, qarşılıqlı hörmətin və

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

tolerantlığın inkişafını təşviq edir. Sinifdə müsbət psixoloji iqlim şagirdlərin özlərini təhlükəsiz, qəbul edilmiş və təhsil prosesində fəal iştirak etmək üçün motivasiyalı hiss etmələrinə kömək edir.

Akademik uğur yalnız intellektual qabiliyyətlərdən deyil, həm də şagirdin psixoloji vəziyyətindən asılıdır. Stress, qorxu, narahatlıq və motivasiya çatışmazlığı kimi amillər təlim nəticələrinə mənfi təsir göstərə bilər. Buna görə də, psixoloji dəstək zehni və emosional tarazlığı qorumağa xidmət edir, şagirdlərə həm sinif daxilində, həm də xaricində çətinliklərin və çətinliklərin öhdəsindən gəlməyə kömək edir.

Şagird inkişafı ailə, məktəb və cəmiyyət də daxil olmaqla bir çox mühitin təsiri altında baş verir. Bu səbəbdən, psixoloji dəstək şagirdlərlə birbaşa iş ilə məhdudlaşmamalı, həm də valideynlər, müəllimlər və daha geniş sosial mühitlə əməkdaşlığı əhatə etməlidir. Bütöv yanaşma şagirdlərin ehtiyaclarını daha dərindən anlamağa imkan verir və daha effektiv dəstək strategiyalarını təmin edir.

Təcrübədə təhsil müəssisələrində psixoloji dəstək bir neçə vacib nəticəyə gətirib çıxarır. Birincisi, bu, şagirdlərin akademik motivasiyasını əhəmiyyətli dərəcədə artırır. Emosional cəhətdən sabit, özünəinamlı və sosial cəhətdən rahat hiss edən şagirdlər öyrənməyə daha açıq olmağa və sinif fəaliyyətlərində fəal iştirak etməyə meyllidirlər. Onlar təhsillərinə qarşı daha çox əzmkarlıq, maraq və məsuliyyət nümayiş etdirirlər.

İkincisi, psixoloji dəstək məktəb mühitində hörmət, empatiya və əməkdaşlıq mədəniyyətinin formalaşmasına kömək edir. Sosial və emosional öyrənmə (SEL) proqramlarının tətbiqi ilə şagirdlər emosiyalarını necə idarə etməyi, başqalarının hisslərini anlamağı və münaqişələri sülh yolu ilə həll etməyi öyrənirlər. Bu bacarıqlar təkcə akademik uğur üçün deyil, həm də uzunmüddətli şəxsi və sosial rifah üçün vacibdir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 262-264
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 262-264
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Üçüncüsü, psixoloji dəstək məktəblərdə davranış problemlərinin qarşısını almağa kömək edir. Sistemli müşahidə və proaktiv müdaxilə vasitəsilə məktəb psixoloqları stress, aqressiya, sosial təcrid və ya emosional sıxıntının erkən əlamətlərini müəyyən edə və vaxtında tədbirlər görə bilərlər. Bu profilaktik iş sağlam və dəstəkləyici məktəb mühitinin qorunmasına kömək edir.

Məktəb psixoloqları təhsildə psixoloji dəstək təmin etməkdə mərkəzi rol oynayırlar. Onların məsuliyyətləri fərdi məsləhətləşmədən daha çox şeyə malikdir. Onlar təhsil mühitində harmoniyanı təmin etmək üçün şagirdlər, müəllimlər və valideynlərlə əməkdaşlıq edirlər. Məktəb psixoloqları sinif dinamikasını müşahidə edir, potensial risk faktorlarını müəyyən edir və tədris və təlim proseslərinə psixoloji perspektivləri tətbiq edirlər.

Bundan əlavə, məktəb psixoloqları təhsil siyasətinin hazırlanmasına töhfə verirlər. Psixoloji müşahidələrə və tədqiqatlara əsaslanaraq, onlar qərar qəbul edənlərə tövsiyələr verir, daha inklüziv, bərabər və şagird mərkəzli təhsil sistemlərinin yaradılmasını dəstəkləyirlər. Onların peşəkar fikirləri müxtəlif şagirdlərin ehtiyaclarını ödəyən təcrübələrin formalaşmasına kömək edir.

Nəticə olaraq, təhsildə psixoloji dəstək könüllü xidmət kimi deyil, müasir məktəb təhsilinin vacib bir komponenti kimi qəbul edilməlidir. Bu, təkcə şagirdlərin akademik nailiyyətlərinə deyil, həm də emosional sabitliyinə və sosial adaptasiyasına töhfə verir. Məktəblərdə psixoloji xidmətlərin genişləndirilməsi və məktəb psixoloqlarının rolunun gücləndirilməsi təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün əsas şərtlərdir.

Bu təhlükəsizlik hissi ömür boyu öyrənməyə, şəxsi inkişafa və dözümlülüyə təşviq edir. Beləliklə, psixoloji dəstək təhsilin insan mərkəzli, humanist və davamlı inkişaf prinsiplərinə uyğun inkişafına xidmət edir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 265-267
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 265-267
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nərmin Mədədli**
Naxçıvan, Azərbaycan
https://orcid.org/0009-0008-7076-5515
m.narmin.nmi889@gmail.com

# Sosial mediada ünsiyyətin məktəblilərin real münasibətlərinə təsiri

***Açar sözlər:*** *sosial media, şagird ünsiyyəti, sosial-psixoloji inkişaf, pedaqoji təsir, kommunikasiya bacarıqları*

***Keywords:*** *social media, student communication, socio-psychological development, pedagogical impact, communication skills*

Müasir dövrdə sosial media məktəblilərin həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Virtual məkanda qurulan ünsiyyət onların real münasibətlərinə, emosional davranışlarına və sosial bacarıqlarına birbaşa təsir göstərir. Sosial media məktəblilərə dost çevrəsini genişləndirmək, özünüifadə bacarıqlarını inkişaf etdirmək, dərs mövzularını müzakirə etmək və dünyagörüşlərini artırmaq imkanı yaradır. Lakin eyni zamanda real dialoq bacarıqlarının zəifləməsi, empatiya və emosional ünsiyyətin azalması, kiberzorbalıq və sosial müqayisələr kimi mənfi nəticələr də ortaya çıxır. Buna görə sosial media məktəblilər üçün həm faydalı, həm də riskli bir mühitdir. Onun istifadəsində balansın qorunması, valideyn və müəllimlərin nəzarəti, eləcə də şagirdlərin üzbəüz ünsiyyət bacarıqlarının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı məktəblilərin gündəlik həyatına dərin təsir göstərmişdir. Xüsusilə sosial media platformaları şagirdlər arasında ünsiyyətin əsas vasitələrindən birinə çevrilmişdir.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Əvvəllər dostlarla görüşmək, ünsiyyət qurmaq və münasibətləri möhkəmləndirmək üçün əsasən canlı dialoqlara üstünlük verildiyi halda, bu gün virtual ünsiyyət real münasibətləri əvəz etməkdədir. Bu vəziyyətin həm müsbət, həm də mənfi tərəfləri mövcuddur.

Sosial media şagirdlərin dost çevrəsini genişləndirməsinə, yeni insanlarla tanış olmasına şərait yaradır. Bu, onların sosiallaşmasına müsbət təsir edir və dünyagörüşlərini artırır. Bundan başqa, virtual məkanda sərbəst şəkildə fikir ifadə etmək imkanı məktəblilərdə özünüifadə bacarığını inkişaf etdirir. Məsələn, sosial şəbəkələrdə yazışmalar, müxtəlif mövzular ətrafında aparılan müzakirələr şagirdlərin ünsiyyət vərdişlərinin təkmilləşməsinə dəstək ola bilər. Digər tərəfdən, sosial media təhsil prosesində də mühüm rol oynayır. Şagirdlər dərs mövzuları ilə bağlı onlayn qruplarda müzakirələr aparır, layihələrdə birgə əməkdaşlıq edir və bu da onların məsuliyyət hissini artırır.

Lakin sosial medianın ünsiyyətə təsiri yalnız müsbət tərəflərlə məhdudlaşmır. Əksinə, virtual ünsiyyətin çoxluğu məktəblilərdə real münasibətlərin zəifləməsinə gətirib çıxara bilər. Canlı ünsiyyət zamanı formalaşan bacarıqlar – jest və mimika ilə qarşı tərəfi anlamaq, emosional vəziyyəti dərk etmək, aktiv dinləmə qabiliyyəti zəifləyir. Bu isə şagirdlərin emosional sferasında boşluqlar yaradır.

Digər mühüm məqam sosial mediada "ideal obraz"ların yaradılmasıdır. Məktəblilər tez-tez özlərini başqaları ilə müqayisə edir, bu isə özünəinamın azalmasına və psixoloji gərginliyə səbəb olur. Sosial şəbəkələrdə yayılan kiberzorbalıq halları isə daha təhlükəlidir. Bu cür neqativ münasibətlər şagirdlərdə stress, aqressiya və sosial təcrid halları doğura bilər.

Sosial mediadan həddindən artıq istifadə həmçinin məktəblilərin dərsə diqqətini yayındırır, vaxt itkisinə səbəb olur.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Bəzi hallarda asılılıq yaradır ki, bu da onların həm psixoloji, həm də fiziki sağlamlığı üçün təhlükəlidir. Beləliklə, sosial media məktəblilərin münasibətlərinə ikili təsir göstərir: bir tərəfdən ünsiyyət imkanlarını genişləndirir, digər tərəfdən real münasibətlərin zəifləməsinə yol açır.

Bu səbəbdən sosial media istifadəsində balansın qorunması vacibdir. Valideynlər övladlarının sosial şəbəkələrdə keçirdiyi vaxtı nəzarətdə saxlamalı, müəllimlər isə şagirdlərə canlı ünsiyyətin əhəmiyyətini izah etməlidirlər. Məktəblilərin ünsiyyət bacarıqlarının inkişafı üçün müxtəlif qrup işləri, oyunlar, kollektiv fəaliyyətlər təşkil edilməli, onların üzbəüz ünsiyyət vərdişləri dəstəklənməlidir. Yalnız bu halda sosial media məktəblilərin həyatında faydalı və təhlükəsiz bir ünsiyyət vasitəsinə çevrilə bilər.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 268-273
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 268-273
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Kübra Quliyeva**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0001-2349-9065
k.guliyeva@yahoo.com

# Azərbaycanda XIX-XX əsrlərdə ana dilinin inkişafında görkəmli şəsxiyyətlərin rolu

***Açar sözlər:*** *ana dili, maarifçilik hərəkatı, milli mədəniyyət*
***Keywords:*** *mother tongue, enlightenment movement, national culture*

XIX-XX əsrlərdə Azərbaycanda ana dili məsələsi görkəmli şəxsiyyətlərin istər yaradıcılığında, istər çıxışlarında, istərsə də pedaqoji ideyalarında mübahisəli məsələlərdən birinə çevrilmişdi. Dövrün görkəmli ziyalılarından Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, M.F.Axundov və b. bu yolda, istiqamətdə mübarizələrini davam etdirir, doğma ana dilimizi yad təsirlərdən qorumaq uğrunda çalışırdılar. Onların bu yolda öz canları bahasına apardıqları mübarizə öz bəhrəsini verdi. Dilimiz, əlifbamız öz müstəqil yoluna qədəm qoydu, çiçəkləndi.

Dil hər bir xalqın etnik fəaliyyətini, fərdiliyini təcəssüm etdirir. Dil xalqın varlığıdır, varolma qayəsidir, hökmranlığının sübutudur. Bütün dövrlərdə dil məsələsi dünya xalqlarının mədəniyyətinin, yaşayış tərzinin, ümumən həyatının mühüm amilinə çevrilib. İnsanların cəmiyyətə çıxışı məhz dil və nitqlədir. Dünyada 244 adda ölkənin bir çoxunun özünəməxsus, öz tarixi kökənlərinə uyğun dilləri vardır. Bir çox dillər isə tarix, zaman öz məngənəsinə salmış, sıradan çıxarmışdır. Bəzi dillərdə var ki, əsrlərdir öz hökmranlığını qoruyub saxlayır. Türk dili məhz bu qəbildən olan dillər qrupuna daxildir. Azərbaycan türkcəsi ən təmiz dil hesab olunur və türk dilləri qrupunda

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 268-273
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 268-273
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

özünəməxsusluğu ilə seçilir. Dilimiz Azərbaycandan başqa Rusiyada, Dağıstanda, Gürcüstanda, İranda, İraqda, Türkiyədə, Suriyada, Ukraynada, Böyük Britanyada, Almaniyada, Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda yayılmışdır. Ana dilimizdə danışanların sayı təqribən 50 milyon nəfəri əhatə edir (Məmmədli, Əhmədova, 2018, s. 5).

Dilimizin inkişafı çoxəsrlik tarixi yolu izləmişdir. Xüsusilə XIX-XX əsrlər ana dili uğrunda mübarizənin kəskin hal aldığı bir dövrə təsadüf edir. XIX əsrin sonların ana dili məsələsinə münasibət güclənmiş, XX əsrin sonlarında isə rəsmi, nəzəri-təcrübi ifadəsini tapmışdı. Maarifçilik hərəkatının sürətlənməsi ilə elm adamları fəaliyyət sahələrini genişləndirir, yarı gizli, yarı açıq şəkildə fikirlərini bəyan edərək xalqı təhsilə, işıqlığa çıxarmağa üçün çalışır, eləcə də doğma ana dilində danışmaq və yazmaq uğrunda hərtərəfli işlər görürdülər. O görkəmli şəxsiyyətlərdən, maarifçilərdən M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, N.Nərimanov, AXC-nin qurucusu M.Ə.Rəsulzadə və b. qeyd edə bilərik.

AXC-nin fəaliyyətə başlamasa ilə Azərbaycan xalqının həyatının bütün sahələrində irəliləyişlər baş verdi. Unudulmaz işlərə imzalar atıldı. Bu işlər içərisində M.Ə.Rəsulzadənin ana dilində, doğma türkcənin inkişaf etdirilməsi sahəsində gördüyü işlər öz mahiyyət etibarı ilə seçilir. O, məsələ ilə bağlı "Dil ictimai mühüm bir amil kimi" adlı məqaləsində dil və millətin birliyinə diqqət yetirmişdi. Yazırdı ki, dil millətlə bərabər var olur. Dilsiz millət olmadığı kimi, millətsiz də dil olmaz. Dili millətin canı, əsas varlığı kimi səciyyələndirirdi. Milli mədəniyyət uğrunda olan mübarizəni dillə bağlı olan məktəb, ədəbiyyat uğrunda mübarizəyə bərabər tuturdu. Əminliklə deyirdi ki, həqiqətən milləti hər şeydən artıq dil təmsil edir.

AXC dövründə həmçinin Osmanlı türkcəsi istər bədii dildə, istərsə də rəsmi-işgüzar üslubda öz təsir gücünü göstərmişdi.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Milliləşmə siyasəti aparılır, Osmanlı türkcəsi əsas götürüləркdən ana dilinin statusu ali səviyyədə təsbit edilirdi. Ana dilində, doğma türkcədə danışmaq məsələsi o qədər gücləndi ki, 1918-ci il 27 iyun tarixində Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərar elan edildi. Bu qərar əsasında 13 noyabrdan etibarən məktəblərin milliləşdirilməsi prosesinə keçirildi. M.Ə.Rəsulzadəyə görə, yad dildə təlim-tərbiyə verilən məktəblərdə məqsəd birbaşa olmasa da, dolayısı ilə gənc nəsli şovinizm ruhunda tərbiyələndirməyə xidmət edir, gəncləri öz soykökündən uzaqlaşdırır, tarixini, ədəbiyyatını, adət-ənənəsini unutdurur, nəticədə vətəninə, xalqına fayda verə bilməyən bir insana çevirir (Azərbaycan ədəbi dil tarixi IV cilddə: IV cild, 2018, s. 22).

O, həmçinin mədəni yaşayış üçün 3 əsas amili- milliyyət, beynəlmiləliyyət və müasirliyi qeyd edirdi. Dili yad təsirlərdən qorumaq və inkişaf etdirməyi gənc nəsillərə tövsiyyə edirdi. Yeni sözlərin dilimizə əlavə edilməsinə qarşı çıxmırdı, sadəcə dilin əsas mahiyyətindən uzaqlaşıb tamailə yadlaşmaya qarşı idi. Onun bu fikirləri dövrünün görkəmli maarifçisi Ö.F.Nemanzadə ilə səsləşir. Təbii haldır ki, dil öz-özlüyündə mövcud deyil. Daha yaxın dillərin hesabına daha da zənginləşir, inkişaf edir. M.Ə.Rəsulzadə dilimizin başlıca inkişaf yolunu əlifbanın qaydaya salınmasında görürdü. O, "Əlifba bayramı" adlı məqaləsində milli əlifbanın yoxluğuna təəssüflənirdi. M.F.Axundzadənin əsasını qoyduğu əlifba islahatı tərəfdarı idi. Təzə əlifbanın qəbulunu inqilabi məsələ kimi səciyyələndirirdi.

Dövrünün görkəmli ziyalılarından Ö.F.Nemanzadə də məqalələrində ana dilinə üstünlük vermiş, doğma dildə dərslərin keçirilməsi, uşaqları bu yolda istiqamətləndirməyin əsas xüsusiyyət olduğunu diqqətə çatdırmışdır. Ana dili onun uğrunda mübarizənin aparılması, inkişaf etdirilməsi haqqında "Milli məsələlərimizin vaxtımı?", "Eşq və məhəbbət", "Diləklərimiz",

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

"Milliləşmək" və s. məqalələrində xüsusi vurğulamışdır. Milli, doğma ana dili məsələlərinə olduqca həssaslıqla yanaşmışdır. O, maarif, elm, ana dili məsələlərini ölüm dirim məsələsi hesab etmişdir. O, ana dilinin təkcə məktəblərdə tədrisi ilə kifayətlənməli olduğumuzu deyil, mətbuatda, qəzetdə və jurnallarda nəşrinə nail olmağı üstün tuturdu. Nəinki öz dövrünün gələcək nəsillərin də öz doğma dillərini inkişaf etdirilməsi yollarını mətbuatda görürdü. Müəllif ana dilli mətbuatın az və ya heç olmayan millətlərin güclərinin yoxluğu qənaitində idi.

Türklər, türk dilli xalqlar qədim dövrlərdən bugünümüzədək böyük, əzəmətli bir tarixin təməlini qoymuşlar. Lakin bu tarixi tikilinin, əzəmətin istifadə etdiyi dil doğma, ana dilindən uzaqlarda idi. Onlar ərəb və fars ədəbiyyatının əsirinə çevrildi, ana dillərini yaddan çıxardılar. Ö.F.Nemanzadə bununla bağlı yazırdı: *"Türklər nə qədər ki, türklükdən, Türküstandan uzaq düşüb, əsrlərcə ərəb hökuməti və dini, fars ədəbiyyatı, nüfuzu altında qaldılar, o qədər türklərini və türk dilini itirdilər.*

*Hətta demək olar ki, türklər müsəlman olandan bu yana nə qədər əzəmətli türk hökümətləri vücuda gətirirdilərsə, bir o qədər də ərəb və fars ədəbiyyatına, dilinə əsir olub, öz dillərini yaddan çıxartadılar. Həmd olsun ki, axır vaxtda Anadolu səlcuqları biraz türkcə yazmağa tənəzzül edib, türk dilini rəsmi dil elədilər. Səlcuq türkləri ərəb hərfləri ilə türkcə yazmağa başlayanda təbii çox zəhmət çəkdilər...*

*Şəkk yoxdur ki, lap əski türk yazılarıözgənin nüfuzuna tabe olmadığı üçün səlcuqların və hətta osmanlıların indiki türk yazılarından daha doğru, daha asan oxunurlar" (Qurbanov, 1992, s. 187).*

Pedaqoq digər xalqların öz dillərinə olan münasibəti müqayisə etmişdir. Ana dilinin özəyini təşkil edən, yazı mədəniyyətin imla yazmaq mədəniyyətinin zəifliyindən çox təəssüflənirdi. İmlalarımızın müəyyən bir üsullarla ümumiləş-

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 268-273
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 268-273
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

dirildiyini, yalnız müsəlman türklərinin deyil, müsəlman aləminin yazılı imladan xəbərsiz olduğunu deyir və əlifbanın dəyişdirilməsi, yenilənməsi tərəfdarı olduğunu qeyd edirdi. Əlifbanın dəyişdirilməsi və doğma türkcəyə çevrilməsi mənaların daha sadə və anlaşıqlı olacağı qənaitində idi. Ona görə artıq keçmişdən əl çəkib gələcəyi fikirləşməyin vaxtı idi.

XX əsrin başlanğıc mərhələsində xüsusilə dil məsələsində öz sözünü deyən M.Ə.Rəsulzadə yada düşürsə, XX əsrin son mərhələsində isə ana dilinin yüksək səviyyədə inkişafı, məktəblərin sürətlə ana dilində tədrisə başlaması, bu istiqamətdə, fərman və sərəncamların imzalanması məhz görkəmli ziyalı, ümumilli lider, Azərbaycan xalqının həyatında əsaslı dəyişikliklərə imza atan, dünya liderləri içərisində xüsusilə tanınan görkəmli dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində dövlət dilinin Azərbaycan dili olması haqqında qərar qəbul edildi. Ümummilli lider Heydər Əliyev "Dövlət dilinin təkmilləşdirilməsi haqqında" xüsusi bir fərman imzalamışdı. Həmin ilin 1 avqust tarixindən etibarən isə ümumilli liderin fərmanı ilə əlifba günü qeyd olunmağa başlanılır.

Hal-hazırda ümummilli liderin başlatdığı bu yolu Azərbaycan xalqının inkişafı və dünya xalqları sırasında dayanması, gənc nəslin təhsil keyfiyyətinin artırılması, elm və idman sahəsində nailiyyətlərin artırılması istiqamətində uğrurlu siyasəti cənab prezident İlham Əliyev davam etdirir. Azərbaycan dili dünya xalqları içərisində tanınır və gələcək gənc nəsillər tərəfindən də tanıdılacaqdır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## Ədəbiyyat

1. Azərbaycan ədəbi dil tarixi (IV cilddə: IV cild, XX əsr). (2007). *Şərq-Qərb*.
2. Məmmədli, R., & Əhmədova, S. F. (2018). *Köçərli adına Respublika Uşaq Kitabxanası: Ana dilimiz milli sərvətimizdir.*
3. Qurbanov, Ş. (1992). *Ö. F. Nemanzadə: Seçilmiş əsərləri*. Yazıçı.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Günel İbrahimova**
Naxçıvan Qida Təhlükəsizliyi İnstitutu
https://orcid.org/0009-0001-6614-7967
ibrahimligm@mail.ru

# Sağlam qidalanmanın insan psixologiyasına təsiri

***Açar sözlər:*** *sağlam qidalanma, psixoloji sağlamlıq, neyrotransmitterlər, omeqa-3 yağ turşuları, serotonin, dopamin, depressiya, beyin fəaliyyəti*
***Keywords:*** *healthy eating, psychological health, neurotransmitters, omega-3 fatty acids, serotonin, dopamine, depression, brain activity*

Son illər düzgün qidalanmanın fiziki sağlamlığa təsiri elmi ictimaiyyətdə və dövrü mətbuatda geniş müzakirə edilsə də, onun psixoloji rifaha təsiri elmi araşdırmalardan kənarda qalmışdır. Halbuki, yediyimiz hər bir qida maddəsi təkcə orqanizmin funksiyalarını deyil, həm də beynimizin fəaliyyətinə, əhval-ruhiyyəmizə və ümumi psixoloji vəziyyətimizə birbaşa təsir edir. "Sən nə yeyirsənsə, osan" deyimi, əslində, psixoloji baxımdan da böyük həqiqəti əks etdirir.

Bu tədqiqatda məqsədimiz qidalanma və insan psixologiyası arasındakı əlaqənin elmi əsaslarını, bu əlaqənin necə işlədiyini və gündəlik qida seçimlərimizin zehni sağlamlığımıza necə təsir etdiyini daha dərindən araşdırmaqdan ibarətdir.

Sağlam qidalanma təkcə fiziki deyil, həm də psixoloji sağlamlığımızın təməlidir. Yediyimiz qidaların psixologiyamıza necə təsir etdiyini anlamaq, daha şüurlu qida seçimləri etməyimizə kömək edir. Düzgün qidalanma vərdişləri ilə depressiya, narahatlıq kimi psixoloji problemlərin riskini azaltmaq, əhval-ruhiyyəmizi

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

yaxşılaşdırmaq, zehni açıqlığımızı artırmaq və ümumilikdə daha balanslı bir həyat tərzi yaşamaq mümkündür. Unutmayaq ki, sağlam bədəndə sağlam ruh olar və bu sağlamlığın açarı da boşqabımızda gizlidir.

**1. Qidalanma zamanı maddələr mübadiləsinin beyin fəaliyyəti ilə əlaqəsi**

Beynimiz, bədənimizin ən mürəkkəb orqanı olaraq, düzgün fəaliyyət göstərmək üçün müəyyən qida maddələrinə ehtiyac duyur. Serotonin, dopamin, noradrenalin kimi neyrotransmitterlər əhval-ruhiyyə, motivasiya, yuxu və diqqət kimi psixoloji funksiyaları tənzimləyir. Neyrotransmitterlər qidalanmamızdan birbaşa asılıdır. Beynimiz davamlı qida maddələrinə ehtiyac duyur. Bu neyrotransmitterlərin sintezi üçün isə zülallar, kompleks karbohidratlar, sağlam yağlar (xüsusilə Omeqa-3 yağ turşuları), vitaminlər (B qrupu vitaminləri, D vitamini) və minerallar (maqnezium, sink, dəmir) vacibdir. Məsələn, triptofan adlı amin turşusu serotonin sintezində əsas rol oynayır. Serotoninin tez-tez "xoşbəxtlik hormonu" adlandırırlar, əhval-ruhiyyənin, yuxunun, iştahın və həzm sisteminin tənzimlənməsində mühüm rol oynayır. Serotoninin böyük bir hissəsi (təxminən 90%) bağırsaqlarda sintez olunur və triptofan adlı amin turşusundan əmələ gəlir. Bu qidaların çatışmazlığı serotonin səviyyələrinin aşağı düşməsinə və nəticədə depressiya, narahatlıq və yuxu problemlərinə yol aça bilər. Triptofan isə toyuq əti, balıq, yumurta, süd məhsulları və qoz-fındıq kimi qidalarda bol olur. Qida rasionumuzda bu maddələrin çatışmazlığı neyrotransmitter balansını pozaraq depressiya, narahatlıq və yuxu pozğunluqlarına səbəb ola bilər.

Mükafat, motivasiya və həzz hissləri ilə əlaqəli olan dopamin, fokuslanma və hərəkət üçün vacibdir. Dopaminin sintezi üçün tirozin adlı amin turşusu əsasdır. Tirozin zülalla zəngin qidalarda, məsələn, ət, balıq, süd məhsulları və paxlalılarda tapılır. Dopamin

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 274-279
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 274-279
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

çatışmazlığı motivasiyasızlığa, enerji itkisinə və həzz ala bilməməyə səbəb ola bilər.

Qamma-aminobutirik turşusu (QABA): Beyin fəaliyyətini sakitləşdirən və narahatlığı azaldan əsas inhibitor neyrotransmitterdir. Tam taxıllar, yulaf, brokoli və ispanaq kimi qidalarda olan maqnezium QABA sintezini dəstəkləyir. Maqnezium çatışmazlığı narahatlıq, stress və yuxu pozğunluqlarına səbəb ola bilər.

Bu neyrotransmitterlərin sintezi üçün təkcə amin turşuları deyil, həm də B qrupu vitaminləri (B6, B9, B12), C vitamini, D vitamini, sink və dəmir kimi mikroelementlər də əvəzsizdir. Məsələn, B12 vitamini enerji istehsalı və neyron funksiyaları üçün kritikdir, onun çatışmazlığı yorğunluq və depressiya ilə əlaqələndirilir.

**2. Qidalanma tərzinin əhval-ruhiyyəyə təsiri**

Araşdırmalar göstərir ki, müəyyən qidalanma tərzləri psixoloji sağlamlığa müsbət və ya mənfi təsir göstərə bilər.

Həddindən artıq şəkər və emal olunmuş qidaların istehlakı qan şəkərində sürətli yüksəlişlərə və enişlərə səbəb olur. Bu, "şəkər çöküşü" adlanan və yorğunluq, əsəbilik, diqqət pozğunluğu ilə müşayiət olunan vəziyyət yaradır. Uzun müddətli dövrdə bu cür qidalanma beynin insulin müqavimətinə və hətta koqnitiv funksiyaların zəifləməsinə gətirib çıxara bilər. Kompleks karbohidratlar (tam taxıllar, paxlalılar, tərəvəzlər) isə qan şəkərinin sabit qalmasına kömək edərək beynin davamlı enerji ilə təmin olunmasını təmin edir. Şəkərli və emal olunmuş qidaların uzun müddətli istifadəsi isə iltihabi prosesləri artıraraq depressiya riskini yüksəldə bilər.

**3. Omeqa-3 Yağ Turşularının faydaları**

Beyin hüceyrələrinin membranlarının əsas komponenti olan Omeqa-3 yağ turşuları (EPA və DHA), sinir hüceyrələri arasında siqnal ötürülməsində vacib rol oynayır. Onların çatışmazlığı depressiya, narahatlıq və diqqət defisiti ilə əlaqələndirilir. Balıq

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 274-279
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 274-279
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

(qızılbalıq, sardina), çia toxumu, kətan toxumu və qoz kimi qidalarda bol olan Omeqa-3 yağ turşuları beyin funksiyaları üçün vacibdir. Onlar iltihabı azaltmaqla yanaşı, depressiya və narahatlıq simptomlarını yüngülləşdirməyə kömək edir. Qızılbalıq, sardina, skumbriya kimi yağlı balıqlar, çia toxumu, kətan toxumu və qoz Omeqa-3-lə zəngindir.

Probiotiklər və prebiotiklər: Son illər aparılan elmi araşdırmalar göstərir ki, bağırsaqlarımızda yaşayan milyardlarla bakteriya (mikrobiom) beyin funksiyaları ilə sıx əlaqədədir. Kefir, qatıq, kələm turşusu kimi probiotik zəngin qidalar və lifli tərəvəzlər kimi prebiotiklər bağırsaq sağlamlığını dəstəkləyərək əhval-ruhiyyəyə müsbət təsir göstərir.

"Bağırsaq-beyin oxu" adı verilən bu əlaqə, bağırsaqlarda sintez olunan neyrotransmitterlərin (xüsusilə serotoninin böyük hissəsi) beynin funksiyasına təsirini göstərir. Bağırsaq mikrobiomu neyrotransmitterlərin sintezində (məsələn, serotoninin böyük hissəsi bağırsaqlarda sintez olunur), immunitet sisteminin tənzimlənməsində və iltihabın nəzarətdə saxlanmasında rol oynayır. Probiotiklər (kefir, qatıq, kələm turşusu, kimchi) və prebiotiklər (lifli tərəvəzlər, sarımsaq, soğan, banan) bağırsaq sağlamlığını dəstəkləyərək stressə qarşı müqaviməti gücləndirərək, əhval-ruhiyyənin yaxşılaşmasına müsbət təsir göstərir.

Meyvə və tərəvəzlərdə bol olan antioksidantlar oksidativ, stress isə psixoloji problemlərin inkişafında rol oynayan amillərdəndir. C və E vitamini, beta-karoten, flavonoidlər insan beyninə oksidativ təsir göstərməklə stressdən sərbəst radikalların hüceyrələrə zərər verməsindən qoruyur. Oksidativ stress, Alzheimer, Parkinson kimi neyrodegenerativ xəstəliklərlə yanaşı, depressiya və narahatlıq kimi psixoloji problemlərin inkişafında da rol oynayan amillərdəndir. Rəngli meyvə və tərəvəzləri (giləmeyvələr, ispanaq, qırmızı bibər) rasionumuza daxil etmək beyin hüceyrələrini qorumağa kömək edir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## 3. Qidalanma, zehn, intellekt, yaddaş, düçüncə....

Sağlam qidalanma təkcə əhval-ruhiyyəyə deyil, həm də konsentrasiyaya, yaddaşa və öyrənmə qabiliyyətinə müsbət təsir göstərir. Beyin, qlükozadan enerji alan bir orqandır. Stabil qan şəkəri səviyyəsi, beyinə davamlı enerji axını təmin edərək zehni yorğunluğun qarşısını alır və koqnitiv funksiyaları optimallaşdırır. Səhər yeməyinin vacibliyi də məhz buradan irəli gəlir; səhər naharı etməyən uşaqların məktəb performansında zəifləmə müşahidə olunur.

Aşağı dərəcəli xroniki iltihab, depressiya və digər psixi sağlamlıq problemləri ilə əlaqələndirilir. Yüksək miqdarda işlənmiş qidalar, qırmızı ət, hidrogenləşdirilmiş yağlar və şəkərlə zəngin qidalanma iltihab səviyyəsini artıra bilər. Əksinə, meyvələr, tərəvəzlər, tam taxıllar, Omeqa-3 yağ turşuları ilə zəngin balıqlar (qızılbalıq, sardina), qoz-fındıq və zeytun yağı iltihab əleyhinə təsir göstərərək beyin sağlamlığını dəstəkləyir.

Su balansı- dehidratasiya (susuzlaşma) baş ağrısı, yorğunluq, konsentrasiya çətinlikləri və əhval-ruhiyyənin pisləşməsinə səbəb ola bilər. Gün ərzində kifayət qədər su içmək beyin funksiyalarını optimal səviyyədə saxlamaq üçün vacibdir.

Sağlam qidalanmanın insan psixologiyasına təsiri istiqamətində aparılan tədqiqatı ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, insanların əhval-ruhiyyəsini yüksəltmək və psixoloji vəziyyətini yaxşılaşdırmaq məqsədilə sağlam qidalanmaya üstünlük verməklə qida rasionunda aşağıdakı dəyişikliklərin edilməsi məqsədəmüvafiq hesab edilir:

- Rasionunuzda müxtəlif növ meyvə, tərəvəzlər, tam taxıl məhsulları, yağsız zülallar və sağlam yağlar istifadə olunmalıdır;
- İşlənmiş, təkrar emal edilmiş qidalardan uzaq durun! Şəkərli içkilər, qənnadı məmulatları, “fast food” və digər yüksək dərəcədə emal olunmuş qidaların istehlakı məhdudlaşdırılmalıdır;

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

- Həftədə ən azı iki dəfə yağlı balıq yeyilməli və ya balıq yağı əlavələri (həkimlə məsləhətləşərək) qəbul edilməlidir;
- Bağırsaq sağlamlığını dəstəkləmək üçün kefir, qatıq, kələm turşusu kimi probiotiklə zəngin qidaları və lifli tərəvəzləri rasionumuza əlavə edilməlidir;
- Gün ərzində kifayət qədər su içməyə diqqət edilməlidir;
- Qan şəkəri səviyyəsini sabit saxlamaq üçün müntəzəm fasilələrlə kiçik, balanslı yeməklər qəbul edilməlidir;
- Həddindən artıq kofein və alkoqol narahatlığı artıra və yuxu rejimini poza bildiyindən məhdudlaşdırılmalıdır.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Fəridə Mikayılova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0003-2342-9686
farida.aliyeva1008@gmail.com
**Gülnaz Babayeva**
Naxçıvan Dövlət Universisteti
bakalavr
https://orcid.org/0009-0004-3926-5046
babayevagulnaz2007@gmail.com

# Şagirdlərdə psixoloji gərginlik və müəllimin rolu

***Açar sözlər:*** *şagirdlərdə psixoloji gərginlik, müəllim-şagird münasibətləri, didaktogen təsir, stress və təhsil, psixoloji dəstək*
***Keywords:*** *psychological stress in students, teacher-student relationships, didactic effect, stress and education, psychological support*

Müasir təhsil prosesində şagirdlərdə psixoloji gərginlik geniş yayılmış problemdir. Bu gərginlik tədris yükü, sosial münasibətlər və valideyn gözləntiləri ilə yanaşı, müəllimin pedaqoji yanaşmasından da asılıdır. Müəllimin dəstəkləyici və empatik davranışı şagirdlərin emosional rifahına müsbət təsir göstərir, onların öyrənməyə motivasiyasını artırır və akademik uğurlarını stimullaşdırır.

## I. Şagirdlərdə psixoloji gərginliyin səbəbləri

Davamlı gərginlikdə olan orqanizmdə stress hormonu artır və bunun nəticəsində öyrənmə, məntiqi və yaradıcı düşünmə qabiliyyəti azalır. Əslində, düzgün yanaşma və ciddi çalışmaqla bu problemi həll etmək olar. Lakin bununla belə, aşağıdakı amillər stressin güclənməsinə və xroniki hal almasına səbəb

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 280-282
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 280-282
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

olur. Məsələn, müəllimlərin şagirdlərə fərdi yanaşmamaları. Bu məsələdə müəllim-şagird münasibəti çox önəmlidir. Müəllim şagirdə fərdi yanaşmadıqda, zəif oxuyan uşağa dəstək göstərmədikdə onda inamsızlıq, laqeydlik hisləri yaranır və içində olduğu psixoloji gərginlik halından asanlıqla çıxabilmir.

Müəllim tədris prosesinin əsas fiqurudur. Onun davranışı, ünsiyyət üslubu, yanaşma tərzi şagirdin psixoloji vəziyyətinə birbaşa təsir göstərir. Müəllimin təsiri həm mənfi, həm də müsbət ola bilər:

Mənfi təsirlər:

- Sərt və avtoritar yanaşma. Həddindən artıq tələbkarlıq, təhdid və cəza şagirdin qorxu və təşviş hissini artırır.
- Ədalətsiz qiymətləndirmə. Həqiqi nəticəni əks etdirməyən qiymətlər uşağın motivasiyasını zəiflədir və gərginlik yaradır.
- Didaktogen təsir. Şagirdi açıq şəkildə danlama, təhqir etmək və ya alçaltmaq uşağın psixikasında dərin iz buraxır.
- Müqayisə və favoritlik. Bəzi şagirdləri digərlərindən üstün tutmaq, başqalarını isə zəif göstərmək gərginliyi artırır.

Müsbət təsirlər:

- Empatiya və dəstək. Müəllimin şagirdin hisslərini anlamağa çalışması və ona anlayış göstərməsi gərginliyi azaldır.
- Motivasiyaedici yanaşma. Uşağın kiçik nailiyyətlərinin belə dəyərləndirilməsi, tərif edilməsi özünəinamı gücləndirir.
- Ədalətli və şəffaf qiymətləndirmə. Bu, şagirdlərdə obyektivliyə inam yaradır və ədalətsizlikdən doğan stresin qarşısını alır.
- Psixoloji rahat mühit yaratmaq. Dərslərdə demokratik üslubdan istifadə, açıq fikir mübadiləsinə imkan vermək şagirdlərin emosional gərginliyini minimuma endirir.

II .Müəllim dəstəyinin şagirdlərin gərginliyinə təsiri

Müəllim dəstəyi və şagirdlərin stressi əlaqəsini araşdıran Hoferichter və Raufelder müəyyən etdi ki, müəllim dəstəyi 1

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

dərs ili ərzində şagirdlərin akademik tükənməsinin inkişafına mane olur. İbtidai məktəb şagirdləri nümunəsində müəyyən edilmişdir ki, müsbət müəllim-şagird əlaqəsi uşaqlara stress hormonu kortizol ilə ölçülən stress tənzimləmələrinə xidmət edir.

Empirik tədqiqatlar göstərir ki, müəllimlərini dəstəkləyici kimi qəbul edən şagirdlər məktəbə daha yaxşı uyğunlaşırlar, yeni şeylər öyrənməyə daha çox maraq göstərirlər və daha yüksək bal ortalaması nümayiş etdirirlər.

Göstərilən araşdırmaya və COR-a əsaslanaraq, aşağıdakıları fərz edirik: Müəllim dəstəyi ilə qarşılaşan fərdi şagirdlər stres faktorlarının öhdəsindən gəlmək ehtimalı daha yüksəkdir. Bundan əlavə, həmin şagirdlər daha yüksək akademik nailiyyətlər nümayiş etdirirlər.

Şagirdlərin psixoloji gərginliyinin azaldılmasında müəllimin rolu həlledici əhəmiyyət daşıyır. Sərt və anlayışsız münasibət gərginliyi artırdığı halda, empatiya və fərdi yanaşma stressi azaldır və öyrənmə prosesini gücləndirir. Buna görə də təhsil sistemində yalnız akademik göstəricilər deyil, həm də şagirdlərin emosional rifahı nəzərə alınmalıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 283-286
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 283-286
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Ləyaqət Ələkbərova**
Şərur Şəhər 2 nömrəli orta məktəb
https://orcid.org/0009-0003-1912-3270
leyaqetalakberova@gmail.com

# Ümumtəhsil orta məktəblərdə riyaziyyatın öyrədilməsinin metodikası və psixoloji əsasları

***Açar sözlər:*** *müasir riyaziyyat, yaradıcı proses, riyazi savadlılıq, riyaziyyat, hipotezlərin qurulması*

***Keywords:*** *modern mathematics, creative process, mathematical literacy, mathematics, hypothesis building*

Hər hansı bir müasir ümumi təhsil sistemində riyaziyyat mərkəzi yerlərdən birini tutur və bu, şübhəsiz ki, bu bilik sahəsinin özünəməxsusluğunu göstərir. Müasir riyaziyyat nədir? Niyə lazımdır? Bu və buna bənzər suallar tez -tez uşaqlar tərəfindən müəllimlərdən soruşulur. Və hər dəfə cavab uşağın inkişaf səviyyəsindən və təhsil ehtiyaclarından asılı olaraq fərqli olacaq.

Ümumiyyətlə riyaziyyatın və xüsusən məktəb riyaziyyatının yaradıcı bir insanın tərbiyəsinə təsiri nədir? Riyaziyyat dərslərində problem həll etmə sənətinin öyrədilməsi şagirdlərdə müəyyən bir zehniyyətin inkişafı üçün son dərəcə əlverişli bir fürsət verir. Tədqiqat fəaliyyətinə ehtiyac qanunlara marağı inkişaf etdirir, insan düşüncəsinin gözəlliyini və harmoniyasını görməyi öyrədir. Bütün bunlar, fikrimizcə, ümumi mədəniyyətin ən vacib elementidir. Riyaziyyat kursu müxtəlif düşüncə formalarının formalaşmasına mühüm təsir göstərir: məntiqi, məkan-həndəsi, alqoritmik. İstənilən yaradıcı proses hipotezin formalaşdırılması ilə başlayır. Riyaziyyat, təlimin düzgün təşkili ilə, hipotezlərin qurulması və sınanması üçün yaxşı bir məktəb

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

olmaqla, bizə müxtəlif fərziyyələri müqayisə etməyi, ən yaxşı variantı tapmağı, yeni problemlər qoymağı və onların həlli yollarını axtarmağı öyrədir. Başqa şeylər arasında, metodik iş vərdişini də inkişaf etdirir, onsuz heç bir yaradıcı proses təsəvvür edilə bilməz. İnsan təfəkkürünün imkanlarını maksimum dərəcədə artıran riyaziyyat ən yüksək nailiyyətidir. Bir insanın özünü tanımasına və xarakterinin formalaşmasına kömək edir. Bu, riyazi biliklərin ümumi mədəniyyətin ayrılmaz bir hissəsinə və uşağın tərbiyəsi və təhsilində əvəzolunmaz bir elementə çevrilməsinin səbəblərinin uzun siyahısından bir azdır. 11 illik məktəbimizdə riyaziyyat kursu (həndəsə olmadan) əslində üç əsas hissəyə bölünür: hesab (I-V siniflər), cəbr (VI-VIII siniflər) və analiz elementləri (IX-X siniflər).

Riyaziyyat insan düşüncəsinin və məntiqinin əsas hissəsidir və dünyanı və özümüzü dərk etmək cəhdlərinin ayrılmaz hissəsidir. Riyaziyyat zehni nizam-intizamın qurulmasının effektiv yolunu təmin edir və məntiqi düşünməyə və əqli sərtliyə həvəsləndirir. Bundan əlavə, riyazi biliklər elm, sosial elmlər, hətta musiqi və incəsənət kimi digər məktəb fənlərinin məzmununu başa düşməkdə həlledici rol oynayır.

Əvvəlcə sual veririk: niyə riyaziyyat digər fənlər arasında belə mühüm və unikal yer tutur? Yəni, ümumi məktəb proqramında riyaziyyatın əhəmiyyəti nədir? Çıxış nöqtəsi olaraq, riyaziyyatın nə üçün ümumi kurrikulumda vacib bir fənn kimi qəbul edilməsinə dair bir neçə fikir təklif edirik.

- Riyaziyyatın köndələn təbiəti var. Ümumiyyətlə kurrikulumun tarixinə nəzər salsaq, o zaman riyaziyyat (həndəsə və cəbr) orta əsrlərdə olduğu kimi yunan dilində də yeddi liberal sənətdən ikisi idi. Bu tarixi rol riyaziyyatın digər fənlər üçün tələb olunan zehni intizamı təmin etdiyi anlayışını dəstəkləyir.

- Riyazi savadlılıq konstruktiv, qayğıkeş və düşüncəli vətəndaşlar kimi daha səmərəli həyat sürən fərdlərin mühüm

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

atributudur. Riyazi savadlılığa əsas hesablama bacarıqları, kəmiyyət əsaslandırma, məkan qabiliyyəti və s. daxildir.

Riyaziyyat müxtəlif sahələrdə və fənlərdə tətbiq olunur, yəni riyazi anlayışlar və prosedurlar elm, mühəndislik, iqtisadiyyatdakı problemləri həll etmək üçün istifadə olunur. (Məsələn, mürəkkəb ədədlərin başa düşülməsi elektronikada bir çox anlayışı öyrənmək üçün ilkin şərtdir.) Həmin problemlərin mürəkkəbliyi yuxarıda qeyd olunan riyazi savadla müqayisədə çox vaxt nisbətən təkmil riyazi anlayışlar və prosedurlar tələb edir.

- Riyaziyyat bizim bəşəri mədəni irsimizin bir hissəsidir və biz o irsi inkişaf etdirməyə borcluyuq.

İkincisi, riyaziyyat digər məktəb fənləri, məsələn, elmlər, incəsənət, iqtisadiyyat və s. üçün təməl bilik və bacarıqları təmin etdiyi üçün riyaziyyatın digər məktəb fənləri ilə necə iç-içə olması məsələsi həll olunmağa layiqdir. Bəzi kurikulumlarda riyaziyyat digər məktəb fənlərinin “instrumental fənn” kimi öyrənilməsidir.

Üçüncüsü, biz hər bir ölkənin kurrikulumundakı digər məktəb fənləri ilə müqayisədə riyaziyyata ayrılan saatların (saatların nisbəti) və/yaxud kursları üzərində düşünmək istəyə bilərik. Bu kəmiyyət təhlili ilə yanaşı, məktəb riyaziyyatının digər fənlərə münasibətdə keyfiyyət təsviri haqqında da məlumat toplamaq lazımdır. Baxmayaraq ki, bu müqayisə bizə müxtəlif ölkələrin niyə riyaziyyata verdikləri əhəmiyyətin tam mənzərəsini göstərməsə də, müqayisə yenə də əlavə müzakirələrə səbəb ola bilər. Dəstəkləmək üçün müstəqil olaraq təklif olunur, digər kurikulumlarda isə riyaziyyat və digər sahələri birləşdirən inteqrasiya olunmuş kurslar təklif olunur.

Görkəmli rus riyaziyyatçısı A.N.Kolmogorov yazırdı: "Riyaziyyat yalnız elmi dillərdən biri deyil. Riyaziyyat özü bir dildir, üstəgəl düşüncədir, sanki dil və məntiq birlikdədir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 283-286
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 283-286
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Riyaziyyat düşünmək üçün bir vasitədir. Bir çox insanın dəqiq düşüncəsinin nəticələrini cəmləşdirir. Riyaziyyatın köməyi ilə bir düşüncəni digərinə bağlamaq olar. Hər biri ayrı -ayrılıqda çox detallı bir izahat qəbul edən qəribə qanunları və qaydaları ilə təbiətin aşkar kompleksləri əslində yaxından əlaqəlidir. Riyaziyyatdan istifadə etmək istəyirsənsə, bu çoxlu sayda faktlarda məntiqin bir-birindən digərinə keçməsinə imkan verdiyini görməyəcəksən. Beləliklə, riyaziyyat ətraf aləmi öyrənmək üçün lazım olan müəyyən düşüncə formalarını formalaşdırmağa imkan verir.

**Riyaziyyatı asanlıqla öyrənmək üçün məsləhətlər və fəndlər.**

Müxtəlif tənliklər üçün düsturları yazmaq başlamaq üçün yaxşı bir yoldur. Nə qədər çox görsən, bir o qədər əzələ yaddaşına çevrilir.

Riyaziyyatı asanlaşdırmaq üçün törəmələri anlayın. Riyaziyyat digər fənlər kimi deyil, onun möhkəm məqsədi, əsaslandırması, məntiqi və müxtəlif həll yolları var. Bütün dünyada tətbiq olunur. Beləliklə, müəyyən bir düsturun və ya tənliyin və ya konsepsiyanın haradan əldə edildiyini anlamaq vacibdir.

Riyaziyyat ardıcıl bir fənndir, ona görə də əsasları başa düşməyə əsaslanan digər, daha mürəkkəb həllər üzərində işləməyə keçməzdən əvvəl riyazi mövzunun əsasını təşkil edən əsas anlayışları möhkəm başa düşmək vacibdir.

Riyaziyyatı bu dünyanın reallığına tətbiq edin. Riyaziyyat gündəlik dərsdir. Bu, praktiki olaraq həyat bacarığıdır. Real həyat vəziyyətlərinə nə qədər çox müraciət etsəniz və maraqlı olsanız, bir o qədər yaxşı nəticə əldə edəcəksiniz.

Riyaziyyatı əzbərləmək mənasızdır, çünki hər bir tənlik, hər problem öz unikallığı ilə gəlir. Əzbərləmək əvəzinə, anlayışları anlayın və bəzi anlayışların niyə belə işləndiyini təhlil edin.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 287-288
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 287-288
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Ülkər Məmmədova**
"ALMAZ" psixoloji və nitq inkişaf mərkəzi
https://orcid.org/0009-0004-9813-6674
mammadovaul91@gmail.com

# Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar

***Açar sözlər:*** *təhsil psixologiyası, innovativ yanaşma, emosional intellekt, generasiyalar, rəqəmsal təhsil*
***Keywords:*** *education psychology, innovative approach, emotional intelligence, generation, digital education*

Yeni dünyada təhsil sistemləri sosial, texnoloji və mədəni dəyişikliklərə uyğunlaşmaq və inteqrasiya olunmaq zərurəti ilə üzləşir. Qloballaşma və rəqəmsallaşma dövründə tədrisin yalnız bilik öyrətmək deyil, həm də şəxsiyyətin formalaşmasına xidmət etmək missiyası olduğundan, təhsilin psixoloji aspektlərinin öyrənilməsi və innovativ metodlarla birləşdirilməsi aktual elmi istiqamətlərdən biridir. Artıq 2025-ci ildə Beta generasiyası dünyaya göz açıb və onlar rəqəmsal və süni intellekt nəslidir. Yeni nəslin xüsusuiyyətlərini nəzərə alaraq, onlarda Emosional İntellektin inkişafını daim diqqət mərkəzində saxlamaq lazımdır. Yəni elm və texnologiyanın inkişafı fonunda, mənəvi dəyərlərin qorunub saxlanılması təhsil siyasətinin prioritet istiqaməti olaraq diqqətdə saxlanılmalıdır.

Təhsil psixologiyasının əsas məqsədi öyrənmə davranışlarını anlamaq və tədris prosesini bu biliklərə əsasən təşkil etməkdir. Müasir sistemdə məqsəd insan yetişdirmək və insan qazanmaq olmalıdır. Bu baxımdan, Emosional intellekt və fərdi fərqlər bu prosesdə mühüm rol oynayır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Tədris prosesi zamanı öyrədənlər generasiyaların fərqliliklərini və emosianal intellektin əhəmiyyətini diqqətdə saxlamalıdırlar. Çünki müəllim-şagird münasibətlərində sağlam psixoloji əlaqəni öyrənmənin keyfiyyətinə birbaşa təsir edən amil kimi qəbul etmək zəruridir. Bu baxımdan, dəstəkləyici mühit və anlayışlı müəllim davranışı şagirdin özünəinamını artırır, qorxu və təşvişini azaldaraq, öyrənmə prosesindəki effektivliyi artırır.

Qloballaşan dünyada innovativ təlim-tədris yanaşmaları öyrənmə prosesini maraqlı, yaradıcı və effektiv etməklə yanaşı, rəqəmsal texnologiyalar, problem və layihə əsaslı öyrənmə kimi metodlar psixoloji baxımdan motivasiyanı artırır və emosional intellekti təkmilləşdirir.

Nəticə etibarilə, təhsil sistemində psixoloji və innovativ yanaşmaların inteqrasiyası tədris prosesini daha insan yönümlü və səmərəli etməyə xidmət edir. Emosional intellektin inkişafı və müasir texnologiyaların tətbiqi təhsilin keyfiyyətini yüksəldərək dövlətin təhsil siyasətinə mühüm töhfə verir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 289-291
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 289-291
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Minurə Musayeva**
Məhdud fiziki imkanlılar üçün
Naxçıvan Regional İnformasiya Mərkəzi
https://orcid.org/0009-0003-6615-8118
minuremusa@gmail.com

# Müasir dövrdə inklüziv təhsil modeli

***Açar sözləri:*** *inklüziv təhsil, cəmiyyət, əlillik, xüsusi təhsil, pedaqoji kollektiv.*
***Keywords:*** *inclusive education, society, disability, special education, pedagogical team*

"*Təhsil müsəssisələri bütün uşaqları onların fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərinə baxmayaraq, qəbul etməlidir. Bu, əqli və fiziki ləngiməsi, xüsusi istedada malik, kimsəsiz, işləyən uşaqlara, etnik və mədəni azlıqlara mənsub uşaqlara da aiddir".* (Salamanka Bəyannaməsi, 1994 cü il)

Dünya təhsil tarixinə nəzər salsaq görərik ki, bir çox ölkələrdə əlilliyi olan uşaqlar üçün xüsusi təhsil müəssisəsi demək olar ki, yoxdur, onlar öz icmalarında digər həmyaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində keyfiyyətli təhsilə cəlb olunurlar ki, bu inklüziv təhsil adlanır. İnklüziv təhsilin inkişafı isə dünyanın bir çox ölkələrinin təhsil siyasətinin prioritet məsələlərindəndir.

Ölkə başçısı İlham Əliyevin 14 dekabr 2017-ci ildə imzaladığı "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na əsasən əlilliyi olan şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etmək və onların təhsili üçün maneəsiz

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

mühit yaratmaq lazımdır. Nəzərə alsaq ki, hər bir Azərbaycan vətəndaşı təhsilin növünü, təhsil müəssisəsini və tədrisin dilini sərbəst şəkildə seçmək hüququna malikdirlər, o zaman Dövlət Proqramının icrası istiqamətində əsas problem inklüziv təhsilin mahiyyətini düzgün dərk etmək, onu vətəndaşlara səmərəli mənimsətmək və maarifləndirmə işini mütəşəkkil təşkil etməkdən ibarət olur. Bununla bağlı BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının 24-cü maddəsində əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanınması və iştirakçı dövlətlərin üzərinə inklüziv təhsili tətbiq edilməsi ilə əlaqədar öhdəliklər qeyd olunub. Bu öhdəliyə aşağıdakılar daxildir:

- *Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmamasını təmin etmək;*
- *Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;*
- *Fərdi ehtiyacları nəzərə alaraq ağlabatan uyğunlaşdırmalar aparmaq;*
- *Əlilliyi olan şəxslərin ümumtəhsil sistemində zəruri dəstəyi almasına təminat vermək;*
- *İnklüzivliyin tam şəkildə təmin olunması üçün akademik və sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğunlaşdırılmış zəruri dəstək tədbirlərini təmin etmək.*

Əgər biz inklüziv təhsili reallaşdırmaq istəyiriksə, o zaman:

- cəmiyyətə xatırlatmaq lazımdır ki, sözümüz, əməlimiz, amalımız bir məqsədə xidmət edir;
- əmin olmaq lazımdır ki, təhsil müəssisələri bu işin öhdəsindən gələ bilər;
- inklüziv təhsilin həyata keçirilməsi işində xüsusi qaydaların tərtibinə və tətbiqinə ehtiyac yoxdur;
- pedaqoji kollektivin peşəkar potensialından tam istifadə edilməlidir;

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

- müsbət nəticəsi olan təcrübəni təbliğ etmək, yayılmasına şərait yaratmaq lazımdır;
- inklüziv təhsil haqqında beynəlxalq təcrübələr, ədəbiyyatlar öyrənilməlidir.

İnklüziv təhsil sadəcə olaraq əlilliyi olan uşaqların ümumtəhsil mühitində təhsil alması deyil. O, təhsil mədəniyyətinin, təhsillə bağlı siyasi sənədlərin və təcrübələrin geniş spektrli təhsilalanlara: əlilliyi olan və olmayan qızlar və oğlanlar, etnik, dil, dini, sosial-iqtisadi mənsubiyyətləri fərqli olan uşaqlara uyğun olması üçün yenidən qurulmasını ehtiva edir.

Fikrimizcə, inklüziv təhsilin tətbiqnin cəmiyyətdə uğur qazanmasının əsas səbəbi inklüziv cəmiyyətin yaranmasıdır. Deməli, təhsil proqramının icrası ilə birlikdə öz üzərimizdə işləməli insanlar arasında fərq olmadığına özümüzü inandırmalıyıq. İnanmalıyıq ki, əlillik onun bacarmaması deyil, bizim yanaşma tərzimizin verdiyi qiymətdir. Əgər önümüzdəki baryerləri aşmağı bacarsaq, o zaman həm inklüziv təhsilə sürətli keçid edərik, həm də cəmiyyətimizi inklüzivləşdirmiş olarıq.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 292-294
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 292-294
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nuray Cəlilli**
Ordubad rayon Aza kənd tam orta məktəbi
https://orcid.org/0009-0008-5318-9018
nuraycelilova624@gmail.com

# Təhsildə psixoloji aspektdən şagirdlərin motivasiyası və stresslə mübarizəsi

***Açar sözlər:*** *inteqrasiya, motivasiya, stress, interaktiv dərs, emosional gərginlik*

***Keywords:*** *integration, motivation, stress, interactive lesson, emotional tension*

Təhsil prosesində şagirdlərin yalnız bilik qazanması deyil, psixoloji durumunun da nəzərə alınması vacibdir. Motivasiya və stress idarəsi şagirdlərin öyrənmə nəticələrinə birbaşa təsir göstərən əsas psixoloji amillərdəndir. XXI əsrdə təhsil sisteminin modernləşməsi psixoloji yanaşmaların tədris prosesinə inteqrasiyasını tələb edir.

Motivasiya şagirdin öyrənmə fəaliyyətinə yönəlmiş daxili və xarici amillərin məcmusudur.

**Motivasiyanın növləri:**

- **Daxili motivasiya** – maraq, özünüinkişaf, şəxsi məqsədlərə çatmaq arzusu.
- **Xarici motivasiya** – qiymətlər, valideyn təzyiqi, mükafat, cəza.

Təhsildə motivasiya şagirdin dərsə davamiyyətini, biliklərin mənimsənilməsini və yaradıcılıq qabiliyyətini artırır. Yüksək motivasiyalı şagirdlərdə daha davamlı diqqət, problemlərin həllində kreativ yanaşma, akademik nailiyyətlərdə sabitlik müşahidə olunur. Motivasiya müəllim və valideynlərin dəstəyi ilə möhkəmləndirilir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Təhsil mühitində stress – şagirdin emosional, psixoloji və bəzən də fiziki gərginliyidir.

Stressin əsas səbəbləri:

- İmtahan və qiymət təzyiqi
- Müəllim və valideyn gözləntiləri
- Dərs yükünün çoxluğu
- Sosial mühit (dost münasibətləri, məktəb mühiti, mobbing)
- Özünə inamsızlıq.

Stressin nəticələri:

- Diqqət və yaddaş zəifliyi
- Tənbəllik və dərsə marağın azalması
- Həyəcan pozuntuları, fobiya, aqressiya
- Fiziki əlamətlər (yuxusuzluq, baş ağrısı, yorğunluq).

Motivasiya ilə stressin qarşılıqlı təsiri

Motivasiya çatışmazlığı şagirdlərdə stressi artırır. Yüksək stress motivasiyanı azaldaraq öyrənməyə mane olur. Balanslı motivasiya stressin mənfi təsirlərini azalda bilər. Təhsil prosesində motivasiyaedici mühit yaradılması stress idarəsini də asanlaşdırır.

Stresslə mübarizə yolları

1. Psixoloji dəstək: Məktəbdə psixoloq xidmətinin fəaliyyəti və şagirdlərlə fərdi məşğələlər.
2. Emosional tənzimləmə: Nəfəs məşqləri, meditasiya, relaksasiya texnikaları.
3. Zamanın düzgün idarəsi: Dərs və istirahət balansı, düzgün gündəlik rejim.
4. Müəllimlərin rolu: Şagirdlərə dəstək verən, ədalətli qiymətləndirən və müsbət motivasiya edən yanaşma.
5. Valideynlərin dəstəyi: Uşağın fərdi qabiliyyətlərini nəzərə almaq, təzyiqi minimuma endirmək.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 292-294
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 292-294
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

6. Sağlam həyat tərzi: İdman, düzgün qidalanma, kifayət qədər yuxu.

7. Sosial mühitin yaxşılaşdırılması: Dost münasibətləri, dəstək qrupları, pozitiv məktəb atmosferi.

Müasir yanaşmalar və innovativ üsullar

1. Motivasiya texnologiyaları: İnteraktiv dərs metodları, oyunlaşdırma, layihə əsaslı öyrənmə.

2. Stressin monitorinqi: Psixoloji testlər, müşahidə və anketlər vasitəsilə şagirdlərin vəziyyətinin izlənməsi.

3. Müəllimlərin psixoloji hazırlığı: Müəllimlərin kommunikasiya bacarıqlarının artırılması.

4. İnklüziv yanaşma: Fərqli psixoloji xüsusiyyətlərə malik uşaqlar üçün fərdi motivasiya strategiyaları.

5. Rəqəmsal dəstək: Mobil tətbiqlər və onlayn platformalar vasitəsilə motivasiya və stressin idarəsi.

Nəticə olaraq aşağıdakıları qeyd edə bilərik:

1. Təhsildə psixoloji aspektlərin nəzərə alınması şagirdlərin akademik nailiyyətlərini və şəxsi inkişafını artırır.

2. Motivasiya – öyrənmə prosesinin hərəkətverici qüvvəsi, stresslə mübarizə isə bu prosesin davamlılığını təmin edən amildir.

3. Müəllim, valideyn və psixoloqun əməkdaşlığı şagirdin motivasiyasını gücləndirir və stress yükünü azaldır.

4. Sağlam psixoloji mühit – uğurlu təhsilin əsas şərtidir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 295-298
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 295-298
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Zöhrə Əsədova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0002-3932-8540
zohreesedova05@gamil.com

# İnklüziv təhsil də valideynlərə bu psixoloji dəstək: çətinliklər və imkanlar

***Açar sözlər:*** *inklüziv təhsil, valideyn, uşaq, çətinlik, imkan*
***Keywords:*** *invlusive education, patent, child, difficulty, opportunity*

İnklüziv təhsil, sağlamlıq imkanları məhdud (SİM) uşaqların ümumi təhsil mühitin də digər şagirdlərlə bərabər təhsil almalarını təmin edən bir yanaşmadır. Bu prosesdə valideynlərin rolu əvəzsiz və danılmazdır. Onlar, övladlarının təhsil həyatında qarşılaşdığı çətinlikləri aşmaq və sosiallaşmaları üçün əsas dəstəkçilərdir. Lakin valideynlərə də uşaqlar kimi tez-tez sosial, emosional və informasiya çatışmamazlığı kimi problemlərlə qarşılaşırlar. Bu səbəbdən onlar psixoloji dəstək göstərilməsi inklüziv təhsilin uğurla həyata keçrikməsi üçün vacibdir, onların psixoloji rifahı və maariflənməsində böyük rol oynayır.

Bu prosesdə uşaqlarla bərabər valideynlərindən qarşılaşdığı çətinliklər var. Çətinliklər aşağıdakılardır.

1. Qəbul problemi: Qədim zamanlarda sağlamlıq imkanı məhdud uşaqlara tanrı tərəfindən cəzalanmış kimi yanaşılırdı. Bəzi valideynlər övladının istər fiziki, istərsə də əqli qüsurlu olduğunu qəbul etmək istəmir. Bu halda bəzən inkar, günahlandırmaq və ya depressiya müşahidə olunur zaman keçdikcə valideynlərdə övladlarının problemlərini qəbul etməyə başla-

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

yırlar. Problemi qəbul etdikdə isəartıq valideynlər də övladı üçün şərait yaradır, ona dəstək olur.

2. Cəmiyyətin münasibəti: Sterotiplər və ictimai damğalanma valideynlərin psixologiyasına təsir edir və bu təsir uşağın da sosiallaşmasına və təhsilinə mane olur.

İctimai damğalanma həmin uşaqları cəmiyyətdən kənarlaşdırır. Nəzərə alaq ki, sağlamlıq imkanları məhdud uşaqlarında özlərinə məxsus istedadları var. İctimai damğalanma bu istedadın üzə çıxmasına mane olur.

3. Məktəblə münasibət: Bəzən sağlam uşaqların valideynləri uşaqlarının sağlamlıq imkanı məhdud (SİM) uşaqlarla birgə təhsil almasını istəmirlər. İnklüziv təhsil tam formalaşmadığından müəllim və valideyn arasında müxtəlif anlaşılmazlıq, gözlənti fərqlər və əməkdaşlıqda çətinliklər yarana bilər. Bu da həm tədris prosesinin səmərəliliyinə, həm də uşağın inkişafına mənfi təsir göstərə bilər.

4. Məlumat çatışmamazlığı: Valideynlərə inklüziv təhsilin məqsədi, prinsipləri və tətbiq olunması barədə dolğun və sistemli məlumat vermədikdə, onlar prosesin mahiyyəti haqqında məlumatsız olurlar. Bu isə valideynlərdə çaşqınlıq, narahatlıq, uşaqların gələcəyi ilə bağlı qeyri-müəyyənlik hissi və müəllimlərlə əməkdaşlıqda əlavə çətinlik yaradır.

Valideynə psixoloji dəstək həm fərdi, həm də qrup formatında təşkil oluna bilər.

Maarifləndirmə tədbirləri (seminarlar, təlimlər və.s) işlər görməklə valideynlərə öz hüquqlarını və inklüziv təhsillə bağlı geniş məlumat verilir.

Maarifləndirmə tədbirlər zamanı valideynlərə övladları sağlamlığı, onun istedadı, bacarıqları diqqətə çatdırılmalı və həmin uşaqların gizlin istedadının necə üzə çıxarıla bilər. Metodları diqqətə çatdırılmalıdır.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

5. Psixoloji dəstək: Valideynlərə övladlarının bacarıqlarını onların diqqətinə çatdırmaqla, yalnız onun övladının sağlamlıq imkanı məhdud deyil, onun kimi bir çox istedadlı uşaqların olduğunu söyləməkdə lazımdır.

Dəstək qrupları: bu vəziyyətdə bir çox valideyn var və bu valideynlərə təcrübəli valideynlərin dəstək verməsində önəmlidir.

Təcrübəli valideynlərin məsləhətləri digər valideynlər üçün önəmlidir. Onların övladı üçün yaratdığı şərait digər valideynlər üçün fikir ola bilər. Valideynlər elə zənn edir ki, yalnız onlar bu vəziyyətdədir. Amma bir neçə belə vəziyyətdə olan valideyn var. Valideynlərin maariflənməsi onların övladları üçün önəmli olduğu kimi valideynlər üçün də önəmlidir. Maariflənmiş valideyn övladını tərbiyələndirməsi və təlimləndirməsi daha effektiv və asandır.

Sağlamlıq imkanı məhdud uşaqlarında təhsil almaq hüququ var. Bu barədə bir çox sənədlər də var. Sənədlərdə qanunlar və hüquqlar öz əksi tapıb. Beynəlxalq sənədlər: "Salamanka" Bəyannaməsi (1994), UNESCO – "İnklüziv təhsil Üzrə Bəyannamə", UNESCO – nun"Təhsil hamamı üçün"(Education for All) proqram sənədi, BMT-nin "Əliliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya (CRPD).

Azərbaycan üzrə sənədlər: "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasında İnklüziv təhsilin İnkişafı haqqında Dövlət Proqramı (2018-2024) və s.

İnklüziv təhsil mühitin də valideynlərə psixoloji dəstək göstərilməsi uşağın uğurlu sosial adaptasiyası və təhsilə inteqrasiyası baxımından vacib əhəmiyyət daşıyır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

## Ədəbiyyat

1. E-qanun.az. (n.d.). *"Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qanunları"nın təsdiq edilməsi haqqında*. https://e-qanun.az
2. İnklüziv siniflərin təşkili və müəllim dəstəyinin rolu. (n.d.). *Azərbaycan Məktəbi: Elmi-nəzəri pedaqoji jurnal*.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 299-302
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 299-302
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nərmin Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0009-0102-3152
nerminaliyeva19944@gmail.com

# Rəqəmsal təhsildə psixoloji yanaşmalar və yeni pedaqoji modellər

***Açar sözlər:*** *rəqəmsal təhsil, psixoloji yanaşma, pedaqoji model, koqnitiv proseslər, innovativ metodologiya.*

***Keywords:*** *digital education, psychological approach, pedagogical model, cognitive processes, innovative methodology*

XXI əsrin təhsil sistemi rəqəmsal transformasiya ilə müşayiət olunur və bu transformasiya pedaqoji nəzəriyyə ilə yanaşı, psixoloji yanaşmaların da yenidən düşünülməsini zəruri edir. Rəqəmsal mühitdə öyrənmənin xüsusiyyətləri şagirdlərin koqnitiv resurslarına, motivasiya mexanizmlərinə, emosional tənzimlənməsinə və sosial qarşılıqlı təsir proseslərinə bilavasitə təsir göstərir. Rəqəmsal transformasiya nəticəsində təlim prosesinin əsas parametrləri – vaxt, məkan və resurslardan istifadə prinsipləri dəyişməkdədir. Artıq öyrənmə ənənəvi sinif otaqları ilə məhdudlaşmır, şagird və tələbələr virtual platformalar vasitəsilə fərdiləşdirilmiş bilik mühitlərinə çıxış əldə edirlər. Digər tərəfdən, rəqəmsal təhsil imkanları düzgün pedaqoji yanaşma ilə tətbiq edildikdə, öyrənənlərin koqnitiv inkişafını stimullaşdırır, yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir, eyni zamanda müstəqil öyrənmə vərdişlərini gücləndirir. Bu baxımdan, rəqəmsal dövrdə psixoloji aspektlərlə pedaqoji modellərin inteqrasiyası təhsil sisteminin davamlı inkişafı üçün strateji əhəmiyyət daşıyır.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

***Rəqəmsal təhsildə psixoloji yanaşmalar:***

1. ***Koqnitiv yüklənmə nəzəriyyəsi*** – Rəqəmsal mühitdə informasiya çoxluğu tələbələrin diqqət, yaddaş və qavrayış imkanlarını məhdudlaşdıra bilər. Optimal öyrənmə mühiti üçün informasiya vahidlərinin strukturlaşdırılması və mərhələli təqdimatı tələb olunur.

2. ***Motivasiya nəzəriyyələri*** – Onlayn tədrisdə tələbələrin motivasiyasını qorumaq ən əsas məsələlərdən biridir. Multimedia vasitələri, oyunlaşdırma və interaktiv resurslar motivasiya mexanizmlərini gücləndirir. Rəqəmsal mühitdə öyrənənlərin psixoloji uyğunlaşması, motivasiyanın qorunması və emosional dəstəyin təmin edilməsi tədris prosesinin səmərəliliyində mühüm rol oynayır. Quliyev (2019, s. 25–27) qeyd edir ki, rəqəmsal təhsil mühitində pedaqoji innovasiyaların tətbiqi yalnız texnoloji vasitələrlə deyil, həm də psixoloji faktorların nəzərə alınması ilə effektiv nəticə verir.

3. ***Sosial-emosional inkişaf*** – Ənənəvi ünsiyyətin azalması tələbələrin emosional vəziyyətinə təsir göstərə bilər. Bu, müəllimlərin psixoloji dəstək üsullarına daha çox diqqət yetirməsini tələb edir.

4. ***Fərdiləşdirilmiş öyrənmə*** – Rəqəmsal platformalar fərqli öyrənmə üslublarına və psixoloji tiplərə uyğun adaptiv mexanizmlərin tətbiqinə imkan yaradır.

***Yeni pedaqoji modellər:***

1. ***Tərs sinif modeli*** – Biliklərin ilkin mənimsənilməsi rəqəmsal platformalarda, onların praktik tətbiqi isə auditoriya mühitində həyata keçirilir. Bu model şagirdlərin aktiv iştirakını və dərketmə səviyyəsini yüksəldir.

2. ***Hibrid öyrənmə*** – Ənənəvi sinifdaxili dərslərlə onlayn tədrisin vəhdətidir. Bu model tələbəyə həm canlı ünsiyyət və sosial qarşılıqlı əlaqə imkanı yaradır, həm də rəqəmsal resurslardan sərbəst istifadə edərək fərdi öyrənməni dəstəkləyir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Quliyevin (2019, s. 46) fikrincə, rəqəmsal təhsil mühitində pedaqoji innovasiyaların tətbiqi tədris prosesini daha çevik və fərdiləşdirilmiş edir.

**3.** ***Oyunlaşdırma yanaşması*** – Tədris prosesinə xal toplama, mərhələlər, yarışma, mükafatlandırma kimi oyun elementlərinin əlavə olunmasıdır. Bu üsul öyrənməni daha maraqlı və interaktiv edir, tələbələrin motivasiyasını artırır və onların çətinliklər qarşısında davamlılığını gücləndirir. Nəticədə öyrənmə prosesinə aktiv iştirak, rəqabət ruhu və uzunmüddətli maraq təmin olunur.

**4.** ***Konstruktivist yanaşma*** – öyrənmənin mərkəzində müəllim deyil, tələbənin özü dayanır. Bu yanaşmada tələbə bilikləri hazır şəkildə qəbul etmir, onları öz təcrübəsi, müşahidələri və rəqəmsal resurslarla apardığı fəaliyyətlər vasitəsilə müstəqil şəkildə qurur. Müəllim isə yönləndirici rol oynayır. Beləliklə, öyrənənlərdə tənqidi düşünmə, yaradıcılıq və problem həll etmə bacarıqları inkişaf edir.

Rəqəmsal təhsil yalnız milli kontekstdə deyil, qlobal miqyasda da yeni təlim modellərinin formalaşmasına səbəb olmuşdur. Müəllim və tələbə arasında məsafənin fiziki deyil, texnoloji vasitələrlə aradan qaldırıldığı açıq və məsafədən təhsil yanaşmaları rəqəmsal dövrün əsas istiqamətlərindən biridir. Zawacki-Richter və Latchem (2018, s. 112) qeyd edirlər ki, qlobal rəqəmsal təhsil sistemləri çevik, fərdiləşdirilmiş və inklüziv tədris imkanlarının genişləndirilməsinə yönəlmişdir.

Rəqəmsal təhsil müasir pedaqogikanın inkişafında fundamental mərhələ təşkil edir. Psixoloji yanaşmaların nəzərə alınması, fərdiləşdirilmiş tədris modellərinin tətbiqi və sosial-emosional dəstəyin gücləndirilməsi təhsil prosesinin səmərəliliyini təmin edir. Yeni pedaqoji modellərin elmi əsaslarla tətbiqi həm müəllimlər, həm də öyrənənlər üçün adaptasiya mexa-

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

nizmlərini gücləndirir və rəqəmsal dövrün çağırışlarına adekvat cavab verməyə imkan yaradır.

## Ədəbiyyat

1. Quliyev, E. (2019). *Rəqəmsal təhsil mühitində pedaqoji innovasiyalar*. Bakı: Təhsil Nəşriyyatı.
2. Həsənova, S. (2020). *İnnovativ təlim metodları və psixoloji yanaşmalar*. Bakı: ADPU Nəşriyyatı.
3. Vygotski, L. S. (1978). *Cəmiyyətdə şüurun inkişafı*. Bakı: Təhsil Nəşriyyatı.
4. Mayer, R. E. (2009). *Multimedia öyrənmə*. Kembric: Kembric Universiteti Nəşriyyatı.
5. Zawacki-Richter, O., & Latchem, C. (2018). *Rəqəmsal dövrdə açıq və məsafədən təhsil: Qlobal yanaşmalar*. Berlin: Springer.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Aysel Rüstəmova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0006-2861-1294
aysel.rustemova99@gmail.com

# Tələbələrdə özünə inamın formalaşmasında sosial dəstəyin rolu

***Açar sözlər:*** *özünə inam, empatiya, sosial dəstək, müsbət rəy, sosial bacarıq*
***Keywords:*** *self-confidence, empathy, social support, positive feedback, social skills*

Tələbələrdə özünə inamın formalaşmasında sosial dəstəyin rolu çox böyükdür. Gəlin bunu bir neçə əsas məqamda nəzərdən keçirək: Özünə inam nədir? Özünə inam (self-confidence), fərdin öz qabiliyyətlərinə, qərarlarına və dəyərinə olan inamıdır. Tələbələr üçün bu, həm akademik uğurlarında, həm də sosial münasibətlərində mühüm rol oynayır. Özünə inamın əsas komponentləri aşağıda qeyd olunub:

1) Özünü qəbul etmək
2) Qabiliyyətlərinə inanmaq
3) Sosial bacarıqlar
4) Tənqidə qarşı dayanıqlılıq.

Sosial dəstək nədir? Sosial dəstək, fərdin ailə üzvləri, dostları, müəllimləri və digər sosial mühitlərdən aldığı emosional, maddi və ya informasiya dəstəyidir. Sosial dəstəyin növləri bunlardan ibarətdir:

1) Emosional dəstək–anlayış, empatiya, sevgi.
2) İnformasiya dəstəyi – məsləhətlər, istiqamət vermə.
3) Alət dəstəyi (instrumental) – praktik kömək (məs. dərs materialları).

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 303-304
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 303-304
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

4) Qiymətləndirici dəstək – müsbət rəy və motivasiya. Sosial dəstəyin özünə inam üzərində təsiri ailədən gəlir. Uşaqlıqdan valideynlərin verdiyi dəstək, tənqid etmədən motivasiya etməsi, tələbənin özünü dəyərli və bacarıqlı hiss etməsinə səbəb olur. Müəllimlərin rolu isə tələbələrə inam göstərməsi, təşviq etməsi, uğurlarını qiymətləndirməsi akademik özünə inamın yüksəlməsinə səbəb olur. Dostun dəstəyi sosial əlaqələr və qəbul olunmaq hissi, özünü sosial baxımdan dəyərli hiss etdirir. Sosial təcrid və ya rədd olunma isə, özünə inamın azalmasına səbəb ola bilər. Sosial dəstəyin özünəinamla əlaqəsi qəbul olunma hissi insan sosial mühitdə qəbul edildiyini hiss etdikdə, bu onun özünü qiymətləndirməsini artırır. Müsbət rəy və güvən sosial çevrədən gələn dəstəkləyici fikirlər şəxsin öz bacarıqlarına olan inamını gücləndirir. Motivasiya və təşviq dəstək göstərən insanlar vasitəsilə insan çətinliklərə qarşı motivasiya tapır və bu da uğur təcrübələrini artırır. Tənqidi balanslı qəbul etmək dəstəkçi münasibətlər tənqidə açıq və inkişafyönümlü yanaşmanı formalaşdırır, bu da özünəinamı sarsıtmadan onu inkişaf etdirir. Nəticə olaraq deyə bilərik ki, sosial dəstək,tələbələrin özünə inamının formalaşmasında mərkəzi rol oynayan bir amildir. Ailə, müəllim və dost çevrəsinin verdiyi dəstək, tələbənin özünə qarşı müsbət münasibətini gücləndirir, onu təşəbbüskar və məqsədyönlü edir. Valideynlər və müəllimlər müsbət rəy və dəstəyi davamlı göstərməlidirlər. Məktəblərdə və universitetlərdə psixoloji dəstək xidmətləri gücləndirilməlidir. Tələbələrə özünü ifadə və sosial bacarıqları inkişaf etdirmək imkanı verilməlidir. Tələbələrdə özünə inamın formalaşmasında sosial dəstək əvəzsiz rol oynayır, çünki bu, onların dəyərli hiss etməsinə, uğursuzluqlardan daha tez çıxmasına, yeniliklərə açıq olmasına və təhsil nailiyyətlərini artırmasına kömək edir. Sosial dəstək, həm ailə və dostlar, həm də təhsil müəssisələrindən gələn dəstək formasında ola bilər.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 305-308
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 305-308
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

**Nurtac Sadiqova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0000-4485-812X
nurtacsadiqova2504@gmail.com

# Təhsildə stress və emosional yüklənmənin idarə olunması, psixoloji yanaşmalar və psixoloji dəstək

***Açar sözlər:*** *stress idarəetməsi, emosional yüklənmə, təhsil mühiti, psixoloji dəstək, motivasiya və öyrənmə*
***Keywords:*** *stress management, emotional load, educational environment, psychological well-being, motivation and learning*

Təhsil prosesi şagird və tələbələr üçün yalnız akademik biliklərin əldə edilməsini nəzərdə tutmur. Bu dövr həm də onların emosional və psixoloji inkişafını formalaşdırır. Lakin təhsil mühitində stress və emosional yüklənmə qaçılmazdır. Təhsildə stress və emosional yüklənmə şagirdlərin öyrənmə prosesinin ayrılmaz hissəsidir. Bu vəziyyət düzgün idarə olunmadıqda problemlərə səbəb olsa da, eyni zamanda şagirdlərin özünü tanıması və streslə başa çıxma bacarıqlarını inkişaf etdirməsi üçün bir fürsət yaradır. Əgər bu vəziyyət düzgün idarə olunmasa, həm akademik nəticələr, həm də psixoloji sağlamlıq zərər görə bilər. Təhsil prosesində yaranan stress və emosional yüklənmə şagirdlərin akademik performansına və psixoloji sağlamlığına mənfi təsir göstərə bilər; uzunmüddətli emosional gərginlik motivasiya azalmasına, diqqət və yaddaş problemlə-rinə, eləcə də sosial adaptasiyanın pozulmasına səbəb olur (Lazarus & Folkman, 1984, s. 30)

Psixologiya sahəsində aparılan tədqiqatlar göstərir ki, stress və emosional yüklənmənin idarə olunması üçün həm fərdi, həm

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 305-308
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 305-308
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

də sistemli yanaşmalar mövcuddur. Bu yazıda məqsəd təhsildə stress və emosional yüklənmənin psixoloji yanaşmalar və psixoloji dəstək vasitəsilə düzgün idarə olunması məsələsini araşdırmaqdır.

Stress - orqanizmin daxili və xarici təzyiqlərə verdiyi cavabdır. Təhsil mühitində stress fərdlərin diqqətini, yaddaşını və öyrən-mə qabiliyyətini zəiflədə bilər. Emosional yüklənmə isə, uzun müddət davam edən narahatlıq və gərginlik nəticəsində yaranan psixoloji vəziyyətdir. Bu vəziyyət şagirdlərin motivasiyasını azaldır, tükənməyə və sosial adaptasiyanın pozulmasına səbəb olur.

Stressin və emosional yüklənmənin əsas mənbələri:

- Akademik tələblərin yüksək olması
- İmtahan və qiymət qorxusu
- Valideyn və müəllim gözləntiləri
- Sosial müqayisələr və dost dairəsi
- Gələcək haqqında narahatlıq

Təhsildə stressin idarə olunması üçün psixoloji yanaşmalar müxtəlif səviyyələrdə tətbiq olunur:

1. Fərdi yanaşmalar: Emosional savadlılığın artırılması: Şagirdlərin öz emosiyalarını tanıması və düzgün ifadə etməsi öyrənmə prosesində müsbət təsir göstərir.

Stressin özü ilə idarə olunması texnikaları: Dərin nəfəs alma, meditasiya, qısa fasilələr və diqqət yönəltmə metodları stres səviyyəsini azaldır.

Özünü tənzimləmə bacarıqları: Şagirdlər məqsəd qoyma, vaxt idarəsi və motivasiya strategiyalarını öyrəndikdə daha səmərəli öyrənirlər.

2. Sosial və ətraf mühit yanaşmaları:

Müəllim dəstəyi: Müəllimlərin anlayışlı və motivasiyaedici yanaşması stressi azaltmağa kömək edir.

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Valideyn dəstəyi: Şagirdlərə valideyn tərəfindən verilən emosional dəstək onların özünə inamını və öyrənmə motivasiyasını artırır.

Dost və sosial dəstək: Sosial əlaqələr şagirdlərin emosional rahatlığı üçün vacibdir.

Psixoloji dəstək vasitələri: Psixoloji dəstək həm fərdi, həm də qrup səviyyəsində təşkil edilə bilər:

Məsləhət və terapiya sessiyaları: Məktəb psixoloqları şagirdlərin stresslə mübarizə aparmasına kömək edir.

Stressin monitorinqi: Emosional vəziyyətin davamlı izlənməsi problemlərin erkən aşkarlanmasını təmin edir.

Təlim və seminarlar: Stressin idarə olunması üzrə interaktiv dərslər və seminarlar şagirdləri praktik bacarıqlarla təmin edir.

Rahat öyrənmə mühiti: Sakit və dəstəkləyici təhsil mühiti emosional yüklənməni minimuma endirir.

Psixoloji dəstək vasitələri şagirdlərin stress və emosional yüklənməsini azaltmaq üçün həm fərdi, həm də qrup səviyyəsində tətbiq oluna bilər. Məsləhət və terapiya sessiyaları məktəb psixoloqları tərəfindən aparılaraq şagirdlərin stresslə mübarizəsinə kömək edir, stressin davamlı monitorinqi isə problemlərin erkən aşkarlanmasını təmin edir. Bundan əlavə, təlim və seminarlar stressin idarə olunması üzrə şagirdləri praktik bacarıqlarla təmin edir, sakit və dəstəkləyici təhsil mühiti isə emosional yüklənməni minimuma endirir (Corbett, 2001, s. 102).

Təhsildə psixoloji yanaşmaların əhəmiyyəti: Psixoloji yanaşmalar və dəstək vasitəsi ilə stressin idarə olunması bir neçə mühüm nəticəyə gətirib çıxarır:

- Akademik nəticələrin artması
- Motivasiya və öyrənmə bacarıqlarının güclənməsi
- Psixoloji sağlamlığın qorunması
- Sosial münasibətlərin inkişafı
- Tükənmənin və neqativ emosiyaların qarşısının alınması

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

Bu yanaşmalar yalnız fərdlərə deyil, təhsil sisteminə də fayda verir, çünki şagirdlərin psixoloji rifahı və öyrənmə keyfiyyəti birbaşa əlaqəlidir.

Araşdırma göstərdi ki, təhsildə stress və emosional yüklənmə şagirdlərin öyrənmə effektivliyinə, motivasiyasına və psixoloji sağlamlığına birbaşa təsir göstərir. Lakin sistemli psixoloji yanaşmalar və dəstək vasitələrinin tətbiqi bu problemləri əhəmiyyətli dərəcədə azaldır. Fərdi texnikalar — emosional savadlılıq, özünü tənzimləmə bacarıqları və stressin idarə olunması strategiyaları — şagirdlərin diqqətini artırır, öyrənmə motivasiyasını bərpa edir və tükənməni azaldır.

Eyni zamanda, sosial və ətraf mühit dəstəyi — müəllimlərin və valideynlərin anlayışlı və motivasiyaedici yanaşması, həmyaşıd dəstəyi və sakit öyrənmə mühiti — emosional dayanıqlılığı gücləndirir və gərginlik səviyyəsini aşağı salır. Psixoloji dəstək vasitələri, o cümlədən məsləhət sessiyaları, seminarlar və davamlı monitorinq, şagirdlərin stresslə mübarizə bacarıqlarını inkişaf etdirir və problemləri erkən həll etməyə imkan verir.

Nəticədə, təhsildə stress və emosional yüklənmənin idarə olunması üçün fərdi və sistemli psixoloji müdaxilələrin birlikdə tətbiqi ən effektiv yol olaraq müəyyənləşdi. Bu yanaşma həm akademik nəticələrin yaxşılaşmasına, həm də şagirdlərin psixoloji rifahının möhkəmlənməsinə şərait yaradır və uzunmüddətli perspektivdə daha balanslı, motivasiyalı və uğurlu fərdlərin formalaşmasını təmin edir.

## Ədəbiyyat

1. Corbett, M. (2001). *Supporting emotional and social development in schools*. Routledge.
2. Lazarus, R. S., & Folkman, S. (1984). *Stress, appraisal, and coping*. Springer Publishing.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 309-311
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 309-311
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Aygül Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0006-5377-1767
aygul.m.hasanova@gmail.com

# Ali təhsil müəsisələrinin tələbələrində stresin əsas mənbələri və öhtəsindən gəlmə strategiyaları

***Açar sözlər:*** *stres, tələbə, sağlamlıq, adaptasiya, gənc*
***Keywords:*** *stress, student, health, adaptation, young*

İnsan həyatda müxtəlif hadisələrlə qarşılaşır. Bu hadisələr insana sevinc, həyacan, qorxu və s. hisslər yaşada bilir. Bəzi hallarda yaşanan hadisələri düzgün analiz edə bilməyib ağır sterslər yaşayır. Həyatımızın ən vacib dönəmlərindən biri də, gənclik dövrüdür. Bu dövrdə insanda bir çox dəyişikliklər başverir. Gənclər üçün bu dövr həm gözəl, həm mənalı, həmdə stersli dövrdür. Bir çox gənc bu dövrdə tələbə statusu alıb, yeni dövrə qədəm qoyur. Tələbəlik dövrü onlar üçün yeni kollektiv, yeni insanlarla tanışlıq, yeni mühitə adaptasiya və ən əsası bəziləri üçün isə ailələrindən uzaq düşmə dövrüdür. Tələbəlik bir çox gənclərimizin gerçəkləşmiş xəyalı olsada, qeyd etdiyimiz düşüncələr onları stresə salır və mühitə adaptasiya olmaqlarına çətinlik yaradır. Belə tələbələrdə çevrəyə uyğunlaşma problemi yaranır və özgüvənləri azalır. Psixoloq Ülviyyə Əlilliyə istinadən bildirə bilərəm ki, bu hallarla qarşı-qarşıya qalan tələbə artıq

- Dərslərə getmək istəmir,
- Dərslərə ciddi yanaşmır,
- Heç kimlə dostluq qura bilmir,

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

- Tənhalıq hiss edir,
- Professor-müəllim heyəti ilə əlaqə qurmaqda çətinlik çəkir,
- Etdikləri işdən həzz ala bilmir,
- Özünü bədbəxt və ya bacarıqsız hiss edir.

Stresin həm mənfi, həmdə müsbər xüsusiyətləri var. Bəzi hallarda stres ziyan gətirməyədə bilər. Stres keçirən tələbə, qarşıya qoyduğu məqsədlərini xatırlayar, özünü tərbiyə etməklə özgüvənini bərpa edib, həmin məqsədə çatır. Bununlada həyatında mühüm irəliləyiş baş verir və daha gözəl uğurlara nail olmuş olur.

Yüksək sters isə insanın qan dövranın güclənməsinə və təzyiqin artmasına səbəb olur. Bu zaman orqanizmdə bəzi problemlər yaranır. Stres vəziyyətində olan tələbə 3 reaksiyadan birini göstərir:

1. Mövcud vəziyyətdə mübarizə gücünə inanıb, savaşmaq.
2. Öhtəsindən gələ bilməyəcəyini düşünüb susmaq.
3. Cavab vermə gücünün olmaddığına inanıb geri çəkil-mək. (Fred 1994)

İnsan gücünün çata bilməyəcəyi hər şey stresə gətirib çıxarır. Universitetin başlarında olduğu kimi, sonlarına yaxınlaşdıqca tələbə stres yaşayır. Gələcəklə bağlı planlarında, iş kariyerasında, ailə həyatında, cəmiyyətdə bir şəxsiyyət kimi formalaşmasında və s. bu kimi amilləri düşünərək, həyacan keçirir. Tələbə belə hallarla düzgün mübarizə aparsa, qarşısına qoyduğu məqsədə çatmaq üçün enerji sərf etsə, müsbət nəticələr ala bilər. Sresin effektiv idarə edilməsi tələbənin çətinliklərin öhtəsindən gəlmə qabliyyətini artırır və sağlamlığını qoruyur. Stresin öhtəsindən gəlmək fərddən fərdə dəyişilir. Stresin öhtəsindən gəlmək üçün bir sıra amillərdən isifadə etmək olar. Kitab oxumaqla, musiqi dinləməklə, rəsm çəkməklə, idmanla

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 309-311
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 309-311
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

məşğul olmaq, istirahət edəcəkləri məkana getməklə və.s stresin öhtəsindən gəlmək olar.

Hər bir fərd özünü idarə etmə bacarığını özündə formalaşdırmalı, qarşı-qarşıya qaldığı hər hansı bir problemə düzgün strategiya ilə yanaşmalı və öz davranışlarını idarə etməyi bacarmalıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 312-314
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 312-314
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Fatimə Rəhimova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0007-3737-5585
fatimarahimli3008@gmail.com

# Psixoloji təhlükəsizlik mühitinin tələbələrin akademik uğuruna təsiri

***Açar sözlər:*** *psixoloji təhlükəsizlik, akademik uğur, motivasiya, təhsil mühiti*
***Keywords:*** *psychological safety, academic success, motivation, educational environment*

Amy Edmondsonun 1999-cu ildə "Psychological Safety and Learning Behaviour in Work Teams" adlı məqaləsində "psixoloji təhlükəsizlik" anlayışı elmi şəkildə izah edilmişdir. Psixoloji təhlükəsizlik fikirlərimizi, suallarımızı və ya səhvlərimizi qorxmadan dilə gətirəbilmək inamıdır. Edmondsonun fikrincə "Bu əslində, alçaldılma, cəza qorxusu olmadan çalışa bilməkdir". Bu anlayış daha sonra təhsillə də əlaqələndirilmişdir. Təhsil konteksində bu anlayış tələbələrin müzakirə etməkdən-danışmaqdan, sual verməkdən qorxmadığı və yaradıcı fikir bildirmək azadlığıdır.

Belə ki, təhlükəsiz mühit formalaşan siniflərdə tələbələr müəllimlə və qrup yoldaşları ilə daha rahat əlaqə qura bilir. Məsələn, müəllim səhv cavab vermiş tələbəyə sərt şəkildə yanaşmır və əksinə onu öyrənməyə yönəldir, beləliklə, həmin tələbə növbəti dərsdə daha fəal iştirak edir. Əks təqdirdə, yəni təhlükəsizlik olmayan sinifdə tələbə səhv cavaba görə müəllim tərəfindən danlanır, qrup yoldaşları onu ələ salır. Bu da həmin tələbənin passivləşməsinə, fikir bildirməkdən çəkinməsinə,

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 312-314
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 312-314
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

səhvlərini gizlətməsinə və nəticədə öyrənmə prosesinin zəifləməsinə gətirib çıxarır. Bu da akademik motivasiyanı azaldır. Təsadüfi deyil ki, belə mühitdə tələbələrin akademik göstəriciləri və şəxsi inkişafı zəif qalır.

Əslində psixoloji təhlükəsizlik tələbələrin akademik uğuruna çoxşaxəli təsir göstərir:

Motivasion: öyrənmə istəyi artır;

İntrinsic motivation-yəni daxili motivasiyanın artması ilə tələbə fikirlərinin önəmli olduğunu düşünür və sadəcə qiymət üçün yox, həm də şəxsi inkişaf üçün səy göstərir.

Emosional: tələbənin stresi azalır, rahatlıq yaranır;

Təhlükəsiz hiss etdiyi auditoriyada tələbə daha diqqətli olur və dərsi daha asan mənimsəyir. Bu da imtahan nəticələrinin yüksəlməsinə gətirib çıxarır.

Sosial: əməkdaşlıq mühiti formalaşır;

Təhlükəsiz mühit sosial əlaqəni gücləndirir. Beləliklə tələbələr əməkdaşlıq edir və qarşılıqlı öyrənirlər.

Koqnitiv: diqqət yaxşılaşır.

Psixoloji təhlükəsizlik mühitində tələbənin beyni gərginlik və qorxu ilə deyil, sakit və diqqətli işləyir. Bu da akademik uğurun artmasına səbəb olur.

Mənim fikrimcə psixoloji təhlükəsizlik mühitinin yaranmasında "müəllim" amili həlledici faktordur. Müəllimin tələbələr ilə davranışı, onlara qarşı münasibəti bu cür mühitin formalaşmasında əsasdır. Tədris prosesi zamanı müəllim ənənəvi üsuldan fərqli olaraq sadəcə biliyi ötürən deyil, həm də emosional mühiti yaradan rolunu daşıyır. Müəllim öyrənmə prosesində yalnız bilik ötürən deyil, həm də emosional iqlimin yaradıcısı kimi çıxış edir. Tələbələr müəllimdən hörmət, anlayış gördükdə öz fikirlərini açıq şəkildə ifadə etməkdən çəkinmirlər. Bu da öyrənməyə olan həvəsin artmasına və akademik göstəricinin yüksəlməsinə gətirib çıxarır.

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Bundan əlavə, universitet rəhbərliyi psixoloji təhlükısizliyin qorunmasında mühüm rol oynayır. Əgər rəhbərlik öz işini açıq və şəffaf görürsə, öz müəllimlərinə psixoloji dəstək və azadlıq verirsə, bu da müsbət şəkildə tələbələrə ötürülür. Əks halda sərt və avtoritar yanaşma öyrənmə prosesində passivlik və motivasiya itkisinə gətirib çıxardır.

Qısacası, psixi təhlükəsizlik mühitinin formalaşması prosesi rəhbərlik, müəllim və tələbə arasında olan körpü vasitəsilə formalaşır. Rəhbırlik tərəfindən yaradılan şəffaf idarəetmə mədəniyyəti müəllimlərə, müəllimlərin davranışı isə tələbələrə ötürülür. Bu şəraitsə isə öyrənmə motivasiyası artır, akademik nailiyyətlər müsbətə doğru dəyişir.

Psixoloji təhlükəsizlik yalnlz akademik uğura deyil, həm də tələbənin şəxsi inkişafına, ətrafa uyğunlaşmasına və emosional rifahına müsbət təsir göstərir. Təhkükəsiz mühitdə öyrənmə tələbə üçün mıcburiyyət deyil, zövqlü bir fəaliyyətə çevrilir. Bu da təhsilin keyfiyyətinin yüksəlməsinə, sosial məsuliyyət hissinin artmasına səbəb olur.

Mövcud elmi yanaşmalar göstərir ki, psixoloji təhlükəsizlik mühiti akademik uğurun tək səbəbi deyil, əsas şərti və ilkin təməlidir. Bu cür mühit təhsilin keyfiyyətinin və insan potensialının inkişafında əsas psixoloji baza kimi çıxış edir. Universitetlərin əsas məqsədi yalnız akademk nəticə deyil, həm də bu nəticəyə gətirib çıxaran təhlükəsiz, ədalətli mühut yaratmaq olmalıdır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 315-317
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 315-317
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Xumar Cəbiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0000-6810-4840
xumarcebi@outlook.com

# İmtahan narahatlığı və onun səbəbləri, nəticələri, azaltma yolları

***Açar sözlər:*** *imtahan narahatlılığı, səbəb, nəticə, bilik, bacarıq, tələbə, təhsil, müasir təhsil*
***Keywords:*** *exam anxiety, cause, consequence, knowledge, skill, student, education, modern education*

Müasir təhsil sistemində imtahanlar şagird və tələbələrin bilik və bacarıqlarını qiymətləndirməyin əsas vasitələrindən biridir. Lakin imtahan prosesi çox zaman şəxslərdə gərginlik və narahatlıq yaradır. Bu vəziyyət "imtahan narahatlığı" adlanır və psixoloji, emosional, hətta fiziki çətinliklərə səbəb ola bilər. İmtahan narahatlığının araşdırılması, onun səbəblərinin öyrənilməsi, nəticələrinin təhlili və qarşısının alınması təhsil prosesinin səmərəliliyi üçün mühüm əhəmiyyət kəsb edir. Hazırlığın kifayət qədər olmaması şagird və tələbələrin imtahana lazımı qədər hazırlaşmaması narahatlığı artırır. Uşaqlıqdan formalaşan qorxu imtahanların həyat və gələcək üçün həlledici amil kimi təqdim olunması şagirdlərdə qorxu hissini gücləndirir. Valideynlərin və müəllimlərin yüksək gözləntiləri uşaqlar üzərində əlavə psixoloji təzyiq yaradır. Öz bacarığına inamın olmaması uğursuzluq qorxusunu artırır. Sağlamlıq və həyat tərzi, yuxusuzluq, qeyri-sağlam qidalanma, stress idarəetməsində zəiflik imtahan narahatlığını daha da gücləndirir.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 315-317
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 315-317
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

Babək Rayon Çeşməbasar kənd tam orta məktəbində şagirdlər arasında bu mövzuda apardığım sorğu əsasında bir neçə şagirdin fikrini qeyd edirəm.

Şagird: M.Z.

- İmtahan vaxtını düzgün bölə bilməmək qorxusu
- Çətin suallarla qarşılaşmaq qorxusu
- Nəticənin aşağı olması qorxusu

Şagird: Y.A.

- İmtahan nəticəsinin pis olması qorxusu
- Başqaları ilə müqayisə edilməsi qorxusu
- Özünə inamsızlıq

Şagird: Ə.X.

- İmatahan nəticəsinin qənaətbəxş olmaması
- İmtahan müddəti suallara vaxtın yetməməsi
- Digər şagirdlərin özündən daha yaxşı nəticə göstərməsi qorxusu

Narahatlıq diqqət dağınıqlığına və yaddaşın zəifləməsinə səbəb olur. Stress, depressiya, panik ataklar və özünəinamın aşağı düşməsi ilə müşahidə olunur. Baş ağrısı, ürək döyüntülərinin artması, tərləmə, yuxusuzluq kimi əlamətlər ortaya çıxır. Tələbələrdə sosial təcrid, özünü digərlərindən geri görmə və passivlik yarana bilər. İmtahan qorxusu şəxsin uzunmüddətli karyera və təhsil planlarına da mənfi təsir göstərə bilər. İmtahana sistemli və vaxtında hazırlaşmaq narahatlığı azaldır. Meditasiya, nəfəs məşqləri və fiziki fəaliyyət gərginliyi azaldır. Yaxşı yuxu rejimi, balanslı qidalanma və idman vacibdir. Psixoloqla söhbət etmək, valideyn və dostların dəstəyi mühüm rol oynayır.Kiçik nailiyyətlərin qeyd olunması, motivasiyaedici yanaşmalar tələbələrin öz güclərinə inanmasına kömək edir. Valideyn və müəllimlərin uşaqlara qarşı obyektiv yanaşması stressi azaldır.Vaxt bölgüsü, test həll etmə strategiyaları və diqqətin düzgün idarə olunması.Nəticə olaraq, imtahan narahatlığı müasir təhsil

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

sistemində geniş yayılmış bir problemdir. Onun yaranma səbəbləri əsasən hazırlıqsızlıq, təzyiq, özünəinamın zəifliyi və sağlam həyat tərzinin pozulması ilə bağlıdır. Bu narahatlığın nəticələri isə həm akademik uğurların, həm də psixoloji və fiziki sağlamlığın zəifləməsinə gətirib çıxara bilər. Lakin düzgün yanaşma, sistemli hazırlıq, psixoloji dəstək və sağlam həyat tərzi ilə bu problemin təsiri minimuma endirilə bilər. İmtahan narahatlığının idarə olunması yalnız fərdi deyil, həm də ailə və təhsil mühitinin üzərinə düşən mühüm vəzifədir. Bu səbəbdən, imtahan narahatlığının azaldılması istiqamətində atılan addımlar şagird və tələbələrin uğurlu gələcəyinə zəmin yaradır.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 318-320
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 318-320
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Göktuğ Gençer**
Nakhchivan State University
bachelor
https://orcid.org/0009-0008-6745-6869
gencergoktug07@gmail.com

# Essential Foundations and Developmental Alignment in Education Introduction

***Keywords:*** *essentialism, behaviourism, progressivism, constructivism, education*
***Açar sözlər:*** *essentializm, behaviorizm, proqressivizm, konstruktivizm, təhsil*

There have been way too many differing philosophical thoughts and methods regarding how children, teenagers and youngesters learn best according to their developmental stages. However, two contrasting approaches often dominate the discourse of the debate, which are essentialist and behaviourist methods that emphasise teacher-led discipline and instruction and foundational knowledge, versus progressivist and constructivist methods that focus on student agency, autonomy, collaboration and exploration. This article argues that following only one of these approaches throughout the whole education of students will not only be ethical in terms of the rights of autonomy and individuation, but also have many damaging and devastating effects on the student and society itself. Grounding this argument in educational theory – from Vygotsky's Zone of Proximal Development and social constructivism to Piaget's stages of cognitive development and critiques of behaviourism – demonstrates that educational philosophy should evolve in tandem with learners' developmental readiness. The following

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

sections will argue that it is better for the early years of education to be more teacher-directed, structured, and information-based, while being more progressive and constructivist for middle and higher educational levels.

**Foundation of Discipline in Early Education**

In order to build fundamental skills and habits in terms of educational capabilities, early childhood and elementary education require clear instructiions from educators that are foundationally contextual in sense. Essentialist philosophy emphasises mastering a core set of knowledge through teacher-led lessons, while behaviourist practices like positive reinforcement help establish good study behaviours and classroom order. It is also logically fair and supported that young learners actually perform better with guided instruction than with open-ended exploration, as they may otherwise adopt shortcuts or develop misconceptions when it comes to early years of their education. However, we have to consider the fact that overreliance on rewards and rote work may risk reducing intrinsic motivation and the will for exploration. That's why it is of cruciality to engage children in explorative practices without forgetting the fact that the excessiveness of it may cause misconceptions in the early educational stage.

**The Role of Constructivism in Later Education**

By middle school and high school, students' greater cognitive maturity and desire for autonomy make progressivist and constructivist approaches more effective. These methods encourage active learning through collaboration, real-world projects, inquiry, and choice, reflecting theories from Dewey, Piaget, and Vygotsky. Scaffolding actually helps students to navigate their own ways while also being able to ask for help from their instructors. When basic skills are already secured, it

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 318-320
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 318-320
https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

is easier and mıuch more effective for stıudents to explore and connect between different areas of their study.

**Developmental Alignment of Educational Philosophy**

Aligning teaching to developmental stages is essential because children's cognitive abilities evolve from concrete thinking toward abstract reasoning as they age, as described by Piaget's stages and Vygotsky's Zone of Proximal Development. Young children need direct guidance and concrete examples, since they lack self-regulation and abstract thinking skills, while older students can manage inquiry, peer learning, and long-term projects more independently. As psychosocial needs shift towards more autonomy in adolescence, it is of prominence not to exclude stıudents indivisually by emphasising an instructor-led autonıomy in the classes. Thus, styudents, first and foremost, wil colect the foundational knowledge all subjects require in their educational paths, and then navigate their own ways through it and grow both intellectually, and emotionally.

Educational methods should shift with students' developmental readiness, moving from essentialist discipline in the early years to progressive, inquiry-based learning in adolescence to cultivate both foundational skills and higher-order thinking. If we are to form a balanced system for all students, we need to note that what suits a six-year-old will never suit a sixteen-year-old in their educational stages.

*Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar*, Beynəlxalq Elmi Konfrans, 30 dekabr 2025 / 321-323
*Psychological aspects of education and innovative approaches*, International Scientific Conference, 30 december 2025 / 321-323
**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

**Nurcan Ələkbərova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0004-3142-9376
nurjanalakbarova@gmail.com

# Psixoloji xidmətin təhsildə tətbiqi: Məktəb psixoloqunun funksiyaları və çağırışları

***Açar sözlər:*** *məktəb psixoloqu, psixoloji xidmət, psixodiaqnostika, psixokorreksiya, təhsil sistemi*
***Keywords:*** *school psychologist, psychological service, psychodiagnostics, psychocorrection, education system*

Müasir dövrdə təhsilin məqsədi sadəcə bilik və bacarıqların ötürülməsi ilə məhdudlaşmır. Artıq təhsil sistemi şagirdin hərtərəfli-intellektual, emosional və sosial inkişafını hədəfləyən kompleks yanaşma tələb edir.

Məktəb psixoloqunun fəaliyyəti çoxşaxəlidir və təhsil sistemində bir neçə əsas istiqaməti əhatə edir. İlk növbədə, bu fəaliyyətin təməlini psixodiaqnostik işlər təşkil edir. Psixoloq şagirdlərin psixoloji xüsusiyyətlərini, öyrənmə tərzlərini, motivasiyalarını, sosial bacarıqlarını və emosional vəziyyətlərini müəyyən etmək üçün fərqli testlər, sorğular, müşahidə və müsahibə üsullarından istifadə edir (Dubrovina, 1991).

Psixodiaqnostik fəaliyyətlə yanaşı, məktəb psixoloqu psixoprofilaktik və psixokorreksiya tədbirləri həyata keçirir. Bura uşaqlarda sosial və emosional bacarıqların inkişaf etdirilməsi, stresslə mübarizə yollarının öyrədilməsi, özünəinamın artırılması və s. daxildir.

Məktəb psixoloqunun növbəti mühüm fəaliyyəti sahəsi məsləhətverici xidmətdir. Bu çərçivədə psixoloq şagirdlərə

https://doi.org/10.36719/2663-4619/BK/XB/2025

onların şəxsi və sosial problemləri ilə bağlı psixoloji dəstək göstərir, valideynlərə övladlarının inkişafı ilə bağlı tövsiyyələr verir, müəllimlərə isə pedaqoji prosesdə psixoloji yanaşmaların tətbiqi barədə məsləhətlər verir.

Bütün bu mühüm fəaliyyət sahələrinə baxmayaraq, məktəb psixoloqu öz işində çoxsaylı çətinlik və maneələrlə üzləşir. İlk növbədə, bir çox təhsil müəssisəsində psixoloq üçün lazımi şəraitin olmaması (kabinetin, texniki vasitələrin, diaqnostik materialların) onun effektiv fəaliyyətinə mənfi təsir göstərir. Təəssüf ki, bəzi məktəblərdə psixoloji xidmət formal xarakter daşıyır və real ehtiyaclara cavab vermir.

Digər bir ciddi problem cəmiyyətin psixoloqa münasibətindəki qeyri-müəyyənlikdir. Həm valideynlər, həm də müəllimlər psixoloqun rolu haqqında kifayət qədər məlumatlı deyil. Onlar bəzən psixoloqu ancaq "problemli uşaqlarla işləyən" bir mütəxəssis kimi görürlər. Bu isə şagirdlərin və ailələrin psixoloji xidmətə açıq münasibətinə əngəl yaradır,  bu xidmət sahəsinə ehtiyac olduğunu qəbul etməkdə tərəddüd edirlər (Nikitina, & Semagin, 2011).

Bu problemlərin həlli üçün sistemli və ardıcıl tədbirlərə ehtiyac vardır. İlk növbədə, psixoloji xidmətin keyfiyyətinin artırılması üçün psixoloqların davamlı təlim və inkişaf proqramlarına cəlb edilməsi vacibdir. Təhsil Nazirliyi və digər qurumlar tərəfindən bu sahədə ixtisasartırma kursları, superviziya proqramları və metodiki dəstək sistemləri yaradılmalıdır. Məktəblərdə psixoloq üçün ayrıca və yaxşı təchiz olunmuş otaqlar ayrılmalı, test və diaqnostik materiallarla təminat gücləndirilməlidir.

Eyni zamanda, valideyn və müəllimlər arasında psixoloji maarifləndirmə tədbirləri keçirilməli, psixoloqa müraciətin "zəiflik əlaməti" yox, inkişaf və dəstək forması olduğu fikri təbliğ olunmalıdır. Cəmiyyətin bu sahəyə baxışında dəyişiklik

**https://doi.org/10.36719/2663-4619/BK/XB/2025**

yaratmaq üçün ictimai məlumatlandırma tədbirləri də əhəmiyyətlidir.

Nəticə etibarilə, məktəb psixoloqu təhsil sistemində təkcə "problemləri həll edən" bir şəxs deyil, həm də inkişafa təşviq edən, psixi sağlamlıq üçün şərait yaradan, uşaqların potensialını ortaya çıxaran mühüm bir obrazdır. Onun fəaliyyəti sağlam, balanslı və emosional cəhətdən güclü bir gələcək nəslin formalaşmasında əsas rol oynayır. Buna görə də psixoloji xidmətin keyfiyyətli təşkili və bu sahədə çalışan mütəxəssislərin dəstəklənməsi cəmiyyətin ümumi inkişafına xidmət edən bir məsələ kimi prioritet qəbul edilməlidir (Yastrebtseva, 2014).

## Ədəbiyyat

1. Dubrovina, I. V. (1991). *Shkol'naya psikhologicheskaya sluzhba: voprosy teorii i praktiki*. Pedagogika.
2. Nikitina, N. M., & Semagin, Yu. A. (2011). *Psikhologicheskaya sluzhba v shkole: organizatsiya i soderzhaniye raboty*. Rech'.
3. Yastrebtseva, A. G. (2014). *Psikhologicheskaya sluzhba v sisteme obrazovaniya: teoriya i praktika*. Akademiya.

# İÇİNDƏKİLƏR
# CONTENTS

**İsmayıl Əliyev**
Müəllim hazırlığında etnopedaqoji komponentin rolu ............. 7
**Həcər Hüseynova**
Qadınların psixoloji vəziyyətinə
sosial faktorların təsiri ............................................................ 10
**Yaqub Məmmədov, Elşən Məmmədov**
Pedaqoji – psixoloji eksperimentlərdə
statistik metodların rolu ........................................................... 14
**Sevinc Vəliyeva**
Auditoriyadakı psixoloji təhlükəsizliyin təlimin
keyfiyyətinə və tələbə motivasiyasına təsiri............................ 19
**Tahirə Həsənova**
Təlimdə innovativ yanaşmalarda müəllimin rolu .................... 21
**Salatın Hacıyeva, Solmaz Bayramova**
Tələbə mobilliyinin əhəmiyyəti və
onun başlıca missiyası .............................................................. 25
**Ruhəngiz Əliyeva**
Müasir təhsil siyasəti kontekstində pedaqogika fənninin
strateji əhəmiyyəti..................................................................... 28
**Günay Şirəliyeva**
Pedaqoji kadr hazırlığında Azərbaycan dili fənninin strateji
əhəmiyyəti ................................................................................. 31
**Fəxriyyə Cəfərova**
Müasir təhsilin əsas hədəfi-innovativ yanaşma....................... 34
**İradə Kərimova**
Şəxsiyyətin formalaşmasinda ailənin rolu ............................... 38
**Azad Novruzov, Aysen Məmmədova**
Riyaziyyatın öyrənilməsində psixoloji maneələr
və onların innovativ həlli yolları ............................................. 41

**Nurlanə Novruzi**
Biologiya fənninin tədrisində süni intellekt və psixoloji təsirlər ........ 46
**Nəzakət Yusifova, Qızıltac Şahbazova**
Müəllimlərin innovativ fəaliyyətinin psixoloji şərtləri ........ 48
**Jalə Abbaszadə**
Təhsildə psixoloji yanaşmalar və müasir pedaqoji innovasiyalar ........ 51
**Sevinc Orucova**
Praktik psixoloqun əxlaq kodeksinə daxil olan əxlaq normaları ........ 54
**Sevinc Sadıqova**
Azərbaycan dili dərslərində şagirdlərin psixoloji inkişafı ........ 58
**Nəzakət Yusifova**
Hüseyn Cavid yaradıcılığında şəxsiyyət problemi ........ 62
**Nəzakət İsmayılova**
Təhsil müəssisələrində innovativ fəaliyyətin yüksəldilməsi ... 67
**Zeynab Mehdiyeva**
Kiçik yaşlı uşaqlarda STEAM təcrübələrinin motivasiya və maraq formalaşdırılmasında rolu ........ 71
**Südabə Məmmədova**
Riyazi təlimdə psixoloji gərginliyin innovativ metodlarla aradan qaldırılması ........ 74
**Nəzakət Yusifova, Sevda Kərimova**
Müasir təhsil sistemi çərçivəsində tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi problemləri ........ 79
**Sevda Xəlilova**
Musiqi tədrisində ekoloji və psixoloji tərbiyənin rolu ........ 83
**Nazilə Muradova**
Riyazi bacarıqların formalaşmasına təsir göstərən psixoloji amillər ........ 90

**Samirə Həsənova**
Azərbaycan dili təlimində psixoloji yanaşma
üsullarının tətbiqinə dair ........ 95
**Şəhla Süleymanova**
Məktəblərdə psixoloji rifahın
tədris nəticələrinə təsiri ........ 100
**Rövşən Vəliyev**
Riyaziyyatın tədrisində yeni təlim
texnologiyalarından istifadə imkanları ........ 104
**Salatın Hacıyeva**
Hərbi xidmətçilərin döyüş fəaliyyətinə
təsir edən sosial – psixoloji amillər ........ 109
**Nazilə Abdullazadə**
Ədəbiyyatın tədrisində psixologiya ilə inteqrasiya:
mahiyyəti və əhəmiyyəti ........ 114
**Həsənəli Eyvazlı**
Sərhədsiz və davamlı öyrənmədən, mükəmməl
akademik mühitin yaradılmasına doğru ........ 117
**Günay Şirəliyeva, Əfsanə Abdullayeva**
Ədəbiyyat nümunələrinin şagirdlərin
emosional inkişafına təsiri ........ 121
**Mehmet Gökhan Özçubukçu**
Türk dünyasında inteqrasiyanin yeni mərhələsi Şuşa
Bəyannaməsində təhsil sahəsi ........ 125
**Leyla Əliyeva**
Azərbaycan dilinin tədrisində innovativ texnologiyalardan
istifadənin psixoloji əsasları ........ 129
**Aygül Məmmədova**
Elmi-pedaqoji kadrların hazırılanmasında magistratura
təcrübələrinin innovativ yanaşmaları ........ 132
**Nuriddin Altinboyev**
Türk Dilində “Ailə” Konsepti: “Ocaq” və “Yuva”
vahidlərin linqvomədəni təhlili ........ 137

**Bəyim Tarverdiyeva**
Müasir dövrdə dil dərslərinin aktual problemləri və dilin tədrisində müasir metodlardan istifadənin məqsədi............... 141
**Xatın Ağayeva, Bulqeyis Nağıyeva**
İdman psixologiyasının tədris strategiyaları........................... 144
**Həsən Hüseynov**
İnklüziv təhsildə istifadə edilən metodların tətbiqi................ 147
**Kəmalə Bayramova**
Məktəbəqədər təhsildə psixoloji yanaşmalar və innovativ metodların əhəmiyyəti .......................................................... 152
**Günay Əlizadə**
Tarix fənninin tədrisində motivasiya və idrak fəaliyyətinin psixoloji əsasları........................................................................ 156
**Günel Nuriyeva**
Rəqəmsəl texnologiyaların şagirdlərin emosional inkişafına təsiri ...................................................... 160
**Əzizə Cəfərzadə**
Müasir psixoloji yanaşmaların təhsildə tətbiqi....................... 164
**Leyla Qurbanova**
Təhsilin psixoloji aspektlərində emosional intellektin rolu ....................................................... 167
**Fatma İslamlı**
Süni intellektə əsaslanan tədris mühitində emosional zəka və uyğunlaşma ............................................................... 171
**Fərahilə Babayeva-Şükürova**
Qloballaşma və yeni sosial çağırışlar..................................... 174
**Gülnarə Səfərova**
Şagirdlərin emosional zəka səviyyəsinə uyğun fərdiləşdirilmiş biologiya tədrisi ............................................ 177
**Nuray Sadiqova**
Müəllim tələbə münasibətlərinin psixoloji əsasları ............... 180
**Sarıngül Hacıyeva**
XXI əsrin təhsil mühitində psixoloji faktorlar və yeni təhsil texnologiyalarının uzlaşdırılması .................................. 183

**Ülviyyə Fətəliyeva**
Müəllimlərin peşəkar ünsiyyət bacarıqlarının qiymətləndirilməsi və inkişaf yolları ........................................ 186
**Tamara Baxşəliyeva**
Məktəbdə metodiki işlərin təşkilinə psixoloji rəhbərlik ........ 192
**Xədicə Əliyeva**
Müasir təhsil sistmində psixoloji ehtiyacların və yaradıcılığın vəhdəti.................................................................. 198
**Bəyim Tarverdiyeva, Şəfəq Muradova**
Tələbələrin xarici dildə müstəqil və yaradıcı düşünmə bacarıqlarının inkişafında müasir pedaqoji texnologiyaların rolu ................................................................ 201
**Gülmirə Əliyeva**
Xarici dilin tədrisində innovativ metodlardan istifadənin əhəmiyyəti ........................................................................... 205
**Ayşən İmanlı**
İngilis dili dərslərində innovativ texnologiyaların tətbiqi metodologiyası ......................................................................... 209
**Fəridə Mikayılova**
Yanlış tədris və tərbiyə üsullarının didaktogenetik təsiri ...... 212
**Aytəkin Qəhrəmanova**
Tarix dərslərinə psixoloji faktorların təsiri: 44 günlük vətən müharibəsi nümunəsində ............................. 215
**Ayxan Hüseynli**
Kiçikyaşlı məktəblilərdə nitq qüsurlarında pedaqoji prosesə psixoloji təsir faktorları və korreksiya işlərinin həyata keçirilməsi...................................................220
**Fatimə Kazımova, Gülmirə Əliyeva**
Şəxsiyyət tiplərinin xarici dilin öyrənilməsinə təsiri məsələləri ...................................................................... 224
**Nüşabə Məmmədova**
Təhsildə psixoloji xidmətlə əlaqədar aparılan işlərin xüsusiyyətləri................................................................................ 228

**Aygün Əsgərova, Ayşən İmanlı**
Müəllim-şagird münasibətlərinin dil bacarıqlarının mənimsənilməsinə təsiri məsələləri ........ 232
**Zeynab Abbaslı**
Müasir təhsildə psixoloji yanaşmalar və rəqəmsal innovasiyalar: yeni nəsil tələbələrə doğru ........ 236
**Günay Babayeva**
Təlim prosesində davranış psixologiyası və müasir pedaqoji strategiyalar ........ 240
**Solmaz Bayramova**
Məktəblilərdə fəallıq və təşəbbüskarlıq iradi keyfiyyətlərinin formalaşması və inkişafı ........ 242
**Şəfəq Muradova**
Tələbələrin xarici dildə müstəqil və yaradıcı düşünmə bacarıqlarının inkişafında müasir pedaqoji texnologiyaların rolu ........ 246
**Ülviyyə İbrahimova**
Şagird motivasiyasının formalaşmasında psixoloji........ 250
**Qızıltac Şahbazova**
Ali təhsildə psixoloji dəstək işinin təşkilində innovativ yanaşmalar ........ 252
**Ülviyyə Nağıyeva**
Müasir təhsildə süni intellektin tətbiqi və perspektivləri........ 256
**Xatın Ağayeva**
İdmançı şəxsiyyətinin formalaşmasında sosial və psixoloji amillər ........ 259
**Kifayət Əhmədova**
Təhsildə psixoloji dəstəyin rolu ........ 262
**Nərmin Mədədli**
Sosial mediada ünsiyyətin məktəblilərin real münasibətlərinə təsiri ........ 265
**Kübra Quliyeva**
Azərbaycanda XIX-XX əsrlərdə ana dilinin inkişafında görkəmli şəsxiyyətlərin rolu ........ 268

**Günel İbrahimova**
Sağlam qidalanmanın insan psixologiyasına təsiri ................ 274
**Fəridə Mikayılova, Gülnaz Babayeva**
Şagirdlərdə psixoloji gərginlik və müəllimin rolu ................. 280
**Ləyaqət Ələkbərova**
Ümumtəhsil orta məktəblərdə riyaziyyatın
öyrədilməsinin metodikası və psixoloji əsasları .................... 283
**Ülkər Məmmədova**
Təhsilin psixoloji aspektləri və innovativ yanaşmalar........... 287
**Minurə Musayeva**
Müasir dövrdə inklüziv təhsil modeli .................................... 289
**Nuray Cəlilli**
Təhsildə psixoloji aspektdən şagirdlərin motivasiyası və
stresslə mübarizəsi ................................................................ 292
**Zöhrə Əsədova**
İnklüziv təhsil də valideynlərə bu psixoloji dəstək:
çətinliklər və imkanlar .......................................................... 295
**Nərmin Əliyeva**
Rəqəmsal təhsildə psixoloji yanaşmalar və
yeni pedaqoji modellər........................................................... 299
**Aysel Rüstəmova**
Tələbələrdə özünə inamın formalaşmasında
sosial dəstəyin rolu................................................................. 303
**Nurtac Sadiqova**
Təhsildə stress və emosional yüklənmənin idarə olunması,
psixoloji yanaşmalar və psixoloji dəstək ................................ 305
**Aygül Həsənova**
Ali təhsil müəssisələrinin tələbələrində stresin əsas
mənbələri və öhtəsindən gəlmə strategiyaları ........................ 309
**Fatimə Rəhimova**
Psixoloji təhlükəsizlik mühitinin tələbələrin akademik
uğuruna təsiri ......................................................................... 312

**Xumar Cəbiyeva**
İmtahan narahatlığı və onun səbəbləri, nəticələri, azaltma yolları ........ 315
**Göktuğ Gençer**
Essential Foundations and Developmental Alignment in Education Introduction ........ 318
**Nurcan Ələkbərova**
Psixoloji xidmətin təhsildə tətbiqi:
məktəb psixoloqunun funksiyaları və çağırışları ........ 321

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: beyn.konfrans@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6$^{th}$floor
Phone: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: beyn.konfrans@aem.az

İmzalandı: 26.12.2025
Onlayn çap: 30.12.2025
Kağız çapı: 09.01.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 20,75 ç.v.
Sifariş: 122

---

**“ZƏNGƏZURDA”**
Çap Evində çap olunub
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

Signed: 26.12.2025
Online publication: 30.12.2025
Paper printing: 09.01.2026
Format: 60x84, 1/16
Stock issuance: 20,75 p.s.
Order: 122

---

It has been published in the printing
house **“ZANGAZURDA”**
Address: Baku city, Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6$^{th}$ floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru